**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ TARİXİ ROMANLARINDA ŞAH İSMAYIL OBRAZI

İxtisas: 5717.01 – Türk xalqları ədəbiyyatı
5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş

**DİSSERTASİYA**


İddiaçı: __________________**Yasemin Rahmi qızı Meydan**

Elmi rəhbər: ______________**İsa Əkbər oğlu Həbibbəyli**
Filologiya elmləri doktoru, professor, akademik


**Bakı – 2024**

## MÜNDƏRİCAT


GİRİŞ.................................................................................................... 3-12

**I FƏSİL. TARIXİ ROMAN JANRI: TƏŞƏKKÜL VƏ TƏKAMÜL PROSESİ**

1.1.Tarixi roman janrının inkişaf mərhələləri .................................. 13-34

1.2. Tarixi şəxsiyyətlərin bədii obrazına baxış ..................................... 35-54

**II FƏSİL. AZƏRBAYCAN TARİXİ ROMANLARINDA ŞAH İSMAYIL OBRAZI**

2.1. Əzizə Cəfərzadənin “Bakı-1501” romanında Şah İsmayıl mübariz bir obraz kimi ........................................................................................... 55-64

2.2. Fərman Kərimzadənin “Xudafərin körpüsü” və “Çaldıran döyüşü” romanları müstəvisində Şah İsmayıl obrazının inkişaf xüsusiyyətləri .. 64-74

2.3. Əlisa Nicatın “Qızılbaşlar” romanında Şah İsmayıl Qızılbaşların başçısı kimi ........................................................................................... 74-81

**III FƏSİL. ŞAH İSMAYIL OBRAZI TÜRKİYƏ TARİXİ ROMANLARI MÜSTƏVİSİNDƏ**

3.1. İskender Palanın “Şah ve Sultan” və Reha Çamuroğlunun “İsmail” tarixi romanlarında Şah İsmayıl mücərrədlik və tarixi gerçəklik müstəvisində..................................................................... 82-98

3.2. Reha Bilgənin “1514. Yavuz Sultan və Şah İsmayıl” əsərində Çaldıran döyüşü........................................................................................... 98-124

**NƏTİCƏ** ........................................................................................ 125-131

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** ..................................... ... 132-141

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Səfəvi dövlətinin başçısı, görkəmli dövlət xadimi, yenilməz sərkərdə, qüdrətli şair Şah İsmayıl Xətai ədəbi və tarixi şəxsiyyət kimi xalqımızın mənəvi fikir tarixində özünə əbədi yer tutmuşdur. Yaşadığı dövrdən 500 ildən artıq vaxt keçməsinə baxmayaraq, bu böyük şəxsiyyətin həyat və fəaliyyətinə olan maraq bu gün də öz aktuallığını qoruyub saxlamaqda və çoxsaylı əsərlərin mövzu obyekti olaraq qalmaqdadır. Doğrudur, Şah İsmayılın həyat yoluna işıq salmış əsərlərin heç də hamısında Azərbaycan xalqının yetirdiyi bu tarixi şəxsiyyətə eyni dərəcədə rəğbətli və səmimi münasibəti, obyektiv yanaşmanı görmək mümkün deyildir. Bununla belə, neçə əsrdir ki, Şah İsmayılın həyatının tarixi mənzərəsinin yaradılması istiqamətində davamlı tədqiqatlar aparılsa da, bu işin yekunlaşdığını söyləmək olmaz. Çünki Şah İsmayıl özündən sonra elə böyük bir dövlətçilik ənənəsi, zəngin ədəbi irs qoyub gedib ki, hər yeni tədqiqat bu irs haqqında yeni-yeni elmi-tarixi qənaətlərin, maraqlı faktların ortaya qoyulmasına imkan yarada bilər.

Tarixdən məlumdur ki, 1501-ci ildə I Şah İsmayıl Azərbaycan Səfəvilər dövlətinin (1501-1736) əsasını qoydu. Onun oğlu I Şah Təhmasib Azərbaycanın Şirvan və Şəki əyalətlərini Səfəvi dövlətinin tərkibinə qatdı. Beləliklə, bütün Azərbaycan torpaqları vahid, mərkəzləşdirilmiş dövlətin tərkibində birləşdirildi. Dünyanın mühüm ticarət yollarının üzərində yerləşən iki əzəmətli türk dövlətinin – Azərbaycan Səfəvilər və Osmanlı imperiyasının varlığı Avropa hökmdarlarını xeyli narahat edirdi. Avropa diplomatiyası Azərbaycan Səfəvi və Osmanlı imperiyaları arasındakı ixtilaflardan məharətlə istifadə edərək onları müharibəyə təhrik etdilər. Osmanlı-Səfəvi müharibələri hər iki dövlətin ictimai-iqtisadi, siyasi, mədəni potensialının zəifləməsi ilə nəticələndi. Fasilələrlə 150 ilə yaxın davam edən Səfəvi-Osmanlı qarşıdurması hər iki dövləti Qərb dövlətlərinin təzyiqləri qarşısında aciz qoydu. Onlar arasında baş verən hərbi əməliyyatlar ticarət yollarının, təsərrüfatın dağılmasına, əhalinin müflisləşməsinə gətirib çıxardı. Bu baxımdan hər iki ölkədə

Şah İsmayılın həyatının və dövrünün qələmə alındığı əsərlərdəki Şah İsmayıl obrazının qarşılıqlı təhlili olduqca önəmli bir məsələ olaraq görülməkdədir və hər iki Türk dövlətinin Şah İsmayıla qarşı münasibətlərinin əsərlərdən araşdırılıb sistemləşdirilməsi problemi dissertasiya işinin əsas aktuallığını şərtləndirir.

Şah İsmayılın həyat yolunun öyrənilməsi hər şeydən əvvəl Azərbaycan tarixinin Səfəvilər dövrünün tədqiqi baxımından böyük əhəmiyyət kəsb edir. Səfəvilərin rəhbərliyi altında formalaşmış hərəkatın siyasi məzmun kəsb etdiyi XV əsr Azərbaycanın və eləcə də bölgənin tarixinin mühüm bir dövrü idi. Siyasi dağınıqlıq, hərbi proseslərin dinamikliyi, Teymurilər dövləti ilə Osmanlı dövlətinin bölgənin hərbi-siyasi həyatına təsir gücünün artması kifayət qədər mürəkkəb və qeyri-sabit bir həyatın meydana çıxmasına yol açmışdı. Belə bir zamanda Səfəvi təriqət hərəkatının siyasi məzmun kəsb etməsinin, bu hərəkatın Şah İsmayıl Xətainin rəhbərliyi altında öz inkişafını tapmasının hansı nəticələrə gətirib çıxarması, bölgə xalqlarının həyatında hansı rol oynaması, sözsüz ki, obyektiv araşdırma və tədqiqatla üzə çıxarıla bilər.

Şah İsmayıl Xətai dövrünün ictimai-siyasi və ədəbi-mədəni mənzərəsinin real faktlar əsasında araşdırılması XV-XVI əsrlərdə bölgədə cərəyan edən hərbi-siyasi proseslərin obyektiv mənzərəsinin yaradılmasına, baş verən hadisələrin əsl mahiyyətinin düzgün dəyərləndirilməsinə də yol açmış olardı. Şah İsmayıl dövrünün öyrənilməsi Azərbaycanın dövlətçilik tarixinin və ənənələrinin, mərkəzləşdirilmiş Azərbaycan dövlətçiliyinin təcrübəsinin ortaya çıxarılması, konkret tarixi şəraitdə və eləcə də ötən tarix boyu bu təcrübənin Azərbaycan tarixindəki yerinin müəyyənləşdirilməsi və ümumiləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Həmçinin Şah İsmayıl dövrünün öyrənilməsi, ümumən, Səfəvi təriqət hərəkatının mahiyyətinin öyrənilməsinə, bu hərəkatın Azərbaycanın və bölgənin ictimai-siyasi və dini həyatında oynadığı rolu müəyyənləşdirməyə imkan verməsi baxımından önəmlidir.

Şah İsmayıl Xətai şəxsiyyətinin araşdırılması üçün istər Azərbaycan, istər İran, Türkiyə, istərsə də sovet və Qərb ədəbiyyatı və tarixşünaslığında xeyli tədqiqatlar aparılmışdır. Yəni Şah İsmayılın şəxsiyyətinə, onun fəaliyyətinin tarixiliyinə maraq

hər zaman tədqiqatçıların diqqətini özünə cəlb etmişdir. Sözsüz ki, əhatə dairəsinə, elmi dərinliyinə görə bu tədqiqatların heç də hamısı eyni səviyyədə deyil. Əslində bu tədqiqatların aparılması zamanı qarşıya qoyulan məqsəd də eyni deyildir. Obyektiv yanaşmanı, mənbə materiallarının tərəfsiz dəyərləndirilməsini, tarixi hadisələrin real mənzərəsini özündə əks etdirən çoxlu sayda araşdırmalarla bərabər, birtərəfli, mübahisəli fikirlərlə zəngin olan, bəzən isə səthi tədqiqatlara da rast gəlinir. Şah İsmayılın şəxsiyyəti üzərinə kölgə salmaq üçün hətta bəzi hallarda faktların dəyərləndirilməsinə qərəzli yanaşılması ilə də qarşılaşmaq mümkündür və hazırkı araşdırmada bununla bağlı konkret faktlar da göstərilmişdir. Elmi araşdırmada mövzu obyektinə açıq qərəzçilik nümayiş etdirməklə isə düzgün elmi qənaətlərə gəlmək mümkün deyildir. Şah İsmayıl dövrünün tarixinin əhatəli şəkildə öyrənilməsi onun tarixi fəaliyyətini şübhə altına almaq meyillərinə düzgün münasibət ortaya qoyulması baxımından da elmi əhəmiyyət kəsb edir. Şah İsmayıl elə bir fenomenal tarixi şəxsiyyətdir ki, onun davamlı və özü də müxtəlif prizmalardan öyrənilməsinə böyük ehtiyac vardır. Bu baxımdan Xətainin həyat və fəaliyyətinin müstəqilliyin verdiyi imkanlardan yararlanaraq təkcə tarixi aspektdən deyil, ədəbi-bədii nöqteyi-nəzərdən araşdırılması çağdaş mərhələdə mühüm aktuallıq kəsb edir. Problemin bu istiqamətdə araşdırılmasında Azərbaycan və Türkiyə ədəbiyyatında Şah İsmayıl Xətaiyə həsr olunmuş tarixi romanların müstəsna əhəmiyyəti vardır. Xüsusilə tədqiqat orbitinə daxil etdiyimiz Azərbaycanın tarixi roman ustaları Əzizə Cəfərzadənin “Bakı-1501” (1981), Fərman Kərimzadənin “Xudafərin körpüsü” (1982) və “Çaldıran döyüşü” (1987), Əlisa Nicatın “Qızılbaşlar” (1982) romanlarında Şah İsmayıl obrazı ilə Türkiyə ədəbiyyatında Reha Çamuroğlunun “İsmail” (2001), İskender Palanın “Şah ve Sultan”(2010) və Reha Bilgenin “1514 Yavuz Sultan ve Şah İsmayıl” (2010) adlı tarixi romanlarında Şah İsmayıl Xətai obrazına oxşar və fərqli baxışlar, obyektiv və yaxud subyektiv yanaşma, real, yoxsa qeyri-real münasibət məsələləri problemin araşdırılması zərurətini ortaya çıxarır və əsl həqiqətin aşkarlanmasına zəmin yaradır.

Azərbaycan tarixi romanlarının tədqiqinə keçən əsrin 30-cu illərindən başlanmışdır. Bu dövrdə yaranan əsərlər haqqında xeyli sayda məqalələr yazılmışdır. Tarixi romanları tədqiqat orbitinə daxil edən çoxsaylı məqalələri diqqətdə saxlamaqla

qeyd etmək istərdik ki, 1930-1950-ci illərdə bu mövzuda ilk sanballı məqalələr Mehdi Hüseynin "Azərbaycan romanı haqqında" (1954) və Məmməd Arifin "Azərbaycan sovet romanı" (1957) adlı araşdırmalarıdır. Bu tədqiqatlarla yanaşı, Seyfulla Əsədullayevin "Roman haqqında qeydlər" [120], Qulu Xəlilovun "Azərbaycan romanının inkişaf tarixindən" [36], Yavuz Axundovun "Azərbaycan sovet tarixi romanı" [6], Himalay Qasımovun "Müasir Azərbaycan romanı. Janrın poetika və tipologiyası" [45], "Azərbaycan romanının inkişaf problemləri" [28], Təyyar Salamoğlunun "80-ci illər Azərbaycan romanı: janr təkamülü" [16], Salidə Şərifovanın "Romanda janr dəyişmələri: kommunikativ-sosiokoqnitiv yanaşma" [125] monoqrafiyalarında, eyni zamanda "Azərbaycan ədəbiyyatı tarixi" üçcildliyinin üçüncü cildi [7] və "Azərbaycan sovet ədəbiyyatı tarixi" ikicildliyində, eləcə də nəzəri tədqiqatlarda, XX əsr Azərbaycan ədəbiyyatının müxtəlif problematikasını özündə ehtiva edən araşdırmalarda, xüsusilə Nərgiz Paşayevanın "İnsan bədii tədqiq obyekti kimi" [67], İsa Həbibbəylinin "Ədəbi şəxsiyyət və zaman" [30], Tehran Əlişanoğlunun "XX əsr Azərbaycan nəsrinin poetikası" [23], Bədirxan Əhmədovun "XX yüzil Azərbaycan ədəbiyyatı. Mərhələlər. İstiqamətlər. Problemlər" [22], Elçinin "Sosrealizm bizə nə verdi?" [20] və başqa dəyərli monoqrafiya və tədqiqatlarda keçən əsrin 1930-1950-ci illərində yazılan romanlar geniş şəkildə tədqiqata cəlb edilmişdir. Həm də əsrin bu mərhələsində Süleyman Rəhimov, Yusif Vəzir Çəmənzəminli, Məmməd Səid Ordubadi, Mir Cəlal, Əbülhəsən, Mehdi Hüseyn kimi yazıçıların yaradıcılığının analitik təhlillərinə həsr olunmuş tədqiqatlar da bu araşdırmalar sırasında xüsusi yer tutur.

Tarixi romanların araşdırılması Azərbaycan ədəbiyyatşünaslığı və ədəbi tənqidində xüsusi önəm daşıdığı kimi, Türkiyə tarixi romanları da həm Azərbaycan, həm də türk tədqiqatçılarının diqqət mərkəzindədir. Argunşah H. Türk Edebiyatında Tarihi Roman [86], Kırılmış İ.T. Türk Edebiyatında Tarihi Romanlar (Türk Tarihi ile İlgili,1961-1965) [105], Topdemir R. Türk Edebiyatında Tarihi romanlar (Türk Tarihi ile İlgili,1971-1980) [115] və başqa tədqiqatlarda tarixi romanlar araşdırmaya cəlb edilir.

Türkan Əliyevanın “Türk romanında ənənəvi Şərq və modern Qərb təkiyyəsinin sinkretizmi (Əlif Şəfəq və İskəndər Palanın yaradıcılığı əsasında)” adlı dissertasiyasında Ə.Şəfəq və İ.Pala yaradıcılığı müqayisəli şəkildə araşdırılmışdır. Türkiyə ədəbiyyatşünaslığında isə yazıçının yaradıcılığı müxtəlif dissertasiyaların tədqiqat mövzusu kimi seçilmişdir. 2013-cü ildə Mustafa Onur Bozkuşun “İsgəndər Palanın romanlarında gerçəklik və təxəyyülün əlaqəsi” (“İskender Pala'nın romanlarında gerçek ve kurmaca ilişkisi”) [90], 2014-cü ildə Əminə Boso Yamanın “İsgəndər Palanın roman və hekayələrində struktur və mövzu” (“İskender Pala'nın roman ve öykülerinde yapı ve tema”) kimi dissertasiyalarda yazıçının yaradıcılığı tədqiqat obyektinə çevrilmişdir.

V.Quliyevin Nəsrimiz və tariximiz [46], V.Yusiflinin. Nəsr: konfliktlər, xarakterlər [81], B.Nəbiyevin. Roman və müasir qəhrəman [64], A.Hüseynovun. Nəsr (82-ci ilin ədəbi icmalı) [33], Y.Axundovun “Tarix və roman” [4], G.Babayevanın “Fərman Kərimzadənin yaradıcılıq yolu” [11], T.Salamoğlunun “Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri” [74], Ə.Rəsulovun “Qalibi olmayan müharibə: Çaldıran savaşı” [71], S.Əliyevanın “İ.Pala yaradıcılığında Şah İsmayıl Xətai obrazı” [27, s.120-123], “İ.Pala yaradıcılığında Azərbaycan” [26, s.201-204], “Çağdaş dövr Türkiyə nəsrində tarixilik və müasirlik” (İsgəndər Palanın romanları əsasında), Deger Murat Tunceroğlunun “Türkiyə və Azərbaycan ədəbiyyatında tarixi roman janrı” (Samihe Ayverdi və Əzizə Cəfərzadənin yaradıcılığı əsasında) və başqa araşdırmalarda Şah İsmayıl Xətainin ictimai-siyasi fəaliyyəti, dövlətçilik uğrunda mübarizəsi müxtəlif aspektdən tədqiqata cəlb edilir.

Bu baxımdan hər iki ölkədə Şah İsmayılın həyatının və dövrünün qələmə alındığı əsərlərdəki Şah İsmayıl obrazının qarşılıqlı təhlili olduqca önəmli bir məsələ olaraq diqqəti cəlb edir və hər iki Türk dövlətinin Şah İsmayıla qarşı münasibətlərinin əsərlərdən araşdırılıb sistemləşdirilməsi problemi dissertasiya işinin əsas aktuallığını şərtləndirir.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqat işinin **obyektini** Azərbaycan Səfəvi dövlətinin yaradıcısı, böyük dövlət xadimi, qüdrətli hökmdar və şair Şah İsmayıl

Xətainin həyat və yaradıcılığını, ictimai-siyasi fəaliyyətini, dövlətçilik uğrunda mübarizəsini geniş epik lövhələrlə əks etdirən tarixi romanlar təşkil edir.

Dissertasiyada Səfəvilər dövlətinin yaranmasından etibarən Şah İsmayıl Xətainin həyatı, mühiti və dövrü ilə əlaqəli yazılmış tarixi romanlar incələnmişdir. Belə ki, tədqiqat işinin obyekti Azərbaycan və Türkiyə tarixi romanlarıdır. Tədqiqatın obyekti kimi Azərbaycan yazıçılarından Əzizə Cəfərzadə, Fərman Kərimzadə, Əlisa Nicat və Türkiyə yazıçılarından İskender Pala, Reha Çamuroğlu və Reha Bilgenin Şah İsmayıla həsr etdikləri tarixi romanlardan nümunələr tədqiqata cəlb edilmişdir.

Tədqiqat işinin **predmetini** isə Şah İsmayıl Xətainin həyatını, mühitini, ideoloji mübarizə və mücadilələrini, Səfəvi dövlətinin qurulması, qüdrətli bir hakimiyyətə çevrilməsi kimi tarixi prosesləri özündə ehtiva edən çoxsaylı tədqiqat əsərləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan başlıca məqsəd Azərbaycan və Türkiyə tarixi romanlarında Şah İsmayıl Xətainin obrazının hansı mövqedən və necə yaradılmasını aşkarlamaq, bununla yanaşı bu tarixi şəxsiyyətin ictimai-siyasi, ədəbi-mədəni fəaliyyətinin, Səfəvi Azərbaycan dövləti qurmaq uğrunda apardığı mübarizə və mücadilələrin bədii inikası məsələlərini araşdırmaqdır. Eyni zamanda böyük hökmdar, ağıllı, tədbirli, müdrik dövlət xadimi, bacarıqlı siyasətçi və şair kimi xalqımızın tarixində iz qoymuş Şah İsmayıl Xətainin türk xalqlarına münasibəti və onların taleyindəki rolunu müəyyənləşdirməkdir. Bununla yanaşı bəzi tarixi mənbələrdə və bədii əsərlərdə, xüsusilə tarixi romanlarda Şah İsmayılın dövlətçilik siyasətindəki mübahisəli, mürəkkəb və ziddiyyətli məqamlara aydınlıq gətirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Həmin məsələləri sərf-nəzər etmək və qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsinə cəhd göstərilmişdir:

- Tarixi roman janrının təşəkkülü, formalaşması və inkişaf mərhələlərini ardıcıl və sistemli şəkildə izləmək, Şah İsmayıl Xətaiyə həsr edilmiş romanların bu sferadakı yerini müəyyənləşdirmək;

- Azərbaycan və Türkiyə ədəbiyyatında Şah İsmayıl Xətai obrazına tarixi baxışın oxşar və fərqli cəhətlərini aşkara çıxarmaq;

- Şah İsmayıl Xətainin hakimiyyəti dövründə Azərbaycanla türk dövlətləri arasında münasibətlərin ümumi vəziyyətini öyrənmək;

- Çaldıran döyüşünün baş vermə səbəblərini və iki türk hökmdarını müharibəyə təhrik edən imperialist güclərin əsas məqsədlərinin nədən ibarət olduğunu müəyyənləşdirmək;

- Azərbaycanın Türkiyə ilə qarşılıqlı münasibətlərinin müqavilə-hüquqi əsaslarının inkişaf etdirilməsində Şah İsmayıl Xətainin fəaliyyətini təhlil etmək;

- Əlisa Nicatın "Qızılbaşlar", Əzizə Cəfərzadənin "Bakı-1501", Fərman Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" romanlarında Şah İsmayıl obrazının xarakterik xüsusiyyətlərini, özünməxsus cəhətlərini müəyyənləşdirmək;

- İskender Palanın "Şah ve Sultan" və Reha Çamuroğlunun "İsmail" tarixi romanlarında Şah İsmayıl obrazını mücərrədlik və tarixi gerçəklik müstəvisində araşdırmaq və əsl həqiqəti aydınlaşdırmaq;

- Reha Bilgənin "1514. Yavuz Sultan və Şah İsmayıl" əsərində Çaldıran döyüşünün bədii inikası məsələlərinə aydınlıq gətirmək, real gerçəklikləri aşkara çıxarmaq;

- Bu romanlarda tarixililkə bədii həqiqətin bir-birinə ekvivalent olması və reallığı əks etdirməsi məsələsini faktoloji materiallar əsasında dəqiqləşdirmək;

- Azərbaycan və Türkiyə ədəbiyyatında Şah İsmayıla həsr olunmuş romanlarda tarixilik və müasirlik prinsipinin qorunması məsələlərini elmi əsaslarla aydınlaşdırmaq;

- İki ölkə arasında diplomatik-siyasi münasibətlərin inkişafında Şah İsmayıl Xətainin rolunu aydınlaşdırmaq;

- Azərbaycan və Türkiyə arasında ticari-iqtisadi, elmi-texniki, ədəbi-mədəni və humanitar əməkdaşlığın inkişaf etdirilməsində Şah İsmayıl Xətainin tarixi xidmətlərini müəyyənləşdirmək.

**Tədqiqatın metodları.** Dissertasiya işində mövzu ilə bağlı ədəbi-bədii və tarixi materialların, arxiv sənədlərinin araşdırılması və təhlili prosesində tarixi-xronoloji, analitik-tipoloji, tarixi-müqayisəli və ideya-bədii təhlil üsulu əsas götürülmüş,

tarixilik və müasirlik, zaman və məkan prinsiplərinə əməl edilmişdir. Bununla yanaşı problemə dair çoxlu materiallar və faktlar toplanaraq sistemləşdirilmiş, müqayisəli təhlillər, şərhlər edilmiş və elmi ümumiləşdirilmiş nəticələr çıxarılmışdır. Tədqiqat zamanı obyektiv elmi həqiqəti aşkara çıxarmağa imkan verən tarixilik prinsipinə ardıcıl riayət edilmişdir. Bu zaman tipoloji-müqayisəli təhlil metoduna üstünlük verilmiş, faktların təhlilində deduktiv və induktiv metodlardan da istifadə olunmuşdur. Dissertasiya işində romanların ilk nüsxələri əsas götürülərək orijinal mətnlər üzərində araşdırma aparılmış, yeri gəldikcə Azərbaycan dilinə tərcümə olunmuş materiallara da diqqət yetirilmişdir. Tədqiqat zamanı xüsusən nəzəri aspektdən Azərbaycan, türk, Qərb və rus alimlərinin fikirlərinə istinadlar edilmiş, görkəmli alimlərin nəzəri-metodoloji xarakterli fikir və mülahizələrindən istifadə olunmuş, tarixi sənədlərdə əksini tapan təmayüllər, siyasi-ideoloji meyillər dəyərləndirilmiş və müxtəlif elmi mövqelər içərisindən obyektiv istiqamət tapılmasına, habelə yeni istiqamətin müəyyənləşdirilməsinə çalışılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar**.

1.Şah İsmayıl Xətai şəxsiyyətinin Azərbaycan xalqının ictimai-siyasi və ədəbi-mədəni həyatındakı rolu və yeri

2.Tarixi romanın tarixi hadisələri öyrənmək baxımından əhəmiyyəti;

3.Azərbaycanda SSRİ dönəmində yazılmış tarixi romanların rejimin istəklərinə uyğun qələmə alınması;

4.Şah İsmayılın həyatı və Şah İsmayıl dövrünün tarixi ilə bağlı məlumatları əldə etmək baxımından həm Türkiyə, həm də Azərbaycan yazıçılarının əsərlərinin önəmi;

5.Türkiyə yazıçılarının tarixi romanlarda baxış bucaqlarının Azərbaycan yazıçılarına görə fərqli olması;

6.Türkiyə və Azərbaycanda Şah İsmayıl xarakterinə olan münasibətlər arasında fərqlərin aşkar edilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində qarşıya qoyulan bütün elmi məsələlər araşdırılarkən ilk mənbələrin məlumatlarına istinad edilmiş, birinci növbədə faktiki materiallar, arxiv sənədləri əsas götürülmüşdür. Belə ki, tədqiq olunan araşdırmada aşağıdakı elmi işlər yerinə yetirilmişdir:

- Tarixi roman janrının inkişaf mərhələləri araşdırılmış və tarixi romanla bağlı müxtəlif faktlar müəyyən edilmişdir;

- Sovet dönəmində Azərbaycan ədəbiyyatında yaranan tarixi romanlara müstəmləkə rejiminin ideoloji baxımdan təzyiq və təsirləri müxtəlif aspektdən təhlil olunmuşdur;

- Müstəqillik illərində yazılan romanlarda tarixi şəxsiyyətlərin obrazlarının yaradılmasında yazıçı sərbəstliyi və azadlığı məsələlərinə münasibət açıqlanmışdır;

- Azərbaycan ədəbiyyatında Şah İsmayıl Xətainin ictimai-siyasi və ədəbi fəaliyyətini əks etdirən tarixi romanlar araşdırılmış, onun təriqət başçısı, hökmdar, yenilməz sərkərdə və incə ruhlu şair obrazı hərtərəfli təhlilə cəlb edilmişdir;

- Türkiyə və Azərbaycan ədəbiyyatında tarixi roman janrında olan əsərlərin oxşar və fərqli xüsusiyyətləri araşdırılmış, sərf-nəzər edilərək obyektiv qənaətlərə gəlinmişdir;

- Türkiyə və Azərbaycan ədəbiyyatında yazılmış tarixi romanlardakı ortaq tarixi şəxsiyyətlərə yanaşma şəkli incələnmişdir;

- Şah İsmayıl Xətai ilə bağlı Türkiyə ədəbiyyatında yer alan tarixi romanlar müqayisə və paralellər əsasında təhlilə cəlb olunmuş, Səfəvi hökmdarına qarşı fərqli münasibətlərə aydınlıq gətirilmişdir;

- Çaldıran döyüşünün baş vermə səbəbləri açıqlanmış, bu müharibənin gerçəkləşməsində Avropa dövlətlərinin, xarici imperialist qüvvələrin təsiri məsələləri müəyyənləşdirilmişdir;

- Həmin tarixi romanlarla bağlı yazılan məqalələr, kitablar, tədqiqat əsərləri, arxiv materialları toplanaraq diqqətlə nəzərdən keçirilmiş və istinadlar edilmişdir;

- Hər iki ölkədə yazılmış tarixi romanlar haqqında Azərbaycan və Türkiyə tədqiqatçılarının, ədəbiyyatşünas və tarixçilərin münasibətlərinə aydınlıq gətirilmiş, şərh edilmiş və inandırıcı qənaətlər əldə edilmişdir;

- Azərbaycan və Türkiyə tarixi romanlarında yaradılan Şah İsmayıl obrazı qarşılaşdırılaraq mürəkkəb və ziddiyyətli məqamlar təhlil edilmiş, müsbət və mənfi tendensiyalara münasibət bildirilmişdir.

- Dissertasiyada həm Azərbaycan, həm də Türkiyə ədəbiyyatşünaslığındakı mövcud elmi-nəzəri fikirlərə istinad olunmuş və ayrı-ayrı mərhələlərdə, müxtəlif istiqamətlərdə aparılmış araşdırmaların nəticələri təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi elmi-nəzəri, tarixi və praktik əhəmiyyət daşıdığından dissertasiyanın əsas müddəaları və nəticələrindən Azərbaycan və türk xalqları ədəbiyyatının müvafiq bölmələrinin yazılmasında, XX-XXI əsr tarixi roman janrının təşəkkülü, formalaşması və inkişaf prosesinə aid dissertasiya və monoqrafiyalarda istifadə oluna bilər. Eyni zamanda Azərbaycan tarixinə, Ümumi tarixə və Beynəlxalq münasibətlər tarixinə həsr edilmiş ümumiləşdirilmiş əsərlərin, dərslik və dərs vəsaitlərinin yazılmasında, elmi-pedaqoji fəaliyyətdə, ali məktəblərin müvafiq fakültələrində, bakalavr və magistr pillələrində mühazirələrin oxunması və seminar məşğələlərinin keçirilməsində, Azərbaycan Respublikasının türk dövlətləri ilə münasibətlərinin inkişaf etdirilməsində iştirak edən dövlət, hökumət və ictimai təşkilatların fəaliyyətində, Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin təbliğində istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəa və nəticələri Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi məcmuələrdə, Azərbaycan və Türkiyənin müvafiq elmi jurnallarında, Beynəlxalq və Respublika səviyyəli elmi konfrans, sessiya və seminarlardakı məruzə və çıxışlarda öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş (18.952 şərti işarə), üç fəsil (birinci fəsil - 82.224 şərti işarə, ikinci fəsil – 51.382 şərti işarə, üçüncü fəsil – 79.392 şərti işarə), nəticə (12.841 şərti işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi – 244.797 şərti işarədən ibarətdir.

# I FƏSİL. TARİXİ ROMAN JANRI: TƏŞƏKKÜL VƏ TƏKAMÜL PROSESİ

## 1.1.Tarixi roman janrının inkişaf mərhələləri

Hər bir xalqın tarixi onun keçdiyi qəhrəmanlıq və mübarizə yolunu özündə təcəssüm etdirir, xalqın minilliklər boyu yaşatdığı milli-etnik varlığını qoruyub saxlayır, əbədiliyini şərtləndirir və həyat yolunun tərcümanına çevrilir. Bu baxımdan tarix həmişə öz ilkinliyini və təravətini qoruyub saxlayan tükənməz bir mənbə və zəngin bir məktəbdir. Yazıçı yaşadığı dövrün mühüm ictimai-siyasi və sosial problemlərini gündəmə gətirmək və onun həlli yollarını göstərmək üçün tarixə müraciət edir və ondan bir fon kimi yararlanaraq öz məqsəd və məramını xalqa çatdırmağa çalışır. Bütün bunlar tarixi əsərlərin yaranma zərurətini ortaya çıxaran başlıca amillər kimi diqqəti cəlb edir.

Dünya ədəbiyyatında bu janrda yazılmış əsərlərin Azərbaycan və Türkiyə ədəbiyyatında tarixi romanların yaranması və təkamül prosesinə təsirsiz ötüşmədiyi inkarolunmaz bir faktdır. Tarixi roman müəlliflərinin dünya ədəbiyyatının O.Balzak, V.Hüqo, V.Skott, C.Zeydan, L.N.Tolstoy, S.Zlobin, O.Forş, Y.Tınyanov, A.Perventsev, B.Okucava, V.Çivilixin kimi görkəmli sənətkarların daxili və xarici düşmənlərə, zülm və istibdada, müstəmləkəçiliyə qarşı mübarizə motivlərini özündə əks etdirən tarixi romanlarından bəhrələnməsi və Türk dünyasında yaranan tarixi romanlara müsbət təsiri məsələləri real bir gerçəklikdir. Məlumdur ki, yazıçının tarixə müraciət etməkdə başlıca məqsədi haqqında bəhs etdiyi dövrdən daha çox, içərisində yaşadığı cəmiyyətdə hökm sürən problemlərin qabardılması ilə bağlıdır. Bu mənada yazıçı hadisələrə müasir nöqteyi-nəzərdən yanaşmağa üstünlük verir və tarixiliklə müasirliyin sintezini yaratmağa çalışır. Tarixi roman ustası S.Zlobin bu mühüm məsələyə diqqət çəkərək yazır: *"Tez-tez bizim ədəbiyyatçılar, tənqidçilər və romançılar özləri "müasir" və "tarixi" roman anlayışlarını qarşı-qarşıya qoyurlar.*

*Mən tarixi romanı müəyyənləşdirərkən onu müasir romana qarşı qoymuram, çünki "tarixi" məfhumunun özü "müasir" məfhumuna qarşı qoyula bilməz. İndi və keçmiş- bunlar əkslik deyil. Tarix bu gün yenidən başlamaq üçün dünən qurtarmır. Bu , vahid prosesdir"* [121, s.53]. Tarixi roman probleminə keçmiş sovet ədəbiyyatşünaslığında da ciddi münasibət göstərilmiş və bu istiqamətdə çoxsaylı tədqiqat əsərləri yazılmışdır. O.Nemirovskaya, L.Tsirlin, A.Alpatov, A.Kaşintsev, N.S.Leytes, S.M.Petrov, İ.L.Aleksandrova, M.Sirotyuk, Y.Andreyev, İ.P.Varfolomeyev və digər alimlər tarixi romanı nəzəri aspektdən şərh etmiş və maraqlı nəticələrə gəlmişlər.

Tarixi roman problemi bütün dövrlərdə ədəbi tənqidin diqqət mərkəzində olub və müzakirələrə yol açıb. "Ədəbiyyat və incəsənət" qəzetinin 1983-cü ilin dekabr ayında AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə birgə keçirdiyi müşavirə də məhz "müasirlik və tarixilik" probleminə həsr olunmuşdur. Professor Yaşar Qarayev giriş sözündə tarixi əsərlərin spesifik xüsusiyyətlərindən bəhs edərək deyir: *"Tarixi əsər nəyə görə müasirdir? Müasirlərə təsirinin məzmununa görə! Bəs tarixi əsər nəyə görə tarixidir? Obyektiv–sosial və milli inkişafın tarixi məntiqini, onun fəlsəfi konsepsiyasını nə dərəcədə doğru və tam ifadə etməsinə görə!"* [61].

Müzakirələrdə iştirak edən görkəmli alimlər – Əziz Mirəhmədov, Mahmud İsmayılov, Qulu Xəlilov, Vəli Osmanlı, Şamil Salmanov, Nazif Qəhrəmanov, Şirindil Alışanov, Vilayət Quliyev və Rəhim Əliyev son onilliklərdə Azərbaycan ədəbiyyatında yazılan tarixi romanların müsbət məziyyətləri ilə yanaşı, mövcud olan nöqsanlar və onların aradan qaldırılmasının zəruriliyi haqqında söhbət açmışlar. Tarixi romanlardakı çatışmazlıqlar və çətinliklərdən bəhs edən Şamil Salmanov deyir: *"Müasir tarixi romandan danışarkən onun müəyyən yaradıcılıq çətinliklərinə göz yummaq olmaz. Mühüm çətinlik – tarixi romanda xalq həyatının, xalqın milli xarakterinin epik dolğunluqla təcəssümünü tapa bilməməsidir. Tarixi romanlarda yazıçı diqqəti daha çox tarixi şəxsiyyətin üzərində cəmlənmişdir. Digər çətinlik- romanlarımızda mövzu darlığının, tarixi dövrün ancaq müəyyən hadisələri ilə məhdudlaşmağın aradan qaldırılmamasıdır"* [61].

Azərbaycan ədəbiyyatında 70-80-ci illərdə tarixi roman janrı böyük bir təkamül prosesi keçmiş, bu janrda çoxlu əsərlər yazılmışdır. Tarixi mövzuda əsərlərə marağın

artması hər şeydən öncə, xalqımızın minilliklər boyu keçdiyi zəngin həyat yolunu ardıcıl və sistemli şəkildə izləmək, böyük dövlət xadimlərinin, elm və sənət adamlarının ictimai-siyasi, ədəbi-mədəni fəaliyyətinin geniş oxucu auditoriyasına məlum olmayan tərəflərinə işıq salmaq və gələcək nəsillərə çatdırmaq məqsədi daşımışdır. XX əsrin bu mərhələsində yazılan tarixi romanlar sırasında İsa Hüseynovun "Məhşər", Əzizə Cəfərzadənin "Vətənə qayıt", "Aləmdə səsim var", "Yad et məni", "Bakı 1501", Cəlal Bərgüşadın "Sıyrılmış qılınc", Çingiz Hüseynovun "Fətəli fəthi", Əlisa Nicatın "Qızılbaşlar", Mahmud İsmayılovun "Xaqani", "Ağ yapıncı", Elçinin "Mahmud və Məryəm", Mövlud Süleymanlının "Köç", Fərman Kərimzadənin "Qarlı aşırım", "Xudafərin körpüsü", "Çaldıran döyüşü" əsərlərinin xüsusi qeyd etmək yerinə düşür. Bu romanlarda İmadəddin Nəsimi, Seyid Əzim Şirvani, Abbas Səhhət, Mirzə Fətəli Axundzadə, Əfzələddin Xaqani kimi söz və fikir adamlarının, şairlərin, Babək, Əmir Teymur, Şah İsmayıl Xətai kimi xalq qəhrəmanlarının, dövlət xadimlərinin, hökmdarların bir-birinə bənzəməyən, müxtəlif xarakterli və müxtəlif taleli obrazları yaradılmışdır.

Tarixi roman janrına maraq müstəqillik illərində də davam etməkdədir. Elçinin "Baş", Sabir Rüstəmxanlının "Göy Tanrı", "Xətai yurdu", "Difai fədailəri", "Ölüm zirvəsi", "Şair və şər", Mustafa Çəmənlinin "Xallı gürzə", "Ölüm mələyi", Çingiz Hüseynovun "Doktor N", Yunis Oğuzun "Nadir şah", "Təhmasib", "Əmir Teymur", Elçin Hüseynbəylinin "Don Juan", "Şah Abbas", "Yenə də iki od arasında" və başqa tarixi romanlar bu janrın çağdaş mərhələdə də aktuallıq kəsb etdiyini göstərir. Son onilliklərdə yazılan bu əsərlərdə xalqımızın keşməkeşli həyatı, mübarizələrlə dolu keçmişi tarixi faktlara istinad edilərək təsvir olunmuş, dövlətçilik ənənələrimizdən söhbət açılmış və bu sferada ictimai-siyasi xadimlərin, tanınmış xalq qəhrəmanlarının, elm və sənət adamlarının fəaliyyəti işıqlandırılmışdır.

"*Tarix subyektiv cəhətlərin üstünlük təşkil etdiyi bir elm sahəsi olduğu üçün tarixin həqiqətləri bizə heç vaxt "təmiz" və ya "olduğu kimi" çatmaz*" [52]. Tarixi romanlarda da bu cəhətin var olduğunu söyləmək mümkündür. Belə ki, tarixi romanlar yazıçıların təxəyyülünün məhsulu olduğu üçün eyni bir tarixi hadisə ilə bağlı fərqli yazarları fərqli canlandırmalar edə bilərlər. Bu canlandırmalara və tarixi

roman mövzusuna dövr və nəsillərin dəyişməsi də öz təsirini göstərməkdədir. Mövzumuz baxımından bu fəsildə tarixi romanın nəzəri konteksdəki yerini inkişaf mərhələlərini aydınlaşdırmağı vacib hesab edirik. Belə ki, tarixi roman janrı uzun zamandır müzakirə edilən, amma haqqında konkret bir nəticəyə gəlinməyən mövzulardan biridir.

Yavuz Axundluya görə, "*tarixi roman haqda vahid rəy yoxdur*" [3, s.16]. "Tarixi roman" anlayışı ədəbiyyatşünaslıqda mübahisəli məsələlərdən biridir. Tarixi romanın əsas estetik prinsiplərinin nədən ibarət olduğu və hansı əsərlərin bu janra daxil edilməsi və s. ətrafında mübahisə, müxtəlif nöqteyi-nəzərlərin toqquşması indi də davam edir. Ümumiyyətlə, əsərlərin janrlarını müəyyənləşdirməkdə yekdillik yoxdur və janrların hamı tərəfindən qəbul olunacaq tərifini vermək, sərhəddini müəyyənləşdirmək, ədəbi təcrübənin zənginliyini əhatə etmək çox çətindir.

Georq Lukas, "Tarixi Roman" adlı əsərində tarixi romanın inkişafını burjuaziyanın inkişafı ilə əlaqələndirərək məsələyə bu kontekstdə aydınlıq gətirməyə çalışmışdır. Lukasa görə, "V*alter Skotta (ilk tarixi romanın müəllifi) qədər yazılan tarixi romanlarda tarixsəl ünsürlər yetərsizdir. Çünki qəhrəmanların xarakterləri dönəmin tarixi ruhunu əks etdirmir*" [106]. Əgər tarixi roman, tarixi bir hadisəni ya da vəziyyəti təsvir etmək yerinə içində olduğu zamanın zehni quruluşu və ünsürlərini əks etdirirsə, bu zaman tarixi xarakteri incələmək lazımdır. Sadri Etem Ertem "Tarixi Roman" adlı 1938-ci ildə "Vakit" qəzetində yayımladığı araşdırmasında, Georq Lukasın "Tarixi Roman" adlı əsərindəki düşüncələri isbat etməyə çalışır. Ertemə görə, "*milliyət – dövlət təfəkkürünü formalaşdırmağa çalışan ölkələr, yeni qurulma aşamasında və işğal altında olmanın gətirdiyi daxili boşluqları doldurmaq üçün keçmişə yönəlirlər*" [98]. Ertem bu tarixə yönəlmə sırasında roman tarixinin bu məqsədlə sömrüldüyünü qeyd edir.

Mehmet Behçet Yazar "*1937-ci ildə yazdığı "Genç Romancılarımız ve Eserleri" adlı kitabında Cümhuriyyət dövrünün bəzi tarixi roman yazıçılarının tarixin haqlarını işğal edərək olduğu zamanla qarışdırdığını qeyd edir*" [119]. Göründüyü kimi, tarixi romanlar bəzən reallığı əks etdirməyə, təhriflərə məruz qala bilərlər. Bunu Gürsel Aytaçın tarixi romanı: "*Mövzusunu tarixi şəxsiyyətlərdən və ya tarixi hadisələrdən*

*götürən, yalan hadisələrin yaranmasında tarix həqiqətlərindən istifadə edən roman növü*" [87] olaraq izah etməsindən də anlamaq mümkündür ki, tarixi romanın özündə həqiqətləri əks etdirməsi reallıq deyil. Hər nə qədər real tarixi faktlara yer verilsə də, yazıçının təxəyyülünün məhsulu olması tarixi romanın gerçəklik payını azaldır.

Terry İqlton isə "Marksizm ve Edebiyat Eleştirisi" adlı çalışmasında: "*yaşanılan an tarixdir*" [96] – düşüncəsi ilə dünyəvi bir tarix bilincinə varılamayacağını və tarixin sadəcə yaşanılan bir an deyil toplumun zehni olduğunu vurğulayır.

Əgər romanın tarixi istifadə qaydasını zaman müəyyən edirsə, tarixi roman yazıçıları öz zamanlarının ideoloji təsviri olaraq tarixi öz yaradıcılıqlarına uyğun istifadə edə bilərlər. Beləliklə, tarixi faktlardan dövrün tələbatına görə lazım olanları seçə bilərlər. Bu müdaxiləni memari bir terminlə ifadə etsək, bir tarix restavrasiyası kimi düşünülə bilər. Zəruri faktların seçilməsi məsələsi praktiki olarsa, tarixi yenidən yaratma, yaxud mükəmməl bir tarix yaratma düşüncəsində olan yazarlar ortaya çıxa bilər.

A.İ.Pautkin 1970-ci ildə çap olunan "Sovet Tarixi Romanı" kitabında tarixi romanı belə təsvir etmişdir: "*Tarixi roman – keçmişi tarixi ardıcıllıqla təsvir etməkdir... Janrın tələbi tarixi sənədlərə əsaslanmaq, olmuş tarixi hadisələri və şəxsləri müasir tələblər baxımından əks etdirməkdir*" [122]. Lakin unutmaq lazım deyil ki, hadisələri müasir tələblər baxımından əks etdirərkən və yazıçının təxəyyülü də romanın formalaşması üçün önəmli bir məsələ olduğundan təhriflərə yol verilməsi qaçılmaz olur. Beləliklə, tarixi romanın dəqiqlik və ardıcıllıq qanununa hər zaman uyğun gəlmədiyi ortaya çıxır.

Türkiyədə bu məsələyə baxılacaq olsa, ortaq bir düşüncə olmadığını görərik. Bu məsələdə Taner Timur, Mustafa Nihat Özön, Sadık Tural kimi yazıçıların düşüncələri daim təkrarlanır. Belə ki, tarixi roman müzakirələrini bir neçə başlıq altında toplasaq:

*"a) Tarixi romanın ortaya çıxış səbəbi və tarixi romana istiqamət verən milliyətçilik və başqa ideologiyalar,*

*b) Tarixi romanı müəyyənləşdirməyə yönəlik araşdırmalar,*

*c) Tarixi roman yazıçıları üzərindən edilən müzakirələr,*

*d) Tarixi roman yazanların həyatları və əsərləri,*

*e) Tarix və roman əlaqələri"* şəklində təsnif edilə bilər [117, s.160].

Tarixi roman haqqında yazılmış magistr və doktorluq dissertasiya işlərini araşdırmaq, bu suallara cavab tapa bilmək üçün yararlı olacaqdır. Tarixi roman haqqında yazılmış ilk dissertasiya işi, Mehmet Saim Kaptanın 1988-ci ildə yazmış olduğu "Tarihi Romanlarımız Açısından Türklerin Anadolu'ya Yerleşmesi 1071-1345" adlı dissertasiya işidir. M.S.Kaptan: "*kültürümüzün küllerini, köklerini tarihte arayan bir bakış açısı ortaya çıkarılmalıdır"* [103, s.43-44] – deyərək, əslində, tarixi romanı vacib bir janr olaraq dəyərləndirir. Tarixi roman hər şeydən öncə, ələ aldığı toplumun sosiologiyasını tutmaq və yansıtmaq məcburiyyətindədir. Yazıçı bunu edərkən tərəfsiz olmalıdır. Bu tərəfsizlik yazıçının müəyyən dünya görüşündən yoxsul olması demək deyil. Müəyyən bir dünya görüşünə sahip olmayan insanı, hələ yazıçını düşünmək mümkün deyildir. Mühüm olan yazıçının ələ aldığı tarixi həqiqətə qarşı tərəfsiz qalmasıdır.

Hülya Argunşahın "Türk Ədəbiyyatında Tarixi Roman" [86], Zeki Taştanın "Türk Ədəbiyyatında Tarixi Romanlar (1871-1950)" adlı doktorluq, Cengiz Karataşın "Türk Romanında Osmanlı Devleti'nin Kuruluş Sürecine Yaklaşım" adlı magistr dissertasiyası tarixi dönəmlərin tarixi romanlarda necə əks etdirildiyinə aid ən gözəl nümunələr sırasındadır.

Tarixi roman yazıçılarıyla, tarixi roman tənqidçiləri olan "ədəbiyyatçılar" ümumi olaraq ortaq bir zəmində bir araya gəlirlər. Tarixi roman keçmişi tərifləyir, tarixi roman tədqiqatçıları tarixi roman yazarlarını tərifləyir və sonra hamısı birlikdə dönüb tarixi tərifləyirlər. Döngə tamamlandığında isə ortaya bir tarixi roman tənqidi çıxmır. Buradan belə bir nəticəyə gələ bilərik ki, tarixi roman müzakirələrini aparan tədqiqatçı və araşdırmaçıların da ideoloji mənada bir tarixi roman tanıma və dəyərləndirmə mübarizəsi içərisində olduğu deyilə bilər.

Sadık Turalın "Tarihi roman ve Atsız'ın Tarihi romanları Üzerine Düşünceler" adlı məqaləsi isə demək olar ki, bütün araşdırmalarda və yazılarda istifadə edilmişdir. Tural bu məqaləsində tarixi romanı müəyyən edən "zaman" qavramını bu şəkildə açıqlayır: "*Yazıçısı tərəfindən gözlə görülməmiş bir dövrü, tarixi həqiqətlərə sadiq*

*qalaraq anlatan romanlara tarixi roman adı verilir"* [116]. Tarixi roman sadəcə tarixə aid bir hadisəni və xarakterləri nəql etməklə qalmayıb, indiki zamanı və sabahı qoruma rolunu öhdəsinə götürür. Tarixi roman bədii və ədəbi çevrələriylə eyni zamanda sabahlarımızdır. Hər hansı bir millətin siyasi və ictimai tarixini yazmağa çalışan tarixçi də dastan, əfsanə, roman, hekayə və teatr əsərlərini də göz ardı etməməlidir. Digər tərəfdən, tarix mövzulu əsərlər yazanlar da işlədikləri hadisə ilə bağlı dərin tarixi məlumata sahib olmalıdırlar. Həmçinin bunu da qeyd etmək lazımdır ki, yazıçı öz gözləri ilə gördüyü, şahidi olduğu hadisələri də qələmə alaraq ortaya bir tarixi roman qoya bilər. Başqa sözlə, Turalın tarixi romanla bağlı açıqlamalarının da doğruluq payı müzakirə edilməli məsələlərdəndir.

Tarixi romanla bağlı aşağıda yer verilmiş faktları nəzərdən keçirək:

"*1) Tarixi roman tarixdən bəhs edən roman deyildir;*

*2) Tarixi romanda tarixi şəxslər, tarixi təkliflər xəyalının önünə keçərsə, iş siyasət və propaqandaya çevrilər;*

*3) Romanda tarixi fikirlər irəli sürmək və tarixlə əlaqəli müzakirələr etmək qəbul edilmir;*

*4) Tarixi romanda anaxronizma mümkündür. Tamamilə anaxronik quruluşda ola bilər, yaxud bəzi yerlərdə anaxronik hallar nəzərə çarpa bilər;*

*5) Tarixi roman yazıçının öz yaşadığı tarixdən keçmişə doğru baxdığı xəyali bir keçmiş biliyinə əsaslanır. Roman yazarı keçmişlə bağlı fikir bildirərkən indiki zamanla keçmişi müqayisə etdiyini unutmaz;*

*6) Tarixi roman bu gündən keçmişə doğru uzanan bir zamanın məntiqi və əqli təzahürü deyil (bu tarixin işidir);*

*7) Böyük tarixi şəxsiyyətlər haqqında yazmaq, böyük roman yazmaq anlamına gəlmədiyi kimi, tarixdə heç adı çəkilməyən şəxslər haqqında yazmaq da önəmsiz şeylər yazıldığı anlamına gəlməz. Tarixi roman yazan şəxsin estetik normaları, ümumi roman estetikası qaydalarından heç bir şəkildə ayrılmaz*" [117, s.22].

Yakup Çelik, "Tarih ve Tarihi Roman Arasındaki İlişki, Tarihi Romanda Kişiler" adlı yazısında, tarixi romanı belə izah etmişdir: *"Tarixi roman, tarixin yenidən yansıması deyildir. Keçmişi xəyalən yenidən izah etməkdir. Tarixi romanda*

*hər insan tipi romanın qəhramanı ola bilər. Tarix mətnlərində vəziyyət bu şəkildə deyil. Tarixi romanlarda məlumatın təqdim edilmə tərzi, qəhrəmanların aralarındakı insani münasibətlər ətrafında dilə gətirilir. Tarixi romançılar, tarixi reallıq içərisində yer almayan qəhrəmanları yaratma haqqına da sahibdirlər"* [94, s.49-68]. Göründüyü kimi, İ.Uygun və Y.Çelikin tarixi romanla bağlı ifadə etdikləri fikirləri qarşılaşdırdığımızda, əslində, daha öncə də üzərində durmuş olduğumuz məsələlərin təsdiqini hər iki müəllifin düşüncələrində tapdığını anlamaq mümkündür. Başqa sözlə, tarixi romanların tarixi olduğu kimi əks etdirmədiyi və yazıçının təxəyyülünün məhsulu olduğu reallığı özünü göstərməkdədir.

Turqut Göğebakan da "Tarihsel Roman Üzerine" adlı kitabında tarixi romanının inkişafıyla əlaqəli müzakirələri beynəlxalq ədəbiyyata əsasən etməyə çalışmışdır. T.Göğebakan, tarix və roman arasında əlaqə qurulmasının önəmini vurğulayır. "*Tarixi roman tarix ilə yaxınlığından çox dönəmin düşüncəsinə əsasən formalaşmalıdır. Xəyal qurularkən tarixi hadisələri, bir "propaqanda" halına gətirərək oxucuya təqdim etməsi, tarixi romanın gücünü ortaya qoyur*" [99]. Göründüyü kimi, Türkiyədə yazılan əsərlərdə "tarixi roman nədir?" sualına dəqiq cavab verilmir. Müzakirələr isə tarixi romanın nə olduğunu deyil, nə olması gərəkdiyini göstərməkdədir.

Müstəqillik dövrü Azərbaycan romanlarında müasirliklə yanaşı, diqqəti çəkən mühüm məsələlərdən biri tarixilik problemidir. Araşdırmaya cəlb olunan dövrdə əsərlərin bir qismi tarixi mövzuda qələmə alındığı üçün yazıçıların yaradıcılığının bu aspektinə toxunulmasına ciddi ehtiyac duyulur. Məlumdur ki, ədəbi-estetik fikirdə tarixilik problemi ciddi mübahisə və müzakirələrə səbəb olan zəruri komponentlərdən biridir. Tarixi mövzuda yazmaq tarixin hər hansı qaranlıq dövrünün, yaxud şəxsiyyətinin canlandırılması, xalqın etnoqrafik yaddaşının bərpa edilməsi, bu günün problemlərinin keçmişin işığında əks etdirilməsi məramına əsaslanır. Müstəqillik dövrü Azərbaycan tarixi romanlarında bu amillər aşkar şəkildə özünü büruzə verməkdədir. Ona görə də mövcud romanlar tarixilik baxımından araşdırılarkən bu cəhət nəzərdən qaçırılmamalıdır. Lakin tarixi mövzuda yazılan romanlarda da müasirlik amili qabarıq şəkildə bədii ifadəsini tapmalıdır. Bu baxımdan Əzizə

Cəfərzadənin yaradıcılığını təhlil obyektinə çevirən filologiya elmləri doktoru, professor İfrat Əliyevanın mülahizələri maraq doğurmaqdadır: "*Əzizə Cəfərzadənin bir yazıçı kimi tarixə bu günün mövqeyindən yanaşmasının nəticəsidir ki, fantastik filmlərdə olduğu kimi, tarix doğrudan da bu günə çevrilir və bu günün problemlərinə xidmət etməyə başlayır*" [25, s.54]. Azərbaycan ədəbiyyatşünaslığında tarixi mövzuların işlənilməsi ilə bağlı başqa mülahizələr də mövcuddur. Məsələn, gənc tədqiqatçı Cəmilə Abbasovanın "Zamanla üz-üzə" adlı məqaləsində bununla bağlı oxuyuruq: "*Bir çox tanınmış yazıçılar üçün tarixə, fakt və hadisələrə müraciət keçmişin öyrənilməmiş, tədqiq edilməmiş səhifələrinin və şəxsiyyətlərinin canlandırılmasına xidmət edirsə, bir çox hallarda bu cəhət aparıcı keyfiyyət kimi özünü göstərmir"* [1, s.186-187]. Çünki yazıçıların böyük əksəriyyətini tarixin qaranlıq, öyrənilməmiş, yaxud yanlış təqdim olunmuş səhifələrinin və şəxsiyyətlərinin canlandırılması ilə yanaşı, həm də yaşadığı epoxanın ruhunu əks etdirmək missiyası və müasirlik məsələsi düşündürür. Başqa sözlə, tarixilik müasirliyə xidmət edən faktor kimi özünü büruzə verir.

Göründüyü kimi, müstəqillik dövrü Azərbaycan romanlarında tarixilik və müasirlik problemi bir-biri ilə əlaqəli qarşılıqlı vəhdətdədir. Bu da yaranan romanların janr özünəməxsusluğunu, bədii özəlliyini, mükəmməlliyini şərtləndirən cəhətlərdəndir. Müstəqillik dövrü Azərbaycan romanlarında tarixi mövzunun işlənilməsi problemindən bəhs olunarkən yazıçıların tarixi fakt və hadisələrə münasibəti, ondan nə şəkildə bəhrələnməsi məsələsinə də toxunulmasına ehtiyac vardır. Məlum olduğu kimi, tarixi roman müəllifi dərin mütaliəyə malik olmalı, hansı mövzuda yazırsa, yazsın, həmin mövzunu elmi şəkildə araşdırmalıdır. Məsələn, bəhs olunan dövrdə daha çox tarixi roman nəşr etdirmiş yazıçı Əzizə Cəfərzadənin romanlarında qaldırmış olduğu problem və hadisələrin elmi variantı da mövcuddur. Bu o deməkdir ki, yazıçı yalnız elmi şəkildə araşdırdığı və dərindən bələd olduğu mövzularda yazır. "*Tarixi hadisələrə dərindən bələd olduğu üçün Əzizə Cəfərzadənin romanları canlı və real təsir bağışlayır. Onun əksər romanlarında tarixi qaynaqlar və faktlar bədiiliyin içərisində məharətlə əridildiyindən inandırıcı təsir bağışlayır"*

[19, s.139]. Bu da bütün məqamlarda yazıçının əsərlərinin bədii keyfiyyətini şərtləndirmiş olur.

Filologiya elmləri doktoru, professor Vilayət Quliyev yazır: "*Bizə belə gəlir ki, bədii əsərdə tarixi tematikanı müəyyənləşdirən əsas amil sənədlilikdir. Süjet xəttinin əsasında konkret tarixi hadisələr və real tarixi şəxsiyyətlər dayanan, təsvir və təhlillərdə artıq elm tərəfindən təsbit edilmiş fakt və məlumatlara istinad edən roman və povestlər tarixi əsər anlayışının tələblərinə daha çox cavab verir*" [46, s.164-165]. Aydın məsələdir ki, biz sənədliliyi tarixi janrın başlıca tələbi kimi irəli sürərkən, yazıçını tarixi vəsiqələrin ehtirassız qeydiyyatçısı, tarixi mənbələrin səlahiyyətsiz təsvirçisi simasında görmürük. Sadəcə olaraq romanın, yaxud povestin ümumi konfiqurasiyasını, karkasını sənədlər, real tarixi faktlar təşkil etməlidir, bütün qalan "tamamlama" işlərində yazıçı tam sərbəstdir və yaradıcılıq fantaziyasını istənilən istiqamətdə inkişaf etdirə bilər.

Yavuz Axundludan bir parçaya nəzər salaq: "*Qacar sülaləsindən olan Sultanəli bəy bayat ailəsinin tanınan nümayəndəsiydi, Şah qvardiyasında (qorcular) dəstə başçısıydı, anası kürd qızı Zərnişə xanım çəkəni tayfasından idi, Dönməz Soltanın qohumuydu. Osmanlı Türkiyəsi ilə 11 il idi ki, barış hökm sürürdü və Sultanəli bəy bu fasilədən istifadə edib uzun-uzadı döyüşlərin ağrısını canından çıxarırdı. O, xəstə yatan I Şah Təhmasibə baş çəkməyə hazırlaşırdı, amma Şah sarayına getməzdən əvvəl kəniz bazarına çıxmaq qərarına gəldi. Ona görə yox ki, baxıcıya və mövhumatçı bacılarının sözünə inanırdı, sadəcə qəlb rahatlığı tapmaq istəyirdi. Sultanəli bəy bazarı bir qədər gəzdikdən sonra daş-qaş dükanının yanında köhnə yəhudi tanışını gördü. O yəhudi ki, Himenanı təzəcə bazara gətirmiş və elə həmin daş-qaş dükanında da geyindirib-bəzəndirmişdi. Bir neçə il bundan əvvəl o həmin yəhudidən iki kəniz alıb, birinci Şah Təhmasibə göndərmişdi*" [32, s.18]. Yazıçının "On üçüncü həvari və ya 141-ci Don Juan" romanında tarixi faktlarla bədii təxəyyül məharətlə əlaqələndirilmişdir. Xüsusilə, dövrün təsvir və təqdimində bu cəhət özünü qabarıq şəkildə büruzə verir.

Filologiya elmləri doktoru, professor Qəzənfər Kazımov "Sənət düşüncələri" adlı kitabında yazır: "*Tarixi hadisələri obyektiv əks etdirmək, xalqı onun keçmişi ilə*

*düzgün tanış etmək yazıçının əsas vəzifəsidir. Süni, saxta, uydurma, qeyri-tarixi hadisələrin qələmə alınması oxucunu çaşdırır, keçmişə münasibəti korlayır, tarixi duyumla yaranmış təsəvvürləri heç edir*" [39, s.68]. Belə nəticəyə gəlmək olar ki, ədəbiyyat da tarix kimi tarixi düzgün əks etdirməlidir. Bədii ədəbiyyat tarixdən çox oxunur, buna görə də onun düzgün və obyektiv mövqeyi daha vacibdir. Bu tələblərə cavab verməyən əsərlər sadəcə olaraq mövzunu korlamaqla qalmır, dövrə yanlış münasibət yaratmaqla zərərli bir şey kimi ortaya çıxır.

Timura görə, "*tarixi romanın ortaya çıxması aydınlanma düşüncəsinə bağlıdır*" [114] və bu növün milli kimlik haqqında ilk dəfə ciddi düşüncə dönəminə girən İngiltərədə ortaya çıxması təsadüfi deyil. Qeyd edək ki, tarixi romanın inkişafı daim olaraq milliyyətçilik ideologiyasının içərisində dəyərləndirilmiş, sənət və iqtisadi dəyişimlə əlaqə qurulmamışdır.

Tarixi romanın Avropadakı inkişafı ilə Sovet İttifaqındakı inkişafı bir-birindən tamamilə fərqlidir. Xüsusilə 1920-ci illərdən sonra sosialist ideologiyasının hakimiyyəti altında yaşamaq məcburiyyətində qalan ölkələrdə, o cümlədən Azərbaycanda incəsənətin inkişafının təbii bir prosses olduğunu söyləmək mümkün deyil. "*Sovet dövrü Azərbaycan ədəbiyyatındakı tarixi roman digər ədəbi janrlar kimi siyasi bir prosesin məhsuludur. 1930-cu illərdən sonra çox populyarlaşan tarixi roman, Azərbaycan yazıçılarının əksəriyyəti tərəfindən nümunə alınan bir növə çevrildi*" [83, s.2]. Azərbaycan ədəbiyyatında ilk tarixi romanlara yanaşma, ədəbiyyatın bütün sahələrində olduğu kimi ideolojidir. Bu əsərlərdə dominant ideologiya olan sosializmin əsasları tarixin dərinliyində axtarılır. Avropadakı Fransa İnqilabı ilə güclənən milliyyətçiliyin təməllərinə söykənən tarixi roman, Sovet ideoloqları və ədəbiyyatşünasları tərəfindən milliyyətçi kimlik strukturundan uzaqlaşdırılmış və bu roman janrına inqilabi bir görünüş qazandırılmağa çalışılmışdır. Buna görə də Azərbaycan ədəbiyyatının tarixi romanlarını araşdırarkən, ideologiyanın bu yanaşmasına xüsusi diqqət yetirilməlidir.

Tarixi roman janrında Azərbaycan ədəbiyyatı özünəməxsus yol izləmişdir. Azərbaycan ədəbiyyatı lap qədimdən tarixi mövzuya müraciət etmiş, sonralar bu ənənə halını alaraq həm şifahi, həm da yazılı ədəbiyyat nümunələrində Azərbaycan

tarixinin şanlı səhifələrinə çevrilmiş və Azərbaycan xalqının əsrlər boyu apardığı azadlıq mübarizəsi, igidliyi, həmçinin keçdiyi əzablı yollar bədii şəkildə əks olunmuşdur.

Bədii ədəbiyyat tarix elmi ilə yol yoldaşı olsa da, öz xarakterinə, spesifik bədii idrak xassəsinə sadiq qalmalıdır və əsasən qalmışdır. Mehdi Hüseynin təbirincə desək, "*tarixçi dövrün ümumi ictimai münasibətlərini əks etdirirsə, yazıçı ən çox dövrün psixologiyasını təşrih edir. Tarixçi psixoloq deyildir. Lakin sənətkar psixoloq olmalıdır*" [82]. Başqa sözlə, bunsuz tarix elmi yaransa da, tarixi-bədii əsər yarana bilməz. Bir qədər də sadə desək, tarixçi "nələr olmuşdur?" sualına cavab verirsə, sənətkar "nələr ola bilərdi və necə ola bilərdi?" suallarına da cavab verir. Yəni yazıçının vəzifəsi heç də tarixi şəxsiyyətlərin fəaliyyətini başdan-başa izləyib bədii tərcümeyi-hal yaratmaqdan ibarət deyildir.

Bədii ədəbiyyatın bütün janrları bu və ya digər dar mənada "tarixin bədii salnaməsi", daha geniş mənada "zamanın səsi" funksiyasını müvəffəqiyyətlə, həm də özünəməxsus bir tərzdə yerinə yetirmişdir. Atalar sözləri və məsəllərdən tutmuş, məhəbbət və qəhrəmanlıq dastanlarına qədər şifahi xalq ədəbiyyatı nümunələrinin əksəriyyətində tarix öz izini, möhürünü saxlamışdır. Bu xüsusiyyəti daha çox şifahi xalq ədəbiyyatının dastan qolunda görürük. Doğrudan da, elə bir dastan tapmaq olmaz ki, bu və ya digər dar mənada müəyyən tarixi həqiqətləri özündə əks etdirməsin. Dastanlarda həmişə olmuş əhvalat, baş vermiş hadisə, tarixi həqiqət kimi danışılır. Bunların həyatda yaşanmamış olduqlarını nə danışan, nə də dinləyən ağlına belə gətirməz. Elə buna görədir ki, təkcə Azərbaycanda Koroğlu adı ilə əlaqədar yüzlərcə qala, dəyirman, qüllə, dağ, səngər və s. vardır.

Yazılı ədəbiyyat nümunələrinə gəldikdə isə bütün janrlarda, istər lirik, istər epik, istərsə də dramatik-tarixi hadisələr bu və ya digər dərəcədə öz əksini tapmışdır. Lakin ən fəal janr, şübhəsiz, roman olmuşdur. Lakin Azərbaycan romanının əsl inkişaf dövrü əsrimizin 20-30-cu illərində başlanmışdır. Çünki inqilabdan əvvəlki romanlarımız, tədqiqatçıların da qeyd etdikləri kimi, həqiqi romanın özü yox, onun eskizi, miniatürü təsiri bağışlayırdı. Bəlkə, elə bu səbəbdən uzun müddət onları povest adlandırmışlar. Maraqlıdır ki, Azərbaycan sovet romanının ilk nümunələrinin

bir çoxunu inqilabi-tarixi romanlar təşkil edir. Yəni 30-cu illərin əksər romanları Sovet hakimiyyəti uğrunda gedən mübarizələri əks etdirmişdir və bu gün bunu gizlətməyə heç bir ehtiyac yoxdur.

Azərbaycan tarixi romanının inkişaf yolunu əks etdirən və genişhəcmli bir tədqiqat əsəri kimi düşündüyümüz "Azərbaycan tarixi romanı" monoqrafiyasının 1-ci hissəsində ("Azərbaycan sovet tarixi romanı") biz məhz tarixi roman haqqında söhbətə 30-cu illərin nəsrindən başlamışdıq. Həmin kitabda Azərbaycan tarixi romanını yeni keyfiyyətli ədəbi hadisə kimi qiymətləndirib, bu janrın ilk nümunələrinin ("Dumanlı Təbriz", "Döyüşən şəhər", "Gizli Bakı" – M.S.Ordubadi, "Qızlar bulağı", "Qan içində" – Y.V.Çəmənzəminli) nəsrimizdə bu sahədə ilk uğurlu addımlar olduğunu qeyd etmişdik. Onu da qeyd etmişdik ki, sonrakı illərdə elə bu ənənə üstündə M.S.Ordubadinin "Dünya dəyişir", "Qılınc və qələm", M.Hüseynin "Səhər", M.İbrahimovun "Gələcək gün" və "Pərvanə", İ.Şıxlının "Dəli Kür", A.Makulunun "Səttarxan", "Gizli zindan" əsərləri və başqa tarixi romanlar yazılmışdır. Bu romanlarda xalqımızın tarixinin bir sıra mühüm və əlamətdar dövrləri işıqlandırılmışdır. Müəllif "Tarix və roman" adlı ikinci monoqrafiyasında 70-ci illərin ortalarından başlayaraq 10 ildən artıq bir müddətdə (1987-ci ilə qədər) qələmə alınmış tarixi romanlarımızın ideya-sənətkarlıq məziyyətlərindən söz açmışdır. Bu illərdə yazılmış tarixi romanlar "Sənətkar və zaman problemi", "Tarix, şəxsiyyət və xalq problemi", "Roman və bədii şərtilik" başlıqları altında təhlil süzgəcindən keçirilmişdir. Bu mərhələdə çap olunmuş tarixi romanlar içərisində janrın "ənənəvi" qayda, üsul, manera və normalarına sığmayan nümunələri də diqqəti cəlb edir. Məsələn, Yusif Səmədoğlunun "Qətl günü" romanında fəlsəfi çalarlar güclənir, sənətkar və zaman problemi yalnız bir dövrün, epoxanın sərhədinə sığışdırılmır, eyni problemin bütün zamanlarda təkrar olunduğunu nəzərə çarpdırır. Hətta burada bir çox tarixi şəxsiyyətlərin adları belə dəyişdirilmişdir. M.P.Vaqif sadəcə şair, H.Cavid isə Sədi Əfəndidir. Ancaq mətndən məlum olur ki, yazıçı kimə işarə edir. Deməli, burada konkret tarixi şəxsiyyətlərin taleləri arasında zaman paralelliyi izlənilir.

Yaxud İsa Hüseynovun "Məhşər" [35] romanını götürək. Bu tarixi romana janrın ilk mərhələsinə xas olan "tarixi hadisələri olduğu kimi təsvir etmək" prinsipi

ilə yanaşsaq, o zaman bir çox tarixi faktların həqiqətə uyğun olmadığı meydana çıxar. Məsələn, heç bir tarixi mənbə böyük Azərbaycan şairi Nəsimi ilə Şərqin tanınan hökmdarı Əmir Teymurun görüşü barədə soraq vermir. Lakin romanda qoyulan problemin miqyası, hürufiliyin o zaman bütün Şərq dünyasını bürüdüyü nəzərə alınarsa, tarixən belə bir görüşün mümkünlüyü ehtimalı yaranır. Onu da qeyd edək ki, indiki tarixi romanlarımızda macəraçılıq ünsürləri azalmaqdadır, orta əsrlərin cəngavər qəhrəmanlarının sevgisini təsvir edən salnamələrə də o qədər ehtiyac yoxdur. Bu əsərlər, hər şeydən əvvəl, tarixə müasir baxışla səciyyələnir. Dəyərli oxuculara təqdim olunan "Tarixi roman yeni mərhələdə" adlı üçüncü kitabda isə biz janrın, əsasən, 80-90-cı illərdə (bəzi istisnalar nəzərə alınmaqla) meydana çıxan nümunələrini tədqiqə cəlb etmişik.

Nasirimizin bu sahədəki inadlı axtarışları nəticəsində 60-cı illərdə "Dəli Kür" (İ.Şıxlı), "Pərvanə" (M.İbrahimov), 70-80-ci ilərdə "Qarlı aşırım", "Xudafərin körpüsü" (F.Kərimzadə), "Mahmud və Məryəm" (Elçin), "Qətl günü" (Y.Səmədoğlu) və s. tarixi romanları yaranmışdır. Lakin bütün bu nailiyyətlərlə bərabər son 20 ilin nəsrini heç də tarixi roman janrının hərtərəfli yüksəliş dövrü adlandırmaq olmaz. Bütün uğurları ilə bərabər tarixi roman janrı hələ milli tarixə bədii baxışın bütövlüyünü əldə edə bilməmişdir. Yenə əvvəlki illərdə olduğu kimi tarixi roman sayı baxımından qıtlıq hiss edilmir, amma say heç də sambal demək deyil. Bundan əlavə, son illərdə tariximizin açılmamış səhifələrinə, qaranlıq nöqtələrinə baş vurmaq cəhdi davam etməkdədir. Bir çox yazıçılar tariximizin nisbətən az öyrənilmiş və yaxud öz əksini tapmamış dövrlərinə müraciət edir, beləliklə, tariximizdə "ağ ləkələri"n bədii sözün qüdrətilə təmizlənməsinə can atırlar.

Bu baxımdan keçmişimizin əlamətdar dövrlərindən bir neçə roman yazmış görkəmli tarixçi alim Mahmud İsmayılovun adını qeyd etmək olar. Onun tarixi romanlarında xalqımızın soykökü ilə bağlı ciddi problemlər həmişə diqqət mərkəzində olmuşdur. Xüsusilə türkdilli babalarımızın bu torpağın əzəli sakinləri olması və ya sonralar buralara gəlməsi məsələsi ilə bağlı tarixçilər arasında uzun müddətdən bəri davam edən mübahisələrdə müəllif təkzib edilməz tarixi faktlara, maddi-mədəniyyət nümunələrinə, tarixçilərin məlumatlarına istinad edərək

birincilərin mövqeyində sabit dayanmışdır. O təkcə elmi əsərləri ilə deyil, bədii əsərləri ilə də bu konsepsiyanın ardıcıl müdafiəçisidir. Bu cəhətdən M.İsmayılovun "Sənin ulu baban" adlı romanı diqqəti cəlb edir. Müəllif yuxarıda qeyd olunan problemlə bağlı ən qədim çağlardan başlayaraq xalqımızın təşəkkülünə qədərki dövrün bir sıra ciddi hadisələrini nəzərdən keçirmiş, saf-çürük etmiş, tutarlı nümunələrlə fikirlərini əsaslandırmağa çalışmışdır. O, həm bədii vasitələrdən, həm də, yeri gəldikcə, publisistikanın imkanlarından bacarıqla istifadə etmişdir. Müəllifin tarixçi səriştəsi bütün roman boyu özünü açıq şəkildə göstərir. Kitab bu sözlərlə tamamlanır: "*Azərbaycan xalqı və onun dili səlçuqların bu yerlərə yürüşlərindən xeyli qabaq təşəkkül tapmış, XI və sonrakı yüzilliklərdə Azərbaycana gəlmiş Azərbaycan dilinin ləhcələrində danışan soylar, kütlələr isə etnik proseslərdə iştirak etmişdir*" [38, s.300].

Mərhum yazıçı Fərman Kərimzadənin tarixi romanları çağdaş nəsrimizdə janrın potensial imkanlarının tükənməzliyini sübut etdi. Müəllifin "Qarlı aşırım"ı daha səciyyəvidir [43] və həm də onun bütün sonrakı tarixi romanlarının özünəməxsusluğunu, digər müəlliflərlə müqayisədə tarixə və tarixi şəxsiyyətlərə münasibətini aydınlaşdırmağa kömək edir. "Qarlı aşırım" Azərbaycan nəsrində, xüsusilə tarixi roman janrında maraqlı bir ədəbi hadisə idi. Onu da xatırladaq ki, roman 70-ci illərdə keçmişə, tarixi hadisələrə məlum stereotiplərlə yanaşma şəklində qələmə alınmışdır. Lakin F.Kərimzadə mümkün qədər özü də ustalıqla bu stereotipdən yayınmağa çalışmış, istər bolşevik platformasında, istərsə də "düşmən" tərəfdə mübarizə aparan qüvvələri təsvir etdikdə eyni dərəcədə ifrat görünən tendensiyaçılıqdan qaçmışdır. Digər tərəfdən, yazıçı əvvəlki tarixi romanlara xas olan obrazları yalnız sinfi mövqedən qiymətləndirmək kimi ənənəvi üsuldan da xilas ola bilməmişdir. Mənfi obraz təkcə mənfi obraz olaraq qalmamış, həm də bir insan kimi bütün ziddiyyətləri və mürəkkəbliyi ilə canlandırılmışdır. Eyni üsulla müsbət obrazlar da yalnız müsbət görünsün deyə cansız, quru müqəvvaya çevrilməmiş, bütün insani cəhətləri ilə təqdim edilmişdir. Bir sözlə, F.Kərimzadə istər mənfi, istərsə də müsbət obrazları təsvir edərkən milli xarakter anlayışına sadiq qalmışdır. Romanda tarixi dövrə bütün mürəkkəbliyi və ziddiyyətli təzahürləri ilə, həm də müasir bədii

təfəkkürün işığında nəzər salınır. Yəni F.Kərimzadə “obyektiv-sosial və milli inkişafın tarixi məntiqini, onun fəlsəfi konsepsiyasına əsasən doğru və tam ifadə” etmişdir. “Qarlı aşırım”dan sonra F.Kərimzadə böyük sərkərdə və dövlət xadimi, anadilli ədəbiyyatımızın yaradıcılarından biri olan Şah İsmayıl Xətainin həyatından söz açan “Xudafərin körpüsü” və “Çaldıran döyüşü” dilogiyasını qələmə aldı.

Beləliklə, F.Kərimzadənin amalı tarixi yaddaşın bərpasına nail olmaq idi! Tarixi yaddaşın bərpası isə heç də mənbələrdəki faktları yan-yana düzüb qoşmaq deyil. Burada həmin faktların özünə də müasir bədii təfəkkürün işığında yanaşmaq lazımdır. F.Kərimzadənin ömrünün son illərində qələmə aldığı “Təbriz namusu” və “Qoca qartalın ölümü” romanları da məhz tarixi yaddaşın bərpasına xidmət edir.

Azərbaycan romanının inkişafında yeni bir mərhələ isə müstəqillik dövrü ilə bağlıdır. Belə ki, “*ötən əsrin 70-ci illərinin sonu, 80-ci illərinin əvvəllərində Azərbaycan ədəbiyyatında tarixi roman janrı özünün inkişafının yeni mərhələsinə qədəm qoyur*” [24, s.71]. Əvvəlki illərdən fərqli olaraq bu dövrdə yazılan tarixi romanlarda Azərbaycan xalqının dövlətçilik uğrunda apardığı mübarizələrə daha çox diqqət yetirilir.

Elaydiyə görə, iyirminci yüz ilin sonlarında Sovet İttifaqının çöküşü və Azərbaycanın yenidən istiqlaliyyət əldə etməsi cəmiyyətin ictimai-siyasi həyatında olduğu kimi, ədəbi-mədəni sferada da köklü, əsaslı dəyişikliklərin təməlini qoymuş oldu. Qeyd edək ki, sovet siyasi rejiminin çöküşü ilə uzun illər boyu ədəbiyyata hakim olan vahid yaradıcılıq metoduna – sosialist realizminə son qoyulması ədəbi-estetik fikirdə çoxmetodluluğun inkişafına təkan verdi. Son illərdə meydana gələn araşdırmalarda Məmməd Səid Ordubadi, Yusif Vəzir Çəmənzəminli, Mehdi Hüseyn, Süleyman Rəhimov, Ənvər Məmmədxanlı, Fərman Kərimzadə, Əzizə Cəfərzadə, İlyas Əfəndiyev, İsmayıl Şıxlı, İsa Hüseynov (Muğanna), Sabir Əhmədli, İsi Məlikzadə, Sabir Azəri, Əlisa Nicat, Mövlud Süleymanlı, Anar, Elçin və başqa sənətkarların yaradıcılığının təhlil obyektinə çevrilməsi bu baxımdan maraq doğurur. Azərbaycan ədəbiyyatşünaslığının qarşısında duran ən vacib problemlərdən biri müstəqillik dövrü romanlarının təhlil və tədqiq obyektinə çevrilməsidir. Müstəqillik dövrü Azərbaycan romanının (1991-2005-ci illər) ayrıca tədqiqat obyektinə

çevrilməsi çağdaş ədəbiyyatşünaslığın qarşısında duran ən mühüm vəzifələrdən biridir. Məlum olduğu kimi, müstəqillik dövründə Azərbaycan ədəbiyyatı özünəməxsus inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu özünəməxsusluq ədəbiyyatın digər janrları ilə müqayisədə roman janrında daha qabarıq təcəssümünü tapmaqdadır. Bu da təsadüfi deyildir, çünki dövrün ictimai problemlərini əks etdirmək baxımından roman bədii nəsrin digər janrlarından daha çox imkanlara malikdir. Bu səbəbdən təbii olaraq roman janrını araşdırmadan bədii nəsr haqqında dolğun və hərtərəfli mülahizə yürüdülməsi mümkün deyildir. Ancaq əvvəlki dövrlərdən fərqli olaraq müstəqillik illərində yaranan romanlar ədəbi tənqid və ədəbiyyatşünaslıq tərəfindən ciddi, sistemli şəkildə araşdırılmamışdır. Bu da şübhəsiz ki, ədəbi-nəzəri fikrin roman janrına yönəlik tədqiqatlarında müəyyən boşluqların yaranmasına gətirib çıxarmışdır.

Müasir Azərbaycan nəsrinin mühüm bir qolunu tarixi mövzuda yazılmış romanlar təşkil edir. Məlum olduğu kimi, tarixi romanların yaranması bir sıra amillərlə bağlıdır. Hər şeydən əvvəl, roman janrının bu tipi tarixin qaranlıq, öyrənilməmiş səhifələrinin aşkarlanmasına xidmət edir. Bir çox hallarda isə tarixin müəyyən dövr, şəxsiyyət və problemlərinin öyrənilməsinə siyasi-ideoloji qadağalar qoyulduğu dövrlərdə tarixin canlandırılması missiyası bədii nəsrin üzərinə düşür. Bütün bunlardan əlavə, tarixi roman janrının yaranmasını və işləkliyini şərtləndirən ən mühüm amil çağdaş dövrün problemlərinin tarixə söykənərək əks olunması zərurətidir.

Qeyd edək ki, Azərbaycan tarixi romanı son onillikdə özünəməxsus inkişaf yolu keçmiş, yeni mövzu, problematika və sənətkarlıq məziyyətləri ilə zənginləşmişdir. Sovet dövründə ədəbiyyatımızda toxunulması qadağan olan ayrı-ayrı mərhələlərin mühüm hadisələri və görkəmli şəxsiyyətləri indi artıq diqqət mərkəzinə çəkilmişdir.

Azərbaycanda müstəqillik dövründə yaranmış tarixi romanlar özünəməxsus mövzu, problematika yeniliyi, janr çalarları ilə diqqəti çəkməkdədir. Bu cəhət tarixi roman haqqında yazılan tədqiqatlarda bu və ya digər şəkildə elmi-nəzəri şərhini tapmışdır. Lakin qeyd etmək lazımdır ki, son illərdə yaranmış əksər tarixi romanlar ədəbi tənqid tərəfindən sistemli şəkildə araşdırılmamışdır. Araşdırmaya cəlb olunan

dövrdə Əzizə Cəfərzadənin "Gülüstandan öncə", "İşığa doğru", "Eşq sultanı", "Xəzərin göz yaşları", "Zərrintac-Tahirə", Elçin Hüseynbəylinin "On üçüncü həvari və ya 141-ci Don Juan" romanları əvvəlki dövrlərdə yaranmış romanlardan fərqli olaraq tarixi fakt və hadisələrə qeyri-ənənəvi yanaşma tərzi ilə seçilir.

Araşdırılan dövrdə qələmə alınmış "Eşq sultanı" romanı müasir Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biri olan Əzizə Cəfərzadənin sonuncu əsəridir [18]. Tarixi janrda yazılmış bu roman Azərbaycan şairi Məhəmməd Füzulinin həyat və yaradıcılıq yolundan bəhs edir. Xatırladaq ki, Məhəmməd Füzulinin həyatı və yaradıcılığı haqqında tarixi qaynaqlarda məlumat o qədər də çox deyildir. Amma bununla belə Azərbaycan yazıçıları onun həyat və yaradıcılığı haqqında bir neçə bədii əsər yaratmışlar. Onu da qeyd etmək lazımdır ki, Əzizə Cəfərzadənin "Eşq sultanı" romanı Məhəmməd Füzuli haqqında yazılmış müstəqillik dövrünün ilk tarixi romanı deyildir. Bu əsərdən öncə tanınmış yazıçı Oqtay Salamzadənin "Sevgi iztirabı" adlı romanı nəşr olunmuşdur.

Əzizə Cəfərzadə romanda Füzulinin türklüyü ilə bağlı məqamların təsvirinə xüsusi diqqət yetirmiş, əsəri şairin anadan olduğu təxmin edilən Şamaxının qədim Bayat kəndinin tarixi və təsviri ilə başlamışdır. Çünki bir çox tənqidçilər şairi Füzuli Bağdadi kimi tanıyır və doğulduğu yerlə bağlı müxtəlif fərziyyələr irəli sürürlər. Məhz buna görə də yazıçı romanda Füzulinin Şirvandan İraqa köçüb getməsinin səbəbini qeyd etmişdir. Romanda qeyd olunduğu kimi, Füzulinin anası ərə gedəndən beş il sonra Allah ona bir oğul bağışlayır. O, əhdinə görə, Kərbəlaya köçür ki, oğlunu İmam Hüseyn qulluğuna qoysun. Yazıçı romanda Füzulinin "Leyli və Məcnun" dastanını əsas götürmüş və bu əsəri Füzulinin həyatının inikası kimi təqdim etmişdir. Bu dastanda bəhs olunan məhəbbət Füzuliyə məxsus ilahi bir sevgidir. Məktəb zamanından başlayan bu sevgi Füzulinin ərəb dili müəlliminin qızına olan münasibətinə söykənir. Elə buna görə də keçirdiyi hiss və duyğular Füzulinin eşq mülkünün padşahı və türkcə qəzəlin sultanı olmasına təkan verir.

"Eşq sultanı" romanı tarixi mövzuda yazıldığına görə əsərin əsas qəhrəmanları da tarixi səpkidə yaradılmışdır. Bu mənada Yavuz Sultan Səlim və oğlu Sultan Süleyman daha çox diqqəti cəlb edir. Yazıçı romanda Sultan Səlimə tənqidi şəkildə

yanaşmış, onun oğlu Sultan Süleymanı isə əsas etibarilə müsbət planda təqdim etmişdir.

Müasir Azərbaycan nəsrində yaranan tarixi romanların bir qismində uzaq keçmişin mənzərəsi canlandırılmışdırsa, digər qismində yaxın dövrdə baş verən hadisə və əhvalatlar bədii təcəssümünü tapmışdır. Xüsusilə Sovet hakimiyyəti illərində cərəyan edən hadisələr son illərdə qələmə alınan romanların mövzu obyektinə çevrilməkdədir. Qeyd edək ki, bəzi tənqidçi və ədəbiyyatşünaslar yaxın tarixi dövrdə baş verən hadisələrdən bəhs edən romanları tarixi kontekstdə dəyərləndirmirlər. Lakin burada bir məqama diqqət yetirilməsinə ehtiyac vardır. Belə ki, Sovet dövründə tarixi həqiqətlərin üzərinə pərdə çəkildiyindən, başqa sözlə, tarixi obyektiv şəkildə araşdırmaq imkanları olmadığından həmin dövrün hadisələrinə tarixi yöndə yanaşmağa zərurət duyulur. Bu mənada İsmayıl Şıxlının "Ölən dünyam", Əzizə Cəfərzadənin "Xəzərin göz yaşları" romanları diqqəti cəlb edir.

Azərbaycanın xalq yazıçısı İsmayıl Şıxlının "Ölən dünyam" romanı yaxın tarixi dövrün problemlərinin milli müstəvidə əks olunduğu, orijinal ifadə tərzi ilə seçilən bədii örnəklərdən biri kimi ədəbi-nəzəri fikirdə yüksək qiymətləndirilmişdir.

Yazıçı, romana yazdığı "Müəllifdən" adlı qısa, yığcam müqəddimədə əsərin yaranması ilə bağlı qənaətlərini ifadə edərkən tarixi dövrün müasir təfəkkür işığında canlandırılması məsələlərinə də aydınlıq gətirmişdir: "*Mən "Dəli Kür" romanını yazdıqdan sonra Azərbaycanda 20-ci illərdə baş verən inqilab tariximizdən yazmaq qərarına gəldim, müəyyən materiallar topladım, hətta əsərin adını da oxuculara çatdırdım. "Qanlı təpə" adlanan bu əsər 20-ci illərin mürəkkəb və ziddiyyətli həyatını əhatə etməli idi. Lakin mövcud olan qadağalar, arxiv sənədlərinin gizlin saxlanılması, o illərdə baş verən əsl həqiqət və ziddiyyətlərin meydana çıxarılıb açıq söylənilməsinə qoyulmuş yasaqların nəticəsində tarixi dövrü olduğu kimi verməyin qeyri-mümkünlüyü məni fikrimdən daşındırdı. Gördüm ki, yazacağım əsər yazılmış əsərlərin ("Dünya qopur", "Bir gəncin manifesti", "Dumanlı Təbriz", "Səhər", "Şamo") təkrarından başqa bir şey olmayacaq. Ona görə də romanı yazmamağı qərara aldım. Lakin son illərdə baş verən hadisələr, məhdudiyyət və qadağaların götürülməsi, baş vermiş hadisələrin qismən gerçəkliklə verilməsi imkanı məni əsər*

*üzərində yenidən işləməyə sövq etdi və mən yeni roman üzərində işləməyi qərara aldım. Əsərin ruhu və məzmunu tamam yeni oldu, əsərin adı da dəyişdi. Mən romanımı "Ölən dünyam" adlandırdım*" [79, s.6].

İsmayıl Şıxlının əvvəlki romanlarından fərqli olaraq "Ölən dünyam"da baş qəhrəman və vahid süjet xətti yoxdur. Burada bəhs edilən qəhrəmanların əksəriyyəti epizodik səciyyə daşıyır. Lakin yazıçının epizodik səciyyəli qəhrəmanları da daxili-mənəvi dünyasının özünəməxsus cizgiləri ilə yadda qalırlar. Romanın süjet xəttinin əsasını Çıraqlı tayfaları ilə Alqazaxlılar arasındakı qan düşmənçiliyi təşkil edir və yazıçı əsərdə sosial-siyasi problemlərə toxunmuşdur. Öz əhatə dairəsinə, miqyasına və kolliziyalarının gərginliyinə görə "Ölən dünyam"da təsvir edilən dövr bir roman materialı üçün kifayət qədərdir. Elə müəllif də iki tayfa arasında baş verən bu münaqişə ilə kifayətlənmir, diqqətini zamanın daha gərgin situasiyalarına yönəldir.

"Ölən dünyam" romanı tarixi sənədlərin, arxiv materiallarının, hadisələrin iştirakçısı olan adamların Azərbaycanda və xaricdə çap olunmuş xatirə və kitablarının əsasında qələmə alınmışdır. Əsərdə 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra rus işğalçılarına qarşı Gəncədə üsyan barədə ilk dəfə bədii şəkildə məlumat verilmişdir. Lakin tarixi qaynaq və sənədlərə əsaslanmasına baxmayaraq, romanda baş verən hadisələr əsas etibarilə yazıçının canlı müşahidələri əsasında qələmə alınmışdır.

Yaşatdığı ideальların, arzuların puçluğuna, gələcəyə olan inamının itdiyinə işarə edilən "Ölən dünyam" romanı istər İsmayıl Şıxlının yaradıcılığında, istərsə də Azərbaycan bədii nəsrində özünəməxsus yeri olan əsərlərdən biridir. Filologiya elmləri doktoru, professor Himalay Qasımov İsmayıl Şıxlının yaradıcılığını "Ölən dünyam" romanı kontekstində səciyyələndirərək yazır: "*Bir yazıçı kimi İsmayıl Şıxlıya fərəh verən dünyanın, necə deyərlər, heç də xali olmaması, inam və etiqadla yaşayan, namus və qeyrətlə ömür sürməyi, vətən və millət naminə qurbana çevrilməkdən çəkinməyib özünü xalq işi üçün fəda edən insanların mövcudluğudur. İsmayıl Şıxlı yalan dünya ilə haqq dünyasını, maddiyyat düşkünləri ilə mənəvi paklığı uca tutanları, iblislərlə munisləri qarşılaşdırmaqla oxucularını əsl mətləblərdən agah edir, onların düşüncə sferasını genişləndirir və dərinləşdirir*" [44, s.7]. "Ölən

dünyam" romanının ideya-məfkurə yükünün, yazıçı idealının dəqiq səciyyələndirildiyi bu mülahizələrlə razılaşmamaq mümkün deyildir.

İsmayıl Şıxlının romanında önəm verdiyi məsələlərdən biri 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Gəncədə bolşevik ruslara qarşı baş qaldıran üsyanın bədii təsviridir. Yazıçı Azərbaycanın tarixində önəmli yer tutan bu hadisənin təsvirində tarixi qaynaqlara və sənədlərə istinad edərək, baş vermiş hadisənin dolğun bədii mənzərəsini yaratmağa çalışmışdır. Müəllif Gəncə Hərbi qarnizonu vəzifəsini icra edən, General Cavad bəy Şıxlinskinin, Gəncə atıcı alayının komandiri, polkovnik Cahangir bəy Kazımovun müqavimət hərəkatına başçılıq etməsini, onlara yardım edən vətənpərvər qaçaqları, hərbçiləri, sadə insanları canlı, təbii cizgilərlə canlandırmışdır. Əlbəttə, yazıçı təsvir etdiyi bütün obrazları əhatəli şəkildə təqdim edə bilməmişdir. Bu, hər şeydən əvvəl, əsərin yazıldığı dövrdə Gəncə üsyanı ilə bağlı sənəd, fakt və məlumatların son dərəcə azlığı ilə bağlıdır. Lakin təsvir olunan hadisələr oxucuda baş verən üsyan haqqında canlı təsəvvür yaratdığı üçün roman maraqla oxunur.

"Ölən dünyam" romanında Sovet hakimiyyətinin "sinfi düşmən" adı ilə kütləvi şəkildə Sibirə sürgün etdiyi insanların acı, kədərli taleləri özünəməxsus şəkildə bədii təzahürünü tapmışdır. Romanın həmin səhifələrini həyəcansız oxumaq mümkün deyildir: "*Qatar 3 gün, 3 gecə yol getdi. Vaqonun havası kəsifləşdi. Yolboyu içəridən qapını ha döydülər, ha xahiş etdilər onu bir azca açsınlar, ancaq bayırdan bircə cavab eşitdilər: "Ne polojeno". Güllü xanım bu sərt sözlərdən başa düşdü ki, indi qatarı müşayiət edənlər züllə papaq əsgərlərdi. Onlar: "Ne polojeno" – deyə qışqırdıqları zaman vaqonların ağzında itlər səs-səsə verib hürüşüb taxtaları cırmaqlayırdılar. Qatar hərdən-bir hardasa dayananda belə qapını açmayan əsgərlər hirslənib tüfəngin qundağı ilə qapını döyəcləyib hətta camaatı qorxutmaq üçün göyə atəş də açırdılar. Bir həftədən sonra Güllü xanımgil başa düşdülər ki, heç yerdə vaqonlar dayanmayacaq və abır-həya itəcəkdi. Vaqonun ortasından pərdə çəkdilər. Uşaqlar, elə böyüklər də küncə iri qazan qoyub, utana-utana, hətta ağlaya-ağlaya təbii ehtiyaclarını ödədilər*" [79, s.183].

Bütövlükdə İsmayıl Şıxlının “Ölən dünyam” romanında Azərbaycan xalqının iyirminci yüzildə qarşılaşdığı fəlakətlər və faciələr real, canlı, inandırıcı bədii lövhələrlə, təkrarsız insan xarakterləri ilə əks olunmuşdur.

Azərbaycan ədəbiyyatında son illərdə yaranan bədii nəsr örnəkləri içərisində mövzu yeniliyi, qaldırılan problemin aktuallığı, habelə bədii özəlliyi ilə seçilən “Xəzərin göz yaşları” romanında rus sovet müstəmləkəsi dövründə Azərbaycan xalqının başına gətirilən faciələr bədii ifadəsini tapmışdır. Tarixi səpkidə qələmə alınan romanda 1938-ci ildə Moskvanın təhriki ilə əslən Güneydən olan Azərbaycan türklərinin qısa bir zaman kəsiyində kütləvi surətdə İrana göndərilməsi təsvir olunmuşdur.

Tarixi qaynaqlardan məlum olduğu kimi, İkinci Dünya müharibəsindən bir neçə il öncə imperiyanın sərhədləri boyu sovet hökumətinin təhlükəsizlik orqanları guya gələcəkdə baş verə biləcək casusluq fəaliyyətinin qarşısını almaq məqsədilə Azərbaycandakı İran vətəndaşları əvvəlcədən xəbərdarlıq edilmədən iki-üç gün ərzində ölkədən çıxarılmışlar. Ancaq Azərbaycan xalqına qarşı törədilən bu faciə sovet tarixşünaslığı tərəfindən gizlədilmiş, bununla bağlı heç bir tədqiqat əsəri çap olunmamışdır. Bu səbəbdən də həmin dövrdə baş verən faciə yalnız hadisənin şahidi olan insanların yaddaşında yaşamış və qoruyub saxlanılmışdır. Həmin hadisənin canlı şahidlərindən biri də məhz gələcək yazıçı Əzizə Cəfərzadə olmuşdur.

“Xəzərin göz yaşları” romanı, bir tərəfdən, tarixi fakt və hadisələrə söykənirsə, digər tərəfdən canlı müşahidə və təəssüratlar əsasında qələmə alınmışdır. Bu cəhət təsvir olunan hadisələrin inandırıcılığını və bütövlükdə əsərin oxunaqlığını təmin etmişdir.

Göründüyü kimi, yazıçılar tarixi romanlar vasitəsilə tarixə olan duyğu və düşüncələrini oxuculara çatdırır, eyni zamanda da oxucuların məlumatlanmasını təmin edirlər. Bu baxımdan Azərbaycanda dövlətçilik ənənələrinin inkişafı və Azərbaycan dilinin önəmli bir mövqedə qorunub saxlanması yolunda əvəzsiz xidmətləri olan Şah İsmayıl Xətai ilə bağlı tarixi romanların yazılmış olması olduqca təqdirəlayiqdir.

Şah İsmayıl ilə bağlı yazılmış tarixi romanlarda Şah İsmayılın böyüdüyü mühit, maraqları, ətrafındakı insanlarla münasibətləri, Şah İsmayılın duyğuları, dövlətin idarə edilməsi və atılan siyasi addımlar haqqında məlumat əldə etmək mümkündür. Bu mövzuda yazılmış romanların bir özəlliyi də yazarlarının hekayə və tarixi hadisələri iç-içə və yüksək keyfiyyətli ifadə tərzi ilə oxuculara təqdim etmiş olmasıdır.

Azərbaycan və Türkiyə ədəbiyyatlarında tarixi roman janrının səciyyəvi xüsusiyyətlərini Şah İsmayıl obrazı üzərində həyata keçirilmiş araşdırmalar əsasında tədqiqat işinin digər bölümlərində açıqlamağa çalışmışıq. Lakin tarixi romanlardakı Şah İsmayıl obrazına nəzər salmadan öncə Şah İsmayılın həyatı, Şah İsmayıl dövrünün tarixi, Şah İsmayılın böyüdüyü mühit və Qızılbaşlıq ideologiyası ilə bağlı məlumata yer verilməsi gələcəkdə tədqiqata cəlb olunan tarixi romanları anlamaq baxımından olduqca önəmlidir. Odur ki, sıradakı başlıq altında Şah İsmayıl Xətai və Səfəvilər ilə bağlı araşdırmanın zəruri olduğu düşünülərək Şah İsmayılın həyatı və siyasi fəaliyyəti nəzərdən keçirilmişdir.

### 1.2. Tarixi şəxsiyyətlərin bədii obrazına baxış

XX əsr Azərbaycan ədəbiyyatında xalqın ictimai-siyasi həyatında müstəsna rolu olan tarixi şəxsiyyətlərin bədii obrazları yaradılmışdır. Əsrlərlə xalqımızın tarixində əbədiyyət qazanan, böyük dövlətçilik ənənəsinin qurulmasında, formalaşmasında mühüm xidmətlər göstərən belə şəxsiyyətlərin obrazının ədəbiyyata gətirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu, hər şeydən öncə soykökə, milli yaddaşa qayıdışın təminatına stimul verir, tarixi yaddaşı təzələyir, xalqın öz tarixini daha dərindən mənimsəməsinə zəmin yaradır. Ötən əsrin 80-ci illərində ədəbiyyatımızda xeyli sayda tarixi şəxsiyyətlərin, mütəfəkkir insanların, ədəbiyyat və sənət adamlarının maraqlı və yaddaqalan obrazı yaradılmış və geniş oxucu auditoriyasına çatdırılmışdır.

XX əsrin bu mərhələsində yazılan tarixi romanlar sırasında İsa Hüseynovun “Məhşər”, Əzizə Cəfərzadənin “Vətənə qayıt”, “Aləmdə səsim var”, “Yad et məni”,

“Bakı 1501”, Cəlal Bərgüşadın “Sıyrılmış qılınc”, Çingiz Hüseynovun “Fətəli fəthi”, “Doktor N”, Əlisa Nicatın “Qızılbaşlar”, “Nəğməyə dönmüş ömür”, Mahmud İsmayılovun “Xaqani”, “Ağ yapıncı”, Elçinin “Mahmud və Məryəm”, Fərman Kərimzadənin “Qarlı aşırım”, “Xudafərin körpüsü”, “Çaldıran döyüşü”, “Təbriz namusu”, “Qoca qartalın ölümü”, Yunis Oğuzun “Nadir şah”, “Təhmasib”, “Əmir Teymur”, Elçin Hüseynbəylinin “Şah Abbas”, Fərman Eyvazlının “Qaçaq Kərəm” əsərlərini xüsusi qeyd etmək yerinə düşər. Bu romanlarda İmadəddin Nəsimi, Seyid Əzim Şirvani, Abbas Səhhət, Mirzə Fətəli Axundov, Nəriman Nərimanov, Mirzə Şəfi Vazeh, Əfzələddin Xaqani kimi söz və fikir adamlarının, şairlərin, Babək, Əmir Teymur, Şah İsmayıl Xətai, Çingiz xan, Pənah xan, Hacı Çələbi, Ziyad xan, Abbasqulu bəy Şadlınski, Şah Abbas, Qaçaq Kərəm kimi xalq qəhrəmanlarının, dövlət xadimlərinin, hökmdarların parlaq obrazları yaradılmış, onların xarakterindəki mürəkkəb və ziddiyyətli tərəflər işıqlandırılmışdır.

Bu tarixi romanlarda Azərbaycan xalqının taleyində öz izlərini qoymuş müxtəlif xarakterli tarixi şəxsiyyətlərin ictimai-siyasi və ədəbi-mədəni fəaliyyəti müfəssəl şəkildə öz inikasını tapmışdır. Geniş epik lövhələrin yer aldığı tarixi romanlarda dövrün epoxası, salnaməsi yaradılmış, insan amili zamanla kontekstdə qələmə alınmış və tarixi şəxsiyyətlərin bu mərhələdki yeri müəyyənləşdirilmişdir. Bu baxımdan Çingiz Hüseynovun Azərbaycan ədəbiyyatında dramaturgiyanın əsasını qoyan böyük realist ədibimiz, yazıçı-dramaturq Mirzə Fətəli Axundovun mühiti, həyatı, ictimai-siyasi və ədəbi fəaliyyətinə həsr etdiyi “Fətəli fəthi” romanı xüsusi əhəmiyyət kəsb edir. Romanın ən uğurlu və yaddaqalan səhifələrindən biri onun Azərbaycan xalqının XIX əsrdəki ictimai-siyasi həyatının geniş müstəvidə təqdimidir. Əsərdə imperialist qüvvələrin uzun müddətli çəkişmə və müharibələri nəticəsində Azərbaycanın parçalanaraq Rusiya və İran arasında ikiyə bölünməsi xalqımızın tarixinə yazılmış ən ədalətsiz qərar kimi mənalandırılır. Rus imperiyasının əsrlərcə davam edən müstəmləkəçilik siyasəti, özündən kiçik xalqlara qarşı şovinist münasibəti əsərin yaddaqalan və təsirli səhnələrindəndir. Böyük imperiyaların Azərbaycanın güclənməsindən, vahid bir dövlət halında birləşməsindən ehtiyat edərək öz mənfur siyasətlərini həyata keçirməsi xalqımızın böyük faciəsi kimi

göstərilir. Yazıçı romanda təsvir edilən bu hadisələrin məhz Mirzə Fətəli Axundovun gözləri qarşısında baş verdiyini və onun bu hadisələrə bir vətəndaş mövqeyindən yanaşmasını, mümkün qədər xalqının mənafeyi üçün çalışmasını real lövhələrlə əks etdirir. Yazıçı hələ əsərin əvvəlində M.F.Axundovun uşaqlıq illərinin təsvirini verərkən onun xəyalında canlandırdığı, yaddaşına həkk olunan, siyasi proseslərin təsvirini əks etdirən səhnələrdə çətin və mürəkkəb bir zamanda yaşadığını gözlərimiz qarşısında canlandırır. Yazıçı artıq o bir dramaturq, ictimai-siyasi arenada tanınan şıxsiyyət olarkən yenə də onun narahatlığını büruzə verən təsirli məqamlar kimi həmin səhnəni yada salır. *"Əsrin əvvəllərində, o hələ kiçik ikən baş vermiş hadisələr haqqında da dürüst məlumatı olmuşdur. Hansılar idi bu bir sıra mühüm hadisələr? General Sisyanovun komandanlığı altında Gəncənin işğalı, şəhərin adının dəyişdirilməsi, Cavad xanın faciəsi, I Pyotrun tarixi vəsiyyəti, bir-birinin ardınca zəbt edilmiş xanlıqlar, Bakının işğalı, İran-Rusiya müharibəsi, çar Rusiyasının siyasətinə qarşı çevrilmiş Qazax, Borçalı qiyamları, son nəticədə Gülüstan və Türkmənçay müqavilələri və bu müqavilələrlə Azərbaycanın tarixi faciəsinin "qanuniləşdirilməsi", rus imperiyası daxilindəki çaxnaşmalar, toqquşmalar, gürcülərin üsyanı, polyakların üsyanı, məşhur Şamil hərəkatı və s.*" [74, s.228].

Çingiz Hüseynov romanda M.F.Axundovu təkcə ictimai-siyasi hadisələrin burulğanında təsvir etməklə kifayətlənmir, eyni zamanda onu sənət döstlarının əhatəsində, ailə-məişət problemləri fonunda da həssas və qayğıkeş bir obraz kimi təqdim edir. Roman dövrün geniş panoramını verməklə, oxucuda tam dolğun təsəvvür yaratmaqla yanaşı, həm də M.F.Axundovla eyni dövrdə yaşayan şair və yazıçılar haqqında müfəssəl məlumat vermək baxımından da dəyərli bir əsərdir. Romanda dövrün tanınmış şair və yazıçılarının, o cümlədən Abasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Mirzə Şəfi Vazeh, Xurşudbanu Natəvan, Qasım bəy Zakir, Həsən bəy Zərdabi kimi böyük şəxsiyyətlərin obrazları yüksək sənətkarlıqla yaradılmış və onların M.F.Axundovla səmimi dostluq münasibətləri bədii inikasını tapmışdır.

Tarixi şəxsiyyətlərin yer aldığı maraqlı romanlardan biri də Elçinin "Mahmud və Məryəm" əsəridir. Roman real tarixi hadisələrlə yanaşı, həm də "Əsli və Kərəm"

dastanının motivləri əsasında qələmə alınmışdır. Yazıçı əsəri konkret zamanla, yəni 1514-cü ildə xalqımızın tarixində iz qoyan Çaldıran döyüşünün başlanması ilə əlaqələndirir. Romanda döyüşün təfsilatına yer verilməsə də, süjet xəttində Çaldıran döyüşü ilə bağlı məsələlərə xeyli yer verilib. Yazıçı romanda zaman və məkan prinsipinin qorunub saxlanmasını da diqqət mərkəzində saxlayır. Hadisələr Səfəvi dövlətinə məxsus olan Gəncə bəylərbəyliyi, Ərzurum, Maku, Çaldıran düzü və Türkiyə sultanlığı və Diyarbəkrdə cərəyan edir. Əsərdə tarixi şəxsiyyətlər kimi tanınan Şah İsmayıl Xətainin, Ziyad xanın, Xan Məhəmməd Ustaclının, Sultan Səlimin, Süleyman paşanın həm öz üzərlərinə düşən missiyanı yerinə yetirən ictimai xarakteri, həm roman qəhrəmanları kimi tarixi obrazları, həm də fərdi cizgiləri ilə seçilən yaddaqalan obrazları yaradılmışdır.

Tarixi şəxsiyyətlərin bənzərsiz, təkrarsız obrazlarının yer aldığı romanlar sırasında Əlisa Nicatın "Qızılbaşlar", Əzizə Cəfərzadənin "Bakı-1501", Fərman Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" romanlarının özünəməxsus yeri vardır.

Azərbaycan xalqının tarixində xüsusi mərhələ təşkil edən XV-XVI əsrlər sonrakı dövlətçilik ənənələrinin qoyulmasında təməl funksiyasını daşımışdır. Bu zaman Səfəvilər *"Azərbaycan siyasi həyatında mühüm rol oynamışlar. Məhz Səfəvilərin Ərdəbil hakimiyyəti mərkəzləşmiş Azərbaycan dövlətinin yaradılmasında rüşeym olmuşdur. XV əsrin ortalarından etibarən Səfəvilər daha fəal siyasət yeritməyə başladılar"* [10]. Azərbaycan Səfəvi dövlətinin yardılması, qüdrətli bir hakimiyyətin bərqərar olmasında Səfəvi xanədanına mənsub tarixi şəxsiyyətlərin böyük xidmətləri danılmazdır. Xüsusilə, Şah İsmayıl Xətainin mənsub olduğu şəcərənin nümayəndələri Şeyx Cüneyd və Şeyx Heydərin vahid Azərbaycan dövləti qurmaq uğrunda apardıqları ideoloji mübarizə sonralar Şah İsmayıl tərəfindən uğurla davam etdirilmiş və bu tarixi missiya reallaşmışdır. *"Amu Dəryadan Fərat çayına qədər"* geniş ərazini əhatə edən *"Səfəvilər dövlətinin yaranması Azərbaycan tarixində mühüm hadisə idi"* [10, s.403]. Səfəvilər dövlətinin yaranması, formalaşması, nüfuzlu, dayanıqlı və böyük bir dövlətə çevrilməsində Şah İsmayılın tarixi xidmətləri Azərbaycan ədəbiyyatında yüksək dəyərləndirilmiş, Əlisa Nicatın

"Qızılbaşlar", Əzizə Cəfərzadənin "Bakı-1501", Fərman Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" dilogiyasında geniş şəkildə əksini tapmışdır. 80-ci illərdə Şah İsmayıl şəxsiyyətinə bu qədər marağın artması bu dövrdə keçmiş Sovetlər Birliyində rejimin çöküşü, 70 illik bir dövrdə xalqları öz müstəmləkəsində saxlayan diktaturanın süquta uğraması prosesinin başlanması ilə əlaqədar idi. Xalqın azadlıq və istiqlaliyyət uğrunda mübarizəyə qoşulmasında Şah İsmayıl şəxsiyyəti və onun böyük tarixi ənənələrə söykənən dövlətçilik siyasəti cəmiyyətdə yeni ab-havanın yaranmasına, onlarda milli duyğuların oyanmasına, demokratik hisslərin formalaşmasına güclü təkan vermişdir. Cəmiyyətdə hökm sürən bu ictimai-siyasi proseslər, əsaslı dəyişikliklər XV-XVI əsrdə cərəyan edən hadisələrin XX əsrə transfer etməsi təsiri bağışlayır və bu tarixi ənənələrin sovet diktaturasının məngənəsindən qopub ayrılmasında mühüm rol oynadığını bir daha təsdiqləyir. Baş verən proseslər beş yüz ildən artıq bir vaxt keçməsinə baxmayaraq, Azərbaycan xalqının XX əsrdə də öz tarixi keçmişini, ata-babalarının miras qoyduğu dövlətçilik ənənələrini unutmadığını və onun mütərəqqi cəhətlərindən yararlanaraq daha mükəmməl, demokratik bir dövlət və hakimiyyətin qurulmasında ardıcıl və prinsipial mübarizə apardığını göstərir. Bütün bunlar tarixi romanların yaranmasını şərtləndirən amillər kimi diqqəti cəlb edir və böyük dövlət xadimlərinin ictimai-siyasi və ədəbi-mədəni fəaliyyətinin işıqlandırılması zərurətini ortaya çıxarır. Xalqın milli şüurunun oyanmasında müsbət rol oynayan belə bədii əsərlərdə müasirliklə tarixiliyin üzvi sintezi əsas faktorlardan biri kimi ön plana çəkilir. Məhz Şah İsmayıl Xətai haqqında yazılmış romanlarda da bu tendensiyanı aydın şəkildə görmək mümkündür. Bununla belə Şah İsmayıl şəxsiyyətinə, onun dövlətçilik uğrunda apardığı mübarizə və mücadilələrə həm yazıçıların, həm də tənqidçilərin müxtəlif mövqedən, fərqli prizmadan yanaşdığının şahidi oluruq. Bu da təbiidir, çünki hər bir insanın tarixdə baş verən hadisələrə və bu hadisələrin mərkəzində dayanan əsas hərəkətverici qüvvələrə, onların yürütdüyü siyasətə qarşı birmənalı münasibət sərgiləməsi inandırıcı görünmür. Bu mənada istər tarixi şəxsiyyətlərə yazıçı münasibəti, istərsə də yazılıb geniş oxucu auditoriyasının ixtiyarına verilmiş əsərlərə tənqidçi münasibəti şübhəsiz ki, yeknəsəqlikdən, birtərəflilikdən uzaq səciyyə daşımalı, müxtəlif baxış və

dünyagörüşü özündə ehtiva etməlidir. Bu baxımdan Şah İsmayılın xarakterindəki bütün keyfiyyətləri incəliyinə qədər açmaq zərurəti qarşıya çıxır. Onun hakimiyyət uğrunda mübarizədə öz qalibiyyətini təmin etmək üçün bir çox vasitələrdən istifadə etmək imkanlarından yararlanması təbii olaraq, birmənalı qarşılanmamışdır. Bəzən həm Azərbaycan, həm də Türkiyənin ədəbi fikir tarixində bu böyük hökmdar haqqında fərqli mülahizələrə, hətta obyektiv olmayan qənaətlərə rast gəlmək mümkündür. Şah İsmayıl Xətainin həyatını, ictimai-siyasi fəaliyyətini əks etdirən tarixi romanlar ədəbiyyatşünaslıq və ədəbi tənqidin daha çox diqqət mərkəzində saxladığı əsərlərdəndir. Bu əsərlər haqqında çoxsaylı məqalə və resenziyalar, dissertasiya və monoqrafiyalar yazılmış, sərf-nəzər edilərək təhlil süzgəcindən keçirilmişdir. Bir çox tədqiqatçıların araşdırmalarında Şah İsmayıl obrazı böyük dövlət xadimi, ağıllı və müdrik hökmdar, qüdrətli sərkərdə, yenilməz döyüşçü və incə ruhlu şair kimi təqdim edilir. Tənqidçi Vilayət Quliyev Əlisa Nicatın "Qızılbaşlar" romanında Şah İsmayılın xarakterini hərtərəfli təhlil edərək yazır: *"...Əlisa Nicat şair Xətai ilə dövlət xadimi Xətaini bir-birindən ayırmamış, əslində onun surətini daha tamamlanmış cizgilərlə təqdim etmək üçün obrazın tərcümeyi-halındakı, şəxsi həyatındakı paradoksal ştrixləri vəhdətdə canlandırmışdır*" [46, s.167].

Romanda yazıçı Şah İsmayılın ictimai-siyasi fəaliyyətini işıqlandırarkən dörd mühüm məqamı "Gilan", "Şirvan", "Təbriz" və "Çaldıran" məkanlarının fonunda təqdim edir. Bununla belə yazıçının Şah İsmayıl Xətainin ömür yoluna nəzər salaraq onun uşaqlıq, gənclik illərinin panoramını yaratmasını, Şirvanşahlarla mübarizə və döyüşlərini, hakimiyyət, taxt-tac uğrunda çarpışmalarını, Çaldıran savaşındakı geniş epik təsvirlərini tarixi həqiqətin bədii həqiqətə çevrilməsinin bütünlüklə uğurlu həlli kimi dəyərləndirmək obyektiv görünmür. Çünki bütün bu səhnələr müəyyən şəkildə romanda əksini tapsa da, Şah İsmayılın tarixi obrazının təqdimatında bəzi natamamlıqlar da nəzərə çarpır. Tənqidçi Təyyar Salamoğlu obrazın dolğun yaradılmamasının bəzi məqamlarına aydınlıq gətirərək yazır: *"Romanın "Gilan" və "Şirvan" fəsillərini ancaq şərti olaraq Şah İsmayıl haqqında romanın hissələri hesab etmək olar. Bu fəsillərin əhatə elədiyi tarixi mərhələdə özünü tanıyan, dərk edən, ictimai amalı formalaşan Şah İsmayıl yox idi. Bu "yoxluq" həmin fəsillərdə ciddi bir*

*"boşluq" yaratmış və müəllifin bu "boşluğu" doldurmaq üçün romana daxil etdiyi təfsilatlar baş qəhrəmanın tarixi xarakterini dolğunluğu ilə inikas etməyə istiqamətlənməmişdir. Doğrudur, "uşaqlıq" və "gənclik" illəri də qəhrəmanının tərcümeyi-halının tərkib hissəsi kimi romanın predmetinə çevrilə bilər. Lakin söhbət görkəmli tarixi şəxsiyyətdən gedirsə, onun həyatının inikas obyektinə çevrilən hər bir detalı xarakterin tarixi səciyyəsini daha canlı, aydın və dəqiq ifadə etməyə doğru istiqamətlənməlidir. Başqa sözlə, Şah İsmayılın həyat romanı ilk sətrindən son sətrinə qədər tarixi mənbələrdən tanıdığımız obraz haqqında qənaətlərimizi bir qədər də dərinləşdirməli, qaranlıq məqamları aydınlaşdırmalı və bütövləşdirməlidir. Ə.Nicatın "Qızılbaşlar" romanında tarixi həqiqətin bədii həqiqətə çevrilməsində çatışmayan əsas qüsur məhz bu cəhətdir"* [74, s.217].

Tarixdən məlumdur ki, Şah İsmayıl həm hakimiyyətdən öncə, həm də hökmdarlıq fəaliyyəti dövründə bir sıra döyüşlərdə iştirak etmiş və qələbələr qazanmışdır. Lakin Əlisa Nicatın romanda müharibə səhnələrinin təsviri ilə bağlı məqamlarda bu hadisələri bütün təfərrüatı ilə əks etdirərək ümumiləşdirmələr aparmasının, Şah İsmayılın tarixi qələbənin əsas hərəkətverici qüvvəsi kimi sərkərdəlik, öncüllük qabiliyyəti nümayiş etdirməsinin real inikasını görmək olmur. Tarixi mənbələrdən də bilirik ki, Şah İsmayıl bir sıra döyüşlərdə, o cümlədən Ağqoyunlu Əlvənd Mirzə ilə, Murad Mirzə ilə, Şeybanı xanla və başqa müharibələrində əsl sərkərdəlik qabiliyyətinə və bacarığına malik bir şəxsiyyət kimi təqdir edilib və real faktlar əsasında onun hərbi qüdrəti, yenilməzliyi göstərilib. Azərbaycan tarixində Şah İsmayılın Əlvənd Mirzə ilə döyüşü haqqında belə bir məlumat verilir: *"Bu döyüşdə İsmayıl əsl sərkərdəlik məharəti nümayiş etdirdi"* [10, s.402]. Şah İsmayılın "sərkərdəlik məharəti" ilə bağlı fakta onun Murad Mirzə ilə döyüşü haqqında məlumatda da rast gəlinir. Göründüyü kimi, yazıçı Şah İsmayılın apardığı müharibələri genişliyi ilə deyil, yalnız ayrı-ayrı epizodlar şəklində oxucuya təqdim edir. Bu da tarixi faktların təfərrüatı ilə çatdırılmasına deyil, Şah İsmayılın fəaliyyətini birbaşa ön plana çəkmək məqsədi daşıyır. Həmin prinsip Rüstəm Mirzə hakimiyyətinin süqutundan sonra taxt-taca sahib olan Gödək Əhmədlə münasibətdə də qorunub saxlanılmışdır. Yenə də yazıçı Şah İsmayılı hərbi və siyasi proseslərin

məngənəsində olan bir hökmdar, bu hadisələrin əsas aparıcı qüvvəsi olmasını diqqətdən kənarda saxlayır və sadəcə hökmdar kimi təqdim edir. Xüsusilə əsərin "Şirvan" adlı fəslində Şah İsmayılın yeddi minlik ordusunun rəqibin otuz minlik qoşunu ilə qeyri-bərabər döyüşdə əsl qəhrəmanlıq və şücaət göstərməsi, hökmdarın müridlərinin bu qanlı savaşda öz başçılarına arxa, dayaq olması, yenilməz hərbi gücə çevrilməsi və bütün bunların Şirvanşah Fərrux Yassar üzərindəki qələbəsini şərtləndirən amillərə çevrilməsi məsələləri romanda yetərincə işıqlandırılmamışdır. On beş yaşlı hökmdar dövrəsində olan əmirlərin diqqət və qayğısı ilə əhatələnsə də, onların və Şah İsmayılın sərkərdəlik qabiliyyəti kölgədə qalır, yazıçı bu mühüm məsələləri real lövhələrlə canlandırmır. Əlisa Nicatın təsvirlərindən belə nəticə hasil olur ki, qızılbaşların qələbəsini şərtləndirən əsas amil onların öz mürşidlərinə olan hörmət və məhəbbətidir. Əsərdə qızılbaşların döyüş ərəfəsində düşmən qüvvələrinin hücumundan dəf olunmaq üçün keşikçilər qoymaması, hərbi məsələlərə qeyri-ciddi münasibət göstərməsi kimi epizodların təsviri də tarixilik prinsipinin qorunmadığını göstərən faktlardandır.

Əlisa Nicatın və Fərman Kərimzadənin romanlarından fərqli olaraq, Əzizə Cəfərzadənin əsəri ədəbi tənqid və ədəbiyyatşünaslıq tərəfindən yüksək dəyərləndirilməmişdir. Vilayət Quliyev əsər haqqında qəti fikir səsləndirərək yazır*:* *"Ə.Cəfərzadənin "Bakı-1501" romanı tarixi nəsrin qarşısında qoyulan ciddi tələblərə cavab vermir"* [46, s.165]. Əsərin ideya-bədii xüsusiyyətləri, Şah İsmayıl obrazının xarakterik xüsusiyyətlərinin, özünəməxsus cəhətlərinin həqiqəti əks etdirməyərək öz orijinallığından uzaqlaşdırılması kimi fikir və düşüncələr Akif Hüseynov, Yavuz Axundov, Qulu Xəlilov, Vilayət Quliyev, Nadir Cabbarov tərəfindən də səsləndirilmişdir.

Qulu Xəlilov Əzizə Cəfərzadənin romanından fərqli olaraq, Fərman Kərimzadənin "Xudafərin körpüsü" əsərinə və onun qəhrəmanına fərqli münasibət sərgiləyərək bildirir ki, Fərman Kərimzadə bu romanında Şah İsmayılın obrazını müvəffəqiyyətlə yaradıb. Vilayət Quliyevin fikirləri də Qulu Xəlilovun fikirlərilə ekvivalentlik yaradır. O, Əzizə Cəfərzadənin əsərinə tənqidi mövqedən yanaşmış, Fərman Kərimzadənin romanlarını müsbət qiymətləndirərək qeyd etmişdir ki,

*"Fərman Kərimzadənin "Xudafərin körpüsü" romanında tarixə daha aydın və konkret münasibət hiss edilir"* [46, s.167].

"Çaldıran döyüşü"ndə birinci romandakı kimi yazıçı zamanı, epoxanı səciyyələndirmək məqsədi daşımır. Doğrudur, bu əsərdə də xeyli sayda tarixi şəxsiyyətlərin obrazlar qalareyası yaradılmışdır. Bunların sırasında Hüseyn Bayqara, Əlişir Nəvai, Şeybani xan, İldırım Bəyazid, Sultan Mahmud, Murad Mirzə, Ziyad xan, Şah İsmayıl, Lələ Hüseyn bəy, Dədə bəy, Xan Məhəmməd Ustaclı və başqalarının adlarını qeyd etmək olar ki, onlar əsərdə bir canlılıq, dinamika və rəngarənglik yaradırlar.

"Çaldıran döyüşü" romanını "Xudafərin körpüsü"ndən fərqli olaraq, "hadisə romanı" deyil, "tale romanı" adlandıran Təyyar Salamoğlu yazır: *"Çaldıran döyüşü" romanı əsl hökmdar xarakteri ilə bağlı yazıçı konsepsiyasının bədii ifadəsidir. Romanın ideya-estetik yükü hökmdar və xalq, hökmdar və dövlət probleminin bədii şərhi ilə müəyyənləşir. Əsərin bütün obrazlar sistemi, təsvirin mərkəzinə çəkilən hadisələrin xarakteri, süjetin hərəkətində təyinedici amil bu problemlə bağlıdır. Romanın mərkəzi siması – Şah İsmayılın hərəkət, düşüncə və xarakteri müəllifin bədii niyyətindən güc alır"* [74, s.221-222].

Şah İsmayıl Xətaini bir hökmdar kimi ən çox narahat edən vətənin taleyi idi. Onun hakimiyyətə gəlməsinin də əsas səbəbi budur. Sonadək əqidəsinə sadiq qalan İsmayılın bu daxili təlaşı və nigarançılığı yazıçı təhkiyəsində də öz əksini tapmışdır: " *Elə bilirdi ki, oturan kimi taxt onu öz hakimiyyəti altına alacaq, onun niyyətlərini unutduracaq, babasının qoyduğu yol-ərkandan çıxarıb üzünü biyabana çevirəcəkdir"* [37, s.11].

Yazıçı əsərdə Şah İsmayılın müdrik, ağıllı, cəsarətli və tədbirli bir hökmdar xarakterini hərtərəfli əks etdirmişdir. Onun Azərbaycan dövlətinin yaradılması uğrunda apardığı mübarizələr, ana dilini dövlət dili səviyyəsinə yüksəltməsi kimi böyük xidmətləri romanda tarixi faktlar əsasında qələmə alınmışdır.

Səfəvi təriqətinin formalaşmasından Şah İsmayıl hərəkatının başlandığı vaxta qədər təxminən iki əsrlik bir fasilə vardır. Bu dövr ərzində Səfəvi təriqət hərəkatının zəifləməməsi, əksinə, onun coğrafiyasının daha da genişlənməsi və özünə daha çox

tərəfdar qazanması özü maraqlı bir tarixi hadisədir. Şah İsmayıl hərəkatının mahiyyətinin düzgün dəyərləndirilməsi üçün Səfəvi təriqət hərəkatının tarixinin, məqsəd və vəzifələrinin öyrənilməsinə ehtiyac vardır. Bu bir tərəfdən Səfəvi təriqət hərəkatı ilə Şah İsmayıl hərəkatı arasındakı qarşılılıqlı əlaqələrin mahiyyətinin və qarşılıqlı təsirlərinin mənzərəsini yaradarkən digər tərəfdən isə Səfəvi təriqət hərəkatının Azərbaycan xalqının ictimai-dini fikir tarixində yerinin müəyyənləşdirilməsi nöqteyi-nəzərindən olduqca əhəmiyyətli bir məsələdir.

Şeyx Səfiəddindən başlayaraq Şah İsmayıla qədər Səfəvi təriqət hərəkatına rəhbərlik etmiş mürşidi-kamillərin hər birinin ayrılıqda həm Azərbaycanın ictimai-dini fikir tarixində, həm də bu hərəkatın zirvəsi kimi Şah İsmayılın şəxsiyyətinin formalaşmasında hansı özünəməxsus rolun olması da aparılan tədqiqatla ortaya qoyula bilər. Eyni zamanda Azərbaycan türklərinin bu hərəkatın formalaşmasında və inkişafındakı yerinin müəyyənləşdirilməsi də Şah İsmayıl hərəkatının konkret məqamlarının öyrənilməsi üçün əhəmiyyət kəsb edir. Bununla Səfəvi təriqət hərəkatının və Səfəvi dövlətinin mənşəyi ilə bağlı tarixi müzakirələrə çıxarılan bir sıra məsələlərə də aydınlıq gətirmək olar. Ümumən, Səfəvi dövlətinin Azərbaycan və eləcə də qonşu xalqların dövlətçilik tarixindəki yerinin və rolunun müəyyən edilməsi də Şah İsmayılın tarixinin öyrənilməsini kifayət qədər aktuallaşdırmaqdadır. Şah İsmayıl bu dövlətin yaradıcısı idi və dövlətin əsasları da onun tərəfindən müəyyənləşdirilmişdi. Səfəvi dövlətinin uzun ömürlülüyünü, Şah İsmayıl dövründə onun daxili sabitliyini, nizamını, idarəçilik sistemini, idarəçilik təfəkkürünü qiymətləndirmək baxımından da Şah İsmayıl tarixinin öyrənilməsi aktual məsələdir. Aparılan tədqiqatla Səfəvi təriqət hərəkatının nə üçün siyasi məzmun kəsb etməsinə də aydınlıq gətirmək mümkündür.

“Buna bir ehtiyac var idimi, Səfəvi təriqət hərəkatının siyasi məzmun kəsb etməsi insanların ictimai-siyasi ehtiyaclarına cavab verirdimi, bu hərəkatın ictimai bazası necə formalaşmışdı və hansı qüvvələr üzərində formalaşmışdı?” – kimi suallara cavab tapılması elmi-tarixi aktuallıq kəsb etməkdədir. Şah İsmayıl tarixinin öyrənilməsi hər şeydən əvvəl elə onun özünün fenomen bir şəxsiyyət kimi xarakterinin açılması baxımından zəruridir. “Necə oldu ki, Şah İsmayıl Səfəvi təriqət

hərəkatının canlı qalmasını təmin etdi, kiçik yaşlarında olmasına baxmayaraq Səfəvi müridlərinin onun ətrafında səfərbər olmasına müvəffəq oldu, ətrafındakı bir neçə nəfərlə bölgənin siyasi mənzərəsini dəyişə biləcək bir hərəkata başladı, bu hərəkatı uğurla başa çatdırdı, Səfəvi dövləti kimi böyük və qüdrətli bir dövlətin əsasını qoydu, onun yaşarlılığına zəmin yaratdı?" və s. kimi sullara yalnız düzgün və obyektiv tədqiqatla cavab vermək mümkündür. Bu dini-siyasi hərəkatın formalaşmasında, ona rəhbərlik edilməsində, bölgədə mövcud olan dövlətlərə meydan oxunmasında Şah İsmayılın hələ kiçik yaşlarında təsirli rolunun olması təəccüb və heyrət doğura bilər.

Şah İsmayılın dünya tarixində fenomen şəxsiyyət kimi parlamasının səbəblərini müəyyənləşdirmək üçün onun yeni dövlət qurulması sahəsindəki təşəbbüskarlığının, ardıcıllığının, qətiyyətinin, inanclarının, əqidəsinin, ictimai-siyasi dəyərlərinin araşdırılmasına ehtiyac vardır. Şah İsmayılın fatehlik və cəngavərlik keyfiyyətlərinin açıqlanması üçün də ciddi tədqiqata ehtiyac vardır. Azərbaycan tarixində Şah İsmayıl yalnız böyük dövlət xadimi kimi yox, həm də böyük fateh, sərkərdə və cəngavər kimi yadda qalmışdır. Aparılan tədqiqatla Şah İsmayıl hərəkatının, onun hərbi-siyasi fəaliyyətinin, ümumən, Səfəvi dövlətinin hərb işinin Azərbaycanın hərb tarixində hansı yerə malik olmasını dəyərləndirmək mümkündür.

Şah İsmayılın hərbi keyfiyyətlərini, hərbi idarəçilik bacarığını, hərbi duyumunu, sərkərdəlik qabiliyyətini, səfərbəretmə bacarığını araşdırmadan onun xarakterini tam şəkildə açmaq mümkün deyil. Başlanan böyük bir hərəkatın uğurla tamamlanmasında, bölgə dövlətlərinin çox böyük sayda qoşunlarına üstün gəlinməsində, səltənət sərhədlərinin sürətlə genişləndirilməsində və onların müdafiəsində əsas yeri, sözsüz ki, Səfəvi qoşunlarının fəaliyyəti tuturdu. Bu qoşunların təşkilatlanmasında, qoşunların bütün gücünün hərbi vəzifələrin icrasına səfərbər edilməsində, bu qoşunların döyüş zamanı istiqamətləndirilməsində Şah İsmayılın rolunun aydınlaşdırılması da özünəməxsus əhəmiyyət və aktuallıq kəsb edir. Çünki Şah İsmayıl özü yüksək döyüş məharətinə malik olmasaydı, yəqin ki, qoşunlarını da öz ardınca apara bilməzdi.

Şah İsmayıl Azərbaycan tarixində həm də Azərbaycan dilinin və Azərbaycan ədəbiyyatının inkişafında xidmətləri olan bir şəxs kimi qalmışdır. Onun hakimiyyəti

illərində Azərbaycan dili adi bir ünsiyyət vasitəsi olmaqdan əlavə, həm də siyasi əhəmiyyət kəsb edirdi. Azərbaycan türkcəsi Şah İsmayıla qədər də kifayət qədər ciddi bir inkişaf yolu keçmişdi. Şah İsmayılın dövründə isə bu dilin cəmiyyətin və dövlətin həyatında hansı rol oynaması, hansı statusa sahib olması, hansı inkişafa malik olması da Şah İsmayılın xarakterini müəyyənləşdirən məqamlardandır. Azərbaycan dilinin inkişaf və istifadə səviyyəsi həm də Səfəvi dövlətinin mənşəyinin müəyyənləşdirilməsi üçün əhəmiyyət kəsb edə bilər. Şah İsmayılın, eyni zamanda Azərbaycan ədəbiyyatının inkişafında özünəməxsus rolu vardır. Bu rolun nədən ibarət olması, Şah İsmayılın şəxsində Azərbaycan ədəbiyyatının necə inkişaf etməsi, forma və məzmun rəngarəngliyinin aydınlaşdırılması, bu ədəbiyyatın xalq həyatına və Azərbaycanın ədəbi ənənələrinə necə bağlı olması məsələlərinin aydınlaşdırılması da Şah İsmayıl tarixinin öyrənilməsinin maraqlı nəticələrindən biri ola bilər. Bunu da qeyd etmək lazımdır ki, "*Şah İsmayıl Xətai əsərləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Azərbaycan Respublikasında dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir*" [8]. Bu isə Şah İsmayıl Xətai yaradıcılığının Azərbaycan ədəbiyyatı üçün nə qədər qiymətli olduğunu göstərir.

Bəzi mənbələrdə Şah İsmayıl və Səfəvi ordusu ilə bağlı xoşagəlməz ifadələr işlədilsə də, tarixi faktlar bu ifadələrin reallıqları əks etdirmədiyini göstərir. Məsələn, "*Güney Azərbaycan əsilli Güntay Gəncalpın Şah İsmayılı və Qızılbaşları hanniballıqda günahlandıraraq Şah İsmayıl və Qızılbaş* ordusunun *adam əti yediyini*" [13] bildirməsi həqiqətə uyğun deyildir və onun bu fikrinin formalaşmasında doğulub-böyüdüyü mühitin və rejimin təsirinin olduğu danılmazdır. Bunu Güntay Gəncalpın: "*Arxivlər göstərir ki, sovetin uydurduğu Şah İsmayılın qurduğu Bütöv Azərbaycan iftira və yalandır. Tarix kitabları göstərir ki, Şah İsmayıl İran-fars dövlətinin qurucusu olub*" – deməsindən də anlamaq mümkündür. Bunu da qeyd etmək lazımdır ki, bu fikir Güntay Gəncalpın Virtual.az-a verdiyi müsahibədən götürülmüşdür. Ancaq vurğulamaq lazımdır ki, Şah İsmayılın Ərdəbildə doğulması və Səfəvilər dövlətinin ərazisinin indiki İran torpaqlarını da əhatə etməsi Səfəvilər dövlətini İran-fars dövləti adlandırmağa əsas vermir. Unudulmamalıdır ki, Gülüstan

və Türkmənçay müqavilələri ilə Azərbaycan Şimal və Cənub olmaqla iki hissəyə parçalandı və bugunkü İran ərazisinin şimal bölgələri Cənubi Azərbaycan olaraq bilinir, Ərdəbil də onun bir parçasıdır. Eyni zamanda bunu da qeyd etmək lazımdır ki, qurulan Səfəvi dövlətinin tərkibində olan xalqlardan sadəcə talışlar farsdilli olublar. Bütün bunlar isə Səfəvi dövlətinin bir Azərbaycan dövləti olduğunu söyləməyə əsas verir.

Şah İsmayılı öyrənmək və öyrətmək üçün Şah İsmayılın böyüdüyü mühiti və onu yetirən dövr və insanları bilmək olduqca önəmli məsələlərdən biridir. Yəni mövzumuz hər nə qədər Şah İsmayıl haqqında yazılan əsərləri incələmək olsa da, qəbul etmək lazımdır ki, Şah İsmayılın həyatını və dövrünü daha yaxından bilmək əsərləri obyektiv bir şəkildə incələməyimizi də təmin edəcək.

Görkəmli dövlət xadimi, ana dilində yaranan şeirin inkişafına xüsusi qayğı göstərən, doğma zəminə möhkəm bağlı olan bir adam kimi ozan – aşıq sənətinə rəğbətlə yanaşan, özü bu dildə ölməz sənət inciləri yaradan, klassik şeir formaları ilə yanaşı xalq şeirinin müxtəlif şəkillərində dillər əzbəri ola biləcək əsərlər yaradan, bir yandan yazılı ədəbiyyatın, başqa bir yandan xalq yaradıcılığının zəngin ənənələrindən bəhrələnən, Azərbaycan xalqının ictimai-siyasi və mədəni yüksəlişində müstəsna xidmətləri olan bu nadir şəxsiyyət – "*Şah İsmayıl Xətai 1487-ci il iyulun 23-də Ərdəbil şəhərində kökü, izi tarixin çox-çox uzaq çağlarına gedib çıxan nüfuzlu, şöhrətli bir azərbaycanlı ailəsində anadan olmuşdur*" [77, s.5]. Qeyd etmək lazımdır ki, əslində, İsmayılın çox gənc yaşlarında döyüşlərə atılması və qüdrətli bir Azərbaycan dövləti olan Səfəvilər dövlətini yaratması onun babalarının çoxəsrlik mübarizələrinin nəticəsi idi. Belə ki, "*XIII-XIV əsrlərin qovşağında yaşayan və gələcəkdə qurulacaq dövlətə adı veriləcək Şeyx Səfiəddin Ərdəbilinin dövründən fəaliyyətə başlayan Darül-irşadi bütün Yaxın Şərq aləmində gedən elmi, fəlsəfi görüşlərin ən güclü mərkəzlərindən birinə çevrilmişdir. Qızılbaşlıq adı ilə tanınan Səfəviyyə cərəyanı burada formalaşmış, Şərqin bir çox ölkələrinə yayılmışdır. Buraya inamla gələn sufilər, müridlər İsmayılın babası, Şeyx Cüneydə, atası Şeyx Heydərə arxa olmuş, onlara yeni bir dövlətin bünövrəsini qoymağa yaxından kömək etmişlər*" [73, s.5]. Ana tərəfdən köklü bir ailəyə sahib olsa da hakimiyyət uğrunda gedən

mübarizə bu qohumluq əlaqələrini də zədələmiş, İsmayıl Səfəvilər dövlətini qurmaq üçün bütün gücünü ortaya qoymuşdur. "*Şah İsmayılın anası Aləmşah bəyim Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı, Sultan Yəqubun bacısı idi*" [77, s.6]. Ağqoyunluların Səfəvilərlə qohumluq əlaqələri yaratmaları bu sülalənin get-gedə artan nüfuzu ilə əlaqədardır. Belə ki, Səfəvilərdən gələ biləcək təhlükənin qarşısını almaq və yeri gələndə onlardan istifadə etmək məqsədini izləyən Ağqoyunlular buna Səfəvilərlə qohumluq əlaqələri sayəsində nail olacaqlarını düşünürlər. Ağqoyunluların Səfəvilərdən istifadə etmək istəyi Şeyx Heydərin apardığı uğurlu döyüşlərlə təsdiq olunsa da, Ağqoyunluların Səfəvilərə münasibəti sabit qalmır. Səfəvilərin get-gedə artan güc və qüdrəti Ağqoyunluları qorxuya salır. "*Şeyx Heydər xəyanətlə öldürülür, onun arvadı Aləmşah bəyim isə iki oğlu – İbrahim və İsmayıl ilə birlikdə İstəxrdə həbsdə saxlanılır. Sultan Yaqubun ölümündən sonra hakimiyyət uğrunda gedən vuruşmalarda Rüstəm Mirzə Səfəvilərdən istifadə etmək məqsədilə Şeyx Heydərin övladlarını həbsdən azad edir*" [77, s.6]. Ağqoyunlular səhv etdiklərini anladıqları vaxt isə artıq gec idi. Onlar İsmayıl və İbrahimi bir də ələ keçirə bilmirlər. Şah İsmayıl Gilan hakimi Həsən xanın himayəsi altında Lələ Hüseyn bəy tərəfindən tərbiyə olunur, qorxmaz bir sərkərdə və həssas düşüncəli bir ziyalı kimi yetişdirilir. Zaman isə İsmayılın xeyrinə işləyir. Belə ki, o dövrdə Ağqoyunlu dövlətində taxt-tac uğrunda gedən siyasi çəkişmələr qurulacaq Səfəvi dövləti üçün geniş imkanlar açırdı.

Bəzi Ağqoyunlu bəylərinin israrı ilə İstanbulda yaşayan Gödək Əhməd Ağqoyunlu taxtına çıxmaq üçün məmləkətinə geri dönür və Sultan Rüstəm Mirzə ilə mübarizə apararaq qalib gəlir, 1497-ci ildə Sultan Rüstəm Mirzəni öldürən Gödək Əhməd hakimiyyətə keçir. Lakin çox keçmədən Gödək Əhməd öldürülür. Gödək Əhmədin ölümündən sonra Əbih Sultan 1497-ci ilin dekabrında Qum şəhərində Yaqub Mirzənin oğlu 9 yaşlı Murad Mirzəni (1497-1503) Ağqoyunlu hökmdarı elan edərək, onun adından pul kəsdirdi. Əslində isə azyaşlı Murad Mirzə Əbih Sultandan asılı olmaqla Ağqoyunlu dövlətini idarə edirdi. Bu zaman Muradın əmisi oğlu Əlvənd Mirzə (Uzun Həsənin Yusif Mirzədən olan oğlu) Ağqoyunlu taxtı uğrunda mübarizəyə başlayaraq 1499-cu ilin sonunda Təbrizi ələ keçirdi. Beləliklə, bundan

sonra Ağqoyunlu dövlətində ikihakimiyyətlilik yarandı.

Hakimiyyətə gələn Əlvənd Mirzənin ilk işi isə qardaşı Məhəmmədi Yəzddən qovmaq olur. İsfahana qaçan Məhəmməd Mirzə döyüşlərdən birində Əlvənd Mirzəni məğlub edib Təbrizə çəkilməsinə nail olur. "*Bu hadisədən sonra Sultan Murad Şirazdan İsfahana gəlib 1499-cu ildə Məhəmmədi tutaraq Təbrizə sürgün edir*" [111, s.16]. Əlvənd Mirzə ilə Sultan Muradın mübarizəsi isə davam edir. 1500-cü ilin əvvəlində dərviş Baba Xeyrullahın köməyi ilə Təbriz yaxınlığında Əbhər adlı yerdə Murad Mirzə ilə Əlvənd Mirzə barışaraq saziş imzalayırlar. "*Tarixə Əbhər sazişi (1500) kimi düşən bu sülhün şərtlərinə əsasən:*

1. *Ağqoyunlu dövləti şahzadə Murad Mirzə ilə Əlvənd Mirzə arasında iki yerə bölündü;*
2. *Diyarbəkir, Kürdən cənubdakı Azərbaycan əraziləri və Qarabağ Əlvənd Mirzəyə verildi;*
3. *Bütün Ərəb İraqı, Fars və Kirman Ağqoyunlu Murad Mirzəyə keçdi;*
4. *Qızılüzən çayı tərəflər arasında sərhəd oldu"* [75, s.6].

Beləliklə, Əbhər sülhü nəticəsində Ağqoyunlu dövləti iki yerə parçalandı, hərbi qüdrəti sarsıldı, dövlətin süqutu sürətləndi. Yaranmış siyasi vəziyyət İsmayılın adını tarixə yazdırması üçün zəmin yaratdı və beləliklə, siyasi hərc-mərclik, taxt-tac uğrunda mübarizə İsmayılın hakimiyyətə gəlməsi üçün fürsət idi və İsmayıl bu fürsəti əldən verə bilməzdi.

Özlərini bundan sonra Qızılbaşlar olaraq tanıdacaq Səfəvi müridləri artıq hərəkətə keçə bilərdilər. Beləliklə, *"İsmayıl 1501-ci ildə Ərzincandan ayrılır və təxmini yeddi minlik qüvvə ilə Şirvanşahlar dövlətinə hücuma hazırlaşır"* [111, s.19]. Şirvanşahlara hücum etməsinin səbəbi isə atasının və babasının intiqamını almaq, eyni zamanda da zəngin Şirvan ölkəsindən əldə edəcəyi qənimətlərlə yanındakı qüvvələrin ehtiyaclarını təmin edərək güclənmək idi. Müridlərinin də dəstəyi ilə İsmayıl Şirvanşahlar ölkəsinə edilən hücumda müvəffəqiyyət qazanır.

Əlvənd Mirzə Şah İsmayılın Şirvanşahları məğlub etməsi xəbərini alan kimi böyük bir ordu ilə Təbrizdən Naxçıvana gəldi. O, qızılbaşların Kür çayını keçməsini əngəlləmək üçün hərbi rəisi Məhəmməd Qaracanı Gəncə və Qarabağa yolladı.

Qızılbaşlar Kür çayını keçib Əlvəndin göndərdiyi ordunu məhv etdilər. "*Əlvənd Şah İsmayıla Şirvana qayıtmaq tələbi ilə məktub göndərsə də, rədd cavabı aldıqdan sonra döyüşmək üçün nəzərdə tutduğu Şərur düzünə yollandı"* [29]. Lakin "*1501-ci ildə Şərur döyüşündə Əlvənd Mirzə məğlubiyyətə uğradı*" [112, s.273]. "*1501-ci ildə İsmayıl Təbrizə daxil olub özünü şah elan etdi"* [31, s.375]. Bununla da "*paytaxtı Təbriz olan Səfəvilər dövlətinin əsası qoyuldu*" [126]. "*Əlvənd Mirzə Ərzincana qaçmaqla xilas ola bildi*" [14, s.22]. Səfəvilər dövlətinin əsasının qoyulması Azərbaycan dövlətçilik ənənələrinin inkişafı üçün olduqca əhəmiyyətli addım olaraq qiymətləndirilə bilər. Şah İsmayılın dövlət quruculuğunda Qızılbaşlıq ideologiyasının olduqca önəmli yer aldığını xüsusi qeyd etmək lazımdır.

Qızılbaşlar 12 dilimli baş örtüyündən istifadə etdikləri üçün bu adla tanınırdılar. Qızılbaşlıq ideologiyası ilə bağlı fərqli fikirlər mövcuddur. Belə ki, Faruk Sümerə görə, "*XIII və XIV əsrlərdə Anadoludakı köçəri türklər qızıl börk geyirmişlər"* [111, s.9]. Qeyd etmək lazımdır ki, qızıl börk Yeniçərilərin, yəni Osmanlı imperiyasında daimi muzdlu piyada əsgəri hissənin baş örtüyünə deyilirdi. Səfəvi mürid və əsgərlərinin də geydikləri külah və tacların qızıl rəngdə olması bununla əlaqələndirilir. Alman alimi Karl Brokellmana görə isə *"atasının ölümündən sonra şeyx Heydər öz təriqətinə yeni bir şəkil vermişdir ki, bu da özünü yeni bir baş örtüyündə göstərmişdir*" [91, s.335]. Bu qırmızı başlıq 12 imama işarət edən 12 dilimli bir baş örtüyü idi.

"*Səfəviyyə cəmiyyəti müridlərinin və tərəfdarlarının şeyx Heydərin zamanında 12 qırmızı zolaqlı baş örtüyü geyməyə başladıqlarını və məhz bundan sonra onların Qızılbaşlar olaraq bilindiyini İ.P.Petruşevski də, S.Triminqem də vurğulayırlar*" [123; 124]. Səfəvilərin dini bağlılıqları və şeyx Heydərin öz atasını yaşatmaq, Qızılbaşlıq ideologiyasını əbədiləşdirmək üçün atdığı addım, sözsüz ki, Şah İsmayılın həyatında da öz təsirini göstərmişdir. Təsadüfi deyil ki, yeni qurulan dövlətə İsmayıl məhz şeyx Səfiəddinin adına hörmətlə Səfəvilər deyərək öz kökünə bağlılığını ortaya qoymuşdur.

12 şiə imamın şərəfinə qırmızı zolaqlı çalma bağlayan "*Qızılbaşlar şamlı, rumlu, ustaclı, təkəli, əfşar, qacar, zülqədər, varsaq, qaradağlı, bayat, qaramanlı,*

*baharlı, alpaut, ərəşli, qazaxlı və başqa türkdilli tayfaları birləşdirirdi"* [9, s.159]. Buradan da göründüyü kimi, bəzi qaynaqlarda Səfəvilərin İran-fars dövləti olması ilə bağlı yayılmış fikirlər özünü doğrulda bilməz. Daha öncə də qeyd edildiyi kimi, Qızılbaşların tərkibində olan yeganə farsdilli xalq talışlar idi.

"*Qızılbaşlıq sufilik (təsəvvüf) adlanan müsəlman mistikliyi və sufilikdən doğmuş hürufi şiə təriqəti ilə sıx bağlı olduğu*" [63, s.4] üçün şiəliyə də diqqət etmək lazımdır. Belə ki, şiəliyi bilmək Qızılbaşlıq ideologiyasını anlamağa xidmət etmiş olacaq ki, bu da Şah İsmayılın dövrünü və düşüncələrini analiz etməyimizdə əvəzsiz rol oynayacaqdır.

"*Şiələr islamiyyətdə ikinci ən güclü qoldur*" [37, s.10]. Şiə kəlməsi ərəb dilindən tərcümədə kiminsə ardından getmək, tərəfdarı və ya köməkçisi olmaq deməkdir. Quranda isə tərəfdar mənasında işlənməkdədir. Bu kəlmə ilə zamanla Hz. Əli və onun nəslindən gələn on iki İmama tərəfdar olanlara işarə edilmişdir. "*Şiə Hz. Məhəmmədin sağlığında Şiatu Ali yəni Əli tərəfdarlarına, peyğəmbərin vəfatının ardından isə Hz. Əlinin İslam Dövlətinin xəlifəsi olmasını gərək duyan zümrəyə verilən addır*" [15, s.24]. Şiəlik Hz. Məhəmmədin vəfatından sonra İslam hökuməti idarəsinin Hz. Əli və onun kökündən gələn imamlara aid olduğunu düşünən kütlənin ortaq adıdır.

Hz. Məhəmmədin vəfatından sonra müsəlmanlar arasında İslam fərqli şəkillərdə şərh edilmişdir ki, bu da müsəlmanların fərqli düşüncəli kütlələrə bölünməsi ilə sonlanmışdır. İslam tarixçiləri şiəliyin meydana gəlməsində fərqli fikirlərə sahibdir. Şiə yazıçılar bildirir ki, şiəlik Hz. Məhəmmədin zamanında Şiatu Əli olaraq adlandırılmış, Hz. Məhəmmədin vəfatından sonra isə Hz. Əlinin imamətini qoruyanlardır. "*Bəzi tarixçilər Şiəliyin Hz. Əbubəkrin xəlifə seçildiyi Sakifə Biatından sonra ortaya çıxdığını bildirsələr də, bəziləri də Hz. Osmanın şəhid edilməsindən sonra meydana gəldiyinə inanmaqdadır*" [59]. Bundan əlavə şiəliyin İslamın Ərəb yarımadasında sürətlə irəliləməsindən narahat olan Yəhudilərin bir planı olması iddiaları da vardır ki, bu iddialar da Abdullah Bin Sebe adındakı bir yəhudiyə dayanmaqdadır. Ancaq şiə alimləri bunun doğru olmadığını bildirməkdədirlər. Şiəliyin Hz. Məhəmmədin sağlığında formalaşmağa başladığı və vəfatından sonra bir

məzhəb olaraq doğulduğu bütün şiələr tərəfindən mənimsənilmişdir. Bu baxımdan "*Hz. Peyğəmbərin vəfatından sonra Hz. Əli onun cənazə işləri ilə maraqlanarkən Hz. Əbubəkrin xəlifə seçilməsinə müxalif çıxaraq Hz. Əlinin xəlifə seçilməli olduğunu düşünən Əbu Zer Gifari, Selman-ı Farisi və Ammar bin Yasir ilk şiələr olaraq gözə çarpmaqdadır*" [68, s.7].

Nəticə olaraq, Şiəliyin siyasi çıxışında Hz. Əbubəkrin xəlifə olaraq seçildiyi Sakefe beyəti ilk qığılcım olarkən Hz. Osman dövründə yaşanan problemlər və onun şəhid edilməsi, Cəməl və Siffin Döyüşləri və Hakim Hadisəsi kimi hadisələr əhəmiyyətli səbəblər olaraq sıralanmaqdadır. İslam tarixinin ilk dövrlərində yaşanan siyasi fərqliliklər daha sonralar müxaliflərin İrana köç etməsinə səbəb olmuş, xüsusilə xilafət mərkəzinə uzaq olan Qum şəhəri bir növ sığınacaq yerinə çevrilmişdir. Şiə tarixçiləri, Hz. Əli ilə Muaviye arasında olan Sufin döyüşündə Hz. Əlinin yanında iştirak edən Malik ibn Ammar ilə Muxtar hərəkatına qatılan əhəmiyyətli kəslərin İranın Qum şəhərinə yerləşdikləri bildirilir. Şiə tarixçilər Quma yerləşən ilk müsəlmanların şiələr olduğunu buna əsaslanaraq söyləməkdədirlər. Əməvi və Abbasi hökmdarlarının şiə başçılara təzyiqinin davam etməsi üzərinə İmam Sadiqin və daha sonra İmam Kazımın bacısının da Quma yerləşməsi Qum şəhərinin şiələrin gözündəki müqəddəsliyini artırmışdır.

Siyasi baxımdan Şiəliyi rəsmi dövlət məzhəbi halına gətirən Şah İsmayıl liderliyindəki Səfəvi Türk Dövlətinin qurulması olmuşdur. Ərdəbildə Sünni Xəlvəti təriqətinin bir qolu olan Səfəvilik Şah İsmayılın Anadolu Qızılbaşlarından aldığı dəstəklə dövlətləşmiş və varlığını davam etdirə bilmək üçün Şiəliyi strateji bir alət olaraq istifadə etmişdir.

Səfəvi təriqəti Şeyx Səfiəddin tərəfindən Sünni Xəlvəti təriqəti ilə heterodoks Türkmən Müsəlmanlığının birləşməsi nəticəsində ortaya çıxmışdır. İfadə edildiyi kimi "*başlarda Sünni təriqəti olan Səfəvilik Şah İsmayılın babası Şeyx Cüneydin Ərdəbil Təkkəsində mövcud sünni nüfusa qarşı girişdiyi iqtidar döyüşü nəticəsində Şiə-sufi bir ideologiyaya çevrilmişdir*" [69]. Şeyx Cüneyddən sonra Şah İsmayıl sünni məzhəbinə mənsub Osmanlı, Özbək və ərəblərə qarşı nüfuz mübarizəsinə girişmişdir. Şah İsmayıl orta və cənubi Anadoludan gələn heterodoks Müsəlman köçəri tayfaları

xadim bir qazi hərəkatına çevirmişdir. Bütün bunlar qızılbaşlığın tam olaraq kəskin şiəlik olmadığını göstərir. Hətta Şah İsmayıl Xətainin öz şeirlərində tərəfdarlarının sufilər olduğunu qeyd etməsi də bunu təsdiq edir:

“*Şahın övladına iqrar edənlər,*
*Əxilər, qazilər, abdallar oldu*” [70, s.126].

Əxi, abdal və qazi qruplarının sufi qrupları olduğunu nəzərə alsaq, Qızılbaş ideologiyasının özünəməxsus sufi-təsəvvüfi bir ideologiya olduğunu və Şah İsmayılın da sufi olduğunu söyləmək mümkündür.

Şah İsmayıl təməldə siyasi məqsədləri üçün şeyxlik etdiyi təriqətini sanki bir milis ordusu kimi istifadə edərək təriqətdən dövlət çıxarmışdır. Şah İsmayılın bu müvəffəqiyyətinin ardında isə Osmanlı dövləti sərhədləri içərisində oturaq həyata keçməyi qəbul etmədiyi üçün kənara itələnilən köçəri türkmən tayfalarının Səfəvi təriqətinə sığınması vardır. Əslində, Səfəvi dövlətinin quruluş izləri ilk olaraq Şah İsmayılın babası Şeyx Cüneydin Ərdəbil Təkkəsində əmisi Cəfər ilə girdiyi təriqət şeyxliyi mübarizəsini itirməsi üzərinə Anadoluya getməsinə uzanmaqdadır. İnandırmaq qabiliyyəti olduqca güclü olan “*Şeyx Cüneyd, hələ mədrəsələrin təsirinin çatmadığı və İslamiyyət görünüşü altında köhnə Orta Asiya inanclarının təsirli olduğu Anadolu kəndlərindən özünə 5-10 min nəfərlik döyüşçü müridlər toplaya bilmişdi*” [12, s.40].

Şeyx Cüneydin qısa müddətdə əhəmiyyətli dərəcədə nüfuz qazanması İranda suveren olan Ağqoyunlu hökmdarı Uzun Həsənin marağını çəkmişdir. “*Şeyx Cüneydi bacısı Xədicə Begimlə evləndirən Uzun Həsən hərbi gücünü gücləndirdi*” [21, s.42]. Beləliklə, bir vaxtlar Ərdəbil Təkkəsində girişdiyi mübarizədə məğlub olan Cüneyd bir anda Ərdəbilə daha da güclü bir şəkildə qayıtdı. Qısa müddət sonra Şirvan ölkəsini ələ keçirmək istəyən Şeyx Cüneyd bu müharibədə həyatını itirmiş və təriqət postuna oğlu Heydər oturmuşdu. Dini nüfuzunun yanında siyasi nüfuzunu da artırmaq istəyən Şeyx Heydər, dayısı Uzun Həsənin qızı Həlimə Begim (Aləmşah Bəyim) ilə evlənmişdi. “*Ancaq Şeyx Heydər də atası kimi Şirvana gedərkən öldü*” [76, s.74]. Beləliklə, Səfəvilər bu döyüşdə şeyxlərini itirməklə yanaşı, Ağqoyunluların da düşmənçiliyini qazanmış oldu.

Yuxarıda da qeyd edildiyi kimi, Şah İsmayıl Şiəliyi siyasi məqsədlərlə seçərək öz ətrafını genişləndirməyi və böyük bir dövlətin əsasını qoymağı bacarmışdı. Göründüyü kimi, Şiəlik Qızılbaşlıq ideologiyası Səfəvilər dövlətinin qurulmasında olduqca önəmli bir yerə sahibdir. Şah İsmayılın şəxsiyyətinin formalaşmasında əvəzsiz rolu məhz Qızılbaşlıq ideologiyası oynamışdır. Bu ideologiyaya nəzər saldıqda keçmişə hörmət və dəyər, birlik, bağlılıq, güc simvollarının bir araya gəldiyini görürük. Məhz bunun nəticəsidir ki, müxtəlif türkdilli tayfalar bu ideologiyanın çətiri altında birləşərək özlərini xarici qüvvələrin təhlükələrindən qoruya bilmiş və dövlət quruculuğuna öz töhfələrini vermişlər.

Bu fəsildə əldə edilən nəticələr nüfuzlu nəşrlərdə "Azərbaycan tarixi romanlarında Şah İsmayıl obrazı" [48], " Tarixi Roman Anlayışı" [52] və s. məqalə və məruzələr şəklində əksini tapmışdır.

## II FƏSİL. AZƏRBAYCAN TARİXİ ROMANLARINDA ŞAH İSMAYIL OBRAZI

### 2.1. Əzizə Cəfərzadənin “Bakı-1501” romanında Şah İsmayıl mübariz bir obraz kimi

Azərbaycanın görkəmli dövlət xadimi, qüdrətli şairi Şah İsmayıl Xətai təkcə ictimai-siyasi fəaliyyəti ilə deyil, həm də orijinal və maraqlı əsərləri ilə ədəbiyyat tarixində özünəməxsus yer tutur. O, Azərbaycan ədəbiyyatına böyük töhfələr vermiş, forma və məzmunca zənginləşdirmiş, dövrün sosial və siyasi mənzərəsini araşdırmaq baxımından olduqca qiymətli əsərlər miras qoyub getmişdir.

Bununla yanaşı, onun bir sərkərdə və dövlət başçısı kimi fəaliyyəti daim diqqət mərkəzində olmuşdur. Onun həyat və fəaliyyətinə həm tarixçilər, həm də yazarlar böyük dəyər vermiş və tədqiqat obyektinə çevirmişlər. Yavuz Axundlu “Azərbaycan tarixi romanı: mərhələlər, problemlər (1930-2000)” monoqrafiyasında bu barədə yazır: “*Xalqımızın böyük oğlu, fədakar dövlət xadimi, qüdrətli sərkərdə və gözəl şair Şah İsmayıl Xətainin anadan olmasının 500 illiyi ərəfəsində nəsrimiz həmin əlamətdar hadisəni dörd romanla qeyd etdi. Ə.Cəfərzadənin “Bakı – 1501”, Fərman Kərimzadənin “Xudafərin körpüsü” və “Çaldıran döyüşü”, Əlisa Nicatın “Qızılbaşlar” romanları”* [2, s.254]. Bu romanlar yazıldığı vaxtdan tədqiqatçıların marağına səbəb olmuş və bununla bağlı müxtəlif araşdırmalar aparılmışdır.

Şah İsmayıl Xətaiyə həsr olunan bu romanları bir-birinə bağlayan və fərqləndirən cəhətlər vardır. Şübhəsiz ki, bu romanlarda ilk növbədə Azərbaycan dövlətçiliyinin qorunması, parçalanmış torpaqların birləşdirilməsi məsələlərinə və Azərbaycan xalqının ərazi bütövlüyü uğrunda apardığı mübarizələrə daha çox diqqət yetirilir. Həmçinin romanların hər birində müəlliflər Xətainin ictimai-siyasi fəaliyyəti ilə yanaşı, şair təbiətli kamil insanın intəhasız mənəvi dərinliyini işıqlandırmağa müvəffəq olmuşlar. Xətai şəxsiyyətindəki ikiləşmə, ziddiyyət hər romanda diqqət çəkir, incə şair ruhu ilə hökmdar mövqeyi arasındakı təzad müxtəlif hadisələr

kontekstində nəzərə çarpır, amma bütün hallarda tarixi qəhrəmanın təbiətində daim mənəvi kamilliyə can atmaq meyli duyulur. "*Müxtəlif hadisələrin təsiriylə mürəkkəbləşən bu meyli roman müəllifləri yüksək sənətkarlıqla izləyir və insanın sonsuz inkişaf imkanına inamını tarixi hadisələr kontekstində əks etdirirlər. İctimai-tarixi hadisələrin axarında böyüyən, kamilləşən İsmayıl getdikcə həyatla daha sıx əlaqəyə girir, onun sirlərini öyrənməyə, "kilidli qapı"sını açmağa çalışır"* [62, s.105-106].

Ə.Cəfərzadənin "Bakı–1501" romanında Şah İsmayıl Xətai xarakteri müqayisəli şəkildə işlənmişdir. Romanda əsas etibarilə böyük Azərbaycan hökmdarının Bakıya yürüşü təsvir olunmuşdur. Lakin romandakı tarixi hadisələr tək bununla yekunlaşmır. Əsərdə Şah İsmayıl Xətainin hakimiyyətə gəlişi, Şirvanı alması, Osmanlı hökmdarı Sultan Səlimlə münasibətləri, şeir yaradıcılığı, sənətkarlarla ünsiyyəti və başqa məqamlar diqqət mərkəzinə gətirilir, yəni Şah İsmayılın xarakteri dörd cəhətdən səciyyələndirilir: sərkərdə, padşah, şeyx və şair.

Akif Hüseynova görə, "*əsərdəki əsas hadisələr, müəllifin də qeyd etdiyi kimi, dörd əsas surət – Bibixanım-Sultanxanım, Aytəkin, dərviş İbrahim və Şah İsmayıl ətrafında cərəyan edir"* [34, s.178]. Yazıçı diqqətini onların üzərində cəmləşdirir, əsərinin qayəsini həmin surətləri mərkəzə çəkməklə, onların ömür yollarını, talelərini izləməklə bizə çatdırır. Romanda aparıcı qəhrəman kimi Şah İsmayıl ön plana çəkilir, ideya başlıca olaraq onun simasında əyaniləşir. Lakin qalan üç surət də əsərin fikri mündəricəsinin əsas daşıyıcısı kimi mənalandırılır, daha doğrusu, müəllifin mürəkkəb, ziddiyyətli xarakter kimi canlandırmağa çalışdığı Şah İsmayılın timsalında ümumiləşən, rəmzləşən mətləb-niyyət həmin surətlərin həyat həqiqətləri, düşüncələri, aqibətləri ilə gah sınağa çəkilir, gah da yeni bir vurğu ilə tamamlanır, qüvvətləndirilir.

Əsər Xəzər dənizinin tərənnümü ilə başlayır. Bu, heç də təsadüfi deyil. Yazıçı Xəzər dənizininin tarixi keçmişini və xüsusiyyətlərini parlaq şəkildə əks etdirməklə coğrafi mühitin nə qədər əhəmiyyətli olduğuna diqqət çəkərək romanın tarixilik və reallıq dərəcəsini artırmışdır. Əsər belə başlayır: "*Xəzər! Ey nemət, bərəkət dənizim mənim! Sahilində dayanmışam, sahilində sevmişəm, sahilində şənlənmişəm. Xəstəliyim olubsa, – qızılı qumun sağaldıb; dincəlib dalğalarının qoynunda*

*səyahətlərə çıxmışam. Sən mənim baba yurdum, sən mənim damarlarımda axan qanım qədər doğmasan, Xəzərim, dənizim mənim! Tarixlərdən əvvəlki tariximin yaşıdı dənizim! Atilladan, Tomrisdən, Pompeydən bəri (onlardan daha əvvəlləri kim bilir) sənə nə qədər adlar qoyublar. Tarixçilərin dediyinə görə, qədim yazılı abidələrdə, kitabələrdə onlarla adın var! Səni hələ antik dünyanın adamları Kaspi, ərəblər Dərbənd dənizi, tatarlar Ağ dəniz, türkmənlər Gökgöz, farslar Qulzum, çinlilər Siqay, atəşpərəst babalar Varqan, Çinayid-Dayeti, məşhur səyyah Marko-Polo Bakı Dənizi, Aleksandr Düma İrkani adlandırıb. Daha sonralar müxtəlif mənbələrdə sənə Gilan, Təbəristan, Sari, Cürcan İbar, Xorasan, Həştərxan, Abosükun, Şirvan və b. adlar veriblər*" [17, s.3].

Əsərin bu parçasından da göründüyü kimi, yazıçı romanın müqəddiməsində tarixi adlara və məlumatlara yer verməklə əsərin tarixi aspektdən güclü bir roman olmasına imkan yaratmışdır. Məhz bu və digər xüsusiyyətlərinə görə "Bakı–1501" romanı tarixi baxımdan dəyərli romandır.

"Bakı–1501" romanı üç hissədən ibarətdir. "Bakı–1501" adlı birinci hissədə İsmayılın Bakıya gəlməsi, Bakını, eləcə də bütün Şirvanı alması təsvir olunur. Bu gəlişin əsasında onun ailəsinin intiqamını alması dayanır. Yazıçı silinməz boyalarla göstərir ki, Bakıya hücum məqsədilə gələnlərin əsas niyyəti nə vaxtsa burada öldürülmüş Şeyx Cüneydin və Şeyx Heydərin intiqamını almaqdır: "*Qoşun irəliləyir, qızılbaş qaziləri irəlidə, ağ at üstündə, üzü niqablı gedən mürşidlərinin şeirini oxuyurdular:*

*Bu kün ğəm təkyəgahında fəda bir canımız vardır,*
*Könül abdali-eşq olmuş gələn qurbanımız vardır.*
*Əzəl birdir, axır birdir, zahir birdir, batin birdir.*
*Çu bildik, birligə irdik, şükür, ürfanımız vardır.*
*Səfiullah, Xəlilullah, Əsədullah demiş billah,*
*Bihəmdillah ki, bunlardan qədim ərkanımız vardır.*

*Nəzmin ritmi qazilərin hərəkatinə həmahəng idi. Elə bil, könüllərdə görünməyən bir hərb təbil çalınır, bir cəng gərənayı səslənir, müridləri mürşüd yolunda, cavan şeyx oğlu şahın yolunda, din-əqidə yolunda, dünyada həqiqəti bərpa etmək, sünni-*

*yezid hesab etdikləri Şirvanşahlardan şiə və şəhid Şeyx Heydərin qanını almaq uğrunda qurban getməyə səsləyirdi”* [17, s.41]. Əsərdən verilmiş bu parçada da göründüyü kimi, İsmayıl öz şeirləri ilə ordusunu cəsarətləndirməyi bacaran bir sərkərdə olmaqla yanaşı, cəng meydanında da irəlidə gedən, qorxmaz bir xarakterdir.

Eyni zamanda Şah İsmayılın həyatı ilə bağlı verilən tarixi faktların da əsərdə yer aldığını görə bilirik. Belə ki, Şah İsmayılın Şirvan ölkəsinə etdiyi yürüşün səbəbi əsərdə məhz intiqam duyğusu olaraq parlaq bir şəkildə göstərilmişdir. Bu isə tarixi romanın tarixlə bağını ortaya qoyan önəmli məqamlardan hesab edilə bilər.

Əsərdə diqqətçəkən bir məsələ də hər şeyin açıq bir şəkildə ifadə edilməsidir. Belə ki, müsəlman olmağın tək şərt olmadığı, müsəlmanların belə öz aralarında sünni və şiə olaraq ayrılması və bir-birlərinin qanını tökməsi əsərdə aydın bir şəkildə canlandırılmışdır: *“– Ey gavurlar, eşidin və sonra deməyin ki, eşitmədik. Baxın, bu cavanı sizin gözünüzün qabağında fəxri-kainatın vəsisi Şahi-Mərdanı və şiəliyi qəbul etmədiyi, yezid şirvanşahlara, şeyx Cüneydin, şeyx Heydərin qatilinə lənət oxumadığı üçün din yolunda qətlə yetiririk. Sizə söz veririk ki, qətldən bir hor keçənəcən təslim olmasanız, hamınızı beləcə qılıncdan keçirəcəyik*” [17, s.55].

Romanın “Qanlı-qadalı dünya” adlanan ikinci hissəsində Şah İsmayıl artıq çoxlu ölkələr fəth etmiş qüdrətli hökmdar kimi təsvir olunur. Burada hökmdarın şeirə və sənətə məhəbbəti və bu məsələyə onun gənc xanımı Taclı xanımın laqeyd olmaması, saray həyatı, digər hadisələr öz əksini tapmışdır. “*Əsərdə Ələvi dərvişləri və onların görüşləri bədii tədqiq predmetinə çevrilir, Şah İsmayıl və ümumən qızılbaş hərəkatının ideya qaynaqları olaraq əsaslandırılır”* [24, s.72].

Yazıçı İsmayılın illərlə intiqam hissilə alışıb yandığını sonda öz istəyinə çatdığını aşağıdakı cümlələrlə ifadə etmişdir: “*Bu yerə çatanda elçi kəkələyib susdu. O, bu zərif şahzadənin atasının nə şəkildə öldürüldüyünü öz gözlərilə görmüşdü. Deyə bilmirdi ki, qızılbaşlar Fərrux Yasarın meyidini tapandan sonra mürşidi-kamilin razılığı ilə onun kəsik başını bədəninə birləşdirmiş, həsirə büküb od vurmuş, “Yezid... Y-e-z-i-d”, “Sultan Heydərin qatili yezid” deyə bağırışaraq yandırmışdılar. Bütün bunları düşmən arasında söyləyib “Mürşidin intiqamını aldıq” deyə fəxr edə*

*bilmirdi. Amma bununla belə elçi çox ürəklə danışırdı. Qalanın o biri üzündə döyüşə hazırlıq gedirdi*” [17, s.73].

Yuxarıdakı parçadan da göründüyü kimi, tarixi gerçəklik, İsmayılın öz atasının intiqamını alması reallığı romanda parlaq şəkildə təsvir edilmişdir. Bu baxımdan romanın bədii təsvir vasitələrinin gücündən istifadə edilərək tarixi hadisələri bütün çılpaqlığı ilə ortaya qoyduğunu söyləyə bilərik.

“Hökmdarın şair qəlbi” adlı üçüncü hissədə Sultan Səlimlə olan münasibətlərinə və mənəvi keyfiyyətlərinə daha çox işıq salınır. Romanda Şah İsmayıl Azərbaycan dövlətinin yaradıcısı kimi göstərilir. Onun mənfi və müsbət cəhətləri qələmə alınır. Romanın ən gözəl xüsusiyyəti müəllifin heç bir tərəfgirlik etməməsindədir.

Əsərdə Şah İsmayılın öz ətrafında olan insanlara qarşı istiqanlı münasibəti, onlara qiymət verməsi də parlaq bir şəkildə öz əksini tapmışdır. Belə ki:

“*İsmayıl sağ əlini ondan bir qədər aralı gedən Rəhim bəyə tərəf uzatdı.*

-*Olsun, amma ehtiyatlı ol, Rəhim bəy! Sənin bir kəsinti dırnağın bizim yanımızda min govur başından qiymətlidir”* [17, s.52].

Əsərdə yer verilmiş bu parça İsmayılın ətrafındakı insanlarla münasibətini, lider olmasına rəğmən, eqoist olmadığını, dostcanlı olduğunu bizə açıqlamaqdadır. Əsərin digər diqqətçəkən məqamı isə Sultanım xanımla İsmayılın dialoqudur:

“ - *Onlar bir olan Allahın peyğəmbəri, rasuli-xudanın vəsisi Əliyyəl-Mürtəzanın amallarını yaymaq uğrunda şəhid olmuşlar. Mənim də yolum Əli yoludur. Əlinin Qəmbərinin Qəmbəriyəm.*

-*Əfv et! Qəmbər bizlərdə bax bu ayaqlarımız altındakı qara bülöv daşlarına deyərlər. Sən ürəyi bərklikdə qəmbərsən, ya nədə?*

*Sultanım xanımın sözləri İsmayılın qəlbinə qılınc yarasından da acı bir yara vurdu. Əlini qılıncının qəbzəsinə atdı. Özünə, qüvvəsinə əmin olan cavanlara məxsus bir ötkəmlik və qızğınlıqla səsləndi:*

-*Qalxanını başına çək! Mən səninlə ərəbi dava edəcəyəm. Haqq olan Allah kimin tərəfindədirsə, bu günəş boylananacan o qalib gələcək – deyə qılıncı ilə günəşin çıxacağı al-qızılı üfüqü göstərdi.*

*-İgid, qalxanım yoxdu. Ərəbi davaya mən də varam. Gəl qardaşı qardaşa qırdırmayaq. Axı sən də yaxşı bilirsən ki, bu dava iki düşmən xalq arasında getmir. Qıran da, qırılan da bir elin, bir xalqın övladlarıdır. Qardaş qardaş qanı tökür. Şirvanda da, burda da. Müharibə apardığın hər yerdə. İndisə qoy sən deyən olsun, vuruşaq. Kim məğlub olsa, qoşunu da təslim olur. Qalib gələnə beyət edir. Görək kimə verir Allah..."* [17, s.83]

Əsərin bu hissəsində, qardaş qanı töküldüyünə diqqət çəkildiyinin şahidi oluruq. Yazar romanda canlandırdığı hər bir xarakteri, hər bir obrazı və hadisəni tamamilə obyektiv bir şəkildə incələmiş, tərəf tutmadan qəhrəmanlarla bağlı qiymətləndirməni oxucularının dəyərləndirməsinə buraxmışdır.

Əsərdə Şah İsmayıl Xətainin Azərbaycan dilini rəsmi dövlət dili səviyyəsinə qaldırması reallığına da geniş yer verilmişdir.

*"Şair Xətai könlündə bütün varlığına hakim kəsilən bir fikri sanki bütün çılpaqlığı ilə dilinə gətirmədən düşünürdü: "Qula çevrilmiş xalq üçün doğma ana dilini mühafizə etməyin böyük mənası vardı. Bunu ərəb işğalçıları çox gözəl dərk etmişdilər. İlk öncə məhkum etdikləri xalqların dilinə hücum etmişdilər. Beş vaxt ibadətindən bircə söz anlamayan fağır şələpapaq çobanın duası ərəbcə!.. Beş yaşlı uşağın mollaxanada ilk sözü ərəbcə.. Bəli, milləti, xalqı öldürmək istəyirsənsə, əvvəlcə dilini əlindən al. Bu bütün qəsbkarların, hakim xalqların şüarı olub"* [17, s.221].

Yuxarıda verilmiş sitatdan da göründüyü kimi, Şah İsmayıl Xətai xalqı düşünən, xalqın dilinə sahib çıxmasını təmin etmək üçün vuruşan və bunu qəlbinin dərinliklərində səssiz-səssiz götür-qoy edərək qərarlar qəbul edən biri kimi də göstərilmişdir. Bu isə romanda İsmayıl xarakterinin qərəzsiz və tərəfsiz bir baxış bucağı ilə ələ alındığını göstərən sübutlardandır.

"Epiloq" – əsərdə Şah İsmayılın son monoloqudur. Burada o, Çaldırandakı səhvlərini etiraf edir:

*"Çəkdi məni kamına Səlimin 100 minlik qoşunu. Yaman çəkdi! Ayılıb yuxumu danışmadan məsləhət gördülər ki, "Səlimi yolda qarşılayaq, şəbxun vuraq". Şənimə*

*sığışdırmadım: "Mən karvanbasar quldur deyiləm. İgid igidi döyüş meydanında basar. Təkbətək", dedim.*

*Amma sən demə, saya-sayda doğrudan da mənim qoşunumdan çox imiş. Halbuki, həqiqətə irmiş ərənlər piri məndən daha çox şahlığa ləyaqətli İbrahim şahın dililə mənə Səlim qoşununun silahını da, sayını da xəbər göndərmişdi. Dinləmədim, dinləməyə qoymadılar dövrəmdəkilər; yalandır, eylə qoşunu olmaz, - dedilər; tale cildinə girib məni elə bir cəngə çəkdilər ki, iləl-əbəd adıma ləkə oldu. Qərəz…"* [17, s. 238-239].

Epiloqda Şah İsmayılın adından yazılmış hissəyə diqqət edərkən İsmayılın öz səhvlərini etirafı diqqət çəkir. Belə ki, İsmayıl Səlimə olan məğlubiyyətini qəbul etməmiş, bu məğlubiyyəti adına ləkə salmış bir məğlubiyyət olaraq dəyərləndirən xarakter kimi qarşımıza çıxır. Ətrafında olan və onun qərarlarını dəyişdirməyə çalışan şəxslərin fikirlərinə İsmayılın yanlış zamanda qulaq asdığını da müəllif oxucularına təqdim edir. Başqa sözlə, romanda İsmayıl ona verilən məsləhətləri yanlış dəyərləndirdiyi üçün məğlub olmuş bir xarakter olaraq qarşımıza çıxmaqdadır.

Şah İsmayılın dilindən belə bir fikir söylənilir: "*Budur, Çaldıran döyüşündən 14 il keçib. Hələ bir dəfə üzüm gülməyib, dodaqlarımda təbəssüm görən olmayıb. Qazandığım zəfərlərdən gümrah olub, sayca az qoşunla qabağına çıxdığım və indicə dediyim xəta məndən baş verdiyi üçün*" [17, s.240].

Müəllif Şah İsmayılın Xətai təxəllüsü ilə tanınmasına Epiloqda Şah İsmayılın monoloqunda belə bir cümlə ilə aydınlıq gətirmiş olur. Göründüyü kimi, yazıçı tarixi romanı yazarkən Şah İsmayılın həyatına, yaradıcılığına və eyni zamanda da dövrün mürəkkəb siyasi proseslərinə yaxından bələd olub və əsərdə hər bir detalı böyük bir professionallıqla əks etdirib.

Son olaraq isə müəllif romanı Şah İsmayıl Xətainin dilindən bu cümlələrlə bitirib: *"Ömrün son günlərini yaşayıram, mənim əziz xələflərim! Sizin üçün bu az ömrümdə əlimdən gələni elədim. Fəthlər edib parça-parça bölünmüş diyarımızı qılınc gücünə birləşdirməyə çalışdım.*

*Vətənin bir sıxma torpağını bir ovuc qızıldan, dilimizin bir kiçicik sözünü bir ölçü ləl-cəvahiratdan üstün bildim. Hər ikisinin – Vətənimizin və dilimizin əbədiyyəti*

*üçün. Nə bacardımsa, onu elədim. Məni lənətlə yad etməyin! Yaxşı nə başlamışamsa, onu göyərdin! Səhvlərimi təkrar etməyin! Sizə vəsiyyətim budur. Bir də əşarım var. Əgər zövqünüzü oxşasa – məzarımda bir qədər rahat ola bilərəm. Sizə üç əmanət qoyub ərən babalar: dilimiz, qeyrətimiz, Vətənimiz – can sizin, can onların əmanəti*" [17, s.262].

Şah İsmayılın bu vəsiyyətinin nəticəsi idi ki, xələfi olan oğlu ondan sonra bütün Azərbaycan torpaqlarını vahid bir mərkəzdə birləşdirməyi bacarmışdı. O, atasının siyasətini davam etdirmiş, Azərbaycanın vahidliyi uğrunda vuruşmuş, atasının başlatdığı yaxşıları göyərtmişdi.

"*Dil, qeyrət, Vətən... Yazıçının Şah İsmayıl obrazının əsas xüsusiyyətləri kimi mənalandırdığı bu üç anlayış olduqca mühüm əhəmiyyət kəsb edir və romanın başlıca motivi kimi səslənir*" [24, s.73]. Yavuz Axundluya görə, Ə.Cəfərzadə Şah İsmayılın üstün cəhətləri ilə yanaşı, onun qüsurlarını da əsərdə əks etdirməyə çalışır. Romanda Şah İsmayılın ləlesi belə deyir: "*Onda elə bir zalım ürək tərbiyə etmişəm ki, cəllad da həsrətini çəkər. Rüzgarın gözü hələ beləsini görməmiş ola gərək. Şair olmağından özü utanacaq...*" [17, s.15-59]. Bu əsər haqqında Cəmilə Məhərrəmova belə qənaətə gəlmişdir: "*Tarixdən məlumdur ki, Şah İsmayıl Xətai çoxlu siyasi çəkişmələr və müharibələrdən keçmiş, böyük qələbələr qazanmışdır. Lakin Əzizə Cəfərzadə öz qəhrəmanının tarixi xüsusiyyətlərini əsərin mərkəzinə çəkməmiş, Xətainin hərbi fəaliyyətinə az yer vermişdir*" [58]. İlk hissələrdə yazıçı siyasi çəkişmələrə müəyyən qədər yer versə də, burada gənc İsmayılın möhkəm iradəsini, qəhrəmanlıq hünərini, vətənpərvərlik duyğularını açıb göstərməyə başlıca diqqət yetirir. Məhz bu hissələrdə oxucu Xətaini fiziki, həm də mənəvi cəhətdən mətin, ölümdən qorxmayan əsgər və sərkərdə, mərd bir qəhrəman kimi görür. Çətin döyüşlərdən sonra Bakı qalasını təslim aldığı zaman Suraxanı atəşgahına daxil olur və axan insan qanları gənc hökmdar İsmayılı dərindən düşündürür və sarsıdır. Lakin böyük vətənpərvərlik idealı – vətəni böyük və qüdrətli dövlət halında birləşdirmək arzusu onun tərəddüdlərindən üstündür. Xətai öz vətənpərvərlik idealı və ana vətənə məhəbbəti ilə ağır döyüş səhnələrində belə rəğbət doğurur. Çünki o, siyasi

fəaliyyətini, şəxsi arzu və istəklərə yox, vətənin taleyinə, bütövlüyünə həsr edir. Bu yolda hər dəqiqə canından keçməyə hazırdır.

Akif Hüseynov Əzizə Cəfərzadənin bu əsərdə düzgün mövqe tutduğuna diqqət çəkərək yazır: *"O, Şah İsmayılın mürəkkəb xarakterini canlandırarkən nəinki bitərəflikdən, aludəçilikdən uzaqlaşa bilmiş, obrazın məziyyətləri, fəaliyyətinin pozitiv cəhətləri ilə yanaşı, qüsurlarını da göstərmişdir, həm də qəhrəmanın milli şüurunun, vətənpərvərlik duyğularının inikasına ciddi diqqət yetirmişdir. Romanda Şah İsmayıl Azərbaycan hökmdarı, Azərbaycan dövlətinin yaradıcısı kimi səciyyələndirilir"* [24, s.74]. Sedat Adıgüzelin isə romanla bağlı dəyərləndirmələri bu şəkildədir: "*Bakı–1501" qəhrəmanları baxımından önəmli bir əsərdir. Hətta romanda qəhrəmanların mövzunun önünə keçdiyini söyləmək mümkündür. Əsas qəhrəman olan Şah İsmayıl bir tip deyil, bir xarakterdir. Sadəcə asan, kəsən və yox edən bir hökmdar kimliyi ilə qarşımıza çıxmır. Şah İsmayıl düşmənini qılıncla kəsən, kəsdikdən sonra onun üçün ağlayan və şeir yazan bir insandır. Uşaqlıq illərindən etibarən, yaşadıqları onu yetişdirmişdir. Bütün ailəsi öldürülmüş, özü də ölümdən qurtula bilmək üçün uşaqlığından etibarən sürgün həyatı yaşamaq məcburiyyətində qalmışdır. Şah İsmayılı bir hökmdar olaraq var edən və ona yox etmə gücünü verən intiqam alma istəyidir. Atasının və babasının intiqamını alma duyğusu şiəliyi qəbul etməyən bütün Bakı əhalisini qılıncdan keçirməyinə səbəb olmuşdur*" [83, s.6].

Ümumiyyətlə, əsərdəki Şah İsmayıl obrazına diqqət yetirildikdə tarixi faktların üzərindən bir obraz canlandırıldığını görmək mümkündür. Romanda Şah İsmayılın uşaqlıq illərində yaşadığı çətinliklərin, aldığı mənəvi zərbələrin onun psixologiyasına təsiri açıq-aşkar nəzərə çarpır. O, həm öz məqsədlərinə çatmaq üçün mübarizə aparıb qan tökə bilən bir hökmdar, həm də incə ruhlu bir şair kimi gözlərimiz qarşısında canlanır. Bütün bunlar isə İsmayılın daxili aləmini tamamilə idealizə etmir, onun xarakterindəki müəyyən ziddiyyətlərin mövcudluğunu da göstərir. Əsərdə müxtəlif obrazlarla münasibətində də bu xüsusiyyəti müşahidə etmək mümkündür. Bir tərəfdən ətrafında olan insanlarla səmimi və dostcasına ünsiyyət qurması, digər tərəfdən isə vahid və qüdrətli Azərbaycan dövləti qurmaq uğrunda apardığı mübarizələr, öz məqsədinə çatmaq üçün heç bir güzəştə getməməsi İsmayılın ağıllı

və düşünülmüş siyasət yürüdən bir siyasətçi olduğunu, əqidəsindən dönməyəcəyini təsdiqləyən keyfiyyətlər kimi diqqəti cəlb edir.

## 2.2. Fərman Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" romanları müstəvisində Şah İsmayıl obrazının inkişaf xüsusiyyətləri

Azərbaycan ədəbiyyatının 60-cı illər nəslinə mənsub olan Fərman Kərimzadə beş tarixi romanı ilə ədəbiyyatımızda böyük bir epoxanın yaradıcısına çevrilmiş və xalqımıza zəngin bir ədəbi irs qoyub getmişdir. Fərman Kərimzadənin iki tarixi romanı – "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" dilogiyası böyük dövlət xadimi, müdrik siyasətçi və istedadlı şair Şah İsmayıl Xətainin həyatına və ictimai-siyasi fəaliyyətinə həsr edilmişdir.

XVI yüzilliyin sübh çağında Şah İsmayılın başçılığı ilə görülən işlər xalqımızın sonrakı müqəddəratı üçün güclü özülə çevrildi. Şah İsmayıl kimi tarixi şəxsiyyətlər heç vaxt unudulmur, incəsənətin, ədəbiyyatın gücü ilə yenidən doğulur. F.Kərimzadənin uzun tədqiq və araşdırmalardan sonra qələmə aldığı "Xudafərin körpüsü" dilogiyası xalqımızın tarixinə, 500 il əvvəlki babalarımıza məhəbbət və hörmətin ifadəsidir. Oxucunu orta əsr Azərbaycan həyatının həyəcanlı səhnələri ilə qarşılaşdıran bu roman Ağqoyunlularla Səfəvilər hakimiyyətinin qovuşduğu, birincilərin ikincilərlə əvəzləndiyi dövrün, Azərbaycan torpaqlarının birlik, Azərbaycan mədəniyyətinin yüksəliş dövrünün bədii salnaməsidir. F.Kərimzadə yeni faktlar əsasında dövrün ziddiyyət və çətinliklərini, qızılbaş bayrağı altında tarixi mübarizənin məqsədini, köklərini müasirlik ruhu ilə təsvir etmiş, qaranlıq səhifələri kifayət qədər işıqlandırmışdır.

Tarixi romanda yuxarıda qeyd etdiyimiz kimi, tarixilik vacib şərtdir. F.Kərimzadə dövrün geniş epik mənzərəsini canlandırarkən mənbələrdə öz əksini tapmış mühüm faktları yaradıcılıq süzgəcindən keçirmiş, onlardan səmərəli şəkildə faydalanmışdır. Yazıçı tarixi mövzulara müraciət etməkdə başlıca məqsədinin nədən ibarət olduğunu açıqlayaraq yazır: *"Məni bir qələm sahibi kimi elmi-fantastik ədəbiyyatdan çox tarixi roman janrı maraqlandırır, düşündürür. Bəzən fikri irəliyə*

*yox, geriyə – keçmişə qayıtmaq yazıçıya daha dolğun material verir. Bu günün gözü ilə keçmişə baxıb qiymət vermək gələcəyin mənəvi problemlərini aydın görməyə imkan yaradır”* [40, s.155].

Fərman Kərimzadənin 1982-ci ildə nəşr edilən “Xudafərin körpüsü” romanı iki hissəlidir. Birinci hissə “Dəmir ağacdan asılan beşik”, ikinci hissə “Uzun Həsən Gödək Əhməd” adlanır. Birinci kitab “Xudafərin körpüsü”, ikinci kitab “Çaldıran döyüşü” adı ilə məşhurdur.

Adını Azərbaycan və İran arasında XI–XIII əsrlərdə Araz çayı üzərində tikilmiş Xudafərin körpüsündən alan “Xudafərin körpüsü” romanında XV əsrin sonu – XVI əsrin əvvəllərində baş vermiş tarixi hadisələr, Şah İsmayıl Xətainin uşaqlıq və gənclik illəri, hakimiyyət uğrundakı mübarizəsi və çoxistiqamətli fəaliyyəti qələmə alınıb. Romanda həmçinin Şah İsmayıl Xətainin bir şair, sərkərdə və dövlət xadimi kimi yetişib formalaşdığı tarixi şərait təsvir edilib, Uzun Həsən, Sara Xatun, Hüseyn Lələ bəy, Əbih Sultan kimi tarixi şəxsiyyətlərin yaddaqalan obrazları yaradılıb. Əsərin təqdirəlayiq məqamı isə tarixdə adlarını eşitdiyimiz, haqqında oxuduğumuz şəxslərin bir-birilə dialoqlarının mükəmməl bir şəkildə verilməsi və oxucunu tarixin yollarında səyahətə götürə bilməsidir.

Müəllif geniş təsəvvür, zəngin sənətkar təxəyyülü sayəsində Şah İsmayılın fəaliyyətini və ideallarını bədii təcəssüm etdirmiş, həmçinin fərqli bədii manevrlərlə həm o dövrün mənzərəsindəki, həm də aparıcı qəhrəmanın xarakterindəki mürəkkəbliyə və ziddiyyətlərə nüfuz edərək obrazı hərtərəfli açmağa nail olmuşdur. “*Müəllif eyni zamanda bu tarixi şəxsiyyətin xarakterik xüsusiyyətini, taleyini lap körpə vaxtlarından mümkün qədər diqqət mərkəzində saxlamağa, hadisələrin şərhini onun ətrafında cəmləşdirməyə çalışmışdır*” [60, s.99]. Romanda sonrakı süjet Uzun Həsənin hakimiyyətinin son illərində baş verən əhvalatlarla bağlı inkişaf etdirilir. Bütün bunlar romanda irəli sürülən vahid Azərbaycan dövləti ideyasının bədii şərhindən irəli gəlir. Müəllif göstərir ki, “*hələ vaxtilə Şah İsmayılın atası Şeyx Heydər Dərbənddən cənubda bütün Azərbaycan müharibələrinə və feodalların özbaşınalığına son qoymaq, mərkəzləşmiş qüvvətli dövlət yaratmaq tələbatını əks etdirirdi”* [2, s. 256].

Romanın süjeti, əsasən, Şah İsmayılın Şirvana yürüşü və Bakının alınması hadisələri üzərində qurulmuşdur. Əsəri digər tarixi romanlardan fərqli edən əsas xüsusiyyət, tarixi şəxslər arasında dialoqların daha canlı verilməsidir. Romanda diqqət edilməli bir məqam var. Belə ki, yazıçı: "*Zamanın sahibi nəinki taxtın, ölkənin, xəzinənin və qoşunun sahibi olmalıydı, o, həm də zamana sahib çıxıb onu dəyişməyi bacarmalıydı.*

*İsmayıl bu barədə çox fikirləşir, həmin adla üzə çıxmağı çox götür-qoy eləyir, bu sirri heç Lələyə də açmırdı. Onu narahat eləyən bir fikir vardı. O da ondan ibarət idi ki, insanlar ona inanmalıdır. İnanmasalar, hər şey təzədən alt-üst olardı. Birdən-birə ona təbi, ilhamıköməyə gəlmişdi. Şeir onu daha da yüksəklərə qaldırmışdı. Budur, həmin şeirdən sonra qızılbaş ağsaqqalları belə əfsunlanıb. Gözləri qabağında böyüyən İsmayılda ilahi bir qüvvənin cəm olduğuna şəkk gətirmədilər. Demək, heç kəs şəkk gətirməyəcək.*

*Yaxşı, tutaq ki, ona hamı bu gözlə baxacaq. O da insanları öz arxasınca apardı, düşmənləri basdı, ölkəni aldı, taxta çıxdı. Bəs ondan sonra? Yer üzündəki haqsızlıqları aradan götürə biləcəkmi? Zamanı dəyişməyi bacaracaqmı?"* [42, s.151] – deyə İsmayılın iç dünyasında düşüncələrə daldığını, fikirli olduğunu əks etdirir. Bütün bu düşüncələr İsmayılı rahat buraxmırdı. Bəlkə də uşaqlıqda atası, babası üçün heç nə edə bilməməyi, gücsüz olmağı onu ən güclü olmaq istəyi ilə rahat buraxmırdı. Ancaq gizlədilməyəcək bir məqam var ki, o da İsmayılın dini, güclü olmaq üçün istifadə etdiyi həqiqətidir. Uşaqlıqdan çəkdiyi acılar, yaşadığı qaçaqaçlı, sığınma həyatı İsmayılı bütün dünyaya sahib olma arzusu ilə yandırıb yaxır. Ancaq tarixi faktları və İsmayılın həyatını dəqiqliyinə qədər bilən bir yazıçı bu qədər möhtəşəm canlandırma edə bilərdi.

Digər roman "Çaldıran döyüşü" 1988-ci ildə nəşr edilib. Siyasət meydanına yenicə qədəm qoyan Şah İsmayılın vahid və qüdrətli Azərbaycan uğrunda apardığı gərgin mübarizələr, ağıllı dövlət xadiminin mədəniyyətin və sənətin yüksəlməsinə göstərdiyi qayğı, xalqımızın orta əsr məişət tərzi romanın əsas mövzusudur.

Yazıçı Şah İsmayılın şəxsində vahid Azərbaycan dövlətinin yaradıcısını görür. O, Şah İsmayılın hakimiyyətə gəlməsindən əvvəlki dövrlərə müraciət edərək mövcud

siyasi şəraiti canlandırmaqla yanaşı, Səfəvilərin istinad etdikləri dini ideologiyanın başlıca cəhətləri haqqında oxucuda müəyyən təsəvvür yaratmağa müvəffəq olur. Romanın ekspozisiyası məhz belə zəruri tarixi hadisələrin bədii təsviri ilə başlayır.

"*Bu çinarı babam, qüdrətli Həsən padşah əkibdir. Bu ağ gövdəli ağac Ağqoyunlulardır... Bəli, sülalədir. Amma dövranını sürmüş sülalə. Onun başında bir neçə yarpaq qalıb. Onlar da Əlvənd Mirzədir, Murad Mirzədir. Daha sülalədən heç bir kömək gözləməyə ümidləri yoxdur. Ona görə də yüngül bir meh lazımdır ki, onlar da qopub torpağa düşsünlər və çürüməyə başlasınlar.*

*Bəs mən kiməm? Bu çinarla qohumluğum olsa da, mən onun budaqlarında bitmədim. Çinar çinarla qohum olsa da, amma hərəsi ayrı-ayrı bitir. Mən yeni bir sülalənin başlanğıcıyam. Hansıdır o sülalə? Şah İsmayıl sülaləsi? Yox!*" [41, s.9]

Romanın bu hissəsində yazıçı İsmayılın saatlarca otağının pəncərəsindən çinarı izləyərək düşünməsinin təsvirini verərkən daxilən yaşadığı ziddiyyətli məqamları onun dilindən oxuculara çatdırmağa müvəffəq olub. Şah İsmayılın böyük sülalənin davamçısı, zəngin keçmişi və Ağqoyunlularla qohum olmasına baxmayaraq, onların arasında yer ala bilməməsi haqqında düşüncələrini qələmə alan yazıçı hökmdarın daxili dünyasında yaşadığı acı duyğularını açıq şəkildə əks etdirmişdir. Əslində Şah İsmayılın uğurunun sirri də uşaqlıqdan yaşadığı bu acılardadır. Öz babasının, atasının xəyanətin qurbanına çevrilməsi, öldürülməsi və uşaqlıqda yaşadığı zindan həyatı bu şəxsiyyəti gücləndirmiş və uğur qazanmasında önəmli rol oynamışdır. Lakin nə qədər güclü və uğurlu olsa da, İsmayıl keçmişin ona gətirdiyi bəlaları, acıları unuda bilmir. Qohum olsalar belə, o, Əlvənd Mirzənin, Murad Mirzənin də yox olmasını, sülalənin kökünün kəsilməsini istəyir.

Yazıçı əsərdə tarixi hadisələri, faktları, maraqlı və yaddaqalan epizodları canlandırdığı obrazların dialoqu vasitəsi ilə oxuculara geniş və hərtərəfli şəkildə çatdırmağa müvəffəq olmuşdur. Məsələn:

"*Böyük hökmdar, sizə də, burada oturanlara da yaxşı məlumdur ki, şirvanşahlar sizə düşmən olublar. Atanızı, babanızı öldürüblər. Mənim babam Fərrux Yasar da buna görə Allahın bəlasına gəldi. Atam Qazi bəy də sizin mübarək hakimiyyətinizi qəbul eləmədi. Allahın əmriylə, onu öz əlimlə o dünyaya göndərdim.*

*Şah İsmayıl diksindi.*

*-Atanı öz əlinlə? Deməkk, sən ata qatilisən!*

*- Qatil yox, Allah hər kəsə bəlanı bir yolla göndərir.*

*Hüseyn bəy dilləndi:*

*- Hökmdarın icazəsi ilə bir kəlmə demək olarmı?*

*- Buyurun!*

*- Biz aldığımız xəbərlərə görə atanızı öz candarları öldürüb.*

*- Bəli, bu sirri yalnız burada açıram. Ona görə də Şirvanda sizə dost olan bir hökmdar olduğunu biləsiniz*" [41, s.19].

Yuxarıda verilmiş dialoqda Şah İsmayılın "ata qatili" ifadəsini diksinərək işlətməsi, əslində, kömək üçün ayağına gəlmiş Şirvan hökmdarının səmimi olmayan davranışına soyuqqanlılıqla qarşılıq verməsi İsmayılın qüdrətli bir hökmdar olmaqla yanaşı, səmimi dostluqlara önəm verdiyini də göstərməkdədir. Real tarixi faktlara görə də İsmayıl yeri gəldikdə qəddar, yeri gəldikdə mehriban, incə ruhlu bir insandır. Əsərdə dialoqlar çərçivəsində İsmayılın bu xarakterik xüsusiyyətləri ön plana çıxarılmışdır.

Müəllif *"Xudafərin körpüsü"ndə olduğu kimi, bu romanda da Şah İsmayılın dərin-psixoloji aləmini təbii boyalarla açır"* [2, s.270]. Xüsusilə qəhrəmanın el-obaya, xalq ruhuna bağlılığını göstərmək üçün yeri gəldikcə tarixi mənbələrin məlumatı ilə yanaşı, Şah İsmayıl haqqındakı el rəvayətlərindən, onun öz şeirlərindən, eləcə də aşıq Qurbani ilə bağlı xalq dastanından da istifadə edir. Şah İsmayıl daim düşüncələr içərisindədir. Xalq qayğısı, vətən dərdi onun şəxsi kədərinə qarışır. Toy günü belə hamı şad olanda ecazkar xalq musiqisinin təsiri altında şah öz keşməkeşli ömür yolunun ayrı-ayrı acı xatirələrini yada salır.

*"Şah İsmayılın gözləri qarşısında qarapaltarlı anasının gözəl, kədərli sifəti canlandı, qalanın daş divarları, kədər dumanının arxasından boylanan Sultanəlinin sifəti dayandı. Qəhər onun boğazında düyünləndi. Dindirən olsa, hönkür-hönkür ağlayardı. Hüseyn bəy onu heç vaxt belə görməmişdi. Toy günü o kövrəlmişdi. Əmirlərin bir neçəsi onun gözünün nəmləndiyini görürdü"* [42, s.68].

"Çaldıran döyüşü" vahid dövlət yaratmaq uğrunda Şah İsmayılın mübarizələrdə keçən ömrünün bir parçasının bədii salnaməsidir. Elə romanın son səhifələrində də bu ideya özünü göstərir. Əsər bu sözlərlə bitir: *"Murad bəy, bir adam göndər mağaradakı sənətkarları çağırsın. Biz hələ ölməmişik, duz-çörəyimizi də itirməmişik..."* [41, s.362]

Bu sözlər mübarizənin bitmədiyini, davam edəcəyini ifadə edən mənalı sonluqdur. *"Proloqda Muradın dirilib mübarizədə iştirak etməsi də xalqın gücünün ölməzlik rəmzidir"* [2, s.271].

Həmçinin bunu da qeyd etmək lazımdır ki, "Çaldıran döyüşü" romanında Sultan Səlimin hekayəsinə də yer verilir və tarixi faktları təhrif etmədən axıcı bir dillə yazıçı oxucularını xəyalən neçə əsr öncəyə aparır. Qılınc adlı elçi ilə bir-birlərinə məktub göndərən bu iki türk sərkərdəsinin qarşı-qarşıya gəlib qan tökməsi isə hər iki xalq tərəfindən böyük təəssüf hissi ilə qarşılanır.

Sultan Səlimin Şah İsmayıla: "*Biz döyüşə hazırıq, ər isən, meydana gəl*" [110] – deyərək elçi ilə yaylıq göndərməsi iki qardaş arasında müharibəni qaçılmaz edir.

Fərman Kərimzadə əsərdə əsas dönüş nöqtəsi rolunu oynayan bu məqama Şah İsmayılın münasibətini açıqlamaqla əslində onun qan tökməkdən, qardaş qırğınına getməkdən uzaq bir hökmdar olduğunu göstərmək istəmişdir. O deyir: *"Yaxşı, ay Sultan Səlim, o boyda dövlət sənə bəs eləmədi, gəlib bizim torpaqların içərisinə girmisən?! Gündə də təhqiramiz bir məktub yazıb məni qorxaqlıqda, acizlikdə təqsirləndirirsən? Görürsən ki, mən səninlə vuruşmaq istəmirəm. Sən davaya girmək istədiyin vaxt mən ova çıxıram. Səndən qorxmuram, çəkinmirəm, bu hərəkətlərinlə sənə demək istəyirəm ki, mən qardaş qanı tökmək fikrində deyiləm. Doğulanda beşiyə, öləndə dar bir qəbrə yerləşən insan sağlığında bütün dünyaya "mənimdi" deyir. Axı sənin deyil. Heç kimin deyil"[41, s.278].*

Romanın sonlarında İsmayılın oxşarının olması və özünü İsmayıl üçün qurban verməsi parlaq şəkildə əks olunmuşdur.

Fərman Kərimzadənin "Xudafərin körpüsü" romanında Şah İsmayılın bədii xarakteri yüksək sənətkarlıqla yaradılmışdır. "Çaldıran döyüşü" romanında da Şah İsmayıl Xətainin bədii fəaliyyəti, onun bir şair kimi dünyagörüşü, bir din bilicisi

olması qələmə alınmışdır. Romanda müharibənin tarixinə bədii baxış istiqamətində yeni faktlar üzə çıxarılmışdır. "Xudafərin körpüsü", "Çaldıran döyüşü" romanlarında Şah İsmayılın ömür və mübarizə yolu xronoloji ardıcıllıqla verilir. Yazıçı daha çox tarixi faktlara və sənədlərə istinadən Şah İsmayıl dövrünün və Səfəvi xanədanı tarixinin epik mənzərəsini canlandırmağa çalışır. Əslində, bu romanların əsas qəhrəmanı xalqdır. Fərman Kərimzadə digər həmkarlarından fərqli olaraq, Şah İsmayılı həm şair, həm də hökmdar kimi canlandırmışdır. Əsərdə onun ağlının və qəhrəmanlığının bir-birini tamamladığı göstərilir.

"Xudafərin körpüsü" istər yazı tərzi, istərsə də təhkiyə və dialoqlarının səlisliyi, zənginliyi ilə seçilən bir romandır, qəhrəmanlıq dastanıdır. "*Hər iki kitab ("Xudafərin körpüsü" və "Çaldıran döyüşü") yüksək ideya-estetik keyfiyyətləri, güclü ictimai-siyasi məziyyətləri ilə yanaşı, quruluş, dil xüsusiyyətləri ilə də diqqəti çəkir"* [80, s.11]. Zəngin bədiilik vasitələri oxucunu 500 il keçmişə aparır, təsvir edilən dövrün havasına daxil edir. Gözəl təbiət lövhələri, min bir rəng heyranlığı ilə ictimai hadisələrin rəmzi əlaqəsi yaranır.

Azərbaycan ədəbiyyatında Şah İsmayıl Xətainin obrazı Əzizə Cəfərzadənin "Bakı-1501", Fərman Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" dilogiyasında, Əlisa Nicatın "Qızılbaşlar" tarixi romanlarında yaradılmışdır. Hər üç yazıçının oxuculara təqdim etdiyi bu geniş epik əsərlər ədəbi tənqid tərəfindən geniş təhlilə cəlb edilmiş və tarixi roman kimi yüksək dəyərləndirilmişdir. Bununla belə dövrün ədəbi tənqidində həmin romanlara fərqli prizmadan yanaşmalar da mövcuddur. Tənqidçi Akif Hüseynov digər tədqiqatçılardan fərqli olaraq, "Xudafərin körpüsü" romanını *"tarixi xronika*" və ya *"salnamə*" [33, s.217] adlandıraraq fərqli mövqe sərgiləmişdir.

Şah İsmayıl Xətai ilə bağlı yaradılan romanlarda yazıçıların hökmdar, ictimai-siyasi xadim, şair kimi bu obraza fərqli prizmadan yanaşmasının şahidi oluruq. Əslində tarixi şəxsiyyət kimi Azərbaycan xalqının taleyində müstəsna rol oynayan Xətainin həyat və fəaliyyətinin əsas məqamlarını əsərlərinin ana xəttinə çevirən hər üç yazıçı XV-XVI əslər Azərbaycan xalqının mübarizələrlə dolu tarixi keçmişinin dolğun mənzərəsini verməyi qarşıya məqsəd qoymuşlar. Lakin ədəbi tənqiddə bəzən

əvvəlki iki romandan fərqli olaraq, Fərman Kərimzadənin əsəri haqqında birtərəfli yanaşmalara da rast gəlinir. Tənqidçi Nadir Cabbarov yazır: *"Açığını demək lazımdır ki, nəsrimizdə tarixi hadisələrə macəraçı həvəsilə, ən pisi, böyük tarixi şəxsiyyətlərimizə ekzotik bir maraqla üz tutmaq meyli hələ də davam etməkdədir. Məsələn, son zamanlar Şah İsmayıl Xətai haqda üç roman yaranmışdır. Lakin bu üç roman üst-üstə milli varlığımızın bu böyük nümayəndəsi barədə müasir oxucuya arzu olunan məlumatı verməyə qadir deyil"* [65, s.182].

Tənqidçi əsas məsələni diqqətdən yayındırmamalıdır ki, yazıçı Şah İsmayılın şəxsi həyatını deyil, dövrün, zamanın geniş epik lövhələrlə bədii inikasını, ictimai-siyasi və sosial mühiti diqqət mərkəzində saxlamaqla obrazı yaşadığı və fəaliyyət göstərdiyi mühitin daxilində formalaşan bir tarixi şəxsiyyət kimi, cəmiyyətdən təcrid etməyərək oxucuya təqdim edir. *"Süjetin ardıcıl davamı və hədsiz şaxəliliyi də, hadisələrin və iştirakçıların çoxluğu da təsvirin səciyyəsindən irəli gəlir. Romanda XV əsrin ikinci yarısı – Ağqoyunluların hakimiyyət illərinin siyasi mənzərəsi sadəcə fon kimi yox, bilavasitə idrak-inikas obyekti kimi alınmışdır və Uzun Həsəndən başlayaraq həmin dövlətin, demək olar ki, bütün başçılarının obrazı yaradılmışdır"* [33, s.181].

"Xudafərin körpüsü" əsasən ədəbi tənqid tərəfindən uğurlu əsər kimi dəyərləndirilsə də, bəzən tənqidçilər bu müsbət tendensiyanı əsərdə müfəssəl şəkildə, bütün gerçəkliyi, reallığı ilə dolğun təcəssümünü tapan ictimai-siyasi mühitin geniş panoramının təsviri ilə deyil, daha çox subyektiv səciyyə daşıyan fikirlərlə əlaqələndirir və birbaşa Şah İsmayıl obrazını ön plana çəkməklə təsdiqləməyə çalışırlar. Tənqidçi Qulu Xəlilovun "*F.Kərimzadə bu romanda Şah İsmayıl obrazını müvəffəqiyyətlə yaradıb*" [65, s.182] – fikri də bunun bariz nümunəsidir.

Tənqidçi Vilayət Quliyev də "Xudafərin körpüsü" romanının "tarixə daha aydın və konkret münasibətlə" bağlılığı məsələsini diqqətə çatdırsa da, onun mülahizələrində hadisələrin dinamik inkişafında, maraqlı və yaddaqalan hadisə və səhnələrin təsvirində, uğurlu bədii həllində Şah İsmayılla əlaqələndirmə tendensiyası da nəzərə çarpır. Romanda Qızılbaşların böyük bir hərəkata çevrilərək tarixi rolu, Şeyx Səfi xanədanının hadisələrin gedişindəki fəaliyyəti, Ağqoyunlular dövlətinin

təşəkkülü və formalaşması, Uzun Həsənin hakimiyyəti dövründə baş verən hadisələr və sonrakı mərhələdə taxt-tac uğrunda gedən mübarizələr, bir-birini əvəz edən hökmdarların tarixdə özünəməxsus yer tutması məsələləri geniş şəkildə əksini tapmışdır. Vilayət Quliyev əsərdəki bu çoxşaxəliliyi, zənginliyi "tarixi ekskurs" kimi səciyyələndirərək, bütün bunların *"Şah İsmayılın öz mübarizəsində qarşılaşacağı düşmən qüvvələr, üzləşəcəyi maneələr, dövrün siyasi mənzərəsi və s. haqqında ətraflı təsəvvür yaratmaq*" [46, s.166] kimi xarakterizə edir. Əslində yazıçı böyük ideallar uğrunda mübarizə aparan, Səfəvi Azərbaycan dövlətinin qurulması yolunda böyük mücadilələrdən keçən, ağıllı və müdrik siyasəti ilə hakimiyyətin uzunömürlülüyünün təminatçısına çevrilən insanların tarixi rolunu real gerçəkliklər fonunda təqdim etməklə şəxsiyyət və zaman problemini vəhdətdə verməyə nail olur. Fərman Kərimzadə əsərdə Şah İsmayıl Xətaini yetişdirən mühit və onun əsas aparıcı simaları haqqında dolğun məlumatlar verir. Uzun Həsən, Sara Xatun, Şeyx Heydər, Aləmşahbəyim, Sultan Yaqub kimi tarixi şəxsiyyətlərin bu sferadakı yerini çox dəqiq müəyyənləşdirir, onların xarakterini, ictimai-siyasi fəaliyyətini, dövrə və zamana münasibətini tarixi həqiqətlə bədii həqiqətin üzvi vəhdətində təqdim edir. Bu məqama diqqət çəkən tədqiqatçı Təyyar Salamoğlu dövrün real mənzərəsini öz baxış bucağından araşdıraraq yazır: *"Əgər Uzun Həsənin uğurlu və vətənpərvər dövlət siyasəti, Sara Xatunun ağıllı diplomatik gedişləri, Şeyx Heydərin uzaqgörən tədbirləri Azərbaycanın Teymurilərin istilasından qurtarıb müstəqil bir dövlətə çevrilməsinə imkan vermişdisə, demək, Şah İsmayılın apardığı mübarizənin təməli Şah İsmayıldan çox əvvəl qoyulmuşdu. Uzun Həsənin, Sara Xatunun diplomatik uzaqgörənliyi, Şeyx Heydərin milli hiss, vətənpərvərlik duyğularının nəhayətsizliyi bu təməli nə qədər möhkəmləndirirdisə, Sultan Yaqubun və ondan sonra hakimiyyətə gələnlərin hakimiyyət ehtirası, ictimai idealdan məhrumluğu bütöv Azərbaycan, milli dövlətçilik uğrunda gedən mübarizələri çətinləşdirir, ciddi maneəyə çevrilirdi. Bu, XV əsrin ikinci yarısında Azərbaycan gerçəkliyinin gələcəyin ibrət dərsləri olan həqiqətləri idi. XV əsrin ikinci yarısını əhatə edən əlli illik bir zaman kəsiyinin hadisələrini xronoloji ardıcıllıqla romanın predmetinə çevirməklə F.Kərimzadə zamanın, dövrün ümumiləşmiş obrazını yaratmışdır"* [74, s.144].

Bəzən ədəbi tənqid tarixi xronika ilə tarixi romanların sərhədlərini müəyyənləşdirməkdə çətinlik çəkmişdir. Bu baxımdan Yavuz Axundovun fikirlərinə diqqət yetirmək yerinə düşərdi: *"Tarixi romanın kompozisiyası hadisələri xronoloji ardıcıllıqla təsvir etmək yolu ilə də qurula bilər. F.Kərimzadə belə yolu münasib hesab etmişdir. Lakin fikrimizcə, uzun müddət ərzində baş verən saysız-hesabsız hadisələri əhatə etmək arzusu müəllifin niyyətlərinin aydın ifadəsinə müəyyən dərəcədə maneçilik törətmişdir. Bizcə, hadisələri və faktları saf-çürük etmək, təfsilatçılıqdan uzaqlaşmaq, bədii ümumiləşdirmə yolu ilə dövrün ruhunu canlandırmaq daha məqsədəuyğun olardı"* [4, s.108]. Lakin tarixi xronika əsasında yazılan əsərlərin də özünəməxsus xüsusiyyətləri vardır ki, yazıçı bu tələblərə və prinsiplərə sadiq qalmalıdır.

Azərbaycan ədəbiyyatşünaslığında Fərman Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" romanları tarixi romanın maraqlı və orijinal nümunələri kimi tədqiqatçıların diqqətini cəlb etmişdir. Bir-birinin davamı kimi nəzərdə tutulan bu romanların birincisində tarixi xronika özünü göstərsə də, "Çaldıran döyüşü" haqqında bu fikri səsləndirmək mümkün deyildir. Çünki *"birinci hissədən fərqli olaraq ikinci hissə "mərkəzəqaçma" prinsipi ilə yazılmış, süjetin inkişafı baş qəhrəmanla – Şah İsmayıl obrazı ilə birbaşa əlaqəlidir. Bu hissədə süjetin inkişaf xəttini bir-birini əvəz edən tarixi hadisələrin epik təsviri yox, Şah İsmayılın hökmdar, dövlət xadimi, vətənpərvər bir şəxsiyyət kimi ictimai və siyasi fəaliyyəti, milli dövlətçilik uğrunda mübarizələrinin mahiyyəti ön plana çəkilir"* [74, s.146]. Göründüyü kimi, Təyyar Salamoğlunun qənaətlərinə əsasən də "Çaldıran döyüşü" əsl tarixi romanın yazıçı qarşısında qoyduğu tələblərə cavab verir: *"Çaldıran döyüşü"ndə hadisə təsvirləri xronoloji prinsipə yox, qəhrəmanın xarakterini hərtərəfli açmağa, ictimai, siyasi xadim və insan kimi canlı inikasına tabe tutulmuşdur. Fikrimizcə, "Çaldıran döyüşü"nü tarixi roman kimi qiymətləndirmək daha düzgün mövqedir. Bir cəhəti də qeyd edək ki, I hissədə müəllif tarixi hadisələrin təfsilatlı təsvirinə daha çox meyil edirdisə, II hissədə hadisələrin mahiyyətinin səciyyəvi detallarla oxucuya çatdırılması üstünlük təşkil edir. II hissə ilə bağlı müəllifə ən çox Çaldıran döyüşünün*

*təfsilatlı təsvirinin verilməməsi irad tutulur. Fikrimizcə, bu da əsərin məhz tarixi roman janrında (tarixi xronika yox) yazılması ilə bağlıdır"* [74, s.146-147].

Fərman Kərimzadə "Xudafərin körpüsü və "Çaldıran döyüşü" romanlarında Şah İsmayıl Xətaini böyük ideallar uğrunda mübarizə aparan "sahibi-zaman", "mürşidi-kamil" kimi yüksək bir məqamda təsvir edir, onun səciyyəvi cizgilərinin, xarakterik xüsusiyyətlərinin bədii sözün qüdrətilə portretini yaradır. Xətaini Səfəvi Azərbaycan dövlətinin qurulması yolunda böyük mübarizə və mücadilələrdən keçən, ağıllı və müdrik siyasətçi, ana dilimizin saflığını qoruyan milli bir təəssübkeş kimi səciyyələndirir. Eyni zamanda yazıçı Şah İsmayılı əhatəsində olan təcrübəli və tədbirli insanların məsləhətlərinə qulaq asan, yeri gəldikdə isə öz müstəqil fikirlərinə üstünlük verərək qərar qəbul edən dərin düşüncəli siyasətçi, çətinliklə nail olduğu hakimiyyətin qorunmasının təminatçısına çevrilən bir hökmdar kimi xarakterizə edir.

F.Kərimzadə dilogiyada insanların tarixi rolunu real gerçəkliklər fonunda təqdim etməklə şəxsiyyət və zaman probleminin bədii həllinə nail ola bilir. Yazıçı əsərdə Şah İsmayıl Xətaini onu yetişdirən mühitdən və onun əsas aparıcı qüvvələrindən təcrid etmir. Əksinə, Şah İsmayıl daim onlarla sıx ünsiyyət qurur, diplomatik danışıqlar aparır, dəyərli məsləhət və tövsiyələrinə önəm verir. Ümumiyyətlə, yazıçı Şah İsmayıl Xətainin xarakterini, ictimai-siyasi fəaliyyətini, dövrə və zamana münasibətini tarixi həqiqətlə bədii həqiqətin üzvi vəhdətində təqdim edir.

### 2.3. Əlisa Nicatın "Qızılbaşlar" romanında Şah İsmayıl Qızılbaşların başçısı kimi

Şah İsmayıl Xətainin həyat və fəaliyyətini, parlaq və yaddaqalan obrazını yaradan yazıçılardan biri də Əlisa Nicatdır. Əlisa Nicatın 1959-cu ildə yazmağa başladığı "Qızılbaşlar" romanının süjet xətti Şah İsmayılın həyatında mühüm rol oynayan Gilan, Şirvan, Təbriz və Çaldıran hadisələri üzərində qurulmuşdur. Yazıçı romanda diqqəti bu hadisələr arasında daha çox Çaldıran döyüşünə yönəldir. Şah İsmayılla Sultan Səlim arasında gedən müharibəni, iki qardaş türk xalqını

parçalamağa aparan münaqişənin fəlsəfəsini açır. Yazıçı Şah İsmayılın Çaldıran döyüşü ilə bağlı fikirlərinə də yer verir:

"*Allah özü şahiddir ki, mən bu qana bais deyiləm. Allah özü şahiddir ki, mən əlimdən gələni elədim. Elçimin boynunu vurdurdu, keçdim. Təbəələrimi qətlə yetirdi, keçdim. Dedim, təki yadlar bizə gülməsin. Bir-birimizi gücdən salıb düşmənləri üstümüzə qaldırmayaq. Dedim, xələflərimiz, nəvə-nəticələrimiz bizə lənət oxumasın..."* [66, s.220]

Şah İsmayıl irsini araşdıran və Şah İsmayıl ilə bağlı tarixi roman yazanların bir çoxu tərəfsizliyi qoruya bilmir və türk yazarlar Sultan Səlimin haqlı olduğunu qələmə alarkən azərbaycanlı yazarlar da Şah İsmayıl tərəfində olaraq İsmayıla haqq qazandırmağa çalışırlar. Bu romanda da yazıçı hər nə qədər tərəfsiz olmasa da, Şah İsmayılın bu döyüş üçün həvəsli olmadığını və qardaş qanı tökmək istəmədiyini Şah İsmayılın monoloqunda oxuculara təqdim edir.

Tarixi faktlara yer verilməsini bu romanda da görmək mümkündür:

"*Fərrux Yasarla Şeyx Heydər üz-üzə gəldilər. Şirvanlılar əyri qılınclı qızılbaş süvariləri önündə davam gətirə bilmədilər. Ancaq bu zaman köməyə gələn Ağqoyunlu qoşunu döyüşün taleyini Yasarın xeyrinə həll etdi.*

*Məğlub olan qızılbaşlar şeyxi Xəzri kəndi yaxınlığında dəfn edib Ərdəbilə qayıtdılar. Ancaq Yaqub burada da onlardan əl çəkmədi. Ərdəbili öz dövlətinə qatdı, Şeyx Heydərin 3 oğlunu – Əlini, İbrahimi və iki yaşlı İsmayılı uzaq Axtamar monastrına, sonra isə Şirazdakı İstəxr qalasına göndərdi*" [66, s.9].

Daha 2 yaşlı bir körpənin bunları yaşayaraq böyüməsinə baxıldığında, əslində, düşmənlərinə qarşı sərgilədiyi acımasız davranışlarına haqq vermək mümkündür. Digər tərəfdən bunu da qeyd etmək lazımdır ki, əsərdəki yuxarıda verilmiş parçadan da göründüyü kimi, hadisələr sadəcə Şah İsmayıl dövrü ilə bağlı deyil, eyni zamanda daha keçmişi də özündə birləşdirir. Bu isə Şah İsmayıl dövrünü də anlamağı asanlaşdırır, hadisələrə hakim olmayan bir oxucunun belə əsəri birnəfəsə bitirməsini təmin edir.

Roman 1494-cü ildə Bərdə yaxınlığında Ağqoyunlu Baysunqurla Rüstəm Mirzənin döyüşü və Baysunqurun öldürülməsi, bu döyüşdə Şah İsmayılın böyük qardaşı Sultanəlinin qızılbaş dəstəsinin qəhrəmanlıq və şücaətinin təsviri ilə başlanır.

Rüstəm Mirzə hiyləgər və tədbirli sərkərdə Əbih Sultanı Sultanəlinin üzərinə göndərir. Qeyri-bərabər döyüşdə Sultanəli öldürülür. Böyük qardaşın vəsiyyətinə görə 7 yaşlı İsmayıl qızılbaşların müridi olur. Sufilər çox zaman öz rəhbərlərini "Şah" adlandırdıqlarından İsmayıla da "şah" deyə xitab edirdilər. Qızılbaşlar əsrlər boyu ayaqlar altında tapdanan vətənin və xalqın gələcək taleyini məhz İsmayılın həll edəcəyinə ümid bəsləyirlər. Yaxın adamları İsmayılı Gilanın Lahican şəhərinə gətirib yerli hakim Seyid Mirzə Əliyə tapşırırlar. Beləliklə, Azərbaycan dilinin və dövlətçiliyinin inkişafında və qorunmasında müstəsna xidmətləri olacaq, bütün Azərbaycanı vahid bir sərhəddə birləşdirəcək o güclü dövlətin qurucusu olacaq İsmayıl burada böyüyür, tərbiyə alır və təlim keçir.

Ə.Nicatın "Qızılbaşlar" romanında Şah İsmayıl vətənin və xalqın birliyi yolunda mübarizə aparan, öz əqidəsi və amalı uğrunda çarpışan, geniş xalq kütlələrinin iradəsini ifadə edən, məhəbbətini qazanan bir hökmdar kimi səciyyələndirilir. Beləliklə, müəllif öz qəhrəmanının həyat və mübarizə yolunu ön plana çəkir.

Romanda bir-birini əvəz edən hadisə və əhvalatlar fonunda Şah İsmayılın mübarizə xarakteri bütün dolğunluğu ilə aşkarlanır. Yazıçı, bir tərəfdən, tarixi fakt və mənbələrə istinad edərək, digər tərəfdən, bədii təxəyyülün gücünə söykənərək onun şəxsiyyətini yaratmağa çalışmışdır.

"Qızılbaşlar" romanında Şah İsmayılın real obrazı ilə yanaşı, müəllif xəyalının yaratdığı obraz da özünü göstərir. Buna görə də əsər haqqında müxtəlif düşüncələr vardır. Bəzi səbəblərə görə müəllif əsəri bitirdikdən uzun müddət sonra nəşr etdirə bilməmişdir. Bu zaman minvalında Əlisa Nicat əlyazma üzərində yenidən işləyərək onu daha da təkmilləşdirmişdir. Əlisa Nicatın bu mövzuya müraciət etməsinin səbəbi Sovet İmperiyasında milli özünəqayıdış duyğusunun oyanışı və müstəqil dövlətçilik idellarının güclənməsi ilə əlaqədar idi. Həmin dövr Azərbaycan xalqının tarixində önəmli mərhələ olmuş, Şah İsmayıla Azərbaycan tarixində və ədəbiyyatında müstəsna xidmətləri olan şəxsiyyət kimi maraq yaranmışdır.

Romanı təhlil edən filologiya elmləri doktoru, professor Yavuz Axundlu müəllifin tarixi faktlara və sənədlərə dəqiq istinad etdiyini səciyyələndirərək yazır: *"Tarixi romanda tarixi və bədii həqiqət anlayışlarının vəhdəti mühüm rol oynayır. Ə.Nicat dövrün mürəkkəb hadisələrini bədii sözün qüdrəti ilə real boyalarla canlandıra bilmişdir. Ayrı-ayrı epizodların təsvirində, surətlərin xarakterlərinin açılmasında məlum mənbələrə istinad etmək əsərin inandırıcılığını gücləndirən əsas xüsusiyyət kimi diqqəti cəlb edir. Müəllif canlandırdığı epizodların əksəriyyətini tarixi dəqiqliklə süjetə daxil etmişdir. Hətta ilk baxışda yazıçı təxəyyülü ilə yaradıldığı hesab edilən təsirli bir epizod da mənbələrdə qeyd olunmuşdur. Toyu olan bir gəncin zifaf gecəsində gəlin ilə görüşmədən Şah İsmayılın dəstəsinə qoşulması faktı xalq kütləri içərisində bu hərəkatın geniş yayıldığını və böyük təsir gücünə malik olduğunu təsdiq edir"* [2, s.91-92].

Məlumdur ki, Şah İsmayıl hakimiyyət uğrunda mübarizədə və apardığı müharibələrdə dini təriqətə arxalanırdı. Orta əsrlərdə dərin köklərə malik şiəlik ideologiyası təkcə Azərbaycanda deyil, digər Şərq ölkələrində də geniş yayılmışdı. On minlərlə insanın həmin əqidəni qəbul etməsi, bu yolda vuruşması və həlak olması Şah İsmayılın bir təriqət başçısı kimi böyük nüfuz sahibi olduğunu göstərir. Romanda təsvir olunan ayrı-ayrı surətlərin xarakterini açmaq, xüsusən Şah İsmayılın zəngin aləmini işıqlandırmaq məqsədilə qızılbaş ideologiyasının kökləri və qayəsi haqqında bəhs etmək, bəzi zəruri məlumatları süjet xəttindəki hadisələrlə əlaqələndirmək müasir oxucu üçün faydalı olardı. Lakin "*əsərdə minlərlə insanın həmin ideologiyaya münasibəti, bu əqidəyə inamı ötəri, həm də bədii inandırıcılıq baxımından zəif verilmişdir*" [2, s.258].

Əlisa Nicat əsərdə qızılbaş ideologiyasını elmi-publisist şəkildə deyil, obrazların qarşılıqlı münasibətlərində əks etdirmişdir. Əsas diqqəti vahid Azərbaycan dövlətinin yaradılmasına yönəltmiş, Çaldıran döyüşünün türk dünyasına gətirdiyi fəlakətləri əks etdirmişdir. Romanda Şah İsmayılın canlı xarakterini yaradan Əlisa Nicat, onu vətənpərvər, mübarizə aparan, xalqın azadlığı uğrunda, əqidəsi, amalı yolunda bütün çətinliklərə sinə gərən bir şəxs kimi təqdim etməyə çalışmışdır. Yazıçının bu səyi nəticəsiz qalmamış, roman vasitəsilə sovet ideologiyası çərçivəsində bədii və ictimai

məfkurəyə hakim olan durğunluğu, ətaləti, cəmiyyətin özünə, tarixinə, keçmişinə olan biganəlik sindromunu müəyyən qədər aradan qaldırmağa nail olmuşdur.

Yazıçı Nazim Rəşid bu haqda yazır: *"Yazıçı heç bir "ön söz" olmadan, "ön söz"ün yerinə "Əsrin mənzərəsi" adlı birinci fəsillə başlayır. "Əsrin mənzərəsi" doğrudan da adını doğruldur, yetkin halda yüz illiyin görüntüsünü göstərir. Düzünü desəm, belə yazılışı təkcə Əlisa bəydə görmüşəm. İlk fəsil ancaq maraqlı yazılıb ki, oxucuda kitabı bir gün içində oxuyub qurtarmaq istəyi yaranır. Baş igid biz Qızılbaş türklərinin (eləcə də dünya türklərinin) ən böyük kimliklərindən biri olan İsmayıl şah Xətaidir. İkinci-önəmli igidlər isə İsmayılın keşikçiləri Hüseyn bəy Lələ, Məhəmməd bəy Ustaclı, Xülafə bəy Ustaclı, bir də Bayram bəy Şamlıdır. Bu tarixi kimliklərin, özəlliklə İsmayılın görkü böyük bir ustalıqla, dəqiqliklə yaradılıb. Əlisa Nicat tarix elmləri doktoru dahi Oqtay Əfəndiyevin "Azərbaycan Səfəvilər dövləti" adlı (çox dəyərli) tarix kitabından (həmçinin bir sıra ayrı qaynaqlardan) götürdüyü dəyərli məlumatları dəyərləndirib, "Qızılbaşlar"ı yazmışdır. Buna görə də tarixi baxımdan çox dəyərlidir"* [72]. Hadisələr XV əsrin sonları, XVI əsrin əvvəllərində baş verir. Burada kiçik İsmayılın başına gələn müsibətlərdən, Hüseyn bəyin İsmayılı ərdəm igid kimi yetişdirməsindən, İsmayılın hələ 12-13 yaşlarında ordu başına çıxıb Şirvana yürüşündən, şeirlər yazmasından, sonda da xaqanlıq taxtına oturmasından danışılır.

Tarixi romanlara maraq bütün dövrlərdə həm oxucuların, həm də ədəbi tənqidin diqqət mərkəzində olmuşdur. Bu baxımdan Şah İsmayıl Xətainin ömür yolunu, mübarizələrdə keçən ictimai-siyasi fəaliyyətini, yüksək ideallara çatmaq yolundakı mücadilələrini özündə əks etdirən "Qızılbaşlar", "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" romanları haqqında bəzən bir-birini təsdiqləyən, bəzən isə fərqli prizmadan yanaşılan fikirlər səslənməkdədir. Akademik Bəkir Nəbiyev bu üç əsəri müqayisə edərək belə qənaətə gəlir: *"Ə.Cəfərzadədən və Ə.Nicatdan fərqli olaraq F.Kərimzadənin Şah İsmayılı həm də əsl Xətaidir. Onun poeziya sahəsində ilk qələm təcrübələrinə müəyyən səhifələr həsr edilməsi bu əsərdə surətin real prototipi ilə uyarlığını qüvvətləndirmişdir*" [64, s.34].

Tarixçi alim Mahmud İsmayılovun fikirləri ilə akademik Bəkir Nəbiyevin gəldiyi nəticələr arasında müəyyən uyarlıqlar diqqəti cəlb edir: M.İsmayılov yazır:

*"Bakı-1501" və "Xudafərin körpüsü" Şah İsmayıla həsr olunmuş ilk bədii əsərlərdir. Təəssüf ki, bu böyük şəxsiyyətə həsr olunmuş birinci romanda əsərin bütün məziyyətlərinə baxmayaraq, Şah İsmayıl obrazına verilmiş qiymətlə, onun tarixi həqiqətlə uyuşmayan bəzi hərəkətlərinin təsviri ilə, ilk Azərbaycan dövlətinin yaradıcısı olan Şah İsmayılın həm də intiqamçı din mücahidi kimi verilməsi ilə heç cür razılaşmaq olmaz. Bu məsələlərə "Xudafərin körpüsü"ndə tarixi həqiqətə daha uyğun şəkildə toxunulmuşdur"* [61].

Hər iki alim Fərman Kərimzadənin yaratdığı Şah İsmayıl obrazının reallığa daha yaxın olması fikrini irəli sürsə də, tənqidçi Vaqif Yusifli məsələyə fərqli prizmadan yanaşır: *"Azərbaycanın görkəmli dövlət xadimi, şair və sərkərdə Şah İsmayıl Xətaiyə üç roman həsr edilmişdir. Lakin nə Əzizə Cəfərzadənin "Bakı-1501", nə Fərman Kərimzadənin "Xudafərin körpüsü", nə də Əlisa Nicatın "Qızılbaşlar" romanı yüksək sənət əsəri səviyyəsindədir. Bu romanlarda çoxlu döyüş səhnələri təsvir olunur, hiss edirsən ki, müəlliflər əsas tarixi sima olan Şah İsmayıla böyük rəğbət bəsləyirlər, tarixi hadisələrin dəqiqliyinə də əksər hallarda sadiq qalırlar. Amma Şah İsmayıl dövlət başçısı, şair və sərkərdə kimi nə qədər yadda qalsa da, bir insan kimi – bütün daxili aləmi, ruhi sarsıntıları ilə canlandırılmadığından tez unudulur. Ə.Nicatın təsvirlərində buna müəyyən cəhd hiss olunsa da, bütövlükdə roman oxucuda dərin hisslər və duyğular oyatmır"* [81, s.107].

Bütün bu fikir və mülahizələri nəzərdən keçirdikdə hər üç əsər haqqında həm təsdiqləyici, həm də təkzibedici mülahizələrlə rastlaşsaq da belə, əslində hər üç romanda Şah İsmayılın uşaqlıq, gənclik illərinin, eləcə də hakimiyyətdə olduğu dövrün hiss və duyğularının, sevinc və kədərinin, zəngin daxili dünyasının, dərin düşüncələrinin real səhnələrlə təsvirini aydın şəkildə görmək mümkündür. *"Hər üç müəllifin romanı ümumi halda Xətai haqqında yazılmış romanlar kimi qiymətləndirilsə də, məqsədlər tamam fərqlidir. Ə.Cəfərzadə ilə Ə.Nicat daha çox Şah İsmayılla bağlı bir neçə tarixi hadisəni romanın predmetinə çevirmişlər. Deməli, əsas məqsəd bu tarixi hadisələr fonunda Şah İsmayıl fenomeninin məzmununu açmaq, onun müasirliyini müəyyənləşdirməkdir. Belə olanda Şah İsmayılın mükəmməl bədii obrazının yaradılması bədii niyyətin əsas istiqamətlərindən biri*

*olmalıdır. XV əsrin sonu, XVI əsrin əvvəllərindəki tarixin aparıcı şəxsiyyətlərindən biri olan Şah İsmayılın xarakterinin müasirliyi romanların əsas məziyyətinə çevrilməlidir*" [74, s.142]. Bu baxımdan yanaşdıqda, hər üç müəllifin qarşıya qoyduğu məqsədə əsasən nail olduğunu müşahidə edirik.

Burada vurğulamaq lazımdır ki, ilk dəfə Qızılbaşlarla bağlı romanı (1959-cu il) Əlisa Nicat yazmışdır. Bu ilk hələ də, Qızılbaşlara aid olan, bütün romanlar arasında ən dəyərlisi olaraq qalır. Romanın təhlili nöqteyi-nəzərdən yazıçını dəyərli edən amilləri aşağıdakı kimi sıralamaq mümkündür:

1. Əsər tarixi baxımdan olduqca sanballı və qiymətlidir (belə ki, yazıçı tarixi məlumatlardan çox axıcı bir şəkildə istifadə edərək oxucuların məlumatlanmasını da təmin edə biləcək, qaranlıq məqamların olmayacağı bir əsər ortaya çıxarmışdır);
2. Tarixi kimliklərin özəllikləri çox gözəl göstərilib (başqa sözlə, hər bir tarixi qəhrəmanın mənfi və müsbət cəhətlərini, düşüncələrini tarixi romanı oxuyarkən anlamaq heç də çətin deyil. Çaldıran döyüşündən də bəhs edilərkən azan səsinin eyni anda eşidilməsi və hər iki tərəfin azan səsinin bir-birinə qarışmasını bədii yaradıcılıqla təsvir edən yazar, əslində, dini ön plana çəkmir. Buradakı əsl məqsəd döyüşən şahların eyni bir dindən, eyni bir qandan olduğunu dilə gətirməkdir);
3. Qızılbaşlarla bağlı bəzi cəfəngiyyat dolu romanlardakı kimi özbaşınalığa yol verilməyib (Daha əvvəl də qeyd edildiyi kimi, əsəri oxuyarkən müəllifin dərin tarixi məlumatlarının olduğunu anlamaq mümkündür. Lakin müəllif oxucularını çox tarixi məlumatla da yükləmir. Romanda tarixiliklə bədiiliyin harmoniyası yaradılmışdır. Bu isə əsəri daha da oxunaqlı hala gətirən cəhətdir);
4. Aydın, başa düşülən dildə yazılıb (yuxarıda da vurğulandığı kimi, yazıçı tarixi məlumatlara yer versə də, romanın dili axıcı və sadədir. Ağır terminlər və anlaşılmayacaq sözlərə yer verilməmiş, çətin akademik dilə müraciət edilməmişdir. Tarix və ədəbiyyatın ahəng təşkil etdiyi bir üslubda yazılmış romanda sadəcə Şah İsmayıla deyil, ümumi olaraq Qızılbaşlara toxunulmuş və sadə bir dildə onların tarixi bu romanda yerini almışdır).

Fərman Kərimzadə, Əzizə Cəfərzadə və Əlisa Nicatın əsərlərində tarixi fakt və reallıqlar daha çoxdur və məhz bu cəhətlər digər üç yazıçının tarixi romanlarının oxşar xüsusiyyətləri olaraq qiymətləndirilə bilər.

Fərman Kərimzadənin tarixi romanlarındakı ən diqqət çəkən xüsusiyyət isə xronoloji ardıcıllığın gözlənilməsi olmuşdur. Yazıçı hər iki romanında Şah İsmayılın xarakter və mənliyini bədii təsvir vasitələri ilə xronoloji ardıcıllığı gözləyərək həyata keçirmişdir.

Əlisa Nicatın tədqiqata cəlb etdiyimiz romanı isə, sadəcə, Şah İsmayılı deyil, eyni zamanda Qızılbaşlıq ideologiyasını anlamaq üçün qiymətli əsərdir.

Ümumilikdə isə Azərbaycan tarixi romanlarındakı Şah İsmayıl obrazına nəzər saldıqda müəyyən məqamlarda hər nə qədər tərəflilik, Şah İsmayılın müsbət cəhətlərinin təsvirlərinin yer alması halları müşahidə edilsə də, obyektivliyin qorunulmasına diqqət göstərildiyinin şahidi oluruq.

Bu fəsildə əldə edilən nəticələr nüfuzlu nəşrlərdə "Fərman Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" romanlarında Şah İsmayıl xarakteri"[51] "Azerbaycan Tarihi romanlarından Azize Caferzadenin "Bakı-1501" romanında Şah İsmail karakteri" [47] "Əzizə Cəfərzadənin "Bakı-1501" romanında Şah İsmayıl obrazı" [49] və s. məqalə və məruzələr şəklində əksini tapmışdır.

## III FƏSİL. ŞAH İSMAYIL OBRAZI TÜRKİYƏ TARİXİ ROMANLARI MÜSTƏVİSİNDƏ

### 3.1. İskəndər Palanın "Şah və Sultan" və Reha Çamuroğlunun "İsmail" tarixi romanlarında Şah İsmayıl mücərrədlik və tarixi gerçəklik müstəvisində

Görkəmli türk yazıçısı, divan ədəbiyyatı tədqiqatçısı, professor İskəndər Pala 1958-ci il 8 iyunda Uşakda anadan olmuşdur. İstanbul Universiteti Türk dili və Ədəbiyyat fakültəsinin məzunu olan İskəndər Pala 1983-cü ildə Divan ədəbiyyatı üzrə doktorant, 1993-cü ildə İstanbul Universitetində dosent, 1998-ci ildə Kültür Universitetində professor elmi adını almışdır. İskəndər Palanın "Babildə ölüm, İstanbulda eşq" və "Qətreyi-matəm" romanları Türkiyənin ən böyük tirajla çap edilən kitabları arasında yer tutur. Müəllifin çoxsaylı kitabları içərisində 2010-cu ildə İstanbulda "Qapı" nəşriyyatı tərəfindən nəşr edilən "Şah ve Sultan" tarixi romanı çox böyük önəmə sahibdir.

Yazıçının tarixi romanlarında əsasən Osmanlı imperiyasının mübarizə, mücadilə və müharibələri, siyasi həyatı, dini-ideologiyası, qədim və çoxəsrlik zəngin mədəniyyəti və Azərbaycanın tarixi şəxsiyyətləri, xüsusilə Şah İsmayıl Xətai ilə bağlı mövzular üstünlük təşkil edir. Onun tarixi romanlarının coğrafiyası xeyli dərəcədə genişdir. Zaman baxımından da uzun əsrlərə dayanır. Belə ki, yazıçının yaradıcılığı islamın yayıldığı Qədim Babilistandan, Osmanlı İmperiyasının yaradıldığı mərhələdən XIX əsrə, eləcə də çağdaş Türkiyə həyatının təsvirinə qədər böyük bir dövrü çevrələyir. İsgəndər Pala bütün bu məsələlərə müraciət edərkən müasir gəncliyi maarifləndirmək və onları tarixin dərslərindən nəticə çıxarmağa istiqamətləndirmək məqsədi daşımışdır. Yazıçı bu tarixi romanlarında cəmiyyətin ayrı-ayrı təbəqələrinə mənsub müxtəlif xarakterli insanların obrazlar qalareyasını yaratmışdır. İçərisində sadə insanlardan sərkərdəyə, hökmdara kimi yer alan bu rəngarəng obrazlar aləmini yaradarkən İ.Pala tarixilik və müasirlik prinsipini qorumağa çalışmışdır. Yazıçının

Osmanlı tarixinə bu qədər yer verməsinin bir səbəbi də böyük müharibə və mücadilələrdən keçən Osmanlı imperiyasının çökməsindən sonra iqtisadi, sosial, ədəbi-mədəni sahələrdə tənəzzül dövrü yaşayan imperiyanın yenidən öz qüdrətini bərpa etmək iqtidarında olmasını təlqin etməkdir.

İsgəndər Palanın yaradıcılığında Azərbaycan xalqının tarixi keçmişi, böyük şəxsiyyətlərin həyatı və ictimai-siyasi fəaliyyəti ilə bağlı əsərlər xüsusi yer tutur. Yazıçının Səfəvilərin tarixinə həsr etdiyi əsərlər onun bu hakimiyyətin keçdiyi tarixi mərhələləri, Şah İsmayıl, Şah Təhmasib kimi hökmdarların dövlətçilik fəaliyyətini, Türkiyə ilə münasibətlərini və başqa önəmli məsələləri diqqət mərkəzində saxlamaq və çağdaş türk oxucusuna bütün bu tarixi proseslər haqqında məlumat vermək məqsədi daşıyır. Bu tarixi romanlarda yazıçı zəngin arxiv materiallarına, tarixi sənədlərə istinad etsə də, məsələlərə özünün subyektiv baxışları da əksini tapmışdır.

Məlumdur ki, "*Şah İsmayıl Xətai tarixdə sahib olduğu önəmli mövqeyə görə Azərbaycan tarixində olduğu qədər Türkiyə tarixi üçün də önəmli şəxsdir*" [56, s.192]. Bu səbəbdən Şah İsmayıl Xətai bir qəhrəman obraz olaraq türk tarixi romanlarında da əks olunmuşdur. "*Reha Çamuroğlu "İsmail" (2001), İskender Pala "Şah ve Sultan" (2010), Reha Bilge "1514", "Yavuz Sultan ve Şah İsmayıl" (2010) tarixi romanları buna ən yaxşı nümunələr olaraq göstərilə bilər*" [50, s.276].

İsgəndər Pala Azərbaycan xalqının tarixi keçmişini özündə ehtiva edən "Şah və Sultan" romanında Osmanlı və Səfəvi hakimiyyətinin münasibətlərini, qarşıdurmaları, əslində bir-birinə dost, qardaş olan iki türk dövlətinin müxtəlif təriqətlərə inanc gətirməsinin böyük faciələrə yol açmasını açıb göstərir. Romanın yazılmasında başlıca məqsədin ömrü mübarizələrdə keçən tarixi şəxsiyyətlərin keşməkeşli həyatı haqqında müasir oxucuya müəyyən məlumat vermək olsa da, yazıçı tarixdə böyük iz qoymuş iki hökmdar – Şah İsmayıl və Yavuz Sultan Səlimin həyatından, ictimai-siyasi fəaliyyətindən bəhs edən bu romanda özünün tarixi şəxsiyyətlərə ideoloji baxımdan fərqli baxış və düşüncələrini də çatdırmağa çalışmışdır. Tarixi faktlarla yazıçı fantaziyasının sintezindən yaranan romanda müəllifin obrazlara və hadisələrə Azərbaycan romançılarından seçilən münasibəti oxucuda əsər haqqında başqa təəssürat oyadır.

Belə ki, tarixi hadisələri fərqli və özünəməxsus şəkildə ələ alan yazıçı tarixi insanlara sevdirəcək gücə malikdir. Burada tarixi reallıqla yazıçının fantaziyası sintezli şəkildə ortaya yeni bir roman çıxarır. Şah İsmayılla Sultan Səlim arasındakı qarşıdurmaya həsr edilən romanın diqqəti cəlb edən tərəflərindən biri də tarixi hadisələrin eşqlə sintez edilməsidir. Yazıçı ən yaxşı bildiyi üslubdan istifadə edərək, hadisələrin arasına eşq şeirləri əlavə etməyi də unutmamışdır. Bu şeirlər qəhrəmanlar arasındakı eşqi oxuculara daha təsirli və emosional şəkildə çatdırır.

Romanda yazıçı Sultan Səlim dönəmini və onun Səfəvi hökmdarı Şah İsmayılla olan qarşılıqlı münasibətlərini dərindən araşdıraraq oxucunu özünə heyran edir. Əsərin digər bir özəlliyi də iki fərqli şəxsin dilindən narrativ üslubda qələmə alınmasıdır. İskəndər Pala bu üsulla manevr edərək hər iki tərəfin baxış bucağını obyektiv şəkildə təsvir etmək istəmişdir. Beləliklə, romanın bir hissəsi Şah İsmayılın yaxınında olan Kamber Can tərəfindən, digər hissəsi isə Yavuz Sultan Səlimin tərəfində olan Can Hüseyn tərəfindən nəql edilir.

Əsərin qısa məğzindən danışsaq, romanda Anadolu türkmənlərindən olan əkiz qardaşlar Həsən və Hüseyn iki fərqli istiqamətə yol alır. Həsən Anadoludan İrana köçərək Şah İsmayılın, Hüseyn isə Sultan Səlimin yaxınına yerləşir. İskəndər Pala burada çox maraqlı dilemma yaradır. Öz liderlərinə cani-könüldən xidmət edən hər iki qardaş zamanla liderlərinin öz iqtidarları üçün xalqlarına yaşatdıqları zülmü görürlər. Nəticədə liderlərinə olan sevgi və güvəni sorğulamağa başlayırlar. Çaldıranda Hüseyn Həsəni öldürərək Şah İsmayılın xidmətinə girir.

Romana görə, Şah İsmayılla Sultan Səlim arasındakı ziddiyyətin bəzi səbəbləri vardır. Belə ki, hər iki hökmdar Taclı Hatuna aşiqdir. Tərəflər arasındakı uzun ədəb qaydalarını keçən məktublaşmalara görə, hər iki hökmdar türk xalqının hökmdarı olmaq niyyətindədir və bu mövzuda bir-birlərinə anlayışlı davranmaq kimi bir düşüncələri yoxdur. Maraqlıdır ki, hər iki hökmdarın arasındakı rəqabət o qədər güclüdür ki, hansı hökmdarın böyük şair olduğunu isbat etməyə can atırlar. Əslində, hər ikisi də olduqca bacarıqlıdır və hər ikisi də eyni mədəniyyətin yetişdirməsidir. Amma təəssüf ki, mənfəətlər qarşı-qarşıya gəldiyi zaman müharibələr baş qaldırır.

Eyni zamanda kitabın önəmli mesajları da vardır. Düşünürük ki, sünni-şiə qarşıdurmasını, bu məsələdəki qərəzli fikirləri aradan qaldırmağa böyük xidmətləri olacaq bir əsərdir, həmçinin roman ələvi-sünni münasibətlərində lazımlı tabuları qırmışdır. Bu kitab roman olmaqla yanaşı, iki şəxsiyyətin paralel bioqrafiyasıdır. Lakin əsərdə bəzi çatışmazlıqlar da var. RPomanda Sultan Səlimin ailəsi ilə olan münasibətlərinə aydınlıq gətirilmir.

Yuxarıda qeyd etdiyimiz kimi, sevgi hekayələri bu romandan da yan keçməyib. Eşqin nə olduğunu anlamağa çalışan Kamber Canla birlikdə biz də eşq fəlsəfəsinə dalmış oluruq. Eyni zamanda romandakı eşq çoxtərəfli bir eşqdir. Bunu eşq çəmbəri deyə ifadə etsək, yanlış olmaz. Belə ki, ilk başlarda Taçlı və Ömər arasında eşq yaşanır. Daha sonra Şah İsmayıl Taçlını sarayına qəbul edir və bu sırada da Şah İsmayıl Taçlıya vurulur. Amma Şah İsmayıl Çaldıranda məğlub olaraq hər şeyini itirir. Beləliklə, Sultan Səlim Taçlını əsiri olaraq İstanbula aparır və burada eşqin istiqaməti dəyişmiş olur.

Bəzi araşdırmalara görə, romanda Yavuz Sultan Səlimin tərəfi tutulur. O dövrdə yaşananların günahı Şah İsmayılda görülür. Bu, Şahın yanlış siyasətilə əlaqələndirilir. Şah İsmayıl Osmanlı dövlətinin içərilərinə doğru hərəkət etmək niyyətindədir. Bu eyni zamanda dini istismar olaraq düşünülür. Sultan Səlimin buna qarşılıq olaraq cihad elan etməsi dini baxımdan doğru hərəkət olaraq dəyərləndirilir. Yenə də yazıçı bəzi məqamlarda Şah İsmayılın haqqını təslim etməyə çalışır. Həmçinin iki liderin duyğusal tərəfini oxuyarkən insan təəccüblənməyə bilmir. Bu qədər böyük hökmdarlar belə eşq qarşısında zəif və aciz görünürlər.

Yazıçı əsərdə iki hökmdar arasında gedən mübahisə, mübarizə və müharibələrə rəvac verən faktor kimi ələvilik və sünniliyin ayrıseçkilik yaratdığını qabartmağa çalışmışdır. Buna görə də İsgəndər Pala bu məsələlərə romanda geniş yer verir. “Şah və Sultan” romanında iki türk dövlətinin qanlı savaşlara qədər gedib çıxan sonluğu acı təəssüf hissi doğurur. Yazıçının digər tarixi romanlarında olduğu kimi, bu əsərində də oxucunu və ədəbi tənqidi razı salmayan məqamlar çoxdur. Məhz əsərdəki ziddiyyətli fikirlər mübahisələrə, müzakirələrə yol açır və birmənalı qarşılanmır. İskəndər Palanın əsərlərində tarixə fərqli yanaşmalar onun yaradıcılığı haqqında

yazılmış tədqiqatlarda da öz əksini tapır və bu yanlışlıqlar haqqında müxtəlif fikirlər səsləndirilir.

İsgəndər Palanın Azərbaycan və Osmanlı tarixinin görkəmli hökmdarları haqqında roman yazması müsbət hal kimi dəyərləndirilməlidir. Əsər Türkiyə ictimaiyyəti, oxucuları və ədəbi fikir adamları tərəfindən maraqla qarşılanmış, eyni zamanda müəyyən mübahisələrə də gətirib çıxarmışdır. Doğrudur, yazıçı əsərdə müəyyən mənada öz fikir və düşüncələrini azad və sərbəst şəkildə ifadə etmək imkanına malikdir. Lakin tarixi roman ustası bu janra müraciət edərkən oradakı tarixi faktların, taleyüklü problemlərin, xalqın mənafeyinə zidd gedən məsələlərin qabardılmasına çalışmamalıdır. Tarixi şəxsiyyətlərin obrazlarını canlandırarkən onların şəxsi həyatı ilə bağlı məsələlərdə öz yazıçı fantaziyasına məxsus olaraq bəzi çalarlar əlavə edib obrazı daha dinamik, yadddaqalan və diqqət çəkən tərzdə təqdim etsə də, onun ictimai-siyasi fəaliyyətini işıqlandırarkən təhriflərə yol verməməli, xalq qarşısında xidmətlərini kölgədə qoymamalı, həqiqətdən uzaqlaşma hallarına cəhd göstərməməlidir. Buna baxmayaraq, İsgəndər Palanın "Şah və Sultan" romanında yazıçının Səfəvi hökmdarlarına mənfi münasibət sərgiləməsinin şahidi oluruq. Bu isə tarixi faktların təhrifi anlamına gətirib çıxarır, oxucunu yanlış istiqamətə yönəldir və tarixi həqiqətin bədii həqiqətlə uyğunluğunu şərtləndirmir. Burada müəllif tendensiyası tarixilik və bədiilik tendensiyasından uzaqlaşaraq daha çox siyasi mahiyyət daşıyır və yazıçının subyektiv hiss və münasibətlərinin daşıyıcısı anlamına gəlir. Bütün bunlar isə tarixi roman yaradıcısına uğur gətirmir, əksinə oxucunun inamını itirmək kimi mənfi tendensiya ilə qarşılaşmalı olur və ədəbi tənqidin, ədəbiyyatşünaslığın sərt ittihamı ilə üz-üzə qalır. Yazıçı XV-XVI əsrin ictimai-siyasi mənzərələrini, mövcud situasiyada Səfəvi hökmdarlarının çıxış yolları aramasını, siyasi və taktiki gedişlər etməsini, fəqət bunların arxasında böyük dövlətçilik ideologiyasının dayandığını arxa plana keçirməklə obyektivlikdən uzaqlaşır və beləliklə, oxucu təhrif olunmuş faktlarla məlumatlandırılır. Bütün bunlar tarixi roman janrı üçün yolverilməzdir. Bəs yazıçını bu təhriflərə sövq edən başlıca səbəb nə ilə bağlıdır? – deyə düşündükdə belə bir qənaətə gəlmək olur ki, bir yazıçı kimi İsgəndər Palanın bəhrələndiyi nəzəri məlumatlarda, tarixi mənbələrdə, o cümlədən Avropa

dövlətlərində, Şərq aləmində və Türkiyə tarixşünaslığında belə bir fikir formalaşmışdır ki, Səfəvi hökmdarları İrana məxsus dövlətin başçıları olub, yəni Səfəvi dövləti Azərbaycan deyil, İran dövlətidir. Bu yanlış fikir ədəbiyyatda da özünə yer tapmış və tarixi romanlara da sirayət edərək ədəbi düşüncədə çaşbaşlıq yaratmışdır. Bunun əsas səbəbi o zaman qurulan Səfəvi dövlətinin çox hissəsinin, eyni zamanda bu dövlətin paytaxtlarının İran məmləkətində, onun ərazilərində yerləşməsi olmuşdur. Təəssüf ki, bu yanlış tendensiya çağdaş dövrə qədər davam etməkdədir. Məhz bu yanlış münasibətin nəticəsində bir çox tarixçilər, alimlər, yazıçılar Şah İsmayıl və digər Səfəvi hökmdarlarını Azərbaycana deyil, İrana məxsus dövlət başçıları, hökmdarlar kimi təqdim edirlər. İsgəndər Pala da onlardan biridir.

Bununla belə, Şah İsmayıl tarixinin öyrənilməsi sahəsində bu günə qədər işıq üzü görmüş elmi-tədqiqat əsərlərinin müsbət və maraqlı tərəflərinin kənara qoyulması da doğru olmazdı. Şah İsmayılın həyat və fəaliyyətinin öyrənilməsində akademik Yaqub Mahmudovun, Milli Elmlər Akademiyasının mərhum müxbir üzvü Oqtay Əfəndiyevin, professor Şahin (Fərzəliyevin) Fazilin, tarix elmləri doktoru Tofiq Nəcəflinin, habelə Mirzə Abbaslının, Namiq Musalının, Zəfər Bayramlının və digərlərinin dəyərli xidmətləri vardır. Adları çəkilən müəlliflərin işıq üzü görmüş bir çox maraqlı əsərləri Şah İsmayıl tarixinin öyrənilməsi və üzə çıxarılması sahəsində böyük elmi əhəmiyyətə malikdir. Şah İsmayılın və bütünlükdə Səfəvilər dövlətinin tarixinin öyrənilməsi üçün zəngin mənbə də mövcuddur. Bu mövzu istər Şah İsmayılın hakimiyyəti dövründə, istər ondan qabaq və istərsə də ondan sonra həm bölgədə, həm də bölgədən kənarda meydana gəlmiş çoxlu sayda əsərlərdə öz əksini tapmışdır. Şah İsmayıl elə bir nəslin nümayəndəsi idi ki, bu nəslin fəaliyyəti bölgə xalqları üçün XIII əsrdən başlayaraq əhəmiyyət kəsb edirdi. Ona görə də bu fəaliyyət müxtəlif əsərlərin mövzu obyekti olmuşdu. Həmin mənbələrin xeyli hissəsi elmi və ədəbi dövriyyəyə gətirilmişdir. Amma şübhə yoxdur ki, Şah İsmayılın həyatı və Səfəvi dövlətinin tarixi ilə bağlı bütün mənbələrin heç də hamısı hələ bütünlüklə elmi dövriyyəyə gətirilməmişdir. Gələcək tədqiqatlar, yəqin ki, bu tarixlə bağlı yeni və maraqlı mənbələri də elmi düşüncəyə gətirəcək və onlar da Şah İsmayıl şəxsiyyətinin, Səfəvilər xanədanının daha dərindən öyrənilməsinə zəmin yaradacaq. Şah İsmayılın

həyat və fəaliyyəti ilə bağlı elm aləminə məlum olan bir çox mənbələrin materiallarına isə tənqidi yanaşılmasına ehtiyac vardır. Mənbələrdə təsdiqini tapmayan və ya konkret hadisələrə müxtəlif mənbələrdə fərqli yanaşma sərgiləyən hallara rast gəlmək mümkündür. Buna görə də Şah İsmayıl Xətai şəxsiyyətinin düzgün öyrənilməsi üçün mənbələr üzərində müqayisəli işin aparılması, tarixi yanaşmanın tətbiq edilməsi diqqət mərkəzində saxlanılmalıdır.

Azərbaycanın orta əsrlər dövrünün ictimai-iqtisadi və siyasi tarixini dərindən öyrənmək tarix elminin qarşısında duran vacib vəzifələrdən biri olduğu kimi, ədəbiyyatşünaslığın və ədəbi tənqidin də qarşısında duran əsas problemlərdən biridir. Buna görə də bu önəmli məsələ öz aktuallığını hələ də qoruyub saxlamaqdadır. Müasir Azərbaycan ədəbiyyatı qarşısında duran ən mühüm vəzifələrdən biri də milli tarixin bütün dövrlərində baş vermiş ictimai-siyasi və hərbi proseslərə obyektiv münasibət göstərmək, onların elmi tədqiqinə və həllinə nail olmaqdır.

Azərbaycan xalqının dövlətçilik tarixində Azərbaycan Səfəvi imperiyası ən yüksək mərhələ kimi önəmli əhəmiyyətə malikdir. Yuxarıda adlarını qeyd etdiyimiz bir çox mənbələrdə Səfəvilərin, Şah İsmayılın yaşadığı ictimai, sosial mühitin, hakimiyyətin türklərə məxsusluğu faktı təsdiqlənsə də, onun qurub yaratdığı dövlətin əsas idarəedici və təkanverici güc mərkəzi Azərbaycan dövləti olduğu göstərilsə də, İsgəndər Pala köhnə stereotiplərdən uzaqlaşa bilmir, israrla öz tarixi romanlarında Səfəviləri İran hökmdarları kimi təqdim edir. Bu baxımdan yanaşdıqda İ.Palanı əslində Azərbaycanla bağlı yazılmış tarixi romanlar müəllifi kimi deyil, İran tarixini gündəmə gətirərək onu bədiiləşdirən yazıçı adlandırmaq daha doğru olardı. Məsələyə bu prizmadan yanaşsaq, yazıçını Azərbaycan hömkdarlarının mənfi obrazlarını yaradan, birtərəfli xarakterizə edən sənətkar adlandırmaq bir qədər mübahisəli görünür. Çünki romanlarındakı təsvir və təhkiyələrindən də aydın olur ki, İ.Palanın mənfi münasibəti Azərbaycana qarşı deyil, məhz İran hökmdarları kimi təqdim etdiyi tarixi şəxsiyyətlərə istiqamətləndirilmişdir. İ.Pala əsərlərdə Avropa tarixçilərinin irəli sürdüyü absurd fikirlərdən bəhrələnərək Persiya-İran sindromundan qurtula bilmir, bir türk xaqanı və türk dövləti haqqında yazdığının fərqinə varmır. Yazıçı bir şeyi unutmamalıdır ki, bu əsərlər cəmiyyətdə, insanların şüurunda, yaddaşında öz izlərini

qoyur, bəzən isə ideoloji baxımdan oxucuda yanlış münasibət formalaşdırır. İ.Pala bir həqiqəti də anlamalıydı ki, Sultan Səlim, İldırım Bəyazid, Şah İsmayıl, Şah Təhmasib, Əmir Teymur kimi şəxsiyyətləri bir-birinə qarşı qoymaqla, düşmən obrazı formalaşdırmaqla türk dünyasında parçalanma yaratmaq olmaz. Çünki onların kökü eyni etnosdan gəlir, bir-biriilə həm də səmimi dostluq və əməkdaşlıq münasibətləri bərqərar olmuşdur. Eyni zamanda yazıçı bu tarixi bağların çağdaş mərhələdə uğurla davam etdirildiyini də diqqətdən yayındırmamalıdır. Buna görə də tarixi janrda əsərlər yaradarkən sənətkar onun dövlətlər, xalqlar arasında hansı missiyanı həyata keçirəcəyini, insanlara nə vəd edəcəyini, hansı problemlərə yol açacağını dərindən götür-qoy etməli, hər bir tarixi şəxsiyyətin dəyərini verməli, bütün məhdud və ziddiyyətli cəhətləri ilə yanaşı, onun öz xalqı qarşısındakı xidmətlərini döğru, düzgün qiymətləndirməlidir. Biz isə əsərdə bu obyektiv dəyərləndirmənin və işıqlandırmanın şahidi olmuruq. Doğrudur, yazıçı romanda təkcə Şah İsmayılla bağlı ziddiyyətli məqamları önə çəkməklə kifayətlənmir, həm də türk hökmdarı Sultan Səlimin öz doğma qardaşlarına, əmisi oğlanlarına qarşı qəddarlığını, onları qətlə yetirməsini, atası Sultan Bəyazidi hakimiyyətdən zor gücünə uzaqlaşdırması səhnələrinin təsvirini də verir. Qeyd etmək istərdik ki, İsgəndər Palanın Səfəvilərə münasibətində onun dini baxışlarının təsiri də özünü göstərir. Buna görə də yazıçı "Şah və Sultan" romanında məzhəb ayrılığının geniş müharibələrə aparıb çıxardığını, bu savaşlarda saysız-hesabsız insanların qurban getdiyini də ön plana çəkir. Romanda osmanlı sarayındakı sünni məzhəbinə aid Canhüseyn və Səfəvi sarayındakı əkiz qardaşı şiə Ağahəsənin də şəxsi faciələri, ailə dramları təsvir olunur, qardaş qırğınlarının rəmzinə çevrilir. Ümumiyyətlə, əsərdə məzhəb ayrılığının insanların talelərinə gətirdiyi faciələrin incə təsvirinə geniş yer verilmiş, əslində Şah və Sultanın saraylarının məhz bu səbəbdən düşmənçiliyə yuvarlanmaları da qabardılmışdır.

Şah İsmayılla bağlı daha bir önəmli romanın müəllifi tarixçi Reha Çamuroğludur. Reha Çamuroğlu 1958-ci il 20 avqustda İstanbulda anadan olub. Boğaziçi Universiteti Ədəbiyyat fakültəsi, tarix ixtisası məzunudur. Larousse və Ana Britannica ensiklopediyalarında tarixçi olaraq işləmişdir. Həmçinin Almaniyanın bəzi

universitetlərində müəllimlik etmişdir. 2001-ci ildə ən yaxşı Roman Ödülü və Hacı Bektaş Barış ve Dostluq Ödülünə layiq görülmüşdür. Keçmiş Millət vəkilidir.

Tarixçi kimliyi və ələvilik üzərinə etdiyi araşdırmaları ilə tanıdığımız Reha Çamuroğlu romanları ilə də diqqət çəkmişdir. "İsmail" adlanan roman oxucunu XV əsrin dünyasına səyahət etdirir. Bu romanda Şah İsmayılın həyatı, bir təriqətin dövlətə çevrilməsi və qanlı proses təsvir edilmişdir. Reha Çamuroğlunun ilk romanı olan "İsmail"da üç əsas məqama diqqət yetirilir:

Birincisi, bu təqiblərə səbəb olan hər hansı bir siyasi gücdən yayınan və qəlblərdə taxt quran islamın heterodoks anlayışlı bir dövlət olduqda öz mahiyyətindən uzaqlaşmasıdır.

İkincisi, Anadolu türkmənləri tərəfindən sosial bazasının və xüsusilə silahlı gücünün çox hissəsini təşkil edən Səfəvi dövlətini bir növ xəyanət kimi qəbul edən Osmanlı İmperiyası bunun əvəzini qanlı bir şəkildə şiələrdən çıxdı və Anadoluda ələvi-sünni münaqişəsinin meydana gəlməsinə səbəb oldu.

Üçüncüsü, Osmanlı imperatorluğunun qəbul etdiyi sünni şəriət inanclarına qarşı çıxan şiə türkmənlərinin Səfəvilər tərəfindən də təcrid edilməsidir.

Reha Çamuroğlunun ilk romanı "İsmail"da, İsmayılın təsviri onun anadan olması ilə başlayır və Çaldıran düzündə 22 avqust 1514-cü ildə Osmanlı ordusuna məğlub olması ilə sona çatır. Səfəvilik bir heterodoks islam məzhəbi olaraq, XIII əsrin sonlarına doğru Xəzər dənizinin cənub sahilində, bu gün Azərbaycan ərazisindəki Ərdəbildə yaşamış Şeyx Səfi ətrafında yaranmışdır. Təriqət İraq, Suriya, İran və Anadolunun qərbinə, Aralıq dənizi sahillərinə yayılmışdır və şeyxliyin atadan oğula keçdiyi təriqətə Osmanlı sultanlarının da uzun müddət çerağ akçesi adı altında hədiyyələr göndərdiyi bilinir.

Ankara döyüşü (1402) dövründə Yıldırım Bəyazidi məğlub edən Əmir Teymur məzhəb tarixində ən vacib rol oynayır. Anadoludan çəkildiyi zaman Teymur müharibə əsnasında çox sayda əsir götürür və Səfəvi Şeyx Xoca Əlinin (1392-1429) şəfaəti ilə bu döyüşçü türkmənləri azad edir. Ərdəbildə və ətraf ərazilərdəki torpaqların mülkiyyətini də təriqətə bağışlayır. Anadoludan gəldikləri üçün rumlu adı ilə tanınan bu türkmənlər sonradan tarix səhnəsində Qızılbaş kimi görünəcək Səfəvi

əsgərlərinin ən döyüşkən hissəsini təşkil edir. Teymurun göstərdiyi himayə sayəsində təriqət Egey sahillərindən Xorasana qədər geniş bir coğrafiyada heterodoks islam üçün cazibə mərkəzi halına gəlir. Təriqətin gücünü öncə Şeyx Cüneyd (1447-1460) və sonra Şeyx Heydər (1460-1488) siyasi gücə çevirməyə çalışır.

*"Şeyx Heydərin dövründə Səfəvilər əldə etdikləri silah və texnikalarla hərbi təşkilata keçdilər. Başlarında qırmızı rəngli hissə, Hz. Əli və on iki İmamı simvolizə edən on iki dilimli baş geyimləri və türbələr taxan Səfəvi ardıcılları həmin dövrdən Qızılbaş kimi tanınırlar. Sektanın siyasi genişlənməsi əvvəlcə Anadolunun şərqində məhdudlaşdı. Bu müharibədə Şeyx Heydərin ölümü Səfəvilərin dövlət olmaq səylərinin ilk mərhələsini təşkil edir. İkinci mərhələ Şeyx Heydər öldükdə yalnız bir yaşında olan İsmayılın on üç yaşına (1499) gəldiyi zaman başlayır. Hələ uşaq olan Şeyx İsmayıl, təhsili və dahiliyi sayəsində mühitində çox nüfuzludur. Qızılbaşın komandanlığı ilə iki il ərzində düşmənlərini məğlub etdi və Səfəvilər dövlətini idarə etdi (1501).*

*Hökmdarlığı rəmzi olaraq "On iki imamın inancı" ilə əks etdirilən Şah İsmayıl Mehdi (yer üzündə Tanrının təcəssümü) olaraq qəbul edilir. Buna görə də başda Anadoludakı heterodoks (Ələvi) Türkmən, Rumlu, Ustaclı, Təkəli, Bayburtlu, Qaramanlı, Çapanlı, Dulkadirli tayfaları olmaqla, Qaradağlı, Varsak, Avşar, Qacar, Şamlı, Musullu ve Hindli aşirətlərindən on minlərlə döyüşçü torpaqlarını tərk edərək İsmayılın bayrağı altında birləşirlər. Ordusu gözlənilmədən böyüyən Şah İsmayıl İraqı və Diyarbəkiri ilhaq etdi və Anadoluda Elbistana doğru irəlilədi. Ən böyük rəqibi olan Osmanlılarla qarşılaşmaq üçün hazırlıqlara başladı"* [93, s.46]. Beləliklə, "İsmail"in bir roman olaraq süjet xətti xronoloji cərgədə davam edir.

Müəllif, demək olar ki, bütün tarix kitablarında tapıla bilən bu məlumatdan romanın ikinci hissəsini izah etmək üçün istifadə edir. Buna görə "İsmayıl" əslində, əks etdirdiyi hadisələrdən daha vacib olur, çünki istədiyi şey, dövrünün ən güclü heterodoks təriqətini Şah İsmayılla milliləşdirildiyi zaman Şeyx Cüneydin mahiyyətindən necə uzaqlaşmağa başladığını göstərməkdir.

Yazıçı demək olar ki, hər bir tarix kitabında rastlaşacağımız bu məlumatdan romanın ikinci hissəsini açıqlamaqda yararlanır. Burada yazıçı Şah İsmayılın dövlət yaratdıqdan sonra özünə yadlaşmasının səbəblərini sərgiləyir.

Şəxsiyyətdə heterodoks islam yolu ilə inkişaf edən əks şüur xidmətçi olmaqdan imtina edir. Dünyada haqqı, ədaləti, azadlığı və salehliyi bərqərar etməyi hədəfləyən Səfəvi təriqətinin mübarizəsi Şeyx Cüneydin dövründə dəyişməyə başladı və bu mübarizə Şeyx Heydərin dövründə də davam etdi. Ancaq tarixin bu nöqtəsində daxili və xarici amillər siyasiləşməyə qarşı müqavimətin parçalanmasına səbəb olur.

Heterodoks islama görə, fərddə formalaşan bilinç qul olmağı rədd edər. Səfəvi təriqətinin də dünyaya haqq, ədalət, azadlıq, doğruluq bərqərar etmək haqqında məqsədyönlü mübarizəsi Şeyx Cüneyd zamanında şəklini dəyişdirməyə başlayanda təriqət içində anlaşılmazlığa səbəb olur və bu anlaşılmazlıq Şeyx Heydər zamanında da davam edir.

Təriqət-inanc-iqtidar münasibəti, kiçik yaşına rəğmən haqq və həqiqət biliyi ilə yetişən Şah İsmayıl üçün də içindən çıxılması çətin bir durumdur. Yazıçı inanc ilə reallıq arasında ortaya çıxan ziddiyyəti və çatışmazlıqları qəhrəmanının dilindən, hər zaman olduğu kimi, sənədlərə əsaslanaraq əks etdirir. Öncə şeyx, sonra şah olaraq qazandığı zəfərlərin nəticəsini ən yaxın dostuyla (Nəcm) müzakirə edən Şah İsmayıl hər dəfə özündən bir az da uzaqlaşdığının fərqindədir. Bəzən şüurunu itirəcək qədər gərgin yaşadığı daxili hesablaşmalarını Xətai ləqəbiylə yazdığı şeirlərində əks etdirir. Ancaq son təhlildə iqtidarını gücləndirmək istəyindən dönmür. Şeyx kimliyindən uzaqlaşıb şah kimliyi üstün hala gəldiyi zaman ətrafındakılar da fəthçi fiqurlarla yer dəyişdirir.

O dövrdə Anadolunun Təkə vilayətindəki Təkəli qəbiləsi (Bugünkü Antalyanın Təkə kəndi) Şahqulunun başçılığı ilə Osmanlı zülmünə qarşı üsyan etdi (1511).

Həqiqətən, Şahqulu üsyan etməzdən iki il əvvəl onu yolundan döndərməyə çalışan atasına qarşı çıxaraq "İsmail" romanında yer alan aşağıdakı sözləri deyir:

"*Adımdan başlayaq, ata, adımı sən verdin, Şahqulu dedin, yaxşı da etdin, mən şahın quluyam. Bəs hansı şahın? İsmayıl Şahınmı? Yoxsa aləmlərin Rəbbi Allahınmı? Mən bu adı həmişə ikinci şəkildə başa düşmüşəm. Mən Allahın quluyam, mən*

*Şahquluyam. Amma sən indi bu dediyimdən Şah İsmayıla hörmətsizlik etdiyimi anlasan, səhv etmiş olarsan. Mənim sevgim də, hörmətim də ona böyükdür. Amma səni daim dinlədim*".

*"Təkəlilərə davamızdan danışarkən həmişə Ərdəbil Ocağı üçün edilən xidmət haqqında danışırsan, amma niyə? Zülmə qarşı mübarizə aparan və onu məhv etmək üçün başını ortaya qoyan yeganə ocaq olduğuna görə deyilmi? Yaxşı, ata, səndən soruşuram ki, zülm yalnız Azərbaycanda, İraq ərəblərində, Əcəm İraqlarındadırmı? Rum ölkəsində zülm yoxdur? Osmanlı ölkələrində və Məmlük ölkələrində heç bir zülm yoxdur? Sabah Dəməşq, Hələb və Qahirədə zülmə qarşı bir üsyan olarsa, nə deyərsən? Gözləyin, oturun, Ərdəbildən, Təbrizdən, İsmayıl Şahdan əmir gözləyinmi deyəcəksən? Şah İsmayıl bir nümunə göstərdi, biz də bunu gördük, daha nə sifariş gözləyirsən? O bizə bir şey göstərdi, göstərdi ki, dərvişlər "ağzına vur, loxmasını əlindən al" şəklində zəif deyil. Göstərdi ki, dərvişlər eşqdən anlamayan qayaları toxmaqla parçalaya bilirlər. Göstərdi ki, bu kobud türkmənlər, hamısı bir eşq bülbülü ola bilər, bəs mən Şahim İsmayıldan nə əmri gözləməliyəm?"* [93, s.259].

Atasının ölümündən sonra dərhal hərəkətə keçən Şahqulu ətrafında beş mindən ibarət bir güc toplayır.

Təkə vilayəti Sancaqbəyi Şahzadə Qorqud Manisaya çəkilərkən yolu kəsilir, xəzinəsi ələ keçirilir. Sünni xalqdan topladığı üç min döyüşçüdən ibarət bir güclə köməyə gələn Antalya subaşısı da Şahqulu qüvvələrinə yenilir. Antalya, Qızılcaqaya, İstanos, Elmalı, Burdur və Keçiborlu yağmalanır, yağmalanan yerlərin qadınları öldürülür. Şahqulunun "Allaha həmd etmək üçün ibadət yeri gərəkməz" sözünə görə camilər, mədrəsələr, məscidlər yandırılır. Şahqulu Burduru təslim etdikdə ətrafında qadın və uşaqlarla birlikdə iyirmi min Qızılbaş vardı. Qızılbaşlar üsyanı yatırtmaq məqsədilə yola çıxan Osmanlı paşasını da Kütahyada məğlub edincə Saray bu dəfə də Vəziri əzəm Hadım Əli Paşa komandirliyində dörd min yeniçəri, dörd min qapıqulu sipahisi və əlli topla təchiz edilmiş bir ordunu səfərə çıxarar. Anadoludakı bəylərin də iştirakı ilə Vəziri əzəm Hadım Əli Paşanın ordusu, qısa sürədə otuz min nəfərə çatır. Vəziri əzəm Hadım Əli Paşa Şahqulu və Qızılbaşları ilə Osmanlı birliklərinin Sivas yaxınlarındakı Gedikhanında etdiyi döyüşdə ölür. Şahqulu və müşayiət edən on beş

min Qızılbaş mühasirəni yararaq “Şaha getmək” üçün Təbrizin yolunu tutur. Şah İsmayıl hadisəni İraqda ikən öyrənir və çox hirslənir, məclisi toplayır.

Reha Çamuroğlu “İsmail” romanında Şah İsmayılın “Mən bu türkmənlərlə nə edəcəyəm?” – deyə başlayan nitqini bu şəkildə davam edir: *“Döyüşdə bunların yerini tutan yoxdur, bağlılıqda, imanda ən öncə bunlar gəlir. Amma bunlar ağıllarını Allaha vermiş, yerinə eşq almışlar. Əgər düşünüb hərəkət etməkdən söz ediləcəksə, bu zaman bunların iplərini əlinə alacaqsan. Baxın bu Şahqulu deyilən şəxsin etdiklərinə, necə də bir həmlədə bütün planlarımızı alt-üst etdi, necə də bir çırpıda Osmanlının düşmənliyiylə bizi qarşı-qarşıya qoydu. Ortalığı dağıtdı, düşmənlərimizə xidmət etdi, indi də “Şaha gedək” – deyə tutdurub, bizə tərəf gəlir”* [93, s.270].

Şah İsmayılın bu davranışı, heterodoks (Ələvi) türkmənlər ilə Səfəvilik arasına çəkdiyi qalın çizginin də ən önəmli göstəricisidir. Qurduğu dövləti şiə şəriəti əsaslarına görə idarə etməyə qərar verən Şah İsmayıl daha öncə üzünə belə baxmadığı şiə din alimlərini iş başına çağırır. Bu səbəbdən də ciddi bir təhlükə göstəricisi olan Şahqulu öldürülür, on beş min əsgəri də fərqli şəkillərdə zərərsizləşdirilir.

Hadisə Anadolu islamı (Ələvilik) ilə şiəliyin bir daha bir araya gəlməmək üzrə yollarının ayrılmasına səbəb olur. Ancaq yaşananlar bununla bitmir. I Səlim Osmanlı taxtına çıxar-çıxmaz Səfəvi dövlətini bəsləyən damarları kəsməyə yönəlir. Ordusuyla Səfəvi ölkəsinə doğru yol alarkən, “arxadan vurulma ehtimalını ortadan qaldırmaq” məqsədilə sünni din alimlərinin verdiyi fətvalara əsaslanaraq, Anadolunun hər yerində böyük bir təmizlik hərəkatına da girişir. Nəticədə Yavuz Sultan Səlim və Şah İsmayılın orduları 1514-cü ildə Çaldıran Ovasında qarşı-qarşıya gəlir.

Reha Çamuroğlu romanda döyüş başlamadan öncə komandirlərinə üzünü tutan Şah İsmayıla bu sözləri dedizdirib: “*Bu işə baxın. Bu iki ordu burada İslamın gələcəyini təyin edəcəklər və iki orduda da kafirlər var. Səfəvi ordusunda erməni və gürcü məlikliklərindən gələn qüvvələr, Osmanlı ordusunda isə Rumelindən gələn çox sayda xristian bəyi və əsgəri vardı. Sonra İsmayıl əsgərlərinə sarı döndü və ucadan şeirini oxumağa başladı. Eyni anda bütün Səfəvi birliklərində eyni şeir oxunurdu:*

*Qurşana qazilər seyfü silahı,*

*Münafiq canına xovfü xətərdir*
*Yəzidin ləşkəri yüz min olarsa,*
*Vilayət ləşkərindən biri yetərdir.*
*İşarət qıldığınca bir nəzər Şah,*
*Önündə Şimrü Mərvan dərbədərdir"* [93, s.307].

Həqiqətən də, hər iki orduda "kafirlər" vardı. Osmanlı ordusunda Rumelidən gəlmə çox sayda xristian bəyi və əsgəri, Səfəvi ordusunda da gürcü və erməni xanlıqlarından gələn qüvvələr. Sultan Səlim İran torpaqlarında gərəyindən artıq irəliləmədiyi üçün islamın gələcəyində təsiri olmur. Amma iki ordunun komandiri də Ələvilik ilə sünnilik və şiəlik arasında yüz illər davam edəcək münaqişə toxumlarını əkmiş ola bilərlər.

Reha Çamuroğlunun romanı Anadolu ələviliyini anlamaq üçün əhəmiyyətli və gərəkli bir əsərdir. Ərdəbildəki təriqət Səfəviliyin zaman içində dönüşümü, türkmənlərin sərbəst ələvilik izahı ilə Qum üləmasının qatı şəriətinin qarşılaşması, xüsusilə də Səfəviliyin bir təriqətdən dövlətə çevrilmə mərhələsi tarixi və sosioloji baxımdan uğurlu izah edilmişdir. İsmayılın babası, atası və sonda özü eyni məslək üçün mübarizə aparırlar: əbanı və əsanı atıb qılınc götürmək. Sonunda uğur qazanıb, atlı köçəri uyqarlığın son böyük parıldayışı olaraq tarixdə yerlərini alırlar.

Eyni zamanda Osmanlının qalib olmasına səbəb yetərli miqdarda topa və tüfəngə malik olmasını da göstərmək olar. Bir baxımdan bu hadisə texnologiyanın ənənəvi olanı məğlub etməsinin təsviri, həm də sərbəst düşüncənin ənənəvi olan üzərində qələbəsidir. Keçmiş adətlərini torpaqla, Allahla, sazla və sözlə bağını əvvəlki kimi davam etdirmək istəyən türkmənlərin güclü sistem qarşısındakı həzin sonu yenilərək qabıqlarına çəkilmələrindən ibarətdir. Romanı oxuyarkən ələviliyin təsəvvüflə yaxın olması da diqqətimi xüsusilə cəlb etdi. Təsəvvüfün türklərin ərəb və əcəmə qarşı bir reaksiya olaraq ortaya çıxdığını düşünsək, ələviliklə eyni məqsədi daşıdığı diqqətimizdən yayınmaz.

Bunu nəzərə alan İsmayıl türkmənlərin gücünün Sultan Səlimi məğlub etməyə yetmədiyini görərək, ordusunda fars və ərəblərə üstünlük verməyə başlayır. Digər tərəfdən, tarixdən xatırladığımız kimi, inkişaf etmiş texnologiyaya malik olan

Portuqallar Hindistan sahillərinə qədər yan ala bilmişdi, yəni texnologiyanın qalibiyyətini hər yerdə görmək mümkündür. Dünya tarixini rasional bir dəqiqliklə qərbliləşməyə, texnologiyalaşmağa, dinsizləşməyə gedən bir yol düşünmürəm, amma bəzi şeylərin gücünü də inkar etmək mümkün deyil.

Bu əsər digər tərəfdən, köçəriliyin oturaq həyata yerini verməsinin, vermək məcburiyyətində olmasının bir göstəricisi kimi də izah edilə bilər.

Çamuroğlunun təqdimatında Şah İsmayıl tarixdəki mövcud digər hökmdarlardan fərqli olaraq, gücünü eşqdən alır. O, əsərdə zamanla bəzi səhvlər edə bilən bir hökmdar kimi təsvir edilir. Bəlkə də bu xüsusiyyət ona nəsildən keçən bir xarakterdir. Ərdəbil xalqının daim onun babalarına səcdə etdiyi halda günümüzün şərtlərinə uyğun olan bir ədalət, humanizm anlayışı ortaya çıxarması mümkün olmazdı. Mistik və xoş bir yanı var, şeirləri var, daim müridləriylə birgə olduğu öz aləmi var. Ancaq qaynar qazanlar qurduran da yenə odur. Nəticədə insan qəribə və təzadlı məxluqdur. Bunu İsmayılın timsalında xüsusilə görürük. Qarşılıqsız və sərhədsiz sevilən bir uşaq olaraq görürəm İsmayılı. Bu sevgiyə baxmayaraq o, yalnızlıq çəkərək hüznlü bir həyat yaşayıb. Anasını öldürmək məcburiyyətində qalır. Sərt addımlar atır. Amma bunlar bir insanı, xüsusilə də İsmayıl kimi bir şəxsiyyəti xoşbəxt edəcək amillər deyil. Bəlkə də atmaq məcburiyyətində qaldığı addımların ağrısı onu daim hüznlü yaşamağa vadar etmişdir.

Göründüyü kimi, Çamuroğlu Şah İsmayılı ziddiyyətli, təzadlı bir obraz kimi, daha çox mənfi planda təsvir edir ki, bu da yazıçının birtərəfli yanaşması, hadisələri obyektiv qiymətləndirməkdən uzaq olması ilə əlaqədardır.

Əsərdə İsmayılın ölüm səhnəsi də canlandırılmışdır. Bu səhnədə İsmayıl ölümü qəbul etmiş, ölüm qorxusu olmayan biri kimi tərənnüm edilmişdir:

*"...Xətai xəstələndi. Vəziyyətindən narahat olan yanındakılar onu Ərdəbilə aparıb həkimlərə göstərməyə qərar verdilər. Buradakı həkimlər müalicə edə bilmədikdə Təbrizə yola düşdülər.*

*Yolda – Sərab şəhəri yaxınlığındakı Məngutay adlı yerdə 1524-cü ilin may ayının 22-də Xətai Nəcmi otağına çağırtdırdı. Qalın bir döşəyin üstündə uzanmışdı, sapsarı olmuş üzündə iki od parçası kimi yanan gözləriylə Nəcmə gülürdü.*

*Gülümsəmirdi, gülürdü. Hər bir sözü ağzından çətinliklə çıxır, Nəcmin hafizəsində nəqş edilirdi. "Gözətçiliyim qurtardı, can dostu,* - dedi, - *gəldik, oynadıq, gedirik". Nəcm hələ də ona təsəlli vermək istəyirdi. Təbrizə çatdıqda usta həkimlərin əlində tez yaxşılaşacağından dəm vurur, onu nəşələndirməyə çalışırdı. "Çalışma, Nəcm, –* dedi *Xətai, - bu dünyadan gedənə kədərlənmə, sevin, bax mənə, nəşəsiz görünürəm, üzgün kimiyəm? Yalnız mənə son yazdığım şeirimi oxumağım üçün fürsət verməsən, gəvəzəlik etsən, üzülərəm. Səni buraya məni nəşələndirməyin üçün deyil, bunu oxumaq üçün çağırmışam". Bütün bunları deyərkən tərəddüd içində idi, odun doğrayan mişarın səsi kimi səslər çıxarırdı. "Dinləyirəm, həm də maraqla dinləyirəm, oxu", – dedi Nəcm. Xətai bir nəfəs aldı, bütün gücünü topladı və oxumağa başladı:*

*Qəmindən gözlərim ümman degilmi?*
*Vüsalın can içində can degilmi?*
*Yazılmış xəttü xalın bimürəkkəb,*
*Əcayip surəti-Rəhman degilmi?*
*Əgər Tövrat, əgər İncilü Zəbur,*
*Be hökmi-ənbiya Fürqan degilmi?*
*Əgər dərviş, əgər murü səlatin,*
*Bu beş gün dünyaya mehman degilmi?*
*Cahanə eşq ilə üryan gələnlər,*
*Gedəndə həm yenə üryan degilmi?*
*Bu günün fürsətin danlaya verən,*
*Yolunda cahilü nadan degilmi?*
*Günini xoş keçir, miskin Xətai,*
*Gələn dövran əcəb dövran degilmi?*

Susdu. *Sonra: "Gələn dövran əcəb dövran deyilmi, Nəcm"- deyə bir daha soruşdu.*

*Nəcm əlləriylə üzünü örtüb ağlayarkən 1524-cü ilin may ayının 22-də axşam Təbriz camaatı alışdıqları bir səsi – Qəmərtayın nəşəli kişnəməsini eşitdilər. Divarlara tərəf qaçıb səsin haradan gəldiyini axtardılar. Nəşəli kişnəmə səsi dörd bir*

*yandan gəlirdi. Amma onlar Qəmərtayı gördülər. Axşamın yeni düşən qaranlığında bəyazlığıyla bir ulduz kimi parıldayırdı. Atın belindəki süvarini də gördülər. Alaqaranlıqda gördükləri silueti yaxşı görə bilməsələr də, qəti əmin idilər ki, bu, Xətai idi"* [93, s.326-328].

Çamuroğlu qeyd edir ki, güc insanı çirkaba sürükləyir, iqtidarsa zülmə vadar edir. Dünyada yaşamağın qaçılmaz bir nəticəsidir bu. Haqsızlığa üsyan etmək üçün gücə ehtiyac var. Güc də ancaq haqsızlıqla ələ keçirilir və haqsızlıqla davam etdirilir. Zülmsüz bir dünya mövcud deyil. Məsələ zülmün azlığında və ya çoxluğundadır. Məsələnin etik tərəfi budur. Amma bir də texniki tərəfi var. Bu ikisini bir-birindən qoparmaq mümkün deyil. Din və siyasət daim iç-içədir. Bəzən din üçün siyasət, bəzən də siyasət üçün din istifadə edilir. İnsan elə bir məxluqdur ki, onun həm maddi, həm də mənəvi tərəfləri vardır. Bu mənəviyyatın məğzini daim din təşkil etməsə də, insan mənəviyyatını daim təmin etməyə ehtiyac duyur.

### 3.2. Reha Bilgənin "1514. Yavuz Sultan və Şah İsmayıl" əsərində Çaldıran döyüşü

Şah İsmayıl Xətai haqqında digər əhəmiyyət kəsb edən əsərin müəllifi iqtisadçı, yazıçı Reha Bilgedir. 1953-cü ildə anadan olan Reha Bilge Galatasaray lisəsi və Vyana Universitetindən məzun olub. Vətənə döndükdən sonra beynəlxalq mətbuat xidmətləri verən bir quruluşda işləməyə başlayır. Bir müddət qalatasaraylılar dərnəyi sədrliyini edən Reha Bilgenin bu günə qədər Çevrə və İqtisadiyyat, Türkiyə-Avropa Birliyi münasibətləri və Osmanlı imperatorluğu ilə əlaqəli bir çox məqaləsi və kitabı yayımlanmışdır.

Reha Bilgenin "1514. Yavuz Sultan və Şah İsmayıl" romanı 2010-cu ildə nəşr edilmişdir. Bu romanı dörd ana başlıq altında təhlil edə bilərik: 1) Çaldırandan əvvəl; 2) Qardaş döyüşü Çaldıran; 3) Çaldıranın səbəb və nəticələri; 4) Türkmənlər, türklər və farslar.

**Çaldıranın baş iştirakçılarından Yavuz Səlimin atası İkinci Bəyazid dövrü**. Çaldıran müharibəsinin əsl mahiyyətini anlamaq üçün İkinci Bəyazid dövrünü tədqiq

etmək lazımdır. Ümumiyyətlə, tarixdə Bəyazid fəth ruhunda, yoxsul, passiv, yaşlı və xəstə hökmdar olaraq təsvir edilmişdir. Bunun başlıca səbəbi Yavuz Səlimi sevən tarixçilərin onu parlatmaq düşüncəsidir. Əslində isə İkinci Bəyazid dönəmini araşdırdığımız zaman ölkə xaricində peşəkar diplomatik siyasət yürütdüyü, ölkə daxilində isə mədəni inkişafa, cəmiyyətin sağlam həyat sürməsinə önəm verdiyi görünməkdədir.

Haqqında passiv deyilən Bəyazid daxili təhlükədən xarici təhlükəyə çevrilən qardaşı Cemin problemini məhz diplomatik dühası sayəsində həll etmişdi. Zamanında Avropa və Aralıq dənizində gedən iqtidar mübarizəsinin öndə gedən gücü olan Papalıqla diplomatik münasibətlər quraraq Romaya nümayəndələr göndərir. Nəticədə 1490-cı ildə Romaya gətirilən Cemin mühafizəsi üçün Bəyazidin son vəziri Koca Mustafa Paşanın rəhbərliyi ilə üçillik təsisat göndərilmiş və hər il qırx min qızıl veriləcəyi vəd edilmişdi. Eyni zamanda, Mustafa Paşa Cem ilə görüşüb ona qardaşının məktub və hədiyyələrini də təhvil vermişdi.

1485-1491-ci illər arasında Məmlüklər ilə aparılan mübarizənin nəticəsi olaraq türkmənlərin çox olduğu Çükürova bölgəsi nəzarət altına alınmışdır. Bununla yanaşı, Asiyadan gələn ədviyyat və İpək yollarının dənizə çatdığı bölgə olan Şərqi Aralıq dənizində güc sahibi olmaq Bəyazidin önəmli hədəflərindən biri idi. Bəyazid Şərqi Aralıq dənizində Venedik təhlükəsinə qarşı ağıllı bir siyasət yürüdərək Venedik dövlətinin rəqibi Florensiya ilə ittifaq qurmuş, 1496-cı ildə limanlar Venedik gəmilərinə bağlanmış və Fransa ilə qurulan ittifaq nəticəsində də, 1498-ci ildə İstanbulda Venedik mallarına əl qoyulmuşdur. Diplomatik mübarizənin hərbi mübarizəyə dönüşməsi üzərinə 1499-cu ildə İnəbatıya, 1500-cü ildə Modon və Korona (Venedikin Adriatikdəki önəmli limanları) səfər təşkil edilmişdi.

Katolik İspaniyasında dini, mədəni və etnik təzyiqə məruz qalan Əndəlisli müsəlman və musəvilərə qucaq açmışdı. Bu davranış onun mənfəətçi siyasət yerinə insani siyasəti öndə tutduğunu göstərən yaxşı bir nümunədir.

Atası İkinci Mehmedin vəqf torpaqlarına sahiblənməklə qatı dövlətləşdirmə siyasətindən imtina edərək, vəqf və digər mülkləri sahiblərinə geri qaytarmışdı. Bunlara heterodoks Bektaşilik vəqfi təkkə və əraziləri də daxil idi.

Tarixin yaddaşlarda qalması üçün tarix kitablarına önəm vermiş, bunun üçün tarixçilərə vəzifə vermiş, hətta maddi dəstək də ayırmışdır. Aşıkpaşazadə Oruç bəy, Hadidi Kəmalpaşazadə və İdris Bitlisi dönəmin önəmli salnaməçilərindən idi. Yenə bu dönəmdə idarəçi kadrların yetişdirilməsi üçün Qalatasaray enderumu yaradılmışdı. Ədirnədə 4 ildə bitirilən məscid, imarət, tabhane və darüşşifadan ibarət məşhur Bəyazid Külliyəsi də onun dövrünün önəmli və köklü layihələrindən idi. Öncəki dönəmlərdən fərqli olaraq, klassik türk cami üslubunun təməlləri də onun dövründə atılmışdı. Bunlardan biri Bəyazid məscididir. İstanbuldakı abadlıq işləri, salınan yeni məhəllələr, təkkələr, məktəblər və burada yetişənlərin ictimai həyata təqdim etdikləri əsərlər şəhərdə zamanla türk xarakterini gücləndirmişdir.

Osmanlı ordusunun həm dənizdə, həm də quruda hərəkət qabiliyyəti yüksəldilmiş və təchizatlı hala gətirilmişdi. Ordu silah texnologiyasını mənimsəmişdi. Bu dövrün ordusu səfərlərdə eyni anda həm qurudan, həm də dənizdən hücum edəcək gücə yiyələnmişdi və İnəbatı döyüşü bunun ilk nümunələrindəndir.

İkinci Bəyazid dövründə fəthlərin durduğu, durğunlaşmanın olduğu qeyd edilsə də, əslində, bu dövr bir baxıma yeni binaların tikilməsi, yerləşdirilməsi, mədəniyyətin inkişaf etdirilib köklənməsi və baş döndürücü işğallardan sonra dövlətin güc toplaması üçün bir nəfəsalma fasiləsi kimi düşünülə bilər.

Bəyazid dövründəki mədəniyyət və sivilizasiyadakı inkişaf, dövlətdəki strukturlaşma işlərinin güclənməsi ilə yanaşı, bəzi arzuolunmaz hadisələr də olmuşdur. 1494-cü ildə Avropada baş qaldıran vəba epidemiyası ölkə torpaqlarına sıçrayaraq kütləvi ölümlərə səbəb olmuşdu. Təxminən 8 il sonra İstanbul və Ədirnədə yayılan bir başqa vəba epidemiyası da xeyli insanı tələf etmişdi. Daşqınlar və yanğınlar Ədirnəni caynağına almışdı. İstanbulda, Qalatada ortaya çıxan yanğın dövlətə ciddi zərər vermişdi. 1509-cu ildə dalbadal zəlzələlər olmuşdu. Şah İsmayılın türkmənlərin çox olması səbəbi ilə xüsusi diqqət göstərdiyi Rum vilayəti olaraq bilinən Amasya, Tokat, Sivas torpaq sürüşməsinə məruz qalmışdı. Paytaxtdakı 5 gün boyunca davam edən sürüşmə mindən çox ev və məscidləri xarabaya çevirmişdi. Bunlar azmış kimi, İkinci Bəyazidin durumunun pisləşməsi iqtidar mübarizələrinə

yol açmışdı. Digər tərəfdən, gəlirlərin bölüşdürülməsindəki ədalətsizliklər və bunların türkmən bəylərini əsəbiləşdirməsi toplumsal müxalifətin yaranmasına səbəb olmuşdu. Dövlətin institusionallaşması ilə türk mədəniyyətinin canlanmasıyla yanaşı, iqtisadi və ictimai böhranlar da bu müsbət addımlarla birgə yoluna davam etmişdi. Bu yaşananlar, bəlkə də, Çaldırana gedən yolun kilometrlərlə uzanan daşları olmuşdu.

**İkinci Bəyazid və Şah İsmayılın münasibətləri.** Şah İsmayılın 1501-ci ildə təməlini qoyduğu Səfəvilər dövləti bölgədə dərin izlər buraxmış, mövcud olduğu iki əsr yarım zamanda İran, İraq, Azərbaycan, Ermənistan, Əfqanıstan, Türkmənistan və Cənub–Şərqi Anadolu torpaqlarında hökm sürmüşdür. Osmanlı və Fars mədəniyyətinin sintezindən təsirləndikləri halda, farsların üstünlük təşkil etdiyi İran coğrafiyasındakı Səfəvilər türk dilinə və mədəniyyətinə Osmanlıya nisbətən daha çox bağlı olmuşlar. Şah İsmayıl uyğur əlifbasını istifadə etdiyi kimi, şeirlərində türkcə istifadə etməyə diqqət göstərmişdir.

Səfəvilərin ortaya çıxması monqol hücumlarının XIII əsrdə mərkəzi dini gücü yıxması və bölgənin siyasi-iqtisadi böhrana düşdüyü dövrdür. Səfəvilərin meydana çıxması ilə təsəvvüf bölgəsəl islam güclənmiş və çoxsaylı təriqətlər ortaya çıxmışdı.

Ulu babaları Şeyx Səfiəddin və ilk xələflərinin sünni olmasına baxmayaraq, Şeyx Cüneyd şiəliyi mənimsəyərək bu dini təriqətə bağlı qalan türkmən ordusu yaradır və bununla da təriqətdən səltənətə doğru irəliləyir. Xələfi olan oğlu Şeyx Heydər (1460-1488) daha da önə çıxaraq, Azərbaycan torpaqlarında dövlət yaratmağa iddia edir və 12 imamı təmsil edən 12 qıvrımlı qırmızı sarıq taxan əsgərlərdən ibarət Qızılbaşlar ordusu yaradır.

Şeyx Heydər oğlu İsmayılı da şiəliyə sadiq yetişdirir. Uşaq yaşda hökmdar olan İsmayılın davasına coşqulu şəkildə sahib olacaq güclü bir liderlik qabiliyyəti vardı. Hələ 7 yaşında şeyxlik postuna oturan İsmayıl 1501-ci ildə Təbrizi alıb tac geyinmiş və Səfəvilər dövlətini yaratmışdı. Onun ən böyük özəlliyi 15 yaşındaykən şahlıq və şeyxliyi birləşdirən hökmdar olmasıdır.

Osmanlının gəlir bölgüsündəki ədalətsizlik və bahalılıq kimi ünsürlərdən qıcıqlanan, türkmən tayfalarını ətrafında birləşdirən İsmayıl şiə məzhəbini Anadoluda yaymağa çalışmışdı.

Səfəvi dövlətini ayaqda tutanların Anadolu türkmənləri olduğunu düşünsək, din və əsgərin birləşdiyi bir əşirət dövləti deyə bilərik. Şah İsmayıl 1500-cü ildə Ərzincana gəldiyi zaman ondan təsirlənən türkmən əsgərlərindən ibarət Osmanlıya müxalif bir koalisiya formalaşdırmışdı. Yəni Səfəvilər köçəri türkmən tayfalarının iştirakı ilə qüvvət qazanmışdı. Bu güc Şah İsmayılın 1501-ci ildə Təbrizi ələ keçirməsini və oranı paytaxt elan etməsini təmin etmişdi.

Şah İsmayılın şahlıq və şeyxliyi birləşdirərək və Osmanlıdakı türkmən boylarının dəstəyini alaraq qısa zamanda göstərdiyi uğurlarla millətlərarası səhnədə yer alması Osmanlı imperiyasında təəccüb doğurmuşdu. Şah İsmayıl cəbhəsində bütün bu müsbət hadisələr baş verərkən Osmanlıda İkinci Bəyazidin üç oğlu arasında taxt-tac mübarizəsi başlanmışdı.

Şah İsmayılın əsas hədəflərindən biri Osmanlı ilə Məmlüklər arasındakı tampon bölgəni təşkil edən Maraş və ətrafındakı türkmən bəyliyi olan Dülqədir bəyliyini ələ keçirmək idi. Bundan sonra sırada Turgut və Varsak türkmənlərinin çox olduğu Çükürovanı ələ keçirib Şərqi Aralıq dənizi limanlarına girmək var. Təhlükənin fərqinə varan Osmanlı və Məmlüklər ittifaq yaradaraq İsgəndəriyyə limanında mövqelərini gücləndirdilər. Şah İsmayıl 1507-ci ildə Dülqədir səfəri zamanı ordusunu Osmanlı torpaqlarından keçirərək gücünü göstərmişdi. Hələ Səfəvilərlə Osmanlı arasındakı müharibənin göstərcisi sayılmasa da, bu gücə qarşı Bəyazid ordusunun bir hissəsini Ankara, Aksaray, Amasya və Kayseri ətrafına yerləşdirmək məcburiyyətində qalmışdı. Bu dövrdə Bəyazidlə İsmayıl arasında soyuqqanlı diplomatik münasibətlərdən bəhs edilir. Bununla birlikdə Səfəvilərin Osmanlı torpaqlarında rüzgar əsdirməsi müxalif türkmənlərin özlərinə duyğusal tərəfdən yaxın gördükləri bu gecə axın-axın qatılmalarına qapı açmışdı. Oruc bəy Rumeli və Anadoluda evini, torpağını satıb Şah İsmayıla qoşulan Qızılbaşlardan bəhs edir. Buna qarşı Bəyazid İsmayıla könül verən türkmənləri uzaq ərazilərə sürgün etmək niyyətinə düşsə də, hər zaman önəm verdiyi diplomatiyanı da nəzərdən qaçırmayaraq, özünə yaraşan şəkildə Təbriz elçilərini qəbul edib tələblərini dinləmişdir. Bəyazidin diplomatik üslubu sərt siyasəti özünə fəlsəfə etmiş kiçik oğlu Yavuz Səlimi narahat

etmişdi. Bəyazidin Səfəvilərə olan bu ağır və diplomatik yanaşması sonunu gətirən səbəbləri sürətləndirmiş deyə bilərik.

**Türkmən üsyanları.** Şahqulu Antalyanın Təkə bölgəsində Yalınlı kəndi ətrafında mistik həyat sürən Həsən Xəlifənin oğludur. Həsən Xəlifənin Şah İsmayılın babası Şeyx Heydərin müridi olduğu iddia edilir. 1511-ci ildə gerçəkləşən Şahqulu üsyanı İkinci Bəyazidin iqtidarının sona çatmasına və oğulları arasında taxt-tac mübarizəsinin yaranmasına şərait yaratmışdır. Osmanlı tarixçilərinin bir çoxu bu üsyana ideoloji sima verərək Şahqulunu dindən çıxan biri olaraq xarakterizə etmiş və Şeytanqulu adlandırmışlar.

Şahqulu üsyanı Şah İsmayılın təlimatıyla gerçəkləşən bir üsyan kimi görünsə də, idarəçilik arzusu olan və Osmanlı xanədanının vaxtının bitdiyini düşünən Şahqulunun özlüyündən ortaya çıxan bir türkmən xalq hərəkatı olduğunu deyə bilərik. Bəzi yazarlar üsyanın səbəbini Şahqulunun Şah İsmayılın yanına getməsinin qarşısının alınması olduğunu düşünsə də, Yavuz Səlim tərəfdarı tarixçilər Şahqulunun iqtidar zəifliyini görərək üsyan qaldırdığını yazır. Toroslarda başlayan üsyan nəzarətsiz bir yanğın kimi, Konya, Karaman, Burdur və Kütahya ətrafına yayılaraq dövləti ciddi bir şəkildə təhdid edirdi. Üsyançılar Kütahya yaxınlığında İkinci Bəyazidin qüdrətli komandiri Qaragöz paşanı məğlub etdikdən sonra Alaşəhirdə qarşılarına çıxan Şəhzadə Qorqudun ordusunu da məğlub edirlər. Bu davamlı qələbələr qulaqdan-qulağa dolaşaraq Şahqulunun Mehdi olduğu inancını yaradır. Amma Sivas yaxınlığındakı döyüş Şahqulunun sonu olur. Lakin taxt-tac mübarizəsində Şahzadə Əhmədin tərəfində olan və Səlimə müxalif olan Bəyazidin sadiq adamı baş vəzir Hadim Əli Paşa da döyüşdə ölür. Beləliklə, bu ölüm Səlimin iqtidara gedən yoldakı əngəllərini qaldırmış olur.

**Ata ilə oğul arasındakı iqtidar mübarizəsi.** İkinci Bəyazidin daha öncə ölən uşaqlarını nəzərə almasaq, 1511-ci ildə başlayan taxt davasının üç namizədi vardır: Əhməd, Qorqud və Səlim. Sultan özü kimi Amasyada şahzadəlik edən Əhməddən yanadır. Maraqlıdır ki, Əhməd də atası kimi gözəl əxlaqlı, soyuqqanlı və mülayimdir. Səlim isə elə deyil. Digər şəhzadələr Manisa və Amasya kimi İstanbula yaxın yerlərdə təcrübə görsə də, Səlim Trabzona göndərilmişdi. Buradan Bəyazidin Səlimi

varis kimi görmədiyini anlamaq olar. Lakin Şah İsmayılın Osmanlı torpaqlarına qarşı imperial düşüncələri arxasından gələn Şahqulu üsyanı və bu üsyanı Sivasta yatıran Bəyazidin Şahzadə Əhmədi dəstəkləyən sadiq baş vəziri Hadim Əli Paşanın ölümü və türkmən müxalifətinin Şah İsmayıl ilə əlaqə yaratması kimi hadisələr sərt xarakterə malik Yavuz Səlimin taxt yolunu açmışdır.

Səlim atasının taxta varis olaraq qardaşı Əhmədi düşündüyünün fərqindədir. Əslində, bu səbəbdən Trabzona göndərildiyini də bilir. İsmayılın Dülkədiroğulları səfərinə gedərkən Osmanlı torpaqlarından keçərək verdiyi gözdağı, əslində, Səlimə bir fürsət verir. Fürsəti dəyərləndirən Səlim Trabzondan Səfəvi torpaqlarına axınlar düzənləyir. Səlim bu strategiyası ilə dövlət içərisində önəmli güc olan Yeniçərilər üzərində populyarlığını da artırmağı düşünür. Üst idarə Əhməddən yana olsa da, Səlim son sözü Yeniçərilərin deyəcəyinin fərqindədir. Atasından paytaxta yaxın yerə gətirilməsini və oğlu Süleymanın da Boluya yerləşdirilməsini tələb edir. Bu arada Osmanlı ilə bağı olsa da, öz müstəqilliyini saxlayan Krım xanlığı ilə də əlaqələrini gücləndirir. Üsyan üçün hazırlıqlar məqsədilə Kəfəyə gedərək Məngli Giraydan kömək sözü alır. Səlimin niyyətini anlayan Bəyazid ona nəsihətçilər göndərərək Trabzona dönməsini tələb edir. Rədd cavabından sonra bu dəfə Anadolu sancaqlarından birinə yerləşə biləcəyi deyilir. Səlim isə Rumelidə bir yer istəməkdədir. Sonunda Semendire sancağını alır. Səlim ilk cürətini 1511-ci ildə göstərsə də, Çorlu yaxınlığında məğlub olur. Savaş meydanından qaçaraq bir gəmiylə Kəfəyə gedir. İkinci Bəyazidin təkidi ilə üst idarə Əhmədin tərəfində olsa da, Səlimin təbliğatı altındakı Yeniçərilər açıqca Səlimi dəstəkləməkdədir. Və bir gecə zərbəsiylə vəzirlər və paşaların evləri basılır. Sivil bürokratiya və din adamlarını da təsirsiz hala gətirən Səlim tərəfdarları saraya hərəkət edərək, öncəliklə Səlimin baş komandir edilməsini və xəzinənin ona təslim edilməsini, Bəyazidin isə hökmdar olaraq qalmağa davam etməsini tələb edirlər. Məqsəd Səlim İstanbula gələnə qədər Şahzadə Əhmədə sərf edəcək hüquqi bir boşluq yaranmasına meydan verməməkdir. Nəhayət, 1512-ci il aprel ayında Səlim hakimiyyəti ələ alır. Beləliklə, Osmanlı ilə Səfəvilər arasındakı Çaldıran döyüşü bir addım daha da yaxınlaşmışdır. Anadan olduğu torpaqlara

dönərək münzəvi bir həyat sürmək istəyən Bəyazid yolda zəhərlənir. Bu həzin ölümün ilk şübhəlisi olaraq ağıla Səlim gəlir.

Bunu da qeyd edək ki, atası fateh, oğlu Səlim olan İkinci Bəyazid üçün kölgədə qalmış bir hökmdar deyə bilərik. Səlim, əlbəttə ki, hərbçilik qabiliyyəti olan bir insandır, amma Səlimə istifadə etdiyi vasitələri yaradan atası Bəyaziddir. Bəyazid donanma yaratmış, Səlimsə gərəkli yolları İstanbuldan dəniz vasitəsilə Trabzona köçürmüşdür. Əgər Bəyazidin yaratdığı bönövrə olmasaydı, iki il hakimiyyətdə olan bir adamın bunu yaratması mümkün deyildi. Əgər Bəyazid kölgədə qalarsa, 1514 hadisələri heç bir şəkildə anlaşılmaz.

**Şahzadələrin taxt mübarizəsi.** 1513-cü il Səlim taxta oturmaqla qanlı və faciəli iqtidar mübarizəsinə səhnə olmuşdur. Səlim işə Bursada yaşayan sultan Şehin, şah sultan Mahmud və sultan Alim şahın uşaqlarını İstanbula gətirdib bir otaqda öldürməklə başlayır. Bu acımasız səhnədə ölənlərin böyük-kiçik, uşaq, hətta qan bağı olması fərq etmir. Asan loxmalardan sonra Səlim şahzadə Əhmədə görə əsgəri dəstəyi zəif olan şahzadə Qorqudu hədəfinə alır. Səlim öncə Qorquda yalançı məktublar yazdıraraq saraya dəvət edir. Qorqud gəlmədiyi zaman isə ova gedər kimi edib Qorqudu Manisadakı sarayında mühasirəyə alır. Qorqud Antalyaya qaçsa da, gizləndiyi yer tapılaraq, Səlimin adamları tərəfindən boğularaq öldürülür. Sultan Qorqud iqtidar istəyi olmayan alim, musiqiçi, şair – bir sözlə, intellektual bir adamdı. Hələ proseslərin başında o Midilliyə gedib yerləşmək üçün Səlimdən izn istəməyinə baxmayaraq, icazə ala bilmədi. Buradan Qorqudun səbəbsiz yerə öldürüldüyü nəticəsinə gəlirik.

Səlimin real rəqibi Şahzadə Əhməddir. Çünki ataları onu hakimiyyətdə görmək istəmiş və saray bürokratiyası da bunu dəstəkləmişdi. Həmçinin Əhməd lap əvvəldən mübarizə mərkəzi olan Kahraman kimi bir vilayətin şahzadəsidir. Səlimin Şahzadə Əhmədlə ilk döyüşü Amasya yaxınlığında olsa da, nəticə əldə olunmur. Əsl böyük döyüş Yenişehir ovasında olur və Səlimin məğlub olmaq üzrə olduğu döyüş Krım xanlarının köməyi sayəsində Səlimin qələbəsi ilə başa çatır.

**Səlimlə İsmayılın münasibətləri.** Taxt mübarizəsində sadəcə rəqib gördüyü qardaşlarını deyil, Bursadakı əmizadələrini də ortadan qaldıran Səlim üzünü

Şərq və Cənuba çevirdi. İlk hədəf Şah İsmayıldır. Səlim Səfəvilərə qarşı mübarizəni əsgəri gücün ötəsinə çıxararaq, məsələni ideoloji müzakirəyə çıxardı və bunun üçün din adamlarından fikir və fətvalar alaraq, ordu və cəmiyyəti psixoloji olaraq hazır etməyə çalışdı. Üstəlik də Səlim yeniçərlərin gözündə Qorqud və Əhməddən fərqli olaraq, döyüşçü kimliyinə sahib bir sultandır. Döyüş öncəsi hərtərəfli hazırlıq görülməsi İsmayılın da asan loxma olmadığını göstərir.

Səlimin ordusu Şah İsmayıla görə topçu və tüfəngçi birliklərlə bərabər, daha professionaldır. Kəşfiyyat və psixoloji hərbi yönündən daha bacarıqlı olmasına qarşılıq Şah İsmayılın ən böyük avantajı müridlərinin gözündə ilahi gücə sahib olmasıdır. Çünki bu inanc liderə əbədi bağlılıq gətirirdi. Eyni zamanda, Şah İsmayıl müqəddəs məqsədlər uğruna mübarizə aparmaq inancında olan qızıl başlıqlı türkmən atlılarına da sahibdir.

Sultan və Şah – hər ikisi də döyüşdən öncə digər dövlətlərlə sülh münasibətləri qurmuşdular. Səlim Rumeli sərhədlərindəki dövlətlərlə barışıq müqaviləsi imzalamış və daha öncə atasının etdiyi sülh münasibətlərini yeniləmişdir. Fəth ruhuna sahib olmadığına görə tənqid edilən atası Bəyazidin qərblilərlə qurmuş olduğu diplomatiya ona böyük köməkçi olmuşdur.

Şah İsmayıl da öz növbəsində boş durmayaraq Papalıq, Venedik, Portuqaliya, Rodos kimi dövlətlərlə razılığa gəlir.

Hər ikisi sadəcə, Qərb coğrafiyasında deyil, Şərqdə də ittifaq yolları axtarmışlar. Şah İsmayıl 1512-ci ildə 200 atlı gözəl və bahalı hədiyyələrlə Məmlük sultanına elçi göndərmiş, elçilikdə şiə din adamları da iştirak etmişdi. Görüşmələrdə şiə din adamlarının yer alması qarşı tərəfi şiəliyin islamın digər məzhəbləri kimi bir məzhəbi olduğuna razı salmaq ola bilər. Lakin Məmlük sultanı İstanbulu dəstəkləmiş və Məmlük-Osmanlı rəqabəti bir müddətlik təxirə salınmışdı.

Çaldıran döyüşündən öncə Şah İsmayıl Şərqdə türkcə danışan başqa bir xanədanlıqla müharibə vəziyyətində idi. Səfəvilər 1510-cu ildə Mərv yaxınlığında qələbə çalmış, 1512-ci il Buxaranın şimalındakı Gucdevan döyüşündə özbəklərə məğlub olmuşdu. Özbəklərlə keçmişdən müharibə halında olan Babur şah isə İsmayıla simpatiya duymaqdadır. Hətta Babur şah Şah İsmayılla o qədər yaxınlaşmış

ki, onun adına xütbə oxutdurub 12 imam adına pul kəsdirməyə qərar vermişdi. Bununla bərabər, o, Səfəvi – Osmanlı müharibəsində tərəf tutmamışdı.

Nəticə etibarilə döyüş öncəsi özbəklərlə Osmanlı, Səfəvilərlə Babur şah müttəfiq idilər. Ancaq özbəklərlə Osmanlının münasibəti daha dərindir. Çünki özbəklər daim Səfəvilərin hücumlarına məruz qalır. Bu, Türküstan bölgəsindəki digər xanlıqlar üçün də keçərlidir. Nəticədə Səmərqənd xanı 1514-cü ildə Səlimə yazdığı məktubda "meydanlara çıxdıqlarından bəri onlarla müharibəni din borcu bilirik. Mütləq ki, özbəklərin döyüşlərini eşitmisiniz. Amma təəssüf ki, ilk hücum onlardan gəldi. 80 minə yaxın Qızılbaş İrandan Amudərya çayını keçib Turana hücum edib. Kabil və Qəndəhar hakimləri qorxudan onlara itaət edib. Beləliklə, onlar İslamın kəbəsi olan Səmərqənd qapılarına dayanıb. Biz də onlarla döyüşüb ordularını məğlub etdik. Siz hərəkətə keçəndə biz də hərəkət edəcəyik. Elçiniz Nizaməddin Məhmət bəy gəldiyi andan etibarən Səmərqənd sərhədlərindən Daşkəndə qədər mirzələrə, xanlara, sultanlara, özbək və çağatay boylarına tabe olan hər kəsə hərəkətə keçmələri üzərinə "əmr olundu" yazmışdı.

Qaçınılmaz olan müharibə sadəcə Şah və Sultanı deyil, onların idarə etdikləri dövlətlərə də dərindən təsir edəcək bir tale müharibəsidir.

Ədirnədəki divan toplantısında müharibənin rəsmi qərarı verildi. Döyüş öncəsi fərqli mübarizə şəkilləri də həyata keçirildi. İqtisadi embarqo qərarı ilə tacirlərin Rum ölkəsindən İran ölkəsinə pul və ticarət əşyası gətirməsi qadağan edilmiş, İrana gedən Ərəbistan yolları tutulmuşdu. Bu embarqo Məmlüklərdən gəlib Osmanlı ərazisindən keçən ticarət yollarını da əhatə edirdi. Embarqo o qədər sərt olmuşdu ki, zamanla Məmlük və Osmanlı bölgəsində də narahatlıq yaratmışdı.

Səlim rəsmi qərardan sonra ətrafa təlimatlar göndərərək, "*Top arabalarını elə hazırlatdırın ki, əsla bir yerlərində nöqsanlar qalmasın, Rumeli bəylərinə ulaklar göndərin ki, bütün Rumeli vilayəti əsgərləri nizamlı və mükəmməl döyüş alətləriylə birgə Anadoluya keçsinlər və Boğa ovasında dərnək yaratsınlar...*" – deyə əmr etmişdi [88].

Sadəcə Rumelidəki əsgərlərə deyil, Anadolu və Karaman bölgəsi komandirlərinə də qüsursuz bir şəkildə hazırlanma əmri verilir. Səlimin əsgərləri də

öz növbəsində döyüşə hazır idi. Xüsusi xərcləmələrə ayrılmış maliyyə ilə birlikdə əsgərlərə də yüksək maaş ayrılmışdı. Səlim bu döyüş üçün heç bir xərcdən qaçmamışdı. İşini şansa buraxmamaq üçün müharibə öncəsi gərəkli bütün strategiyaları həyata keçirmək niyyətində idi.

**Döyüş ərəfəsi.** Üsküdardan hərəkətə başlayan Səlim Yenişehir ovasına qədər hərəkət edir. Rumeli ordusu isə İstanbuldan deyil, Gelibolu və Çanaqqala boğazından keçirdilir. Şahzadə Süleyman vəzifədə olduğu Kəfədən Ədirnəyə çağırılır. Yenişehirdə birləşən ordu 140 minlik orduyla qaldığı yerdən yoluna davam edir. Ordu sahib olduğu 200 ədəd ağır top, 100 ədəd yüngül topla Konyaya gəlir və daha sonra Kayseri və Sivasa hərəkət edirlər. Su qaynaqları, iqlim şərtləri və digər təbiət şərtlərinin ən uyğun olduğu yer bu xətt olduğundan, Səlim bu xətti bilərək seçmişdi.

Səlim Anadolu əhalisinin Şah İsmayılın tərəfdarı olduğunu və döyüş əsnasında onların Səfəvilərin tərəfindən olacaqlarının fərqində idi. Unutmamaq lazımdır ki, Şah İsmayıl 1512-ci ildə rumlu Nur Əlini Osmanlı torpaqlarına göndərmişdi. Nur Əli 3000 türkmənlə Tokatda üsyan çıxarmış və üsyan Sivas, Çorum və Amasyaya qədər yayılmışdı. Hətta Nur Əli Tokatda İsmayıl adına xütbə oxutdurmuşdu. Şah İsmayıl üsyan mərkəzini xüsusi məqsədlə seçmişdi. Tokat, Amasya və Çorum torpaqları şimaldan gələn karvan yolunun önəmli mərkəzləri idi. Bunun fərqində olan Səlim döyüşdən öncə bu bölgəni nəzarət altına almışdı. Solakzadə bu haqda qeyd edir ki, "*Padşah həzrətləri Anadoludakı qızılbaşları təftiş etmək üçün vilayət valilərinə əmr edilmişdi ki, 7 yaşından böyük olanların, xüsusilə də quldurların adları qeyd edilən bir siyahı hazırlansın. 40 mindən ibarət olan bu quldurlar arasında həbs olunmuşlar da vardı*" [85]. Buradan bəlli olur ki, Şah İsmayılın yandaşları döyüşdən öncə şiddətlə kənarlaşdırılıb. Bu dəftərə görə, sağ qalanlar da psixolojik təzyiqə məruz qalmışdı. Hətta Səlim sadəcə bölgədəki Ələvilərin qeydə alınması ilə kifayətlənməmişdi. İdris-i Bitlisi Çaldıran hadisələrini qeyd etdiyi "Səlim-Şahnamə" əsərində Səlimin verdiyi əmr haqqında: "Qoy Yunan şəhərlərində yaşayan və səyahət edən bu qrupun 7-dən 70-ə hamısına yazıb şuranın vəkillərinə təqdim etsinlər. Təcili

olaraq əməl edilməli olan müddəaların əsasları tamamlandıqdan sonra müddəalar hər bölgənin hökmdarlarına göndərildi. Onlardan böyük bir kütlə öldürüldü".

Səlim cəbhə arxasının təhlükəsizliyini təmin etmək üçün 40 min nəfərdən ibarət arxa cəbhəni Kayseri və Sivas arasında yerləşdirmişdi. Beləliklə, ətrafın nəzarəti də təmin edilmişdi. Türkmənlər hər an arxa cəbhədən üsyan çıxararaq İsmayıla köməyə gələ bilərdilər. Həmçinin bu arxa ordunun başqa missiyası da vardı. Əgər döyüş məğlubiyyətlə nəticələnərsə, Səlim döyüşə girməyən bu arxa orduyla İstanbula dönərək iqtidarının təhlükəsizliyini təmin edəcəkdi. Bu hazırlıqlar qarşısında Şah İsmayıl Anadoludakı adamlarından heç bir şəkildə kömək ala bilməmişdi.

Bu arada Şah İsmayıl da öz strategiyasını qəddarlıqla həyata keçirməkdə idi. Onun yaxın adamı olan Diyarbəkir valisi türkmən bəyi ustaclı Məhmət tarlaları yandıraraq Osmanlı ordusunun yeni qida tapmasını əngəlləməyə çalışmışdı. İdris-i Bitlisi Səfəvi yandaşlarının Ərzincan və Təbriz arasındakı torpaqlarda yandırılaraq qətliam edildiyini yazmaqdadır.

Səlimin ordusu Ərzincandan Ərzuruma gəldiyində insan izi tapa bilmədi. Çünki bütün kənd və şəhərlər darmadağın edilmişdi. Məhəmməd xan Ustaclı bölgənin türk və kürd qəbilələrini heyvanlarıyla birlikdə sürgün etdirib Bingöl yolundan Səfəvi torpaqlarına yerləşdirmişdi. Bu sırada da yol üzərindəki bütün otlaqlar yandırılmışdı.

Göründüyü kimi, tərəflərin strateji mübarizəsindən günahsız xalq zərər almaqdadır. Ancaq bu vəziyyət Şah İsmayıldan çox Səlimə sərf edirdi. Şah İsmayıl, əslində, bu addımla cəbhə önünü açsa da, Səlimin arxa cəbhəsinin təhlükəsizliyini təmin etmiş olur.

İstanbuldan Səfəvi torpaqlarına ediləcək səfər olduqca çətin səfərdir. Bu səfər sırasında əsgərin ərzaqla təmin edilməsi üçün quru yolundan qida daşınması olduqca məşəqqətlidir. Eyni zamanda, Şah İsmayılın ordusuyla harada qarşılaşacaqları bəlli olmadığı üçün təhlükəlidir. Amma bu problemə də cəsur bir həll yolu tapılır. Solakzade qeyd edir: "*Ayrıca Karadenizden Trabzon limanına gemilerle zahire gönderilmesi sipariş buyrulmuş idi*". Hoca Sadettin isə daha detallı məlumat verir: "*Karayoludan katır sırtında taşıttığı arpa ve buğdaydan qayrı Karadenizden nice bulut gibi yelkenli ... akan yıldızları andıran gemilerle Trabzon yakasına hayal*

*hazinelerinin alamayacağı ölçüde zahire ve donatım malzemeleri göndermişdi*" [118].

Bu şəkildə dəniz yoluyla gətirilən qida və materiallar Trabzondan quru yolla Ərzincana çatdırılaraq orduya veriləcəkdi. Bir neçə cümləylə izah edilən bu üsullar, əslində, qeyri-adi bir təşkilatlanma bacarığı və professionallığın birləşməsi idi. Dəniz yoluyla daşınan materiallar çətin zamanlarda Səlimə böyük üstünlük yaratmışdı. Şah İsmayıl isə bir müddət ortalıqda görünməyəcək. Əslində, bu da bir strategiyadır. Şah İsmayıl bu davranışı ilə Osmanlı ordusunun yolunu uzadaraq yormaq niyyətindədir.

Müharibənin ən önəmli ünsürlərindən biri də casusluq fəaliyyətidir. Hər iki tərəf üçün də casusluq önəmlidir. Çünki əldə olunacaq məlumatlara görə, hərəkət planı hazırlanmalıdır. Səlim bu məqsədlə öz adamlarıyla yanaşı, Malatyadakı məmlük bəyi Mamaydan da yararlanmışdır. Belə ki, Mamay Şah İsmayılın addımları və ümumi durumla bağlı sənədlər göndərmişdir. Səlim casusluq fəaliyyətini sona qədər davam etdirmişdir. Solakzadə Ərzincandakı bir həftəlik qonaqlama zamanı ətrafa və çevrəyə düşmənlərindən xəbər tutmaq üçün cəsusların göndərildiyini yazmışdır. Bitlisi də hər yana öncə əsgərlərin və təcrübəli nəzarətçilərin, casusların təyin edildiyini qeyd etmişdir. Münəccimbaşı Dülqədiroğullarından Şahsuvarlı Əli bəy, Mihaloğlu, Məhmət bəy və Bali Voyvodanın yanına əsgərlərin verildiyi və məlumat öyrənmək üçün düşmən tərəfinə göndərildiyini qeyd edərkən, əslində, casusluq edən məşhur adları da qeyd etmişdi.

Xoca Sadəddin və Əhməd dədənin qeydlərində casusluq fəaliyyətində uğurlu olan Şahsuvaroğlu Əli Bəyin Sultan tərəfindən mükafatlandırıldığı qeyd edilir.

Şah İsmayıl da öz növbəsində boş durmayaraq rəqibi haqqında məlumat toplamışdır. "Tarix-i Al-i Osman" adlı əsərdə Şah İsmayılın Səlimin yerini öyrənmək, ordusunun yerini təyin etmək üçün etdiyi casusluq işlərindən bəhs edilir. Bu məlumatlar cəbhədə ordular qarşı-qarşıya gələnə qədər davam edir. Amma məlumatların azlığı Şah İsmayılın bu məsələdə yetərsiz olduğu anlamına gəlməməlidir. Çünki Şah İsmayılın qolunun hər tərəfə uzandığını türkmənlərlə olan münasibətindən bilirik. Divan katibi Heydər Çələbi günlük qeydlərində: "Larende (Karaman) Kızılbaştan üç casus getirilip Hersekoğlu Ahmet paşa konağında işkence

edilerek bilgi alındı ve katledildiler (1514 8 iyun)" – deyir. Haydar Çelebi Ərzuruma aid başqa bir qeydində bu məlumatı bölüşür: "Erzuruma tabi Çermük konağında karakola giden Bali Voyvoda iki casus ve iki kelle ile Kızılbaştan haber gönderdi casuslar katledildiler (3 avqust 1514)". Bir çox sənədlərdə də casuslardan bəhs edilir.

Qarşılıqlı casusluq fəaliyyətlərində qəribə üsullara rast gəlmək mümkündür. Çaldırandan əvvəl Səlimlə məktublaşan bir Ağqoyunlu bəyi olan Məhəmməd bəy məktubunu soğan suyu ilə yazmışdı. Soğan suyu ilə yazılan sətirlərdə "bir kimsənin bu gizli sirdən xəbəri olmadı. Məktubunuzun cavabını gizli olaraq soğan suyu ile yazıb sizə göndərdim. Ümid edirəm ki, Allah bəndələrini öz lütfü ilə qoruyacaqdır" – deyilir.

"Tarih-i Ali Osman"da Şah İsmayılın ordusu ilə əlaqəli maraqlı məlumatlar vardır. Məlumata görə, Şah İsmayıl öz adamları ilə birgə eyş-işrət məclisində imiş. Hətta İdris-i Bitlisi qeyd edər ki, Şahsuvaroğlu Əli bəy əyləncə məclisindən qalxan bir sərxoş adamı əsir alıb Səlimin hüzuruna gətirir və Səlim Şah İsmayılın ordusu haqqında məlumatı ondan alır.

Bu məlumat Osmanlının Səfəvilərə qarşı bir təbliğatı da ola bilər. Lakin Şah İsmayıldan sonra taxta keçən oğlu Təhmasib bu hadisəni doğrulayır. Bu məlumat Şah Təhmasib ilə Sultan Süleyman Qanuni arasındakı məktublaşmalarda yer almaqdadır. Təhmasib: "Süleyman şah mənə məktub yazaraq sənin atanla mənim atam döyüşmüşdü. Əgər sən igidlik göstərmək istəyirsənsə, gəl döyüşək. Əks halda, bir daha igidlik göstərmə deməsi qarşılığında mən də onun məktubuna bu cavabı verdim: atamın atanızla vuruşduğu gün Durmuş xan ilə digər bəylər hətta ordudakıların hamısı sərxoş idi. Axşamdan səhərə qədər şərab içmiş, sonra isə döyüşə gəlmişdilər. Bu hadisə tamamilə məntiqsiz və qorxunc idi. O tarixdən etibarən mən hər dəfə Çaldıran döyüşündən söz düşəndə Durmuş xana lənət oxuyuram. Çünki o, atam İsmayılı aldadıb döyüşə təşviq etmişdi" – deyə yazmışdı.

Səfəvi qaynaqlarından tarixçi İsgəndər bəy Münşi Şah İsmayılın qəribə bir hadisəsindən bəhs edir: "Ordusu yerləşərkən Şah İsmayıl bildirçin ovuna çıxmış, döyüş başladıqdan sonra da döyüş meydanına dönmüşdü". Bir səfəvi tarixçisinin Şahı təhqir etmək kimi bir məqsəd daşımadığını düşünsək, bu qəribə hərəkətin izaha

ehtiyacı var. Düşüncəmizə görə, Şah İsmayıl Osmanlının qorxmağa dəyəcək qədər güclü olmadığını düşünməsi onun bu şəkildə rahat hərəkət etməsinə səbəb olmuşdu, yaxud ordusunun gözündə belə bir düşüncə formalaşdırmaq istəyirdi. Bildiyimiz kimi də şahlıq və şeyxliyi birləşdirən Şah İsmayıl ordusunun gözündə Mehdi, yaxud tanrısal gücə malik idi. Bu səbəbdən onun ordusuna əsgərdən ziyadə müridlər ordusu demək yerində olar.

Tarixi məlumatlara görə, Səlim casusluq işlərində dezinformasiya və psixoloji yalan kimi vasitələrdən də istifadə edib. Keçmiş bir Ağqoyunlu bəyi Fərruxşad İsmayıla qarşı mübarizə aparmaq üçün Səlimin tərəfinə keçmişdi. Fərruxşad Ağqoyunlu hökmdarı Uzun Həsənin əmisioğludur. Bir sözlə, Fərruxşad Şah İsmayılın iddia etdiyi Ağqoyunlu torpaqlarının varisidir. Fərruxşadın adamı Şeyx Əhməd onu ölümə götürəcək bir vəzifəni öhdəsinə götürür. Belə ki, o Şah İsmayılın düşərgəsinə gedərək, yalançı məktublarla türkmənlərin Səfəvi ordusuna qoşulmaq üzrə hazır olduğunu Şaha deyəcəkdir. Buradakı məqsəd Şahı cəbhə döyüşünə cəlb etməkdir. Çünki İsmayıl cəbhə savaşından qaçaraq daim geri çəkilmə taktikası tətbiq edirdi. Nəticədə Şeyx Əhməd missiyasını uğurlu şəkildə tamamlayaraq Şaha onu sufilərin göndərdiyini deyir. Bu uğurlu xidmətdən sonra Səlim Əhmədi mükafatlandırır.

İsmayıl Şeyx Əhmədin gətirdiyi məlumata inansa da, yenə də gözübağlı cəbhəyə atılmağa tələsməmişdir. Şah İsmayıl fərqində idi ki, əgər cəbhə döyüşünə tələsməsə, Səlimin ordusu səbirsizlənib üsyan edəcəkdir. Yavuz Səlim isə düzməcə məktublarla İsmayılı aldadaraq onunla Ərzincan yaxınlarında döyüşmək istəyir. Nəticədə İsmayılın təxminləri doğru çıxır. Şah İsmayılla hələ də qarşılaşa bilməyən ordu içərisində narahatlıq başlayır. Ordu öz aralarında müzakirə edib geri dönmənin daha məntiqli olduğu qənaətinə gəlir. Düşüncələrini Sultana bildirmək üçün Karaman bəylərbəyi Həmdəm Paşanı Səlimin yanına göndərirlər. Bu zamana qədər çəkilən bütün zəhmətləri silib atmağı təklif edən bu mesajı Səlimə çatdırması Hemdem paşanın, təəssüf ki, sonunu gətirir. Döyüşə bir neçə gün qalmış yeniçərilər Eleşkirt yaxınlığında iki dəfə üsyana qalxır. Əslində, bu üsyanlar çətin olan şərtlərdən dolayı idi. Belə ki, heyvanların ayağında nal qalmamışdı. Xüsusilə piyada əsgərlərin, əli

tüfəngli igidlər olan yeniçərilərin ayaqqabıları köhnələrək ayaqları yalın qalmışdı. Əsgərlər taqətdən düşdüyündən döyüşəcək gücləri qalmamışdı.

Bu şərtlərin çətin olmasına baxmayaraq gözlənilməz hadisə oldu. Səfəvi ordusunun Xoy şəhəri üzərindən Çaldırana doğru hərəkət etdiyi xəbəri gəldi. Osmanlının mübarizə əzminin bitməyə başladığı bir dönəmdə Şah İsmayılın hərəkətə keçməsi strateji bir səhv olaraq görünür. Əgər Səfəvi ordusu bir az daha ortalıqda görünməsəydi, Səlimin ordusundakı çatlaq daha da böyüyəcəkdi. Şah İsmayıla Osmanlı ordusunun gücdən düşdüyü ilə əlaqəli casus məlumatı da getmiş ola bilərdi. Nəticə etibarilə bu gözlənilməz hadisə Səlimin bitməkdə olan ümidini bərpa edərək geri dönülməz strateji üstünlüyü ona vermişdi.

Döyüşə qədər Şah İsmayılla Sultan Səlim arasındakı məktublaşmalar, hədiyyələr, təhqirlər psixoloji müharibə tarixində özünəməxsus yer tutub. Bir məktubda Sultan Şaha pis əməllərə, çirkin vərdişlərə görə peşmanlıq duyarsa, ...ordunun atlarının dırnaqlarına torpağı sürtünən, atların nalları ilə hər küncünün qulağına köləlik halqaları taxılan o bölgələri, qalaları Osmanlı himayəsi daxilində sayıb onları dərviş lojasının nökərlərinə təslim etsə, xoşbəxtliyin onun nəsibi olacağını ifadə edirdi.

Məktublaşmalarda bəzən diplomatik nəzakət qorunarkən, bəzən də nəzakət xaricində ifadələr işlədilmişdir. Məsələn, bir məktubda Yavuz Səlim atalarının silsiləsini böyük dədəsi İkinci Muraddan başlayıb özünü Keyxosrova bənzədərkən Şah İsmayılı da İran hökmdarı böyük komandir və zamanının Darası deyə iltifatlara boğduğu halda, eyni məktubun əvvəlində şaha keçmiş ərəb ölkəsində yaşayan çirkin pis əxlaqlı şeytana uymuş döyüşçü anlamında “dəhhak” deməyi də unutmamışdır. Daha sonra məktubda təkrar diplomatik dilə dönülərək Şah İsmayıl bu dəfə də Turan ölkəsinin əfsanəvi türk xaqanı Alp Ər Tunga-Əfrasiyaba bənzədilmişdir.

Bu məsələdə Şah İsmayıl da öz növbəsində Səlimdən geri qalmamışdır. Yassı Çəməndə olduğu zaman atasının bir zamanlar tiryək çəkdiyini nəzərdə tutduğu üçün Səlimə tiryək göndərmişdir. Bu hədiyyə Səlimə çox pis təsir etmiş olmalı ki, Şah İsmayıla qadın geyimləri göndərərək, əgər döyüş meydanına gəlməzsən, kişilik sənə haramdır deyə, qıcıqlandırıcı cavab göndərmişdi.

Eyni zamanda, döyüşdən öncə İsmayıl tərəfindən yazıldığı düşünülən bəzi şeirlər vardır:

“*Gece gündüz hayaline dönerim*
*Bir gece rüyama gir Hacı Bektaş*
*Günahkarım günahımdan bezerim*
*Özüm dara ektim sor Hacı Bektaş.*
*Belinde kemeri başında tacı*
*Yüzünde balkıyor nur Hacı Bektaş.*
*Gahi bulut olup göğe ağarsın*
*Gahi yağmur olup yere yağarsın.*
*Ay mısın gün müsün kandan doğarsın*
*Ilgıt ılgıt eser yel Hacı Bektaş”.* [100, s.69]

Bəzi düşüncələrə görə, İsmayıl bu şeirləri yeniçərilər arasında yaymaq üçün yazmışdır. Taktikaya görə, bu şeirlər qızılbaş Türkmənlərlə Bektaşi yeniçərilər arasındakı inanc yaxınlığını xatırlatmalı idi. Hansı ki, bu inanc yeniçərilərdə Şah İsmayıla qarşı döyüşmək hissini yox edəcəkdi.

Səlimin tərəddüdə qapıldığı zamanlarda ona ən böyük dəstəyi əsgər nəslindən olmayan Piri Məhəmməd Çələbi vermişdir. Piri Məhəmməd geriyə dönmək düşüncəsinə qarşı gələrək gözlənilmədən hücum etməyi təklif etmişdir. Piri Məhəmməd Konya-Aksaray əsilli Cəmali ailəsindən olub Şeyx Məhəmməd Cəmalinin oğludur. Atası Amasya günlərindən bəri Bəyazidin yanında yer almışdır. Yəni Piri Məhəmməd bürokratiyanın içində böyüyən fərasətli bir adamdır. Çox gərəkli zamanlarda Piri Məhəmmədin təşəbbüsü və digər xidmətləri ona vəzirliyin verilməsinə səbəb oldu.

Döyüş ərəfəsində Ustaclı Mehmet bəy İsmayıla mümkün olduqca Osmanlı ilə qarşı-qarşıya gəlməməsini, Yavuzun Çaldırana girdiyi anda gözlənilmədən hücum etməyi təklif edir. Bu təklif Nur Əli Xəlifə kimi bəzi bəylər tərəfindən də dəstəklənir. Lakin bu düşüncəni bəyənməyən Şamlı Durmuş bəy Ustaclıya “sənin borun Diyarbəkirdə ötər” dedikdən sonra son ana qədər gözlənilməsini və qarşı tərəfin səbri

tükəndiyi zaman hücum edilməsini təklif edir. Xanlardan bəziləri də bu düşüncəni dəstəkləyir. Eyni zamanda, ustaclı Məhmət bəyin cəbhə döyüşünə girməməsi barədə düşüncəsi olduqca məntiqlidir. Osmanlı hərəkət halında olarkən hücum edilməlidir, çünki onların topu var. Durmuş bəy mübahisəyə girərək: "Mən karvan soyğuncusu deyiləm, nəticədə Allahın istədiyi olar" – deyə qarşı gəlir. Nəticədə Durmuş bəyin təklifi qəbul edilir. Məsələ belədir ki, elə Durmuş bəyin təklifi də bu döyüşün taleyini kökündən dəyişir.

Nəhayət, Səlimin gözlədiyi an gəlib yetişir. Şah bu vaxtdan sonra qaçma taktikası tətbiq edəcək halda deyil. Çaldıran dəhşətli bir meydan döyüşünə hazırdır.

Ordulara qısaca göz atsaq, Şahın ordusu – sayısı olmayan peşəkar zirehli çevik atlı qüvvələri əslən Anadolu Türkmən atlılarından ibarətdir. Orduda odlu silahın olmasıyla bağlı heç bir məlumat yoxdur. Ancaq əsgərlər olduqca hüzurludur. Sultanın ordusu isə Rumeli əsgərləri və Sultanla paytaxtdan gələn qapıqulu əsgərləri topçu tüfəngli və atlı qüvvələrdən təşkil olunmuşdur. Ümumiyyətlə isə peşəkar ordu olub taktikası və odlu silah istifadə gücü üst səviyyədədir. Lakin uzun bir səfərin yorğunluğu var.

Yavuz Səlim daha çox piyada birlikləri və topçularıyla, Şah İsmayıl isə çevik atlılarının ani hücumundan nəticə almağa önəm verir. Çaldıran düzü iki yerə bölünmüş vəziyyətdədir: Şərq hissə Şah İsmayıl və ordusuna, Qərb hissə isə Osmanlı ordusuna ayrılmışdır.

Heydər Çelebi "Ruznamə" əsərində döyüşün başlanğıcını təsirli cümlələrlə təsvir etmişdir: "*Çaldıran malikanəsində günəş doğduğu zaman şaha qarşı döyüş əmri alındı. Sübhün rəngində qırmızı papaq geyinmiş şah ordusu Qızılbaşların adətlərinə uyğun bir şəkildə şəkavet meydanına daxil olaraq Ərzincan istiqamətindən hücuma keçdi. Rumeli süvariləri ilə fars süvariləri düzülüb döyüşə başladılar*" [109].

Türkmənlər və Səfəvi ordusu aşağıdakı sətirlərdə təsvir olunmuşdur:

*"Kırmızı taclu boz atlu,*
*Ağır leşkerlü heybetlü"* [92, s.248].

Bu misralar Xətai ləqəbiylə şeirlər yazan Şah İsmayılın sözləridir. Döyüş sırasında yazılmamış olsa da, ordusunun İsmayılın gözündən necə göründüyünü təsvir etməkdədir.

İdris-i Bitlisi öz ordularının döyüş meydanındakı ilk düzülüşünü 1514-cü il 23 avqustda qeydə almışdır. Bu qeydlərə əsasən, belə nəticəyə gəlmək olur ki, ortada Yavuz Səlim yanında imperiyanın önəmli iki komandiri Hersekoğlu Əhməd və Dukakinoğlu Əhməd paşa ilə birlikdə digər heyətlər də vardı. Mərkəzi qüvvənin önündə Şahsevaroğlu Əli Bey və əsgərləri yer alarkən ön hissədə isə Şadi bəyin əsgərləri yerləşməkdədir. Sağ qola bəylərbəyi Sinan Paşa tabeçiliyində olan Anadolu əsgərləri, sol qola isə bəylərbəyi Həsən paşanın tabeçiliyindəki Rumeli əsgərləri yerləşdirilmişdi. Səfəvi cəbhəsində mərkəzdə Şah İsmayıl, onun solunda Ustacluoğlu Məhəmməd bəy, sağ qolda isə Seyid Əbdülbaki yer almışdı. Şah İsmayılın mərkəzdə deyil də sağ qanadda yerləşdiyini mərkəzi Seyid Əbdülbakinin tutduğunu deyənlər də var.

Ada-i Şah İsmayılın sağ qanadı tutduğunu coşqulu şəkildə təsvir edir:

> *"Sağ kanatta İran ülkenin sultanı olup*
> *Çevresinde sancak tutan kahramanlar vardı"* [89, s.25].

Sağ qolun bu şəkildə gündəmdə olması məsələsi əhəmiyyət kəsb edir. Çünki Səfəvi ordusunun sağ qanadının qarşısında Osmanlının ən zəif halqası olan Rumeli birlikləri olduğundan hücumun uğurla nəticələnəcəyi düşünülmüş ola bilər. İsmayılın bu qolun idarəsini əlinə alması orduya da cəsarət verəcəkdir.

Tükürpərdici mənzərə, orduların sayını göz önündə canlandırsaq, iki ucu bucağı olmayan dəniz şəklindədir. İki ordu bir-birinə yaxınlaşdıqca aradakı kəskin xətlər də silinməkdədir.

Səlimin əsgərləri Ada-i tərəfindən bu şəkildə təsvir edilmişdir:

> *"...*
> *Saymakla bitmeyecek nice kahramanlar vardır.*
> *Bunların başında savaş için kemer kuşanan,*
> *Ağızlarını açmayan azap askerleri bölüğü gelir.*

*Hepsinin başında lale gibi kırmızı miğfer olup,*
*Savaş meydanı onlardan dolayı kan ağlamıştır*". [89, s.85]

Əzablı deyilən əsgərlər bu döyüşdə əhəmiyyətli rolu öz üzərlərinə götürmüşdülər. Sultanın döyüş taktikasına görə, əzab əsgərləri Osmanlı ordusunun odlu silahlarının önünü örtüb zamanı gələndə geri çəkiləcəklər və bu şəkildə Şahın atlıları top və yeniçəri tüfənglərinin atış mənzilinə girəcəklər. Səfəvi ordusunun atlıları əzabların üzərinə doğru gəldiyi zaman əzablar sağ və sola çəkiləcək və beləliklə, düşmən atlıları odlu silahla qarşı-qarşıya qalacaqdı.

Şah İsmayıl çevik və cəsarətli süvari birliklərinə əhəmiyyət verirdi. Lakin bu qüvvələr peşəkar deyildi. Əksinə Osmanlı ordusu yorğun olsa da, peşəkar və intizamlı idi.

**Döyüşün başlaması.** İsmayılın ordusu sürətli şəkildə hücuma keçdiyi zaman Osmanlı ordusu ağır və böyük toplarla atəş açmışdır. İlk mərhələdə Rumeli qüvvələrinin olduğu sağ qoldan açılan top atəşləri düzgün yerləşdirilməməsi səbəbiylə hədəfə çatmamış, ya da Səfəvi əsgərlərinin üzərindən keçmişdir. Bundan istifadə edən Səfəvi ordusu cəld şəkildə Rumeli əsgərlərinə hücum etmişdir. Bu məntiqli bir seçim idi. Çünki Rumeli əsgərləri zirehli deyil, az sayda top və tüfəngləri vardı. Səlimin olduğu mərkəzi hissəyə hücum düşünülməmişdi. Çünki ən ağır silahlarla təchiz edilən yer mərkəz hissə idi. Nəticədə Rumeli qolu dağılıb geri çəkilməyə başlayır. Rumeli bəylərbəyi Hasan paşa öldüyü zaman tab gətirə bilməyən əsgərlər dağılmağa başlayır və başda planlandığı kimi əzablar nizamlı şəkildə geri çəkilmək planını həyata keçirə bilmirlər.

Hadidi bu talesiz hadisəni şeir diliylə dramatikləşdirərək Hasan paşa ilə Sultan arasındakı kədərli dialoqu sətirlərə köçürür:

"...
*Hasan paşa katı yaralı olur hem,*
*Görür Rum-ilinin hali mükedder.*
*Gelüp Sultan Selime anı söyler.*
*Ki ben gitdüm heman hanım sağ olsun,*

*Cihanun canı sultanum sağ olsun*" [101, s.391].

Ölmədən öncə Hasan Paşa Rumeli ordusuna dəstək olunmasını da Sultana çatdırmışdır:

*"Veliki leşgere(askerlere) edin işaret,*
*Ki Rum-iline oluna himayet"* [101, s. 391].

Osmanlının Rumeli qanadıyla əlaqəli bəzi fərqli düşüncələr də var. Anadoludakı Şah İsmayıl tərəfdarlarının Rumeli ordusundakı Şeyx Bədrəddin tərəfdarları ilə inancları eyni olduğundan bəziləri döyüş zamanı "timar xətri üçün ərə qılınc qaldırılmaz" deyə reaksiya vermişlərdir. Əgər bu düşüncə doğrudursa, Şah İsmayılın əvvəlcədən aldığı məlumata əsasən, planlı şəkildə Rumeli qanadının üzərinə hücum etdiyi qənaətinə gəlirik. Rumeli ordusunda klassik sünni anlayışından başqa heteredoks İslamın əlamətləri də vardı. Fəthlərdən sonra Balkanlara köçürülmüş Ələvi türkmənlər Şeyx Bədrəddinin mənəvi mirasçıları olmaqla Bektaşiliyi Rumeli ordusunda da yaşatmışlar.

Döyüşə geri dönsək, Anadolu əsgərləri ilə Ustaclıoğlu Məhəmməd bəyin birlikləri arasında çətin mübarizə başlamışdı. Əvvəl türkmənlər üstünlük əldə etsə də, bu durum qısa müddət sonra dəyişir.

Rumeli birliklərinin dağılmasından sonra Şah İsmayıl mərkəzdə olan Səlimin sol tərəfindən arxaya keçib yandan və arxadan ona hücum etmək niyyətinə düşmüşdür. Amma bu plan müsbət nəticə verməz və döyüşün taleyini dəyişər. Bu məsələdə texnologiyanın da gücü vardır. Topçu və tüfəngli piyadaların yenidən döyüş meydanına daxil olması vəziyyəti dəyişməyə başlayır. Səfəvi süvariləri nə qədər çevik və qorxmaz olsalar da, topçu və tüfənglilərin atışları qarşısında yenilməyə məhkum idilər.

Bu arada Şah İsmayılın əmrindəki birlik Rumeli qanadının dağılmasıyla Yavuzun olduğu mərkəzə doğru hərəkət etməkdədir. İdarə mərkəzi ələ keçirilərsə, döyüş bitəcək. Çərkəzlərin katibi Yusufun dediklərinə görə, Səlim Şah İsmayılın ağlına gəlməyəcək üsullara əl atır, atəş açılması barədə əmrlər verir.

Səlimin bu əmri üzrə döyüşün taleyini dəyişən hadisələr zəncirini İdris-i Bitlisi detallı şəkildə nəql edir: *“Yeniçəri gənclərinin hər birinin əlində bir tüfəng vardı ki sanki əbabil quşları kimiydi. Sərt mərmi dənələriylə .... O süvari və piyadaları (Səfəvi əsgərlərini) muncuq dənələrini ipə düzmüş kimi bir-birlərinə yaxın düzüb atəş açılan hər silahla düşməni yox edirdilər”.*

Döyüşün gedişatını dayandırıb Şah İsmayıl və Səlimin döyüşdə hansı rolları oynadığına diqqət etməli olsaq, Yavuz Səlim şəxsən döyüş meydanında görünməyərək döyüşü idarə edir, plan qurur, əmr verirdi. Əksinə İsmayıl döyüş meydanındadır. Bəlkə də, müridlərinin gözündə yarı tanrı olaraq yaralanmaz, ölməz şəklində formalaşmış imicini qorumağa çalışır. O, at belində ordu sıralarına daxil olaraq, qılınc oynadır. Əlindəki haydari qılıncı da Həzrət Əlinin zülfüqarını təmsil edər. Səfəvi tarixçisi İsgəndər bəy Şahın qılıncını zülfüqara bənzədir. Hətta Osmanlı tarixçisi münəccimbaşı Əhməd Dədə belə Şahın döyüş meydanındakı fiziki mübarizəsindən danışarkən 7 dəfə at dəyişdirdiyini deyir. Lakin zamanın ruhu liderlərin meydanda igidcə döyüşməsini dəyərləndirmir. Texnologiya, peşəkarlıq və intizam hər şeyi həll edir. Səfəvi əsgərləri nə qədər çevik olsa da, mərmilərin onları bir-bir yerə salması zamanın ruhuna uyğun bir nəticədir.

Ustaclıoğlu Məhəmməd bəyin Anadolu bəylərbəyi Sinan Paşa üzərindəki mübarizəsinə gəlsək, yuxarıda da qeyd etdiyimiz kimi, bu uğur uzun sürməmişdir. Sinan paşa bir anlıq dağılan birliklərini yenidən toplayaraq təkrarən döyüş meydanına daxil olur. Bu geri çəkilmə, bəlkə də, odlu silahları dövrəyə daxil etmək üçün bir taktika idi. Belə taktikalar döyüş boyu fərqli cəbhələrdə tətbiq edilir. Bu haqda Münəccimbaşı Əhməd Dədə böyük top arabalarının bir-birinə zəncirlə bağlanıb əsgərlərin önünə düzüldüyünü, əsgərin arxasının isə yük dəvələriylə tutulduğunu, yeniçərilərin top arabalarının arasında və Sultanın önündə yerləşdiyini qeyd edir.

**Şah və Mat.** Döyüşdən öncə topçu və tüfəngçilərə verilən əmrə görə, onlar yerlərində sabit durmalıdır. Top arabalarının zəncirlə bağlanması düşmən süvarilərinə sədd olmaq üçün də edilmiş ola bilər. Bununla bağlı olaraq tarixçi Sadəddin bu haqda yazır. Sinan paşa safları düzənlədi. Top arabaları dəmir divar kimi idi və aslanlar döyüşə hazırdı. Paşa əmr vermədiyi müddətcə top nişancıları əsla atəş etməyəcəkdi.

Tələsən düşmən hücuma keçdiyi zaman paşanın əmriylə atəşə tutuldu. Güllələrin atılmasıyla düşmən süvariləri parçalandı.

Top atışları qarşısında ölü və yaralı atlılar üst-üstə yığılmışdı. Odlu silahın üstünlüyünü Ada-i Şirazi bu şəkildə təsvir edib:

*"Dini kutlu padişahın çevresine sanki,*
*Top arabalarından bir kale duvarı çekilmişti.*
*Kara yılanlar gibi ağızlarını açmış olan,*
*Zarbzen toplarının tüfekleri ortaya çıktı,*
*Zarbzen toplarının gerisinde ise yeniçeri bölüğü"* [89, s.84].

Bəhs edilən zərbzən və ya dərpzən topları piyada və dağ topu olub ağırlığı 54 kilo, uzunluqları isə bir və dörd metr arasında dəyişən yüngül toplardır. İki dərpzən bir qatır və ya at tərəfindən asanca daşına bilir.

Bu arada, mərkəzdəki Səlim qüvvələrinə edilən hücum da uğursuzluqla nəticələndi. Münəccimbaşı Əhməd Dədənin dediklərinə görə, Rumeli qolundakı əsgərlərin dağılıb Qızılbaşların önündən qaçmasından sonra Sultan onlara kömək üçün yeni qüvvələrini göndərdi.Köməyə gedən yeniçərilər qızılbaşları geri oturtdu. Ordunun arxasına keçmək istəyən Səfəvilər bu dəfə də dəvələrlə arabaların arasına girib ip və zəncirlərə dolaşdılar və həyəcanlanaraq çoxu orda öldü, yaxud əsir alındı.

Döyüşün itirildiyini anlayan Şah İsmayıl özünü fəda edən bir müridi sayəsində savaş meydanından qaçaraq canını qurtarmışdı. Döyüşün Osmanlı tərəfindən qazanıldığı dəqiqləşdiyi zaman Səlim talan edilməməsini əsgərlərə əmr etmişdi. Həsən Rumlu bunu "Əhsənüt`t Təvarix" adlı əsərində belə təsvir edir: *"Sultan Qızılbaş əsgərlərinin təqib edilməməsini və talan edilməməsini əmr etdi. Çünki Səfəvilərin qaçışının bir döyüş hiyləsi olacağını düşündü. Gecə çökdüyü zaman, Qızılbaşlardan kimsənin bölgədə qalmadığı dəqiqləşdiyi zaman meydandakı mal və digər əşyalar toplanmağa başladı. Savaş qazanılsa da, mübarizə davam etməkdədir. Çünki Şah İsmayılın onu ölümünə qorumaqda məsul olan, birbaşa özünə bağlı əsgərləri qorucular məğlub edilməmişdi"* [31, s.427]. Amma belə başa düşmək olar

ki, üstünlük Osmanlılardadır və bölgənin tək imperatoru olan Səlimdədir. Hadidinin təsviri ilə:

*"... Alayına heman-dem saldılar at,*
*Kızılbaşın ideler şahını mat"* [101, s.390].

Çaldıran döyüşündə hər iki tərəf də çox önəmli adamlarını, komandirlərini itirmişdi. Şah İsmayıl iki yerdən yaralanmışdı. Belə ki, ölümdən, yaxud əsir alınmaqdan güclə canını qurtarmışdı. Şah İsmayılın yaralandığını görən Osmanlı əsgəri Şaha yaxınlaşarkən eyni İsmayıl kimi geyinmiş yaxın adamı Mirzə Əli Şah mənəm deyə səslənmişdi. Əsgərin diqqətinin dağılmasından sonra Şahın atçəkən deyə məşhur olan yaxın adamı Hızır atını Şah İsmayıla verərək qaçmasına kömək etmişdi. Şah onu müşayiət edən azsaylı süvarisiylə Təbrizə qaçır və yaralı qolunu sarıtdırdıqdan sonra izlənəcəyi şübhəsi ilə Dərgəzinə gedir.

Çaldırana qədər böyük döyüşləri qazanan Şah İsmayıl Osmanlıdan Orta Asiyaya, Qafqaz dağlarından Məkkə və Mədinəyə qədər geniş bir coğrafiyanın idarəsini ələ keçirmişdi. Lakin beşinci döyüşü olan Çaldıranda məğlub olmasıyla İsmayılın qələbə sehri pozulmuş, xəyalındakı böyük rəsm parçalanmışdı. Məğlubiyyətlə birlikdə arvadı Taçlı Xatun da Osmanlıya əsir düşmüşdü.

Bu məğlubiyyətdən sonra Şah İsmayıl barış əldə etmək və arvadını qaytarmağa səy göstərmiş, Abdülvəhhab Həmadani kimi böyük alimi elçi olaraq göndərmişdi. Lakin nəticə olmamış, əksinə, göndərilən heyət də əsir alınmışdı.

Çaldıran İsmayıl üçün sadəcə bir döyüş məğlubiyyəti deyildi. Döyüşü itirməklə birlikdə xəyallarını, arvadını itirmiş və eyni zamanda qüruru da qırılmışdı. Və bu məğlubiyyətdən sonra əlini dünyadan üzərək, içinə qapanmışdı. Bu dövlət adamlarının alışmadığı bir durumdur. İsmayılın hansı arvadının əsir alındığı ilə əlaqədar fərqli düşüncələr olsa da, İsmayılın ürəyindən gələn bu sətirlərdən Taclı Xatunun əsir alındığı bəlli olur:

*"Ey divane divane*
*Aşık olan kıyar cane*
*Hatayım der Taçlı hani*

*Kalsın könül yol kalmasın"* [108, s.226].

Hələ 38 yaşında ikən həyata vida edən Şah İsmayılla birlikdə türkmənlər də sərhədləri aşaraq sərbəst yaşam xəyallarını arzularını torpağa basdırırlar.

**Çaldıranın səbəb və nəticələri**. 1500-cü illərdə Anadolunun müxtəlif bölgələrində dağınıq vəziyyətdə yaşayan türkmən tayfaları bəzi problemlərlə qarşılaşdılar. Osmanlı sarayında Anadolu türkmənlərindən ibarət devşirmələr üstün rol almağa başladı. Fateh Sultan Mehmedin hakimiyyətinin sonlarında Osmanlı pulunun dəyərini itirməsiylə bağlı Anadoluda yoxsulluq artmağa başladı. Nəticədə Osmanlıda üsyanlar tüğyan etdi. Osmanlıda bu kimi problemlər yaşanarkən İranda ortaya çıxan bir dini axım olan Ərdəbil ocağı Anadolu türkmənləri üçün bir ümid qapısı oldu. Zaman içində bir çox türkmən tayfaları Şah İsmayılın ətrafında toplandı. Şah İsmayılın liderlik etdiyi bu axım dini məğzdən çıxıb siyasi bir dona büründüyü zaman Osmanlı sarayında narahatlıq yaratdı. Bektaşi təriqətlərinə mülayim münasibət göstərən İkinci Bəyazidin zamanında başlayan mübarizə Səlimin taxtı ələ keçirməsiylə şiddətləndi.

Bununla yanaşı, müharibənin səbəblərini tək məzhəb fərqliliklərində görmək məsələni kiçiltmək olardı. 1514-cü ildə reallaşan döyüş çox böyük bir siyasi və iqtisadi mübarizənin nəticəsi idi. Belə ki, bir tərəfdə yerləşməkdə olan imperiya var. Digər tərəfdə isə bir dini dövlət və imperiya qurma əzmi. Nəticədə ortada bir siyasi mübarizə var. Amma bunun arxasında da eyni zamanda bir iqtisadi mübarizə gedir. Belə ki, tərəflər arasında Şərqi Aralıq dənizinə uzanan ticarət yollarına, xüsusilə də ədviyyat və ipək yollarına nəzarət etmək uğrunda mübarizə davam edir. Bu gün Atlantikdəki ticarət və ağırlıq Qərbi Avropadan Sakit okeana keçir. O dövrdə isə iqtisadi güc mərkəzi Aralıq dənizi və Şərqi Avropadır. Lakin İkinci Bəyazidin zamanından etibarən önəmli kəşflər edilir və iki yeni güc ortaya çıxır: Portuqaliya və İspaniya. İspaniya Cənubi Amerikaya tərəf yayılmağa çalışarkən Portuqaliya Afrika qitəsinin cənubundan Hindistana doğru, yəni iqtisadi istehsalın və ədviyyat istehsalının mərkəzlərinə doğru yol axtarır. Nəticədə mübarizənin əsas səbəbi iqtisadiyyata dayanmaqdadır.

Çaldıranın ən önəmli nəticəsi imperiya Türkiyəsindən Cümhuriyyət Türkiyəsinə qədər varlığını davam etdirən böyük bir siyasi birlik təmin etməsidir. Çaldıran döyüşü ilə birlikdə Osmanlının müsəlman coğrafiyası üzərindəki liderlik mübarizəsi sürətli şəkildə tamamlanır. Çaldıran qələbəsi nəticəsində Məmlük dövlətinin şimal sərhədini təşkil edən Çukurova bölgəsinin idarəsi Səlimin kontroluna keçir. Çukurova, Hatay, Diyarbəkir xətti ilə birlikdə ədviyyat və İpək yollarının da nəzarəti Osmanlıya keçir. Məmlüklərin süqutu ilə birlikdə Hind okeanı və Qırmızı dəniz yoluyla gələn ticarət yollarının idarəsi də Osmanlının nəzarətində qalır.

Bu hadisələr Hind donanmasının qurulmasına səbəb olmuşdur. Bu yeni inkişaf yolu Osmanlını Səfəvilərin uzaqdakı ortağı Portuqaliya ilə qarşı-qarşıya gətirsə də, Portuqaliyanın gücü Osmanlını Qırmızı dəniz və Bəsrədan çıxarmağa yetməmişdir. Nəticədə Osmanlı Şərq-Qərb quru ticarət yollarına və Bəsrə üzərindən də Hindistan dəniz ticarəti xəttinə nəzarət edən tək güc halına gəlmişdir.

**Türklər, Türkmənlər və Farslar.** Çaldıran döyüşü Türkmənlərin ortaya yeni bir iqtidar namizədi çıxarma şanslarını yox etmişdir. Kəlmənin kökünü incələsək, Qaşqarlı Mahmud "Divani Lüğət-it Türk"də Oğuzlara Türkmən deyilməsinin bir hekayəsi olduğunu demişdir. Hekayəyə görə, Balasaqundakı bir türk xaqanı şərqə çəkilir və orada yalnız 22 adam qalır. Daha sonra 24 nəfər olan bu insanlar Böyük İsgəndərin hücumuna məruz qalır. İsgəndər onların üzərində türk sənədləri tapdığı zaman onları farsca türkə bənzəyən anlamına gələn "Türkmanend" deyə adlandırır.

Faruk Sümer müsəlmanlığı qəbul edən türklərin digər türk boylarından fərqini bildirmək üçün Türkmən adını istifadə etdiklərini yazır. Bu fikir bir çox elm adamı tərəfindən qəbul edilir. Lakin Jean Deny türkcədə "man" şəkilçisinin böyüklük, üstünlük mənasına gəldiyini irəli sürmüşdür.

Çaldırandan sonrakı İran coğrafiyasında Türkmənlər və Ələvi Qızılbaş anlayışı da zamanla yox olmuşdur. Türkmənlərin yüz illər boyunca özlərinə dövlət qurma xəyalları gerçəkləşməmişdir.

Çaldırandan döyüşündən sonra müəyyənləşən coğrafi sərhəd müsəlman aləmində inanc, məzhəb fərqini ortaya qoyan xətt rolunu oynamışdır. İranda şiəlik

farslıqla qarışaraq İranın dini, siyasi gücü halına gəlib ideoloji olaraq bəslənməsini təmin etmişdir.

Çaldıran döyüşü Türk və türkmən döyüşü olmasına baxmayaraq, döyüşün nəticələri farslaşmış İranın tarixi və siyasi şüuruna da istiqamət vermişdir.

Bu fəsildə əldə edilən nəticələr nüfuzlu nəşrlərdə "Türk tarixi romanlarında Şah İsmayıl obrazı" [53] Feridun Fazıl Tülbentçinin "Şah İsmail" əsərində Şah İsmayıl obrazının təhlili" [50], "Türkiyə tarixi romanlarından Reha Çamuroğlunun "İsmail" romanında Şah İsmayıl xarakteri" [57] və s. məqalə və məruzələr şəklində əksini tapmışdır.

# NƏTİCƏ

XIX əsrdən etibarən tarixi roman janrı ədəbiyyatda mühüm yer tutmağa başlamış, XX əsrdə isə böyük inkişaf yolu keçərək mövzu və problematika baxımından daha da zənginləşmişdir. Tarixi faktlara, real hadisələrə əsaslanan romanlarda tarixi şəxsiyyətlərin obrazları həmişə mühüm əhəmiyyət kəsb etmiş və diqqət mərkəzində olmuşdur.

Təbii ki, yazıçı tarixi romanlarda baş verən hadisələrdə zaman və məkanı daxili ünsürlərə, mədəniyyəti, sənəti, tarixi və həyatı isə adət və ənənələrə uyğun bir şəkildə sintez etməlidir. Eyni zamanda dövrün reallıqlarını yaxşı bir şəkildə əks etdirməlidir. Tarixi romanlarda inandırıcılıq, zaman və məkan, mövzu və əlaqə tarazlanmalıdır. Əks halda əsər reallıq baxımından əhəmiyyətini itirər. Tarixi romanlardakı baş qəhrəman adi bir insan olmamalıdır, əks təqdirdə roman reallıqdan uzaq olacaqdır.

Türkiyədə yazıçılar tarixi hadisələri öz baxış bucaqları və ideologiyalarına uyğun şəkildə təqdim etməyə çalışmışlar. Yəni xronoloji ardıcıllığı olan əsərlər çox azdır. Tarixi romanın kökləri əslində tarixi hadisələrə söykənməlidir. 1920-ci illərdən sonra kommunist rejiminin hakimiyyəti altında qalan ölkələrdə, xüsusilə Azərbaycanda tarixi roman sovet dövrünün siyasi bir məhsulu kimi ortaya çıxmışdır. Sonrakı dövrdə isə tarixi romanlar tamamilə ideoloji xarakterli yazılmışdır. Səbəbi isə sovet dövrünün hakim idelogiyasına qarşı çıxan əsərlərdir. 1930-cu illərdə Məmməd Səid Ordubadi ilə Əzizə Cəfərzadənin əsərləri Azərbaycan ədəbiyyatında tarixi roman janrının ən gözəl nümunələrindəndir. 70-ci illərin sonu, 80-ci illərin əvvəllərində Azərbaycan ədəbiyyatında tarixi roman janrı özünün inkişafının yeni mərhələsinə qədəm qoyur. Əvvəlki illərdən fərqli olaraq bu dövrdə yazılan tarixi romanlarda Azərbaycan xalqının dövlətçilik uğrunda apardığı mübarizələrə daha çox diqqət yetirilir.

Azərbaycan ədəbiyyatında görkəmli dövlət xadimi, qüdrətli şair Şah İsmayıl Xətaidən bəhs edən üç yazıçının tarixi romanı tədqiqata cəlb edilmişdir. Bunlar Əzizə Cəfərzadənin “Bakı – 1501”, Əlisa Nicatın “Qızılbaşlar”, Fərman Kərimzadənin “Xudafərin körpüsü” və “Çaldıran döyüşü” romanlarıdır.

Şah İsmayıla həsr olunan bu romanları bir-birinə bağlayan və fərqləndirən cəhətlər vardır. Şübhəsiz ki, bu əsərlərdə, ilk növbədə, Azərbaycan dövlətçiliyi, parçalanmış torpaqların birləşdirilməsi əsas yer tutur, Azərbaycan xalqının dövlətçilik uğrunda apardığı mübarizələrə daha çox diqqət yetirilir. Həmçinin bu romanlarda müəlliflər Xətainin ictimai-siyasi fəaliyyəti ilə yanaşı, şair təbiətli kamil insanın intəhasız mənəvi dərinliyini işıqlandırmağa müvəffəq olmuşlar. Xətai şəxsiyyətindəki ikiləşmə, ziddiyyət hər üç romanda diqqət çəkir, incə şair ruhu ilə hökmdar mövqeyi arasındakı təzad müxtəlif hadisələr kontekstində nəzərə çarpır, amma bütün hallarda tarixi qəhrəmanın təbiətində daim mənəvi kamilliyə can atmaq meyli duyulur. Müxtəlif hadisələrin təsiriylə mürəkkəbləşən bu meyli roman müəllifləri yüksək sənətkarlıqla izləyir və insanın sonsuz inkişaf imkanına inamını tarixi hadisələr fonunda əks etdirirlər.

Məlumdur ki, Şah İsmayıl Xətai tarixdə sahib olduğu önəmli mövqedən dolayı Azərbaycan tarixində olduğu qədər Türkiyə tarixi üçün də önəmli şəxsiyyətdir. Bu səbəbdən Şah İsmayıl Xətai bir qəhrəman obraz olaraq türk tarixi romanlarında da əks olunmuşdur. Reha Çamuroğlunun "İsmail" (2001), İskender Palanın "Şah və Sultan" (2010), Reha Bilgenin "1514. Yavuz Sultan və Şah İsmayıl" (2010) tarixi romanları buna ən yaxşı nümunələr sırasında göstərilə bilər.

İskender Pala "Şah və Sultan" adlı romanında tarixi reallığa öz fantaziyasını da əlavə edərək, romanı Şah İsmayılla Sultan Səlim arasındakı qarşıdurmaya həsr etmişdir.

Reha Çamuroğlunun "İsmail" romanı oxucunu XV əsrə – Şah İsmayılın dünyasına səyahət etdirir. Bu romanda Şah İsmayılın həyatı, mühiti və ictimai-siyasi fəaliyyəti, bir təriqətin böyük dövlətə çevrilməsi prosesi təsvir edilmişdir.

Reha Bilge isə "1514. Yavuz Sultan və Şah İsmayıl" adlı tarixi romanını Çaldıran döyüşünə həsr etmişdir.

Dissertasiyanın mövzusuna əsasən, Azərbaycan və Türkiyə tarixi romanlarında Şah İsmayıl obrazını araşdırarkən aşağıdakı nəticələrə gəldik:

- Azərbaycan ədəbiyyatında tarixi roman janrı böyük inkişaf yolu keçmiş, son onilliklərdə yeni mövzu, problematika və sənətkarlıq məziyyətləri ilə

zənginləşmişdir. Sovet dövründə ədəbiyyatımızda toxunulması yasaq edilən ayrı-ayrı mərhələlərin mühüm, önəmli hadisələri və görkəmli tarixi şəxsiyyətləri müstəqillik illərində diqqət mərkəzinə çəkilmişdir. Bu cəhət tarixi roman haqqında yazılan tədqiqatlarda və monoqrafiyalarda bu və ya digər şəkildə elmi-nəzəri şərhini tapmışdır.

- Şah İsmayıl Xətainin bədii obrazı Əzizə Cəfərzadənin "Bakı-1501", Fərman Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" tarixi romanlarında Azərbaycan Səfəvi dövlətinin banisi, ağıllı və müdrik siyasətçi, yenilməz sərkərdə və qüdrətli, istedadlı şair kimi xarakterizə edilir, hətta "sahibi-zaman", "mürşidi-kamil" (F. Kərimzadə) adlandırılaraq ideal bir hökmdar səviyyəsinə yüksəldilir.

- Azərbaycan tarixi romanlarında Şah İsmayıl hələ uşaqlıqdan ictimai-siyasi mühitdə böyüyən, yaşından çox-çox qabağa gedən, Səfəvi xanədanının tədbirli və müdrik insanlarından ağıllı məsləhətlər alan və siyasi mübarizələr meydanında böyük təcrübə qazanaraq taxt-taca sahib olan hökmdar və qələbədən-qələbəyə gedən böyük bir fateh, sərkərdəlik qabiliyyətinə malik yenilməz bir şəxsiyyət olaraq dəyərləndirilir.

- Şah İsmayıl öz ideyalarını həyata keçirmək naminə Şiəlik təriqətindən siyasi məqsədlərlə yararlanmış, ətrafını genişləndirməyi, tərəfdarlar toplamağı bacarmış və böyük bir dövlətin əsasını qoymağa nail olmuşdur. Şiəlik, Qızılbaşlıq ideologiyası Səfəvilər dövlətinin qurulmasında, Şah İsmayılın şəxsiyyətinin formalaşmasında böyük rol oynamışdır. Qızılbaşlıq ideologiyasına nəzər saldıqda keçmişə hörmət və dəyər, birlik, bağlılıq, güc simvollarının bir araya gəldiyini görürük. Məhz bunun nəticəsidir ki, bu ideologiyanın çətiri altında birləşənlər özlərini xarici qüvvələrin basqı, işğal və təhlükələrindən qoruya bilmiş və dövlət quruculuğuna öz töhfələrini vermişlər. Əlisa Nicatın tədqiqata cəlb etdiyimiz "Qızılbaşlar" romanında bu məsələlər geniş şəkildə əksini tapmışdır. Buna görə də bu tarixi roman təkcə Şah İsmayıl obrazının özünəməxsus cəhətlərinin açılması baxımından deyil, eyni zamanda Qızılbaşlıq ideologiyasını əsl mahiyyətini anlamaq üçün də qiymətli əsərdir.

- Bu romanlardan çıxış edərək Şah İsmayıl hərəkatının, onun hərbi-siyasi fəaliyyətinin, ümumən, Səfəvi dövlətinin hərb işinin Azərbaycanın hərb tarixinin

formalaşmasında müstəsna əhəmiyyətə və hansı yerə malik olmasını dəyərləndirmək mümkündür.

- Şah İsmayıl Xətai Azərbaycan tarixində həm də Azərbaycan dilini dövlət dili səviyyəsinə yüksəldən, onun saflığını, təmizliyini qoruyan, eyni zamanda bu dili siyasət, diplomatiya dilinə çevirən, milli dəyərlərə yüksək önəm verən təəssübkeş bir hökmdar və Azərbaycan şifahi xalq ədəbiyyatına mənən bağlı olan, onun zəngin folklorundan qaynaqlanan bayatı şəkilli, heca vəznli şeirlərin inkişafında xidmətləri olan istedadlı bir şair kimi təsvir edilir.

- Türkiyə romançılarından fərqli olaraq, Azərbaycan yazıçıları Şah İsmayılın Azərbaycan dilinin inkişafına təminat yaratmasını və istifadə səviyyəsini genişləndirməsini Səfəvi dövlətinin mənşəyinin İranla deyil, məhz Azərbaycanla bağlı olması faktının müəyyənləşdirilməsində başlıca amillərdən biri kimi səciyyələndirmişlər.

- Romanların hər birində müəlliflər Xətainin ictimai-siyasi fəaliyyəti ilə yanaşı, şair təbiətini, kamil insani keyfiyyətlərini, intəhasız mənəvi dərinliyini işıqlandırmağa müvəffəq olmuşlar. Bəzən hökmdar Xətai ilə şair Xətai şəxsiyyətindəki ikiləşmə və ziddiyyətlər də diqqət çəkir, incə şair ruhu ilə hökmdar mövqeyi arasındakı təzad müxtəlif hadisələr kontekstində nəzərə çarpır, amma bütün hallarda tarixi qəhrəmanın təbiətində mövcud situasiyada yollar aramaq və daim mənəvi kamilliyə can atmaq meyli güclüdür.

- Əzizə Cəfərzadənin “Bakı-1501” romanında Şah İsmayılın xarakteri dörd cəhətdən səciyyələndirilir: sərkərdə, padşah, şeyx və şair. Yazıçı diqqətini onların üzərində cəmləşdirir, əsərinin qayəsini həmin surətləri mərkəzə çəkməklə, onların ömür yollarını, talelərini izləməklə oxucuya çatdırır. Romanda aparıcı qəhrəman kimi Şah İsmayıl önə çəkilir, ideya başlıca olaraq onun simasında əyaniləşir. Lakin qalan üç surət də əsərin fikri məzmununun əsas daşıyıcısı kimi mənalandırılır, daha doğrusu, müəllifin mürəkkəb, ziddiyyətli xarakter kimi canlandırmağa çalışdığı Şah İsmayılın timsalında ümumiləşən, rəmzləşən mətləb-niyyət həmin surətlərin həyat həqiqətləri, düşüncələri, aqibətləri ilə gah sınağa çəkilir, gah da yeni bir vurğu ilə tamamlanır, qüvvətləndirilir.

- "Bakı-1501" romanının epiloqunda Şah İsmayılın adından yazılmış hissəyə diqqət edərkən İsmayılın öz səhvlərini etiraf edən, Sultan Səlimə olan məğlubiyyətini qəbul etməyən və adına, şöhrətinə ləkə salan bir uğursuzluq adlandıran obraz kimi görürük. Əsərdə İsmayılın ətrafında olan əyanlara və onun qərarlarını dəyişdirməyə çalışan şəxslərin fikirlərinə qulaq asaraq özünü ittiham etdiyi və yanlışlıqlara yol verərək Sultan Səlimə məğlub olduğu məqamları etiraf etməsi səhnələrinin verilməsi hökmdarın obrazının hərtərəfli çanlandırıldığını göstərən məqmlar kimi təbii görünür. İsmayılın yanlışılığa yol verdiyini, bəzən doğru olmayan məsləhətlərə qulaq asaraq məğlub duruma düşməsini müəllif təəssüflə oxucularına təqdim edir. Başqa sözlə, romanda İsmayıl ona verilən məsləhətləri yanlış dəyərləndirdiyi üçün məğlub olmuş bir xarakter olaraq gölərimiz qarşısında çanlanır.

- Fərman Kərimzadə böyük ideallar uğrunda mübarizə aparan, Səfəvi Azərbaycan dövlətinin qurulması yolunda böyük mücadilələrdən keçən, ağıllı və müdrik siyasəti ilə hakimiyyətin uzunömürlülüyünün təminatçısına çevrilən insanların tarixi rolunu real gerçəkliklər fonunda təqdim etməklə şəxsiyyət və zaman problemini vəhdətdə verməyə nail olur. Yazıçı əsərdə Şah İsmayıl Xətaini yetişdirən mühit və onun əsas aparıcı simaları haqqında dolğun məlumatlar verir. Uzun Həsən, Sara Xatun, Şeyx Heydər, Aləmşahbəyim, Sultan Yaqub kimi tarixi şəxsiyyətlərin bu sferadakı yerini çox dəqiq müəyyənləşdirir, onların xarakterini, ictimai-siyasi fəaliyyətini, dövrə və zamana münasibətini tarixi həqiqətlə bədii həqiqətin üzvi vəhdətində təqdim edir.

- Azərbaycan tarixi romanlarında Şah İsmayıla hakimiyyəti qoruyub saxlamaq üçün bəzən ziddiyyətli, bəzən kəskin qərarlar verən hökmdar kimi müəyyən mənada haqq qazandırmaq meyli müşahidə olunsa da, Reha Çamuroğlunun "İsmail" (2001), İskender Palanın "Şah ve Sultan" (2010), Reha Bilgenin "1514. Yavuz Sultan ve Şah İsmayıl" (2010) tarixi romanlarında bu münasibəti görmək mümkün deyil. Çünki hər üç türk yazıçısı Şah İsmayıl obrazını taxt-taca sahib olmaq üçün eyni məzhəbdən olan din qardaşları arasında süni olaraq Sünni - Şiə sindromundan yararlanan, ayrı-seçkilik salaraq nifaq yaradan bir obraz kimi səciyyələndirmişlər.

- Reha Çamuroğlunun, İskender Palanın və Reha Bilgenin tarixi romanlarında Şah İsmayıl Çaldıran döyüşünün səbəbkarı kimi təqdim edilir və mənfi xarakterli hökmdar şəklində təsvir olunur. Türkiyəli yazarlar onun fərdi cizgilərini yaradarkən mənfi və müsbət keyfiyyətlərinin canlandırılmasında obyektivliyi qorumağa çalışsalar da, Sultan Səlimə haqq qazandırılan məqamların mövcudluğu diqqəti cəlb edir.

- Araşdırmalardan belə bir qənaətə gəlmək mümkündür ki, əslində Çaldıran müharibəsinin səbəbkarı türk yazıçılarının göstərdiyi kimi Şah İsmayıl Xətai deyil. Dünyanın mühüm ticarət yollarının üzərində yerləşən iki böyük türk dövlətinin – Azərbaycan Səfəvilər və Osmanlı imperiyasının mövcudluğunu qəbul edə bilməyən Avropa hökmdarları və siyasi gücləri bu imperiyalar arasında nifaq toxumu səpməklə onları müharibəyə sövq etmiş və öz məkrli planlarını həyata keçirmişlər. Nəticədə qardaş qırğınına səbəb olan Osmanlı-Səfəvi müharibələri hər iki dövlətin ictimai-iqtisadi, siyasi, ədəbi-mədəni qüdrətinin zəifləməsi ilə nəticələnmişdi.

- İsgəndər Palanın bəhrələndiyi nəzəri məlumatlarda, tarixi mənbələrdə, o cümlədən Avropa dövlətlərində, Şərq aləmində, Türkiyə tarixində belə bir fikir formalaşmışdır ki, Səfəvi hökmdarları İrana məxsus dövlətin başçıları olub, yəni Səfəvi Azərbaycan deyil, İran dövlətidir. Bu yanlış fikir ədəbiyyatda da özünə yer tapmış və tarixi romanlara sirayət edərək ədəbiyyatşünaslıqda, ədəbi düşüncədə çaşbaşlıq yaratmışdır.

- Türkiyə yazıçılarının bu nəticəyə gəlməsinin əsas səbəbi o zaman qurulan Səfəvi dövlətinin çox hissəsinin, eyni zamanda bu dövlətin paytaxtlarının İran məmləkətində, onun ərazilərində yerləşməsi olmuşdur. Təəssüf ki, bu yanlış tendensiya çağdaş dövrə qədər davam etməkdədir. Məhz bu qeyri-obyektiv münasibətin nəticəsində bir çox tarixçilər, alimlər, yazıçılar Şah İsmayıl və digər Səfəvi hökmdarlarını Azərbaycana deyil, İrana məxsus dövlət başçıları, hökmdarlar kimi təqdim edirlər. İsgəndər Pala da onlardan biridir.

- Fərman Kərimzadə, Əzizə Cəfərzadə və Əlisa Nicatın əsərlərində tarixi fakt və reallıqlar daha çoxdur və məhz bu cəhətlər türk romançıları Reha Çamuroğlunun İsgəndər Palanın və Reha Bilgenin əsərlərində də müşahidə olunur. Bu baxımdan

faktoloji materiallardan, arxiv sənədlərindən istifadə həm Azərbaycan, həm də Türkiyə yazıçılarının oxşar xüsusiyyətləri, ortaq dəyərləri kimi qiymətləndirilə bilər.

- Fərman Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü" dilogiyasında Şah İsmayılın uşaqlıq və yeniyetməlik dövrü, hakimiyyət uğrunda mübarizələri real və inandırıcı lövhələrlə canlandırılmışdır. Hər iki romanda Şah İsmayılın xarakteri hərtərəfli işıqlandırılmış, böyük əqidə və məslək sahibi olması, dövlətçilik uğrunda mübarizəsi xronoloji ardıcıllıqla və yüksək sənətkarlıqla əks etdirilmişdir.

Araşdırmalar belə bir qənaətə gəlməyə əsas verir ki, Çaldıran döyüşü Qərb ölkələrinin qələbəsindən başqa bir şey deyildi. Babalarımızın keçmişdə yol verdiyi bu yanlışlığı təkrarlamamaq ən gözəl diplomatik addım olmalıdır. Buna görə də nəinki siyasətdə, eyni zamanda ədəbi yaradıcılıqda da Şah İsmayıl və Sultan Səlim arasında seçim qarşısında qalmaq və qərəzli fikirlərə yer vermək böyük bir səhv olardı. Odur ki, tariximizi pisi və yaxşısı ilə qəbul edib keçmişdəki səhvləri təkrarlamamaq üçün diqqətli olmalıyıq.

Ümumiyyətlə, Türkiyə tarixi romanlarında əsasən mənfi obraz kimi xarakterizə edilən Şah İsmayıl Xətai Azərbaycan tarixi romanlarında müsbət obraz kimi səciyyələndirilərək, Səfəvi Azərbaycan dövlətinin yaradıcısı, böyük dövlət xadimi, yenilməz sərkərdə, Azərbaycan varlığını, onun dilini, ədəbiyyatını, mədəniyyətini yüksək müstəviyə qaldıran və xalqımızın yaddaşında tarixləşən böyük bir şəxsiyyət kimi yaşamaqdadır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Abbasova, C. Zamanla üz-üzə // – Bakı: Elm, Filologiya araşdırmaları, – 2002. XIV kitab, – s. 186-187.
2. Axundlu, Y. Azərbaycan Tarixi Romanı: Mərhələlər, Problemlər (1930-2000) / Y. Axundlu. – Bakı: Adiloğlu, – 2005. – 550 s.
3. Axundlu, Y. Tarixi Roman və Müasirlik / Y.Axundlu. – Bakı: Azərbaycan SSR EA Mətbəəsi, – 1975. – 40 s.
4. Axundlu, Y. Tarix və roman (məqalələr toplusu) / Y.Axundlu. – Bakı: Yazıçı, – 1988. – 192 s.
5. Axundlu, Y. Tarixi Roman yeni mərhələdə (1980-1990) / Y.Axundlu. – Bakı: Maarif, – 1998. – 176 s.
6. Axundov, Y. Azərbaycan sovet tarixi romanı. – Bakı: Yazıçı, – 1979.
7. Azərbaycan ədəbiyyatı tarixi. III cild, – Bakı: Elm, – c.3. – 2020, – 1090 s.
8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əsərlərin dövlət varidatı elan edilməsi Qaydaları"nın və "Əsərləri dövlət varidatı elan edilən müəlliflərin və dövlət varidatı elan edilən filmlərin Siyahısı"nın təsdiq edilməsi haqqında qərarı // 7 may 2019. – Bakı: Azərbaycan Respublikası Nazirlər Kabineti, – 2019.
9. Azərbaycan Sovet Ensiklopediyası. III cild. – Bakı: – c.3. – 1979. – 600 s.
10. Azərbaycan tarixi. – Bakı: Azərnəşr, – 1994, – 687 s.
11. Babayeva, G. "Fərman Kərimzadənin yaradıcılıq yolu" / G.Babayeva. –Bakı: – 2004, – 144 s.
12. Bakıxanov, A. Gülüstani-İrəm / A.Bakıxanov, tərc., M.Əskərli. – Bakı: Minarə, – 2000. – 94 s.
13. Balabəyli, T. Şah İsmayıl Xətaiyə yeni baxış aranı qatdı: [Elektron resurs] / – 21 iyul 2013. URL: https://virtualaz.org/reyler/4843.
14. Bayramlı, C. Azərbaycan hökmdarları: Səfəvilər / C. Bayramlı, V. Zifəroğlu. – Bakı: "Oğuz" Müstəqil Araşdırmalar Qrupu, – 2015, – 120 s.

15. Belyayev, Y.A. Müsəlman təriqətləri / Y.A.Belyayev. – Bakı: Azərbaycan Ensiklopediyasının Baş Redaksiyası, – 1991. – 104 s.
16. Salamoğlu, T. 80-ci illər Azərbaycan romanı: janr təkamülü (monoqrafiya). Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri / T.Salamoğlu. – Bakı: Səda, – 2012. – 480 s.
17. Cəfərzadə, Ə. Bakı-1501 / Ə.Cəfərzadə. – Bakı: Yazıçı, – 1981. – 262 s.
18. Cəfərzadə, Ə. Eşq sultanı / Ə.Cəfərzadə. – Bakı: Şirvannəşr, – 2005. – 204 s.
19. Elaydi, Ə. S. Müstəqillik dövrü Azərbaycan romanı / Ə.Elaydi. – Bakı. – 2017.
20. Elçin. Sosrealizm bizə nə verdi? // Elçin. – Bakı: Mütərcim, – 2010, – 76 s.
21. Əfəndiyev, O. Azərbaycan Səfəvilər Dövləti / O.Əfəndiyev. – Bakı: Şərq-Qərb, – 2007. – 407 s.
22. Əhmədov, B. XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələləri və problemləri // B. Əhmədov. – Bakı: Elm və təhsil, – 2015, –554 s.
23. Əlişanoğlu, T. XX əsr Azərbaycan nəsrinin poetikası // T. Əlişanoğlu. – Bakı: Elm, – 2006. – 312 s.
24. Əliyeva, A. Əzizə Cəfərzadənin bədii yaradıcılığı / A.Əliyeva. – 2005. – 132 s.
25. Əliyeva, İ. El anası – Əzizə Cəfərzadə / İ.Əliyeva. – Bakı: Elm. – 2001. – 64 s.
26. Əliyeva, S. "İ.Pala yaradıcılığında Azərbaycan" (İsmayıl Şıxlı yaradıcılığına həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzusunda beynəlxalq konfrans// – Bakı: – 2019, – s. 201-204.
27. Əliyeva, S. "İ.Pala yaradıcılığında Şah İsmayıl Xətai obrazı" (AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Şərq araşdırmaları. – Bakı: – 2019, №1, – s.120-123.
28. Ənvəroğlu (Qasımov), H. Azərbaycan romanının inkişaf problemləri //H. Ənvəroğlu. – Bakı: Nurlan, – 2008, – 336 s.
29. Həbib əs-Siyər, – c. 4, 500. (s.499)
30. Həbibbəyli, İ. Ədəbi şəxsiyyət və zaman / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2017, –1068 s.
31. Həsən bəy Rumlu. Əhsən ət-Təvarix / H. bəy Rumlu, fars dilindən tərc. və şərh, O.Əfəndiyev, N.Musalı. – Kastamonu: Uzanlar, – 2017. – 661 s.

32. Hüseynbəyli, E. On üçüncü həvari və ya 141-ci Don Juan: roman-ekskurs / E.Hüseynbəyli. – Bakı: Adiloğlu, – 2007. – 376 s.
33. Hüseynov, A. Nəsr (82-ci ilin ədəbi icmalı) // Ədəbi proses-81-82. – Bakı: Elm, – 1987, – s. 217
34. Hüseynov, A. Nəsrimiz və Keçmişimiz // – Bakı: Tənqid və Ədəbiyyatşünaslıq jurnalı, – 1982. №10.
35. Hüseynov, İ. Məhşər / İ.Hüseynov. – Bakı: Gənclik, – 1982. – 293 s.
36. Xəlilov, Q. Azərbaycan romanının inkişaf tarixindən / Q.Xəlilov. – Bakı: Elm, – 1973
37. İbrahimov, S. İsna Əşəri (12 imamilik) / S. İbrahimov. – Bakı: – 2007. – 128 s.
38. İsmayılov, M. Sənin ulu baban / M.İsmayılov. – Bakı: Azərnəşr, – 1989. – 301 s.
39. Kazımov, Q. Sənət düşüncələri / Q.Kazımov. – Bakı: Azərbaycan Dövlət Kitab Palatası, – 1997. – 576 s.
40. Kərimzadə, F. Bizim sorğu // “Azərbaycan”, – 1982, №3, – s.155.
41. Kərimzadə, F. Çaldıran döyüşü / F.Kərimzadə. – Bakı: Yazıçı, – 1987. – 300 s.
42. Kərimzadə, F. Xudafərin körpüsü / F.Kərimzadə. – Bakı: Yazıçı, – 1982. – 382 s.
43. Kərimzadə, F. Qarlı aşırım / F.Kərimzadə. – Bakı: Gənclik, – 1971. – 225 s.
44. Qasımov, H. İsmayıl Şıxlı yaradıcılığının milli-mənəvi qaynaqları // Xalq qəzeti. – 2009, 5 aprel. – s. 7.
45. Qasımov, H. Müasir Azərbaycan romanı: janrın poetikası və tipologiyası / H.Qasımov, elmi redaktor: A.H.Hacıyev. – Bakı: ADPU, – 1994. – 148s.
46. Quliyev, V. Nəsrimiz və tariximiz // Azərbaycan, – 1984. № 4, – s. 164-175 s.
47. Meydan, Y. Azerbaycan Tarihi romanlarından Azize Caferzadenin “Bakı-1501” romanında Şah İsmail karakteri // - Turan Strateji Araşdırmalar Merkezi, -2021. №49, – s.30-38.
48. Meydan, Y. Azərbaycan tarixi romanlarında Şah İsmayıl obrazı // – Bakı: Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, – 2017. – c.XXIX. – s.99-103.

49. Meydan, Y. Əzizə Cəfərzadənin “Bakı-1501” romanında Şah İsmayıl obrazı // “Türk dillərininvə ədəbiyyatının tədqiqi və tədrisinin aktual problemləri” beynəlxalq elmi konfransı // –Sumqayıt: – 2021, – s.396-398.

50. Meydan, Y. Feridun Fazıl Tülbentçinin “Şah İsmail” əsərində Şah İsmayıl obrazının təhlili // Bakı: Filologiya məsələləri jurnalı, – 2021. №4, – s.274-282.

51. Meydan, Y. Fərman Kərimzadənin “Xudafərin körpüsü” və “Çaldıran döyüşü” romanlarında Şah İsmayıl xarakteri // – Bakı: Kitabşünaslıq və redaktor sənəti, – 2021, №1, – s. 5-11.

52. Meydan, Y. Tarixi Roman Anlayışı // “Azərbaycan Respublikasında kitabxana-informasiya fəaliyyətinin inkişaf meyilləri” adlı Respublika Elmi Konfransı, Bakı: –2021, – s.120-122

53. Meydan, Y. Türk tarih romanlarında Şah İsmail xarakteri // – Ankara: Kültür Evreni dergisi, – 2021. №42, – s. 90-105.

54. Meydan, Y. Türk tarih romanlarında Şah İsmail karakteri: İskender Pala // – Antalya: II. Uluslararası Yörük yaşamı, kültürü ve türk sanatları sempozyumu, – 2019. – s.390-396.

55. Meydan, Y. Türk tarih romanlarında Şah İsmayıl karakteri // – Eskişehir: Motif uluslararası genç halkbilimciler ve türk dünyası kongresi bildiri tam metinleri kitabı, – 2019. – s.876-886.

56. Meydan, Y. Türk tarixi romanlarında Şah İsmayıl obrazı // Bakı: Filologiya və sənətşünaslıq jurnalı, – 2020. №2, –s.192-197.

57. Meydan, Y. Türkiyə tarixi romanlarından Reha Çamuroğlunun “İsmail” romanında Şah İsmayıl xarakteri // – Bakı: Filologiya və sənətşünaslıq jurnalı, – 2021. №1, – s.146-153.

58. Məhərrəmova, C. Xətai haqqında roman / C.Məhərrəmova // Azərbaycan müəllimi. – 1982. – 16 iyun. – Kb. res.: Ə.Cəfərzadə. Bakı – 1501. – Bakı: Yazıçı, – 1981.
59. Məmmədov, C. Biz Müsəlmanıq?: [Elektron resurs]. URL: https://m.facebook.com/nt/screen/?params=%7B"note_id"%3A667486917238626%7D&path=%2Fnotes%2Fnote%2F&_rdr.
60. Mustafayeva, N. Fərman Kərimzadənin "Xudafərin Körpüsü" əsərində Şah İsmayıl Xətai obrazının bədii əksi // Şah İsmayıl Xətainin qılıncı və qələmi mövzusunda respublika elmi konfransı, – Bakı, – 2017, 23 Noyabr. – 99-101 s.
61. Müasirlik və tarixilik: [son dövr tarixi nəsrimiz haqqında] / Əzizə Cəfərzadə // Ədəbiyyat və incəsənət. – 1983. – 16 dekabr. – s.6.
62. Mürşüdova, R. Tarixi romanlarda Şah İsmayıl Xətai obrazı şair və sənətin görkəmli hamisi kimi // Şah İsmayıl Xətainin qılıncı və qələmi mövzusunda respublika elmi konfransı, – Bakı, – 2017, 23 Noyabr, – 105-107 s.
63. Nağıyev, S. Qızılbaşlıq haqqında / S.Nağıyev. – Bakı: "Əbilov, Zeynalov Nəşriyyatı", – 1997. – 32 s.
64. Nəbiyev, B. Roman və müasir qəhrəman / B.Nəbiyev. – Bakı: Yazıçı, – 1987, – 195 s.
65. Nəsr: problemlər, mülahizələr ("Dəyirmi stol" ətrafında söhbət) // "Azərbaycan" jurnalı, – 1985, №8, – s. 182.
66. Nicat, Ə. Qızılbaşlar / Ə.Nicat. – Bakı: Adiloğlu, – 2013. – 255 s.
67. Paşayeva, N. İnsan bədii tədqiq obyekti kimi / N.Paşayeva. – Bakı: "XXI" - Yeni. Nəşrlər Evi, – 2003. – 256 s.
68. Pişvayi, M. İmamların siması tarix guşələrində / M.Pişvayi, tərc., R.İgidov. – Tbilisi: – 2012. – 174 s.
69. Rəhimli, G. Səfəviyyə Sufi- Dərviş hərəkatı və Qızılbaş ideologiyası: [Elektron resurs]. URL: https://www.academia.edu/32931218/Gunel_RƏHIMLI_BDU.
70. Rəhimli, G. Şah İsmayıl Xətainin dünyagörüşündə təsəvvüf və şiəliyin vəhdəti // – Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2020. № 3, – s. 123-129.

71. Rəsulov, Ə. “Qalibi olmayan müharibə: Çaldıran savaşı” // 525-ci qəzet. – 15 iyun 2012-ci il, – s.15-28.
72. Rəşid, N. Düşüncələr: https://nazimrashid.wordpress.com/
73. Rəşidqızı, Ə. Tarixi şəxsiyyət I Şah İsmayıl Xətai: Ya bir yol seç, ya bir yol tap, ya da yoldan çəkil! // Ədalət. – 2010, 8 iyun. – s. 5.
74. Salamoğlu, T. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Monoqrafiya və ədəbi tənqidi məqalələr / T.Salamoğlu. – Bakı: “E. L.” NPŞ MMC, III nəşr. – 2012. – 480 s.
75. Süleymanov, M. Şah İsmayıl Səfəvi / M. Süleymanov. – Bakı: Elm və Təhsil, – 2018. – 824 s.
76. Süleymanov, N. Azərbaycan Səfəvi Dövləti (1501-1736-cı illər) / N.Süleymanov. – Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, – 2018. – 214 s.
77. Şah İsmayıl Xətayi. Əsərləri / Şah İsmayıl Xətayi, tərt. ed., Ə.Səfərli, X.Yusifli. – Bakı: Şərq-Qərb, – 2005. – 384 s.
78. Şərifova, S. Çağdaş Azərbaycan Postmodern Romanı / S.Şərifova. – Bakı: Elm və Təhsil. – 2015. – 104 s.
79. Şıxlı, İ. Ölən dünyam / İ. Şıxlı. – Bakı: Qanun, – 2011. – 208 s.
80. Yazıçı, şəxsiyyət.../–2018, 01 dekabr. URL:http://www.http://goyce.az/news.php?id=416
81. Yusifli, V. Nəsr: konfliktlər, xarakterlər / V.Yusifli. – Bakı: Yazıçı, – 1986, – 166 s.
82. Yusifli, V. Tarixi romançılıqda Yunus Oğuz yolu. URL: http://www.anl.az/down/meqale/525/2017/may/542825.htm.

## Türk dilində

83. Adıgüzel, S. Bakı-1501 Romanının Tarihsel Boyutu Üzerine Bir İnceleme. URL: http://dergisosyalbil.selcuk.edu.tr/susbed/article/view/562/542.
84. Alptekin, M., Alptekin, D. İskender Pala’nın Şah ve Sultan adlı Romanında Halk bilimi Unsurları // Injosos Al-Farabi International Journal On Social

Sciences/ Al-Farabi Uluslararası Sosyal Bilimler Dergisi, – 2017. ISSN - 2564-7946. – 193-224 s.
85. Anadolu'nun Şiileşmesini önleyen zafer: Çaldıran: [Elektron resurs]. URL: https://www.gzt.com/derin-tarih/anadolunun-siilesmesini-onleyen-zafer-caldiran-3595430.
86. Argunşah, H. Türk Edebiyatında Tarihî Roman / Marmara Universiteti Sosial Elmlər İnstitutu, Yayınlanmamış Doktorluq Dissertasiyası / – İstanbul, – 1990. – 432 s.
87. Aytaç, G. Çağdaş Türk Romanları Üzerine İncelemeler / G.Aytaç. – Ankara: Gündoğan, – 1990. – 480 s.
88. Bilge, R. 1514 Yavuz Selim ve Şah İsmayıl / R. Bilge. – İstanbul: Giza Yayınevi, – 2011. – 437 s.
89. Bilgen, A. Ada-i Şirazi ve Selim-Namesi / A.Bilgen. Türk Tarih Kurumu Yayınları; 1. Baskı. – 2007. – 448 s.
90. Bozkuş, M. İskender Pala'nın Romanlarında gerçek ve kurmaca ilişkisi / M.Bozkuş. – Aydın: – 2013. – 20 s.
91. Brockelman C. İslam milletleri ve devletleri tarihi / C.Brockelman, tərc., N.Çağatay. – Ankara, – 1964. – 296 s.
92. Cavanşir, B., Necef, E. Şah İsmail Hatai Külliyatı / B.Cavanşir, E.Necef. – İstanbul: Kaktüs Yayınları. – 2006. –728 s.
93. Çamuroğlu, R. İsmail / R. Çamuroğlu. – İstanbul: Everest Yayıncılık. – 1999. – 349 s.
94. Çelik, Y. Tarih ve Tarihî Roman Arasındaki İlişki Tarihî Romanda Kişiler. Bilig 22 (Yaz 2002): 49-68.
95. Dural, B. Edebiyatımızın Üvey Evladı: Tarihi Roman / B.Dural. – İstanbul: Bizim Gergef Yayınları, – 1991. – 75 s.
96. Eagleton, T. Marksizm ve Edebiyat Eleştirisi (Çeviren: Utku Özmakas) / T.Eagleton. İletişim Yayıncılık, – 2012. – 99 s.
97. Enginün, İ. Cumhuriyet Dönemi Türk Edebiyatı / İ.Enginün. – İstanbul: Dergâh Yayınları. – 2002. – 542 s.

98. Ertem, S. Tarihsel Roman. Roman Anlayışı (Haz. Baha Dürder) / E.Ertem. – İstanbul: Remzi Kitabevi, – 1971.
99. Göğebakan, T. Tarihsel Roman Üzerine / T.Göğebakan. – Ankara: Akçağ Yayınları, – 2004. – 208 s.
100. Gülpınarlı, A. Kaygusuz Abdal Hatayi Kul Himmet / A.Gülpınarlı. – İstanbul: Varlık Yayınları, – 1953. – 208 s.
101. Hadidi. Tevarih-i Al-i Osman. (Çev. Necdet Öztürk) / Hadidi. – İstanbul: Marmara Üniversitesi. – 1991. – 486 s.
102. Işıksalan, N. Kemal Tahir'in Tarihî Romanları Üzerine Bir İnceleme / Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü Yayımlanmamış Doktora Tezi / – 1990. – 420 s.
103. Kaptan, M.S. Tarihi Romanlarımız Açısından Türklerin Anadolu'ya Yerleşmesi (1071-1345): / Gazi Üniversitesi Sosyal Bilimler Enstitüsü, Yayımlanmamış Yüksek Lisans Tezi / – Ankara, – 1988. – 460 s.
104. Karaca, İ. Türk Edebiyatında Tarihî Romanlar (Türk Tarihi İle İlgili, 1951- 1960): / İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Yayımlanmamış Doktora Tezi / 3 cilt, – 2004. – 1812 s.
105. Kırılmış, İ.T. Türk Edebiyatında Tarihi Romanlar (Türk Tarihi ile İlgili, 1961-1965). – İstanbul: İstanbul Üniversitesi, Doktora Tezi, – 2007. –1135 s.
106. Lukacs, G. Tarihsel Roman (tərcümə edən: İsmail Doğan) / G.Lukacs. – Ankara: Epos Yayınları, – 2010. – 508 s.
107. Nermin, Ö. Tarihî Romanlar ve 19. Yüzyılda Yazılmış Üç Tarihî Romanın Değerlendirilmesi / Gazi Üniversitesi Sosyal Bilimler Enstitüsü, Yayımlanmamış Yüksek Lisans Tezi / – Ankara, – 1992. – 168 s.
108. Pala, İ. Şah ve Sultan / İ.Pala. – İstanbul: Kapı Yayıncılık, – 2013. – 390 s.
109. Senemoğlu, Y. Haydar Çelebi Ruznamesi / Y.Senemoğlu. – İstanbul: Tercüman 1001 Temel Eser. – 222 s.
110. Sultan Selim I: [Elektron resurs]. URL: https://sultanselim1.weebly.com/350ah-304smail-ile-ilginccedil-diyaloglar305.html.

111. Sümer F. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü / F. Sümer. – Ankara: Türk Tarih Kurumu, – 2021. – 265 s.
112. Sümer, F. Akkoyunlular / F. Sümer. – İstanbul: DİA, c.2, – 1989. – 270-274 s.
113. Şükürov Q. Safevi Devleti'nin kuruluşu ve I. Şah İsmail Devri (907-930/1501-1524) / Q. Şükürov. – İstanbul: – 2006. – 220 s.
114. Timur, T. Osmanlı-Türk Romanında Tarih, Toplum ve Kimlik / T.Timur. – Ankara: İmge Yayınları. – 2002. – 399 s.
115. Topdemir, R. Türk Edebiyatında Tarihi romanlar (Türk Tarihi ile İlgili, 1971- 1980). – İstanbul: İstanbul Universiteti, Doktora Tezi, – 2005, – 765 s.
116. Tural, S.K. Tarihî Roman ve Atsız'ın Tarihî Romanları Üzerine Düşünceler. Zamanın Elinden Tutmak / S.K. Tural. – Ankara: Yüce Erek Yayınevi. – 2006. – s.220-261
117. Uygun, İ. Cumhuriyet Dönemi Tarihi Romanları 1923-1946: "Eski" Kahramanların Yeni Söylemleri / İhsan Doğramacı Bilkent Üniversitesi Ekonomi ve Sosyal Bilimler Enstitüsü Yayımlanmamış Yüksek Lisans Tezi / – Ankara, – 2014. –148 s.
118. Varlık, M.Ç. Çaldıran Savaşı: [Elektron resurs]. URL: https://islamansiklopedisi.org.tr/caldiran-savasi.
119. Yazar, M.B. Genç Romancılarımız ve Eserleri / M.B.Yazar. – İstanbul: Ahmet Sait Basımevi, – 1937. – 664 s.

**Rus dilində**

120. Асадуллаев, С. Заметки о романе. – Б.: Гянджлик, – 1970, 156 с.
121. Злобин, С.П. О моей работе над историческим романом, в сборнике: Советская литература и вопросы мастерства, в. 1, –М., –1957. – s.53
122. Пауткин, А.Н. Советский исторический роман / А.Н.Пауткин. ИАД. «Знание». – 1970. – с.111.

123. Петрушевский, И.П. Ислам в Иране в VII-XV веках / И.П.Петрушевский. – ЛГУ, – 1965. – с. 367.
124. Тримингем, Дж. С. Суфийские ордены в Исламе / Дж.С.Тримингем. –Москва: – 1989. – с. 88.
125. Шарифова, С. Жанровое смешение в романе: коммуникативно-социокогнитивный подход // С.Шарифова. – М.: Независимое литературное агентство Московский парнас, –2011, – 400 с.
126. Эфендиев, О. Образование азербайджанского государства Сефевидов в начале XVI века / О.Эфендиев. – Баку: – 1961. – с. 207.